MÜBARİZ YUSİFOV

LİNQVİSTİK TİPOLOGİYA
(Dillər arası müştərəklik və təfəkkür topologiyası)

(Seçmə fənn üzrə dərslik)

Gəncə Dövlət Universitetinin 12.02.2016-cı il tarixli 5/30 saylı əmri və Filologiya fakültəsi Elmi Şurasının 27 noyabr 2015-ci il tarixli, 03 saylı protokoluna əsasən təsdiq edilmişdir.

«Elm və təhsil»
Bakı – 2017

Redaktor: **Əsgər Quliyev**,
filologiya elmləri namizədi, dosent

Rəyçilər: **Telman Quliyev**,
filologiya elmləri doktoru, professor

İsmayıl Kazımov,
filologiya elmləri doktoru, professor

Mübariz Yusifov. Linqvistik tipologiya (dillər arası müştərəklik və təfəkkür topologiyası). Bakı, «Elm və təshil», 2017, 184 səh.

Dillərin yaranması ilə əlaqədar müxtəlif nəzəriyyələr vardır. Bu nəzəriyyələrin bünövrəsi qədim yunan mütəfəkkiri Platondan başlamış olsa da XIX əsrin əvvəllərində müqayisəli-tarixi metodun meydana gəlməsindən sonra xüsusilə yeni bir istiqamət almışdır. Müqayisəli-tarixi metod üzrə tədqiqatların şəbəkəsi genişləndikcə mütəxəssislər böyük dil ailələrinin mövcudluğunu müəyyən etmişlər. Dil ailələrinə daxil olan regional dillərin tipoloji yaxınlığı tədqiqatçıları "ulu dilin" mövcudluğu fikrinə gətirib çıxarmışdır. Oxuculara təqdim edilən bu əsərdə mövcud nəzəriyyələrə yenidən bir baxış keçirilir və dünya dilləri üçün vahid "ulu dilin" mövcudluğuna şübhə yaradan məsələlər barədə fikirlər irəli sürülür. Nəticə olaraq dillərin yaranması prosesində təfəkkür tipologiyasının aparıcı rolu istisna edilmir. Bu əsərlə bağlı tənqidi fikir və mülahizələrini söyləyəcək oxuculara müəllif əvvəlcədən öz minnətdarlığını bildirir.

ISBN 978-9952-8176-4-5

© «Elm və təshil», 2017

SÖZÖNÜ

Dünya dillərində homogen (müştərək) kök sözlərin mövcudluğu mütəxəssislər arasında heç də gizli, sirli və heyrətləndirici bir hadisə kimi qarşılanmır. Müqayisəli-tarixi dilçiliyin meydana çıxması ilə dillərarası müştərəkliyin səbəblərinin öyrənilməsinə maraq artmağa başlamışdır. Müxtəlifsistemli dillərdə eyniköklü elementlərin mövcudluğu barədə çoxlu sayda tədqiqatlar aparılmış və biri digərini təkzib edən fikir və mülahizələr söylənmiş, bir çox fərziyyələr irəli sürülmüş, subuta yetirilməsi ciddi problemlərlə qarşılaşan nəzəriyyələr yaradılmışdır. Bütün *bu fikir və mülahizələrin*, *fərziyyə və nəzəriyyələrin baş mövzusu dillərin eyni kökdən törəməsini sübut etməkdən ibarət olmuşdur. Elə burada da ilkin səhv addımlar atılmış və söylənilən fikirlərin həqiqətə uyğunluğu öz təsdiqini tapa bilməmişdir.* Çünki nəzərə alınmamalıdır ki, dünyanın ayrı-ayrı nöqtələrində yaşayan insanların dilləri arasındakı müstərək elementlərin varlığı "kök dilin" mövcudluğu üçün aldadıcı təəssüratdır. Yəni bu cür elementlərin varlığı heç də bütün dillərin eyni mənşəyə (ulu dilə) aid olub sonradan parçalanması barədəki fikirləri məntiqi cəhətdən təsdiq etmir. Ancaq mövcud olanı da inkar etmək mümkün deyildir. Məsələ bundadır ki, mütəxəssislər ən əvvəl bu sualın cavabını tapmağa cəhd göstərməlidirlər ki, dil elementlərində, xüsusən, kök morfemlərdə müşahidə olunan müştərəklik nədən yaranmışdır? Bu elementlər niyə mövcuddur? Müştərəkliyin səbəbi nədir? Bu suallara cavabdan sonra hansı nəzəriyyənin və ya fərziyyənin irəli sürülməsinə rəvac vermək olar. Bu suallara cavab tapmaq vacibdir. Vacibdir ona görə ki, müştərəkliyin mövcudluğu ümumbəşəri dil vəhdətini sübut etmək üçün heç

də kifayətləndirici əsas vermir. Çünki dillərdə müşahidə edilən müştərəkliklər heç də hər yerdə, hər məqamda, bütün dillərdə bir-birinin üstünə düşmür. Belə ki, bütün mövqelərin hamısında kök morfemlərin birmənalı paralelliyini iddia etmək mümkün deyildir. Qaldı dillərin formalaşması və qohum dillərin mövcudluğu məsələsinə, bu bir həqiqətdir ki, ayrı-ayrı qrup dillərin tipoloji quruluşunda yaxınlıq olduğu kimi, onların genetik tərkibində də oxşarlıq vardır. Bu onu göstərir ki, müəyyən ərazidə mövcud olmuş dil mühiti zaman-zaman areal genişlənmələrinin baş verməsi səbəbindən yayılma prosesi keçirmiş, tarixin gedişində isə onlar diferensiallaşaraq öz normalarını yaratmışlar. Bununla birlikdə bu dillərdə genetik vəhdət və tipoloji quruluş öz ənənələrini yaşatmaqda davam edir. Məsələn, türk dilləri ailəsi, Hind-Avropa dilləri ailəsi, sami dilləri ailəsi və digər dil ailələri özlərinin daxili quruluşunda genealoji və tipoloji ənənələri varisliklə qoruyub saxlayırlar. Eyni zamanda, demək olmaz ki, bütün dillərin hamısında areal genişlənməsi və yerdəyişmələr tarixi zərurətə çevrilmişdir. Dünya dillərinin içərisində areal genişlənməsi prosesini keçirməyən dillər də vardır. Belə dillərdə ilkin quruluş, demək olar ki, sabit qalır və bu dillər xüsusi bir ailə də yaratmır. Ailə yaratmayan dillər öz ənənələrini öz daxilində mühafizə etməklə yaşadırlar. Ancaq demək olmaz ki, köklərin genetik müştərəkliyi belə dillərdə müşahidə edilmir. İndiyədək aparılan araşdırmalardan məlumdur ki, genetik kök müştərəkliyi genealoji təbiətindən və tipoloji quruluşundan asılı olmayaraq bütün mövcud dillərdə və hətta, indi fəaliyyətdə olmayan ölü dillərin materiallarında da müşahidə edilir. Ancaq kök müştərəkliyinin mövcudluğu həm də belə nəticə çıxarmağa əsas vermir ki, dillərin hamısı bir vaxtda yaranıb və müştərəklik də bundan əmələ gəlmişdir. Dillər arasındakı müştərəkliyin bütün genetik kökləri əhatə edə bilməməsi onu deməyə əsas verir ki, müxtəlif

dillərin formalaşmasında eynizamanlılıq və eynixətlilik mövcud olmamışdır. Ancaq genetik təbiətindən və tipoloji quruluşundan asılı olmayaraq müxtəlif dillərdə oxşar elementlərin mövcudluğu onu göstərir ki, dillərin formalaşmasında insan təfəkküründün ətraf aləmlə əlaqəsi və onun qavranılması prosesində oxşar imitasiyalar istisna olmamışdır. Məhz dünyanın ayrı-ayrı nöqtələrində mövcud olmuş insan qruplarının təbiəti (ətraf aləmi) dərketmə prosesindəki oxşar imitasiyalar oxşar (müştərək) genetik köklərin yaranmasının təməlinə çevrilmişdir. Bu imitasiyalar daim birmənalı və eynizamanlı olmadığı üçün genetik köklərdə də daimi müştərəklik baş verə bilməmişdir. Onu da nəzərə almaq lazımdır ki, insan cəmiyyətləri inkişaf etdikcə, artdıqca, çoxaldıqca, yayıldıqca ilkin elementlərdə dəyişmə, fərqlənmə, müxtəlifləşmə də artmaqda davam etmişdir. Həm də fərqlənmə təkcə strukturda yox, eyni zamanda sözün məna tutumunda da baş vermişdir. Burada məcazlaşmanın, köhnəlmənin, genişlənmə və daralmanın da mühüm təsiri olmuşdur. Bu da dillərarası müştərəkliyin aydınlaşdırılmasında çətinliklərin baş verməsinə səbəb olmuşdur.

Dillərin quruluşundakı dəyişmələrin baş verməsində nitq prosesi aparıcı rol oynadığından areal genişlənmələrində fərqlər daha da artmağa başlamışdır. Bu isə dillərdə həm də tipoloji quruluş dəyişmələrinin baş verməsinə səbəb olmuşdur. Ancaq dillər arasında tipoloji quruluş fərqlərinin çoxalmasına baxmayaraq genetik köklərdəki müştərəklik öz izlərini qoruya-qoruya indiyə kimi gətirib çıxarmışdır. Nəzərə almaq lazımdır ki, dil öz ənənələrini varisliklə ötürə-ötürə həm də onların izlərini yaşadır. Bu izləri tutub həqiqət arxasınca getmək isə ciddi səy və yorulmaz əmək tələb edir. Dillərin genetik mühitində köksözlülük ilkin əlamət olduğu üçün sonradan onların tipoloji cəhətdən necə dəyişməsindən asılıl olmayaraq izləri tutub həqiqətləri bərpa

etmək çox da çətinlik yaratmır. Çətinlik odur ki, bu faktları axtarmaq üçün dünyanın bütün dillərinə baş vurmaq praktik cəhətdən imkan xaricindədir. Ona görə də ayrı-ayrı dillərin materiallarından istifadə etməklə oxşar genetik köklər barədə mülahizə yürütmək olar. Ancaq bu istiqamətdə görülən işlərin şəbəkəsini genişləndirməklə köklərin genetik müştərəkliyi barədəki fikir və mülahizələrə daha artıq medyan yaratmaq mümkündür.

Müxtəlifsistemli dillərdə kök müştərəkliyi barədəki fərziyyə və nəzəriyyələrdə həm ağlabatan və həm də özünü doğrultmayan fikirlər vardır. Oxuculara təqdim olunan bu əsərdə həmin fikirlərdəki düzgün hesab edilən və nöqsanlı cəhətlərin təhlilinə xüsusi diqqət yetirilir. Çünki həqiqəti ortaya çıxarmaq üçün ziddiyyətlərin özünün də əhəmiyyəti böyükdür.

Daha sonra köklərin müqayisəsinin anlaşılmasında çətinlik baş verməsinin aradan qaldırılması məqsədi ilə burada Azərbaycan dilinin özünün genetik köklərinin quruluşu və formalaşması barədə məlumat vermək məqsədəuyğun hesab edilmişdir. Bu əsərdə həmçinin birhecalı köklərin və kök-şəkilçi tərkibli sözlərin müştərəkliyi, eyni zamanda paralelliklər və motivasiya oxşarlıqları barədə təhlillər aparılır.

Söz yox ki, dillərin genetik və tipoloji təbiəti barədə bir əsərdə tam və bitkin anlayışlar vermək imkan xaricindədir. Bu sahədə aparılan tədqiqatlarda isə nöqsan və çatışmazlıqların olması istisna deyildir. Ona görə də hörmətli oxucuların bu əsər barədəki rəylərini, təkliflərini və qeydlərini müəllif özü üçün qiymətli bir tövsiyə kimi qəbul edəcəkdir.

BİRİNCİ BÖLMƏ
Dünya dillərinin yaranmasına, quruluşuna və tədqiqinə dair xülasələr

Dünya dillərinin yaranması barədəki fikirlərin xülasəsi

Dillərin yaranması məsələsi ta qədim zamanlardan müdrik insanları düşündürmüşdür. İnsanların dünya haqqında, ətraf aləm haqqında, cəmiyyət həyatının mürəkkəb məsələləri barədəki təsəvvürləri genişləndikcə informasiya mübadiləsində aparıcı bir vasitə olan dil və onun yaranması ilə bağlı məsələlərin aydınlaşdırılması da daim alimlərin, filosofların və mütəxəssislərin diqqətini cəlb etməyə başlamışdır. Ancaq dil elə bir mürəkkəb fonemendir ki, insan zəkası kosmosu yarıb keçərək bir çox gizli sirləri açmağa qadir olsa da dil və onun yaranması, mənşəyi, müxtəlif dillərin mövcudluğu, dil qohumluqları, qohum olmayan dillərin arasındakı genetik əlaqələr məsələsi hələ də öyrənilməmiş qalmaqdadır. Bu məsələlər barəsində qədim dünya filosoflarından tutmuş müasir dövrə kimi çox-çox məşhur insanlar baş sındırmışlar. Ancaq "dilin sirrini" açmaq hələ ki, heç bir filosofa, heç bir psixoloqa və heç bir mütəxəssisə müyəssər olmamışdır. Ancaq dil var, mövcuddur və öz qədim ənənələrini yaşada – yaşada, ilkin izlərini qoruya-qoruya həm də daxili izlərini gizli-gizli saxlamaqdadır. Bu gizli sirlərin açılmasına yönələn cəhdlərin bəziləri öz həllini tapa bilsə də bir çoxu sirli

qapı arxasında qalmaqda davam edir və əlbəttə ki, qapının özü də açar sahibini gözləməkdədir.

Dillərin yaranması barədə qarşıya qoyulan suallara dəqiq, aydın, konkret cavab tapılmadığına görə bu barədə bir-birini təkzib edən müxtəlif fikir və mülahizələr söylənmiş, ayrı-ayrı rəvayətlər, əfsanələr və uydurmalar baş alıb getmişdir. Ancaq bu sahədə aparılan araşdırmaların özü dilçiliyin bir çox vacib məsələlərinin həll edilməsində təsirsiz qalmamışdır. Bütün araşdırmaların nəticəsi dilçilik genealogiyası və dilçilik tipologiyası tədqiqatlarında ümumiləşmişdir. Başqa sözlə, dillərin mənşəyi ilə əlaqədar aparılan təhlillərin nəticəsi olaraq genealoji dilçilik və tipoloji dilçilik sahələri kimi müstəqil tədqiqat istiqamətləri yaranmışdır. *Genealogiya* termini yunan mənşəlidir. Mənası şəcərə, nəsil qolları, kök qohumluğu deməkdir. *Tipologiya* termini də yunan mənşəlidir. Mənası müxtəlif hadisə və şeylərin tipləri arasında qarşılıqlı əlaqəni təmsil edən təsnifat, bu cür qarşılıqlı əlaqələrin tədqiqi mənasını bildirir. Dilçilikdə genealogiya termini dillərin kök qohumluğu, dil ailələrinin qohumluğu, tipologiya isə dillərin struktur tərkibi mənasında işlədilir. Dillərin genealogiyaya görə qruplaşdırılması sahəsində bir çox işlər görülmüş, müvafiq parametrlər əsasında dil ailələri və dil ailələri içərisinə daxil olan dil qrupları barədə məlumatlar verilmişdir. Dillərin tipologiyası məsələsi barədə də faktik material əsasında bir çox təhlillər aparılmışdır. Ancaq dillərin tipologiyasını ayırd edən dəlillər hələlik tam şəkildə müəyyən olunmamış qalır. Çünki bir dil ailəsinə məxsus olan tipoloji əlamətləri başqa dil ailələrində də aşkar etmək olur. Digər tərəfdən bu təhlillər nəticəsində elə faktlar da üzə çıxarılmışdır ki, bunlar dillərin genealogiyasına və tipologiyasına aid olan bütün parametrləri dağıdır. Belə ki, dillərin genealogiyasına aid parametrlərdə dünya dilləri kök qohumluğuna, dil ailələrinə və dil qruplarına görə fərqləndirilir, ayrılır.

Dil tipologiyasına görə isə bütün dillərin, dil ailələrinin və qruplarının öz daxili quruluşunda fərqlənmələr mövcuddur. Deməli, genealogiyada və tipologiyada ayırıcılıq əsas əlamət kimi qəbul edilir. Dil faktlarında aşkar edilən müştərəkliklər isə, əksinə, dillərarası yaxınlıqların mövcudluğunu sübuta yetirmək üçün əsaslar verir. Bəs necə olmuşdur? Dillər ayrı-ayrımı yaranmışdır? Dil ailələri bir kökdənmi törənmişdir? Tədqiqatçıları heyrətə gətirən və onları daha çox təəcübləndirən bu kimi problemlər bir-biri ilə uyğun gəlməyən müxtəlif-müxtəlif baxışların ortaya çıxmasına səbəb olmuşdur. Dillərin mənşəyi ilə əlaqədar yaranan nəzəriyyələrin başlıcaları aşağıdakılardan ibarətdir:

Təbiət nəzəriyyəsi

Təbiət nəzəriyyəsinin yaranmasının bazası insanın təbiətlə bağlı olması barədəki düşüncələrlə əlaqədardır.

Təbiət nəzəriyyəsinə görə ətraf aləmdə mövcud olan bütün varlıqlar təbiətin məhsuludur və onun bir tərkib hissəsidir. İnsan da təbiətin bir üzvü hesab edildiyindən dilin yaranmasında təbiətin rolunun aparıcı olduğu barədə fikirlər irəli sürülmüşdür. Bu fikirlərin istinadgah nöqtəsi təbiətin Allah tərəfindən yaradılması barəsindəki ilahiyyat kitablarında verilən hökmlər olmuşdur. Təbiət nəzəriyyəsinin banisi qədim Yunan filosofu Platondur (eradan əvvəl 427-347). Qədim dünyanın müdriklərindən olan Platona görə təbiət Allah tərəfindən yaradılmışsa təbiətin ayrılmaz bir üzvü kimi insanı da Allah yaratmışdır. Bu mənada Platon dilin yaranmasını da təbiətlə bağlı bir hadisə kimi təsəvvür edirdi. Platona görə söz əşya və hadisələrin insan tərəfindən instinktiv olaraq qavranılması nəticəsində yaranmışdır. Dilin cəmiyyətdəki rolu məsələsinə gəlincə Platon onu insanların fərdi ideyasının məhsulu hesab edirdi. Dilin təbiətlə bağlı olması barəsində Platonun təsəvvürü real həqiqəti əks et-

dirsə də bu fikir və düşüncələr adi bir intuitiv həssaslıqdan irəli getmirdi. Bununla belə, Platonun təsəvvürü dilin yaranmasının təməli barədə çox qiymətli istiqamət idi. Ancaq bu istiqamət nə Platonun özü tərəfindən, nə də onun ardıcılları tərəfindən axıradək davam etdirilmədi. "Kratil" əsərində Hermogen və Sokratın dialoqu üzərində qurulan mühakimələr üzrə irəli sürülən dil haqqındakı düşüncələr də elə sübuta yetirilməmiş fərziyyə kimi həmin mükalimələrin daxilində qaldı.

Cəmiyyət nəzəriyyəsi

Dilin yaranması barədə Demokritin fikirləri (eradan əvvəl 460-370-ci illər) isə Platonun baxışlarının əksinə idi. Demokritin fikrincə dil təbiətdən hazır şəkildə gəlməmişdir. Demokritə görə əşyanın adı ilə onun təbiəti arasında heç bir üzvi əlaqə mövcud deyildir. Bununla, Demokrit dilin təbiətlə bağlılığından bir qədər də irəli gedərək onun hər hansı bir fövqəltəbii qüvvə tərəfindən yaradılması fikrinin əleyhinə çıxırdı. Demokritin fikirləri materialist filosofların təsəvvürləri ilə üst –üstə düşürdü. Demokritə görə dil təbiətdən hazır şəkildə gəlmir. Əgər dil təbiətdən hazır şəkildə gəlmiş olsaydı sözlə onun adı arasında bir üzvi əlaqə olardı. Belə isə onda gərək eyni əşya və hadisənin adı dünyanın bütün dillərində eyni olaydı. Demokritə görə sözlər, adlar insanların (cəmiyyətin) özü tərəfindən yaradıldığı üçün dillər də bir-birindən fərqli şəkildə yaranmış və formalaşmışdır. Ancaq Demokrit, əlbəttə ki, dilçilik üzrə mütəxəssis olmayıb maddi aləmin yaranması və cəmiyyət hadisələrinin daxili əlaqələri barədə öz mülahizələrini söyləyən dahi bir mütəfəkkir filosof idi.

Demokrit dünya dillərinin genetik tərkibində oxşar və müştərək elementlərin mövcudluğunu təsdiq edən faktlarla rastlaşmış olsaydı və onları qarşılaşdırıb araşdırsa idi yəqin ki, söylədi-

yi fikirlərə bəzi pozitiv mülahizələr əlavə etməkdən çəkinməzdi. Demokrit dillərarası müştərək elementləri araşdırmadığına görə belə güman edirdi ki, sözlər, adlar insanların (cəmiyyətin) özü tərəfindən yaradıldığı üçün dillər də bir-birindən fərqli şəkildə yaranmış və formalaşmışdır. Burada Demokriti həmin fikirlərə görə günahlandırmaq doğru olmazdı, çünki onun dövründə dillərin genetikası və tipologiyası barədə tədqiqatlar da mövcud deyildi. Dillərin mənşəyi və quruluşu barəsindəki müqayisəli tədqiqatların tarixi 200 ildən də artıq olmayan bir müddəti əhatə edir. Ancaq hələ də dillərin mənşəyi və strukturu barədə qaranlıq qalan bir çox məqamlar mütəxəssisləri düşündürməkdədir. Hələ də bu suallara dəqiq və tam cavab tapılmır ki, dillərin mənşəyi necə olmuşdur? Onların arasında əlaqə var, yoxsa yox? Varsa nəyə görə, yoxsa səbəb nədir?

Demokritin fikirləri onun ardıcılı olan Diodor tərəfindən (eramızdan əvvəl 90-30-cu illər) davam etdirilmişdir. Diodor da dilin insanların (cəmiyyətin) özü tərəfindən yaradılması fikrinə tərəfdardır. Ancaq Diodor məsələni əfsanələşdirir. Diodor belə təsəvvür edir ki, insanlar əvvəlcə sürü halında heyvan kimi yurdsuz-yuvasız yaşamışlar. Onlar təbiət hadisələrindən və vəhşi heyvanlardan qorunmaq üçün bir yerə yığışmış, bir-birlərini tanımağa başlamış, zəruri informasiyaları çatdırmaq üçün üzvlənməyən səslər çıxarmış, tədricən üzvlənməyən səslər üzvlənməyə doğru inkişaf etməyə başlamış, insanlar simvollarla nəyisə başa salmağa çalışmışlar. Bu proses dünyanın hər yerində baş verdiyi üçün müxtəlif dillər yaranmışdır. Elə buradaca demək lazımdır ki, Diodor insanı şüurdan, şüuru isə təfəkkürdən ayırır. Əgər ilk insanda şüur yox idisə onda sonralar necə oldu ki, şüur formalaşmağa başladı və təfəkkürə çevrildi. Daha sonrası axı heyvanlar və instinktlə həyat sürən başqa canlılar da üzvlənməyən səslər çıxarır. Nə üçün onların çıxardığı diffuz səslər nitq səslə-

rinə çevrilə bilmir? Beləliklə, Diodor şüur və təfəkkür arasındakı üzvi əlaqəni nəzərə almadığı üçün onun əfsanəsi gerçəklik kimi yox, xəyali düşüncə kimi qəbul edilməlidir. Onu da inkar etmək olmaz ki, insan nə şəkildə yaranmışsa, dünyaya necə gəlmişsə bu tamam başqa bir məsələdir. Həqiqət budur ki, insanın mayasında şüur olmuşdur. Kimidə az, kimidə çox. Şüur insanın təbiətlə təması sayəsində ibtidai təfəkkürdən ali (abstrakt) təfəkkürə doğru inkişaf mərhələsi keçmişdir. Şüurun təfəkkürə çevrilməsində idrak prosesi ötrücülük vəzifəsini yerinə yetirir. Məhz idrak prosesi insana məxsus keyfiyyət olduğu üçündür ki, bu keçid insanlarda təfəkkürü formalaşdırır. Digər canlılarda isə belə bir keçid mövcud deyildir. Ona görə də, məsələn, demək olmaz ki, heyvanlarda şüur yoxdur. Heyvanlar da nəyisə duyur, qidalanmağa olan ehtiyaclarını ödəyir, dolanacaq yerlərində məskən tutur, özünü təhlükələrdən qorumağa çalışır, iy, dad, qoxu, rəng kimi hissi anlayışları qavrayır, sözlə təsirlərə reaksiya verir və s.

Ümumiyyətlə götürdükdə, təbiətdə canlı nə varsa onun hər birinin bizə məlum olmayan hissi keyfiyyətləri vardır. Bu hissi keyfiyyətləri "şüur" adında toplasaq onda bitkinin də, ağacın da, "şüur" mühitinə malik olduğu istisna sayılmamalıdır. Bitkilər də digər canlılar kimi istiyə, soyuğa, günəşə, küləyə, suya həssasdır. Soyuq havalarda bitkilər sanki yuxuya gedir, istilər düşdükdə oyanır, çiçək açır, bəhrə verir. Yaxşı qulluq ediləndə bəhrəsi bol olur, qulluq görməyənlər isə sanki üz döndərir, solub saralır. Ancaq, əlbəttə ki, bu "şüur" forması idraka çevrilmir və nə heyvanlardakı, nə də bitkilərdəki "şüur"da təfəkkür əlamətləri görünmür. Heyvanlardakı "şüur" əlamətləri indiyə qədərki ədəbiyyatda *instinkt* kimi nəzərə alınır. *İnstinkt* termini latın mənşəlidir, mənası təhrik etmə, vadar etmə, məcbur etmə kimi başa düşülür. *İnstinkt* sözü psixoloji vəziyyəti bildirmək məqamında, həmçinin, qeyri-şüuri və qeyri-iradi olaraq məqsədəuyğun

hərəkət etmək və ya iş görmək, məcazi mənada isə duyğu kimi mənalandırılır. Ancaq onu da demək lazımdır ki, duyğu varsa onu necə qeyri-iradi və ya qeyri-şüuri adlandırmaq olur? Əlbəttə ki, heyvan nəyisə duyursa, nəyəsə meyl göstərirsə, nədənsə çəkinirsə onun duyğusunu inkar etmək də olmaz. Bu mənada heyvanda şüurun mövcudluğunu inkar etmək inandırıcı görünmür. İnstinkt isə şüurun ilkin mərhələsi kimi özünü göstərir. Heyvanlardakı instinktdən (ilkin şüurdan) insan şüuru onunla fərqlənir ki, heyvanların ilkin (ibtidai) şüuru aliyə doğru inkişaf edə bilmir, insan şüuru isə mərhələli şəkildə inkişaf prosesi keçirir. Ancaq necə olur ki, ağıllı, müdrik, alim insanlar heyvanlarda şüur olduğunu qəbul etmirlər. Bunun ən optimal cavabı budur ki, biz həmişə şüuru təfəkkürlə eyniləşdirilmiş şəkildə başa düşmüşük. Heyvanlarda isə şüuru təfəkkürlə əlaqələndirən psixofizioloji idrak prosesi yoxdur. Ona görə də heyvanlarda üzvlənən səslər formalaşmamışdır və onlar hansısa diffuz səslərlə özləri üçün informasiya mühiti yarada bilsələr də insan danışığı kimi aydın nitqə malik deyillər. Heyvan səsləri (eləcə də quşlar və başqa canlılar) müəyyən qorxu, həyəcan, çağırış emosiyalarını ifadə edə bilirlər. Hətta o da mümkündür ki, bir ərazidə yaşayan heyvanların, quşların və başqa canlıların "dili" başqa yerlərdəkilər üçün eyni dərəcədə anlaşığlı olmasın. Heyvanların özlərinə məxsus informasiya mühitinin mövcudluğu zaman-zaman, hətta, insanların beynində belə bir təəssürat yaratmışdır ki, onların da öz informasiya dilləri vardır. Bu təəssüratlar əfsanələrdən nağıllara və dastanlara da çökmüş və elə hesab edilmişdir ki, quşların, heyvanların dilini bilmək insanların bəzilərinə müyəssərdir. Hətta, dahi şair Nizaminin əsərlərində, "Kəlilə və Dimnə"də, "Min bir gecə"də heyvanların və quşların dili barədə maraqlı əhvalatlar vardır.

O da maraqlıdır ki, klassik dövrün böyük şairlərindən biri, Nişapurlu Fəriddədin Əttar (1136-1221) "Məntiqüt-teyr" ("Quş-

ların dili") adlı Şərqdə məşhur olan bir əsər də yazmışdır. Bu əsərin təsiri ilə hətta, böyük özbək şairi, Heratda dünyaya gəlmiş Əlişir Nəvayi (1441-1506) də "Lisanüt-teyr" ("Quşların dili") adlı əsər yazmışdır. Hər iki əsər alleqorik janrda olsa da mövzu quşların dilinin mövcudluğu barədəki təsəvvürlərin bədiiləşdirilməsi ilə əlaqədardır.

Şüurdan təfəkkürə yol idrak prosesindən keçir. Bu mənada, idrak təfəkkürün dərk edilən yaxınlaşmasından, fikrin biliksizlikdən biliyə doğru istiqamətindən, yarımçıq və mükəmməl olmayan bilikdən daha tam, mükəmməl biliyə doğru hərəkətindən ibarət sonsuz bir prosesdir.[1] İdrakın təfəkkürə çevrilməsini məntiqi idrakın formalaşması kimi də qiymətləndirmək olar. Məntiqi idrak hissi idrakın gördüyü işi, bir növ tamamlayır. Təfəkkür prosesinin özü də olduqca mürəkkəb bir sistemdir. Təfəkkür inkişaf etdikcə insanın yaradıcılıq qabiliyyəti genişlənir və zənginləşir. Bu isə yeni anlayışların əmələ gəlməsini şərtləndirir. Yeni anlayışların əmələ gəlməsi isə yeni sözlərin formalaşdırılmasını tələb edir. Beləliklə, dildə sözlərin potensialı artır, dilin struktur tərkibində isə dəyişikliklərin baş verməsi labüd olur. Ona görə də dilin tarixi, əlbəttə ki, təfəkkürün formalaşması ilə üst-üstə düşür. Hərçənd Marks deyirsə ki, "Dil şüur qədər qədimdir", yaxud, "Dil praktik real şüurdur", onda şüurla təfəkkür arasındakı bağlılıq qırılmış olur. Çünki təkcə şüura malik olmaq hələ dilə malik olmaq demək deyildir. Əlbəttə ki, dil haqqında bəhs etdikdə onu birdən-birə yaradılmış hesab etmək olmaz. İnsan dili insanın təbiətlə təmasının və cəmiyyətdə baş verən əlaqələrin bazası üzrə zaman-zaman formalaşmış bir fenomendir. İnsanın özünün təkmilləşməsində də ətraf mühitin böyük rolu olmuşdur. Məsələn, kim deyir ki, ilk insan nəsli əti bişirib yeyib və ya yeyilənlə yeyilməyəndən doğru-dürüst baş

[1] *İdrak-Wikipedia.az. Wikipedia.org (Wiki/ idrak).*

çıxarıb. Həyat təcrübəsi artdıqca, insan orqanizminə ziyan gətirənlər tanındıqca cəmiyyətdə məişət şəraiti formalaşmağa başlamışdır. İnsanlar bəlkə də min illər boyu başa gələn həyat təcrübəsi əsasında odu kəşf etmiş, daimi yaşayış yerləri yaratmış, istidən - soyuqdan qorunmaq üçün geyim əşyaları düzəltmişdir. Təbiəti dərk edə-edə insanın dili də formalaşmağa başlamışdır. Ona görə də dili bir anlıq baş verən hadisə kimi yox, min illər boyu yaranan və formalaşan bir proses kimi başa düşmək lazımdır. Yəni ki, dildəki sözlər təsadüfən yaranan və ayrı-ayrı fərdlərə məxsus elementlər kimi qəbul edilməməlidir. Unutmaq olmaz ki, dil hər şeydən əvvəl sistemdir. Bu sistemi və dil strukturlarını təşkil edən vahiddər isə yaxıncinsli elementlərin məcmusundan ibarətdir. Təfəkkürün inkişafı ilə insanlar kəşflər əldə edir, yeniliklər yaradır və bu yeniliklər təsadüfi adlarla yox, dilin daxili potensialı bazasında formalaşmış, həm də bir-biri ilə üzvi əlaqəsi olan dil vahidləri ilə canlandırılır.

Teoloji nəzəriyyə

Teologiya termini yunan mənşəlidir. Mənası *ilahiyyat* deməkdir. Bu nəzəriyyəni, eyni zamanda, dini nəzəriyyə də adlandırmaq olar. Dilin mənşəyi barədə orta əsrlərdə elə bir ciddi nəzəriyyə olmamışdır. Orta əsrlərdə dilin yaranması barədəki bütün fikir və mülahizələr ilahiyyat alimlərinin dini kitablar əsasındakı mülahizələri üzrə cəmlənmişdir. Həmin mülahizələrə fikir aydınlığı gətirsək belə çıxır ki, insan yer üzünə Allah dərgahındakı qeyri-müəyyən bir məkandan (cənnətdən) gəlmişdir. Yəni insan yer üzərində yox, qeyri-müəyyən bir məkanda yer maddəsindən yaranıb yerə də qayıtmışdır. Müasir təsəvvürə çevirsək insan yer üzünə kosmosdan gəlmiş, dili də özü ilə kosmosdan gətirmişdir. Sübutu da budur ki, yer üzündəki dillərin arasında genetik qohumluqdan və tipoloji uyğunluqdan asılı olmayan oxşarlıqlar mövcuddur.

Dini mənbələrdə göstərildiyinə görə Allah Adəmi yaratdıqdan sonra şeylərin adlarını da ona öyrətmişdir. Başqa sözlə, Adəm yaradıldığı anda yox, şeytan tərəfindən aldadıldıqdan sonra tövbə etmək məqamında kəlmələr öyrənmişdir. "Bəqərə" surəsinin *31-ci ayəsində* deyilir ki, "(Allah Adəmi yaratdıqdan sonra) Adəmə bütün şeylərin adlarını öyrətdi". "Bəqərə" (2) surəsinin *37-ci ayəsində* deyilir ki, "Adəm Rəbbindən (bəzi xüsusi) kəlmələr öyrənərək (Həvva ilə birlikdə o kəlmələr vasitəsi ilə) tövbə etdi". Buradan belə məlum olur ki, Adəm heç də hazır qrammatik quruluşlu bir dil ilə təchiz edilməmişdir. Yalnız tövbə üçün lazım olan kəlmələri öyrənmişdir. Təkmil dilə gəlincə, dini mənbələrin məntiqi ilə desək, insan (Adəm) Allahın ona verdiyi şüurla dünyanı (ətraf aləmi) qavraya-qavraya, dərk edə-edə (şüurdan təfəkkürə addımlaya-addımlaya) özünün ünsiyyət-informasiya dilini yaratmağa başlamışdır. Allah Adəmi yaratmamışdan əvvəl təbiəti yaratmış və orada insan üçün lazım olan vasitələri də yetişdirmişdir. *"Bəqərə" (2) surəsinin 36-cı ayəsində* deyilir ki, "Yerdə sizin üçün müəyyən vaxta qədər (yəqin ki, qiyamətə qədər) sığınacaq və yaşayış vasitələri var"-dedik", "Əraf" *(7) surəsinin* 24-cü ayəsində də belə deyilir: "Yerdə sizin üçün bir müddət sığınacaq və dolanacaq vardır".

Bu ayələrə görə Allah Adəmə elə bir şüur vermişdir ki, o şüur idraka keçib təfəkkürə çevrilsin. Təfəkkür isə insanda ona xidmət edir ki, dilin formalaşmasına və müstəqil yaradıcılığa təkan versin. "*Bəqərə" (2) surəsinin 31-ci ayəsinin* şərhi ilə bağlı "Kitabül-bəyan fi təfsiril-Quran" adlı kitabda deyilir ki, "Aləmlərin pərvərdigarı Adəmi yaradan zaman ona adların hamısını təlim etdi. Yəni dağların, dəryaların, səhraların, əşyaların, heyvanatın, nəbatatın adlarını. Bəziləri deyiblər ki, "ad" dedikdə dillər nəzərdə tutulur. O (Adəm) övladlarının hər biri ilə bir dildə danışırdı. Buradan da dilçilik elminin şərafəti məlum

olur".[1] Bu ayələrdən və şərhdən aydın olur ki, dini ehkamlara görə də dil birdən-birə yaranmamışdır. İlk insan ancaq təbiətdən müəyyən vacib sözləri öyrənə bilmişdir. Daha sonra şərhdə deyilir ki, Adəm övladları vahid bir dilə mənsub olmamışlar. Ona görə də Adəm onların hər biri ilə ayrı-ayrı dildə danışırmış. Dilçilərin də bir çoxunun mövqeyi belədir ki, indiki dillərin hamısı bir-birinin eyni olmadığı kimi ilkin mərhələdə də vahid dil məsələsi barədə qəti fikir söyləmək həqiqətə uyğun gəlmir. Burada bir məsələ də var ki, insanın nütfəsi (maddəsi) torpaqdır. O da bitki kimi və digər məxluqlar kimi torpağın məhsuludur. Yaradılışa gəlincə insanların, heyvanların, bitkilərin yaranması ilə məşğul olan elm sahələrinin tədqiqatçıları belə bir suala cavab axtarırlar ki, görəsən, bitki əvvəldir yoxsa insan? İnsan torpağın məhsuludursa əvvəlcə hansı məkanda yaranıb? İnsan eyni məkandamı yaranıb yoxsa müxtəlif məkanlarda? Bu suallara cavab yoxdur. Ancaq Quran ayələrinin şərhinə istinad etsək belə düşünməliyik ki, insan yəqin müxtəlif məkanlarda yaranıb ki, Adəm onlarla ayrı-ayrı dillərdə danışırmış. Bu məsələdə dilçilərin də bir çoxunun mövqeyi üst-üstə düşür. Artıq, insanın yaranması ilə əlaqədar belə bir fikir daha çox təqdir olunur ki, bütün canlılar torpağın məhsuludur. Ancaq Darvinin təkamül nəzəriyyəsinə görə insanın yaranması heyvandan keçir və onun mənşəyi meymundur. Engels də bu müddəanı təqdir edir. Ancaq orası var ki, meymundan insan törəndiyini hələ tarix görməyib. Yəni nə meymun genindən insan törəməsi baş verməyib, nə də insan genindən meymun. Yaxud heç bir pələng, pişik doğmayıb, heç bir pişik də pələng. Darvinin də Engelsin də dedikləri, əslində, təkamül deyil, mutasiya təsəvvürüdür, xəyaldır. Darvinin nəzəriyyəsində də əslində əfsanəvi, qeyri-inandırıcı görünən

[1] *Şeyxul-İslam Məhəmməd Həsən Mövlazadə Şəkəvi "Kitabül-bəyan fi təfsiril-Quran" I c., Bakı, "Minarə", 2001, (296 s.). s. 8.*

mutasiyanın həqiqət kimi əsaslandırılmasına cəhd göstərilir. Təkamülü isə mutasiya ilə qarışdırmaq olmaz. Təkamül mövcud olan həqiqətdir, təbiət hadisələrinin, şüurun, ağılın, təfəkkürün və cəmiyyət hadisələrinin ibtidaidən aliyə doğru inkişaf prosesidir. Mutasiyanın isə həqiqətlə bağlı heç bir mənbəyi və təməli yoxdur. Mutasiya barədəki düşüncələr də xəyaldır, illüziyadır, əfsanədir. Doğrudur, nağıllarda, folklor ədəbiyyatında mutasiya təsəvvürü ilə əfsanələrə rast gəlmək olur. Ancaq bunun həqiqətə uyğunluğu yoxdur. Hətta, Quranda insanların əməllərinə görə ayrı-ayrı şəkillərə düşə biləcəyi barədə hökmlər vardır *("Əraf" (7), 116; 179; "Məhəmməd" (47), 12; "Yasin" (36) 67*.

Fuzulinin bir beytində də belə deyilir:

O qəmlər kim, mənim vardır, bəirin başına qoysan
Çıxar kafir cəhənnəmdən, gülər əhli-əzab oynar.

"Mənim o qədər qəmim vardır ki, onları dəvənin başına qoysan, dəvə kədərdən incəlsə ("Əraf" *surəsi, 40-cı ayə*), iynənin gözündən keçsə, o zaman kafir cəhənnəmdən çıxa bilsə (kafir o zaman cəhənnəmdən çıxa bilər ki, dəvə incəlib iynənin gözündən keçsin) onda əhli-əzab (bu dünyada kafirlərdən əzab görənlər ("Bəqərə" surəsi, *15-ci ayə*) onları it, meymun və digər əcaib şəkillərdə görüb gülüb istehza edib oynayarlar".

Göründüyü kimi, Quranda da mutasiya barəsindəki işarələr əslində həqiqi bir təkamül kimi yox, zahiri yox, batini təsəvvür mənasında çatdırılır. Yəni insanların bəziləri öz əməllərinə görə zahirdə insan sifətində görünsələr də batində onlar xaraktercə it kimi, donuz kimi, tülkü kimi, ilan kimi və digər əcayib heyvan sifətində olurlar.

İnsanın, heyvanın, quşların, bitkilərin hamısının mənbəyinin torpaq olduğu şübhə ilə qarşılanmır. Ancaq necə olur ki,

milyon illər bundan əvvəl torpaqdan yaranan məxluqlar təzələnmir? Yəni torpaqdan yeni məxluqlar çıxmır? Məsələnin kökü də bundadır ki, dilin yaranmasına aid proqnoz vermək də bu suala cavab vermək qədər çətindir. Ancaq bəzi müqayisələrə də müraciət etmək olar. Məsələn, məlumdur ki, bütün dünya dilləri ən ilkin mərhələdə birhecalı köklər üzərində bərqərar olub. Hazırda birhecalılığı saxlayan və birhecalılıqdan tədricən ikihecalılığa doğru inkişaf edən dillər də (Çin-tibet) vardır. Ancaq nə birhecalı dillərdə nə də başqa dillərdə (o cümlədən, türk dillərində) yeni birhecalı kök morfemlər yaranmır. Bunu belə mülahizə etmək olur ki, birhecalı dillərdə sözlər istənilən qədərdir, onlarda ya daxili quruluş dəyişmələri ilə, ya məcazlaşma ilə ya da tonallıqla yeniləşmə baş verir. Üstəlik də ikihecalılığa doğru meylin baş verməsi də müşahidə edilir. Başqa dillərdə isə birhecalılıq mərhələsi artıq öz dövrünü başa çatdırıb, daha intensiv sözyaratma üsulları (leksik, morfoloji, sintaktik) formalaşıb. Görünür, insanın və digər canlıların (o cümlədən, bitkilərin) yaranması üçün böyük bir təbiət hadisəsi baş verib, zaman-zaman canlı orqanizmlər, flora və fauna formalaşıb. Bu dövr başa çatdığı üçün öz izlərini də gizlədib. Ona görə də həmin prosesi dərk etmək müasir insan üçün əlçatmaz bir vəziyyətə düşüb. Bunun nəticəsi olaraq, məsələn, insanın yaradılışı müəmmalı qaldığı kimi, dilin yaranması da sirli bir şəkildə qalmaqdadır. Daha doğrusu, hər şey göz qabağındadır, flora da, fauna da, insan da, digər orqanizmlər də. Eyni zamanda hər an istifadə etdiyimiz dil də. Ancaq bu dilin yaranmasındakı sirr nədir? Bax bu müəmmalı, şübhəli, natamam nəzəriyyələrdə, fərziyyələrdə, uydurmalarda qalmaqdadır.

Səs təqlidi nəzəriyyəsi

Səs təqlidi nəzəriyyəsi XVII əsrdə yaranmışdır. Bu nəzəriyyənin müəllifi alman alimi Qotfrid Vilhelm Leybnits (1646-

1716) olmuşdur. Leybintsin irəli sürdüyü bu nəzəriyyəyə görə dil təbiətdə olan səslərin insan tərəfindən qavranılaraq təqlid edilməsi yolu ilə yaranmışdır. Səs təqlidi nəzəriyyəsində əsas fikir bundan ibarətdir ki, hələ dil olmayan zamanlarda *insanlar təbiətdəki səsləri yamsılamaqla dil yaratmışlar.*

Leybinits öz fikirlərini onunla əsaslandırmağa çalışır ki, hazırda mövcud olan köksözlü dillərdə təqlidi yolla sözyaratma üsulu qalmaqdadır. Leybnitsin bu fikri Çin-Tibet dillərinə aid müvafiq nümunələrdə öz təsdiqini tapır. Ancaq onu da demək lazımdır ki, belə bir üsul başqa dillərə məxsus olan təqlidi sözlərdə də mövcuddur. Məsələn, Azərbaycan dilindəki *tap*(pıltı), *tıq*(qıltı), *şaq*(qıltı), *hop*(pan), *tap*(daq), *çal*(xala), *sil*(kələ), *yır*(-ğala), *çağ*(ır), *çığ*(ır), *hay*(qır), *hön*(kür) kimi sözlərin köklərində təqlidilik var. Onu da hətta, qeyd etmək olar ki, təqlidi yolla sözyaratmada birhecalı kök morfemlərin formalaşmasının izləri qalmaqdadır. Bu üsul davam etdikcə birhecalı köklərin formalaşmasının izləri də saxlanacaqdır. Yəni birhecalı kök sözlərin formalaşması prosesi öz dövrünü artıq çoxdan başa çatdırmış olsa da onun izləri təqlidi sözlərdə saxlanılır. Ancaq dildə bir çox digər birhecalı sözlər də vardır ki, onlarda təqlidiliyin izlərini tapmaq olmur. Məsələn, *diz, əl, göz, baş, dağ, çöl, ət, ot, yay, yaz, daş, diş, bir, beş, yüz* və bunun kimi yüzlərlə sözlər vardır ki, onlarda təqlidi yolla sözyaratmanın izlərini aşkar etmək mümkün deyildir.

Leybnits, əlbəttə ki, bu cür sözləri də nəzərə alır və diqqəti qaranlığa yönəldir. Leybnitsə görə belə sözlər də təqliddən yaranmışdır. Ancaq onların yarandığı zaman artıq bizdən çox geridə qalmış və onlarda ilkin təqlidiliyin izləri çoxdan itirilmişdir. Əlbəttə ki, bu motivi həqiqətiə uyğunlaşdırmaq olmur. Çünki bütün sözlərin mənbəyi təbiətlə, ətraf maddi aləmin dərk olunması ilə, insan və ətraf mühitlə bağlı olsa da sözlərin hamı-

sı eyni qayda üzrə birbaşa təqliddən yaranmamışdır. Burada bir çox başqa amillər də vardır (görmə, eşitmə, duyğu və hissiyyat, hərəkət, zaman, məkan və s.). Onların hamısını isə təqlidolunmaya həvalə etmək mümkün deyildir. Başqa bir tərəfdən, təbiət min illər bundan əvvəl də canlı olub, min illər bundan sonra da canlı olaraq qalacaqdır. Təqlidi üsul isə davam edir. Ona görə iddia etmək olmaz ki, təqlidi üsulun izləri itdiyinə görə bu yolla yaranan sözləri müəyyənləşdirmək imkanları yox olub. Bununla belə, təqlidi yolla sözyaratma prosesinə əsaslanan nəzəriyyədə doğru olan arqumentləri inkar etmək olmaz. Həqiqətən də təqlidi yolla yaranan imitativlər var və bu prosesin özü tamamilə itib getməmişdir. Hətta, bəzi dillərdə, xüsusən, köksözlü dillərdə təqlidi yolla sözyaratma imkanları indi də öz intensivliyini saxlayır. Azərbaycan dilinin özündə də 23 samit səsin hamısı, demək olar ki, təqlidi sözyaratma prosesində iştirak edir. Cəmi 10 samit (q, k, g, y, t, d, s, ç, p, b) səs müstəqil sözlərin yaranmasında fəal olduğu halda təqlidi sözlərin yaranmasında da onların mühüm rolu vardır. Üç səs (ğ, j, r) söz əvvəlində işlənmir, yerdə qalan 10 səs isə (x, ş, j, z, l, n, c, f, v, m) təqlidi sözlərin yaranmasında fəallıq göstərir. Dildə birbaşa təqlidi yolla yaranmayan sözlərin kəmiyyəti daha artıq olduğundan səs təqlidi nəzəriyyəsini bütövlükdə qəbul etmək mümkün deyildir. Alman alimi Baron Fridrix Vilhelm fon Humboldt (1767-1835) və fransız dilçisi Şarl Balli (1865-1947) bu nəzəriyyənin tərəfdarları və davamçıları olmuşlar.

Nidalar nəzəriyyəsi

Nidalar nəzəriyyəsi XVIII əsr fransız maarifçisi Jan Jak Russoya (1712-1778) məxsusdur. Russonun fikrincə sözyaratma insanların şiddətli arzusunun nəticəsində baş vermişdir. Bu sahədə isə ilkin insanların dili daha səmərəli olmuşdur. Nida-

lar nəzəriyyəsi XIX-XX əsrlərdə də davam etdirilmişdir. Onun tərəfdarları R.N.Kudryavski (1864-1920), alman filosofu Georq Vilhelm Fridrix Hegel (1770-1831) və alman psixoloqu Vilhelm Maksimilian Vundt (1832-1920) olmuşlar.

Bu nəzəriyyənin həqiqət tərəfi odur ki, insanlar qorxu, həyəcan və s. hisslərlə bağlı müəyyən səslər çıxarmışlar. Məsələn, tərəddüd bildirmək üçün *a*…, kədər, ağrı bildirmək üçün *ı*…., heyrət bildirmək üçün *o*…., etiraz bildirmək üçün *e*…., etinasızlıq bildirmək üçün *ə*…., sızıltı bildirmək üçün *i*…., *ü*…. kimi səslərdən istifadə edilməsi istisna sayılmamalıdır. O da istisna deyildir ki, kök morfemlərin formalaşmasında sait elementlər təşkiledicilik funksiyası daşımışdır. *Çünki söz üçün heca lazımdır, heca üçün sait səs*. Ancaq demək olmaz ki, dilin bütün söz tərkibinin formalaşmasında nida elementləri baza rolu oynamışdır. Ona görə nidalar haqqındakı bu görüşləri də tam, bitkin və mükəmməl bir nəzəriyyə kimi qəbul etmək mümkün deyildir.

Əmək nəzəriyyəsi

Əmək nəzəriyyəsi XIX əsrdə yaranmışdır. Bu nəzəriyyənin əsas nümayəndələri alman alimləri Lüdviq Nuare (1829-1870) və Karl Buxerdir (1847-1930).

Əmək nəzəriyyəsinə görə insanların əmək nəticəsində çıxardığı səslər sözlərin yaranmasına səbəb olmuşdur. İnsanların əməklə bağlı çığırtılarının əsasında əvvəlcə fellər yaranmış, sonra isə fellərdən adlar formalaşmışdır. Əmək nəzəriyyəsinə görə, məsələn, *al, gəl, get, tut, kəs, vur, çək, qaç, dur, böl, dart* kimi sözlər əməklə bağlı çığırtıların son nəticəsi kimi formalaşmışdır. Ancaq əmək nəzəriyyəsinin tərəfdarları nəzərə almırlar ki, dildəki bütün sözlərin hamısı əmək mənalı deyildir. Belə ki, düşünməklə, təfəkkürlə, duyğu ilə, hissiyyatla, emosiya ilə və digər fəaliyyətlə bağlı çoxlu sözlər də mövcuddur. Hətta bu nəzəriyyə

onu da hesaba almır ki, dildə sifət, say, əvəzlik bildirən çoxlu sözlər vardır ki, onların əməklə bağlı yaranması barədə hökm vermək doğru deyildir.

Marksizm nəzəriyyəsi

Marksizm nəzəriyyəsinə görə dil və şüur insan cəmiyyətinin formalaşması prosesində yaranmışdır. Yəni dilin formalaşmasında cəmiyyətin rolu aparıcıdır. Başqa sözlə, dili cəmiyyətin özü yaratmışdır. Bu nəzəriyyənin yaranması Alman filosofu və iqtisadçısı Karl Marksdır (1818-1883). Marksın "Alman ideologiyası" (1846) adlı əsərində deyilir ki, "Dil də şüur kimi qədimdir, dil praktik real şüurdur". Dil insanların ünsiyyət ehtiyacından yaranmışdır. Əlbəttə ki, dilin yaranması məsələsini bu qədər sadələşdirmək nə məntiqə uyğundur, nə də dilin formalaşması prosesinə. Marks dili genetik mənşəyinə görə araşdırmır. O dilə sosioloji baxımından yanaşır və bu yanaşmada Marksın ideoloji baxışları öz əksini tapır. Marks ağılsız adam deyildi ki, dilə sosioloji və ideoloji don geyindirirdi. Marksa görə cəmiyyət insanlardan ibarətdir, insanlarla birlikdə formalaşır, təkmilləşir və insanların tərəfindən də dəyişdirilməyə məhkumdur. Bu, hər şeydən əvvəl ideoloji bir konsepsiya idi və buradan inqilab iyi gəlirdi. Yəni dili cəmiyyət yaradırsa, onda dəyişdiricilik qüvvəsi var. Dilin yaradılmasında və dəyişdirilməsində cəmiyyətin rolu olduğu kimi cəmiyyətin dəyişdirilməsi də cəmiyyət üzvlərinin ixtiyarına düşür. Marks dili cəmiyyətə tabe etməklə cəmiyyətdə bir inqilabçılıq ruhu yaratdığı kimi cəmiyyətin özünü də proletariata tabe edirdi. Proletariat isə həmişə cəmiyyətin ən narazı və inqilaba meylli təbəqəsi olmuşdur. Cəmiyyətdə proletariatın bir vəzifəsi var. O da dəyişdiricilikdən və dağıdıcılıqdan ibarətdir. Marks cəmiyyətdən narazı idi. Odur ki, cəmiyyətdə dəyişdiricilik adı ilə dağıdıcılıq ideyalarını təbliğ edirdi. Marks cə-

miyyətin inkişaf etdirilməsi tərəfdarı idisə nə üçün demirdi ki, "Bütün ölkələrin intellektləri birləşin!". Əksinə, o dağıdıcı qüvvəni səfərbər etmək üçün "Bütün ölkələrin proletarları birləşin!" deyə haray salırdı. Nəticə nə oldu? Marksın proletariat ideyaları üzərində qurulan Sovet dövləti dövründə müharibələr, qırğınlar baş alıb getdi. Günahsız insanlar məhv oldu. Nəhayət Marksizm ideologiyasının yanlış yolunu tutmuş Sovet dövləti iflasa uğradı. Marksın dil haqqındakı nəzəriyyəsi də onun cəmiyyət barəsindəki ideyaları kimi özünü doğrultmur. Çünki, Marksa görə "dil şüurdur". Ancaq şüurun dilə çevrilməsi üçün idrak körpüsündən təfəkkürə keçid lazımdır. Dil isə təfəkkürün məhsulu kimi formalaşır və cəmiyyətin xidmətində inkişaf edərək zənginləşir. Marks dili şüurdan o tərəfə aparmadığı kimi, cəmiyyəti də proletariat səviyyəsində görür. *Şüurdan təfəkkürə irəliləyişi olmayan cəmiyyətdə isə intellektin fəaliyyətindən daha artıq proletariatın dağıdıcılıq psixologiyası formalaşır*.

Alman təbiətşünası Fridrix Engelsin (1820-1895) dil haqqındakı görüşləri də Marksın sosioloji baxışları ilə üst-üstə düşür. Engelsə görə insanlar insanabənzər meymundan əmələ gəlmişdir. Əmək meymunları insana çevirmişdir. Əmək, eyni zamanda, dilin yaranmasına səbəb olmuşdur. Bu nəzəriyyədə şüur nəzərə alındığı halda şüurun təbiətlə əlaqəsi və onun təfəkkürə münasibəti unudulur. Dil birbaşa cəmiyyətin məhsulu kimi nəzərə alınır. Yəni belə çıxır ki, dili cəmiyyətin özü yaradıb. Engels də, əlbəttə, ağılsız deyildi və dilin yaranmasının cəmiyyətlə əlaqələndirilməsindən yenə də inqilab qoxusu duyulurdu. Engelsin görüşlərində əsas prinsip budur ki, insan cəmiyyəti əməklə formalaşır. Cəmiyyət üzvləri cəmiyyətə sərf etdiyi əməyin qarşılığını ala bilmədiyi halda isə onu dəyişdirməyə də qadir olur. Beləliklə, söhbət cəmiyyət dilindən gedirsə, onda ibtidai səviyyədəki işarə dilindən daha artıq informasiya vasitəsi kimi formalaşmış dildən

söhbət gedə bilər. Başqa tərəfdən, heç bir cəmiyyət hələ xüsusi bir dil yaratmayıb. Belə olsa idi təfəkkür cəhətdən az inkişaf etmiş cəmiyyət dil yaradırdısa nə üçün abstrakt təfəkkürün inkişafı dövründə müasir cəmiyyət yeni və başqa dillər yaratmayıb? Ona görə ilkin dövrə qayıtdıqda dilin təkcə şüurla əlaqəsini etiraf etmək elə bir səmərəli nəticə verməz.

Dil şüur-təfəkkür və insanla təbiətin münasibətlərinin, hiss və duyğunun, qavrayış və idrakın, həmçinin, digər psixofizioloji prosesin məhsulu kimi qiymətləndirilməlidir.

Ulu dil nəzəriyyəsi

Dillərin formalaşmasında ulu dil nəzəriyyəsi deyilən bir konsepsiya haqqında da müxtəlif fikir və mülahizələr irəli sürülmüşdür. Ulu dil nəzəriyyəsinin kökündə Platonun təbiət nəzəriyyəsi durur. Platona görə söz təbiətdəki əşya və hadisələrin instinktiv olaraq insan tərəfindən qavranılması yolu ilə əmələ gəlmişdir. Buradan belə çıxır ki, dil insan toplusunun təbiətlə əlaqə və münasibəti sayəsində yaranmış və sonra insan cəmiyyəti artdıqca, çoxaldıqca, yayıldıqca dil də yayılmışdır. Yayıldıqca da dil fərqlənmələri baş vermiş və nəticədə eyni kökdən müxtəlif-müxtəlif müstəqil dil budaqları peyda olmuşdur. Bu nəzəriyyə daha çox Adəm dili barəsindəki təsəvvürlərə yaxınlaşır. Adəm dili barədəki şərhlərdə də deyildiyi kimi, "Adəm öz övladları ilə (qəbilələrlə) müxtəlif dillərdə danışırmış". Əslində, kökü dini kitablardan başlamış və Platonda təbiət nəzəriyyəsi kimi ortaya çıxan bu fikir və mülahizələr sonradan "ulu dil" barədəki düşüncələrin yaranmasına səbəb olmuşdur.

"Ulu dil" barədəki fikirlər XIX əsrdə müqayisəli tarixi dilçiliyin yaranması ilə canlanmışdır. Bu nəzəriyyənin yaranmasında Avqust Şleyxerin (1821-1868), Frans Boppun (1791-1867) və Rasmus Raskın (1787-1832) mühüm xidmətləri olmuşdur. Bu

dövrdə hind-Avropa dillərinin genetik tərkibində və tipoloji quruluşunda müşahidə edilən oxşarlıqlara görə hətta, dil şəcərəsi deyilən bir fikir də formalaşdırılmışdır. Mövcud dillər hansısa bir kök dilin budaqları kimi təsvir edilirdi. Bununla da nə zamansa budaq dillərin təməlində bir kök (ulu) dilin olduğu iddia edilirdi. Sonradan bu "ulu dil" təsəvvürü nəzəriyyəyə çevrilməyə başladı. Ancaq onu nəzərə almaq lazımdır ki, Avqust Şleyxerin vaxtında dünya dillərinin tipologiyası öyrənilməmişdi. Ona görə də Avqust Şleyxerin "ulu dil" haqqındakı fikirləri dünya dillərinə yox, hind-Avropa dillərinə aid idi.

Ulu dil nəzəriyyəsi XX əsrin əvvəllərində Nikolay Yakovleviç Marr (1865-1934) tərəfindən inkişaf etdirilməyə başlamışdır. Marrın ulu dil haqqındakı fikri budur ki, dünya dillərinin kökündə SAL, BEN, YON, ROŞ elementləri durur. Ancaq Marrın bu dörd elementin hansı kombinasiyalar üzrə dünya dillərini əhatə etməsi barədə inandırıcı, təsdiqedici arqumentləri yoxdur.[1] Ulu dil nəzəriyyəsi barədəki fikirlər XX əsrin 60-cı illərində bir daha yeniləşməyə başlamışdır. Müxtəlifsistemli dillərin materialları üzrə aparılan müşahidələr onu göstərmişdir ki, bu dillərin arasında kök cəhətdən bir-biri ilə üst-üstə düşən müəyyən qrup elementlər var. Bu tipli elementlərin mövcudluğu mütəxəssislərdə belə bir fikir yaratmışdır ki, müxtəlifsistemli dillər arasındakı oxşarlıqlar təsadüfi olmayıb ən qədimdəki ulu dilin indiyədək saxlanılan elementləridir. Əlbəttə ki, bu zahirdə görünən aldadıcı elementlərə görə tezliklə «ulu dil» barədə düşüncələrə dalmaq bir qədər də xəyalpərəstlikdir. Çünki bir qrup müştərək sözlərin aşkar edilməsi hələ dillərin bir mənbədən törəndiyi barədəki fikirləri təsdiq edəcək səviyyədə deyildir. Ona görə də bu barədə deyilən fikirlər deyildiyi kimi də yarımçıq və təsdiq olunmamış qalmaqdadır. Bu sahədə Vladislav Markoviç İlliç Svitıçın

[1] *Н.Я.Марр. Яфетическая теория. Баку, 1928, с. 7.*

(12.09.1934-22.08.1966) tədqiqatları daha çox diqqəti cəlb etmişdir. V.M. İlliç Svitıç öz tədqiqatları ilə çox böyük bir məsələni qabarıqlaşdırır. Ancaq tədqiqatların sonu gözlənilən nəticəni vermir. Nəzərə almaq lazımdır ki, dünyadakı insanların hamısı eyni yerdə məskunlaşmamışdır. Həm də dillərin hansı məkanda yayılmasından asılı olmayaraq onlarda oxşar elementlərin mövcudluğu istisna deyildir. Əldə edilən faktlar isə "ulu dil" barədə tam bir təsəvvür yaratmaqdan uzaqdır.[1]

V.M.İlliç-Svitıçın istinad etdiyi nəzəriyyə nostratik dillər nəzəriyyəsidir. Nostratika termini XX əsrin əvvəllərində X.Peterson (07.04.1867-25.11.1953) tərəfindən irəli sürülmüş və Hind-Avropa, Ural-Altay, sami-hami dillərinin qohumluğunu nəzərdə tutmuşdur. Əvvəlcə R.Kollidel (1814-1891), sonralar isə A.Trombetti (1866-1929) bu sıraya dravid dillərini də əlavə etmişlər. A.P.Dolqopolski nostratik dillər sırasına katrvel dillərini də daxil etmişdir. 1950-ci illərdə, hətta, yunan, çukot, kamçatka, kamçadal dilləri də nostratik dillər sırasına daxil edilmişdir.

Boris Aleksandroviç Serebrennikov nəinki təkcə V.M.İlliç-Svitıçın nostratik nəzəriyyəsi barəsindəki fəaliyyətinin məhsulunu, həm də ümumiyyətlə nostratik nəzəriyyənin özünü dillərin tarixi köklərinin əmələ gəlməsi barədə şübhə yaradan, hətta onu saxtalaşdıran, təhrif edən, korlayan fikir və mülahizələr kimi nəzərə alır.[2]

Türk dillərinin görkəmli tədqiqatçılarından olan A.M.Şerbak isə dünya dillərinin müəyyən qrup müştərək sözlər əsasında

---

[1]В.М.Иллич-Свитыч. Материалы к сравнительному словарю ностратических языков (индоевропейских, алтайских, уральских, дравидских, картвельских, семитохамитских) "Этимология" 1965, М., 1967, с. 321; Йеня онун: Древнейшие индоевропейско-семитские языковые контакты. "Проблемы индоевропейского языкознания", М., 1964, с. 3-4. 2Борис Александрович Серебренников. Почему трудно верить сторонникам ностратической гипотезы-В журн. "Вопросы языкознания", 1986, № 3.

eyni mənşədən törədiyini irəli sürən fərziyyəyə qarşı çıxır və təqdim edilən faktların sistem təşkil etmədiyini, ancaq təsadüfi olduğunu göstərir.[1]

"Ulu dil" məsələsi ilə bağlı sonrakı tədqiqatlarda da bəzi fikir və mülahizələr söylənməkdə davam etmişdir.[2]

"Ulu dil" nəzəriyyəsinin tərəfdarı olan tədqiqatçılar və onların ardıcılları F.Ditsin (1794-1876) və Hüqo Şuxartın (1842-1927) ardınca gedərək belə bir fikrin üstündə dayanırlar ki, əvvəlcə dünya xalqı üçün bir kök dil formalaşıb, sonra isə çarpazlaşma, yayılma, dialektlərə bölünmə, dalğalanma (bunu dalğa nəzəriyyəsi də adlandırırlar) nəticəsində ayrı-ayrı dillər törəmiş və getdikcə onlar müstəqilləşmişlər. Göründüyü kimi, bu fikir və mülahizələrdə "ulu dil" məsələsi olduqca sadələşdirilmiş və onun bəsit bir məntiqlə sübuta yetirilməsinə cəhd göstərilmişdir.

Azərbaycan dilçiliyində də "ulu dil" məsələsinin pozitiv baxımdan izah edilməsi diqqəti cəlb edir. Azərbaycan dilçilərindən Qəzənfər Kazımov "ulu dil" məsələsi ilə əlaqədar deyilənləri, o cümlədən, D.Q.Reder və E.Çerkasovanın "Ən qədim insanların nitqi birhecalı, dəyişməyən və bir-biri ilə bağlanmayan sözlərdən ibarət olması" fikrini davam etdirərək belə nəticəyə gəlir ki, «Beləliklə, məhdud coğrafi ətrazidə təşəkkül tapan dil

---

[1] *А.М.Щербак. К вопросы об отдельных связях тюркских языков. "Актуальные вопросу сравнительного языкознания", Л., 1980, с. 150-161.*

[2] *В.П.Нерозняк. Праязык: Реконструкция или реальность. "Сравнительно-историческое изучение языков разных семей. Теория лингвистической реконструкции". М., 1988, с. 26-43; А.С.Мельничук. О всеобщем родстве языков мира. "Вопросы языкознания", 1991, №2, с. 27-42; "Вопросы языкознания", 1991, № 3, с. 46-65; О.Коваль. Назначении в поэтику общность теории языка и теории искусства в свете художественной семиотики. "Критика и семиотика", Харьков, вып. М., 2007, с. 5-46; Хараева Лариса Ханбиевна. Когнитивное моделирование этимологических гнезд в разносистемных языках. Автореф. докт. дисс., Махачкала, 2007.*

ibtidai insan dəstələrinin ilkin adlandırma və fərdi dil xüsusiyyətləri ilə fərqlənsə də tədricən vahid dil kimi ümumiləşmə prosesi keçmişdir. Biz bunu ulu dil adlandırırıq. 35-40 min illik müddət ərzində ulu dil tam təşəkkül tapmış, mürəkkəbləşmə istiqamətində böyük inkişaf yolu keçmiş, sonrakı minilliklərdə miqrasiyaların çoxalması ilə parçalanma başlamış, tədricən ilkin forma-quruluş etibarı ilə bir-birindən fərqlənən və gələcək dil ailələrinin başında duran protodilləri doğurmuşdur".[1]

Müxtəlifsistemli dillərdə oxşar əlamətlərin müəyyənləşdirilməsi əsasında onların ulu qohumluğunun sübut edilməsinə həsr olunmuş çoxlu sayda tədqiqatlar mövcuddur. Bu əsərlərdə hansısa meyl təqiqatçını bəzi oxşarlıqlara görə daim "ulu dil" məsələsinə yönəldir. Tatar dilçisi Abrar Karimulin (1925-2000) hindu dillərinin türk dillərinin müqaysəsinə aid 8 sözü nümunə gətirir: *kan* (siu dakoto) *kan* (qan) (türk), *min* (siu daktoto) *ben*, *mən*, *min* (türk), *kull* (maya) (əlini qaldırmaq) *kol*, *kul*, *qol* (türk), *ti* (maya) *tiş*, *diş* (türk), *u* (maya) *Ay* (Ay) (türk), *bil* (maya) *belgu, belu* (tat), *bil* (türk), *ike* (maya), (siu doktoto) *ike*, *iki* (türk), *por* (keçua) *ört* (türk) pört (yanmaq).[2]

Hindu dilləri ilə türk dilləri arasında bu tipli paralellərin olması barədəki fikirlər haqqında rəy yazan müəlliflər belə nümunələrə əsasən hətta hinduları və türkləri vahid ulu dil mənşəli bir etnogenez kimi qələmə verməyə cəhd göstərirlər. Zamir Osorov "Kirqizı i indoevropeyüı" adlı əsərində[3] göstərir ki, Abrar Karimulin (1819-1908) Amerika dilçisi Fredrik Lyuis Otto Reriqin fikirlərini davam etdirərək hindu və Ural-Altay dilləri ara-

[1]Д.Г.Редер, Е.Черкасова. История древнего Мира. М., "Просвещение", 1955, с. 34-35; Q.Kazımov. Azərbaycan dilinin tarixi. Bakı, 2009, I fəsil. Dünya dillərinin qohumluğu. Monogenez. s. 11-12.

[2]Ю.Д.Арепьев, А.В.Маловичко. "Комментарии о книге Абрара Каримуллина. Прототурки и индейцы Америки. По следем одной гипотезы". лащ. ру. техт/арепйев/линэ.щтм.

[3]Замир Осоров. Киргизы и индейцы. www. проза. ру (рор/0328/1437.

sında ulu dil qohumluğunu istisna etmir. Zamir Osorovun özü də qırğız dili bazasında hindu və türk dilləri arasında paralellərin olduğuna dair aşağıdakı kimi nümunələri misal göstərir: siu dakoto-, *kuva* türk, *kuu* (qovmaq), siu dakoto- *basku* türk- *kəs* (biç, bıçaq), siu dakoto- *iç* türk- *eç*, *iç*(əri), siu dakoto- *ooç* türk *aş* (yemək), siu dakoto- *koş* türk- *kuş* (quş), siu dakoto- *çalan* türk- *yılan* (çılan, ilan), siu dakoto- *ti* (dişləmək) türk- *diş*, *tiş*, siu dakoto- *tata*, türk- *ata* siu dakoto- *ari*, türk- *arık* (arıq), siu dakoto- *qo*, türk- *qovmaq*[1].

Bu cür paralelliyə qalmış olsa, türk dilləri ilə Avropa, Çin, Yapon, Koreya və digər dillər arasında müştərək elementlər tapmaq olar. Bu halda iddia etmək olarmı ki, türk xalqlarının elə həmin xalqlar ilə də genetik qohumluğu vardır?

"Ulu dil" nəzəriyyəsinə görə sonrakı proseslərdə bir kök dilin üzərində böyük dil ailələri, məsələn, prahind-Avropa, pratürk, protosami və s. böyük dil ailələri formalaşmışdır. Göründüyü kimi, bu yanaşma yeni deyildir, Platondan tutmuş alman alimçiləri F.Ditsə və Şuxarta, oradan Marra qədər gələn və mayasında diskriminasiya daşıyıcısı olan konsepsiyadan ibarətdir. *Belə ki, bu nəzəriyyənin məntiqinə görə hər hansı böyük dil ailələrinin nümayəndələri özlərini "ulu dil"in varisləri adlandıra bilərlər. Harada nüfuz güclüdürsə, fikir sahibi də o ola bilər. Həqiqət isə bunların arxasında gizli qalmağa məhkum olar*. Ona görə də görülən işlərin əhəmiyyətini azaltmayaraq bütün nəzəriyyələri, fikir və mülahizələri, eləcə də indiyədək bu sahədə görülən işlərin nəticələrini ümumiləşdirib daha optimal variant tapmaqa ehtiyac vardır.

"Ulu dil" axtarışı üzrə aparılan tədqiqatlarda oxşar sözlərin aktiv kontakt və alınma prosesinin, həmçinin, qədim insanların ətraf aləmi bir vəhdət təşkil edən düşüncə ilə qavramasının məhulu olduğu da göstərilir. Məsələn, Sergey Anatolyeviç Starostin

[1] *Замир Осоров. Киргизы и индейцы. www. проза. ру (pop/0328/1437.*

belə bir mülahizə irəli sürür ki, quruluşca eyni mənşədən olan sözlər zaman keçdikcə bir-birindən fərqlənməyə başlayıb. Rus dilindəki *ptiüa* və polyak dilindəki *ptak* (quş) sözlərinin hər ikisi slavyan mənşəli *pğta* sözündən ayrılıb. Rus dilindəki *derevo* və ingilis dilindəki *tree* (ağac) sözləri prahindavropadakı *derv* kökündən ayrılıb. Daha sonra isə quruluşca müxtəlif olan və eyni məna üzrə motivləşən sözlər yaranıb. Məsələn, ingilis dilindəki *eye*, *oko* sözü ilə əlaqədardır. Rus dilində isə onun ekvivalenti kimi *qlaz* sözü yaranıb.[1]

Oxşar fikirlər türk-çin leksik paralellərinə həsr olunmuş tədqiqatda da irəli sürülür və bu fikirlərə müvafiq olaraq aşağıdakı kimi nümunələr də göstərilir: *du* (çin), *tuğ* (türk) (bayraq), *long* (çin), *luv* (monq.), *lun* (kalm.), *uluq* (q. türk) (uzun, əjdaha), *dəv* (çin) (böyük, nəhəng), *dev*, *div* (türk), *yin* (çin), *in, ün* (türk) (səs), *lang* (çin), *oğlan* (türk), *tang* (çin) *tan, dan* (türk) (səhər), *dasuan* (çin), *soğan* (türk), *tong* (çin), *teng* (q.türk) (düz), *bı* (çin), *burun* (türk), *boz* (çin), *boyun* (türk)[2] və s.

Müxtəlifsistemli dillərdə oxşar elementlərin mövcudluğu barəsində aparılan tədqiqatlarda leksik oxşarlıqlar xüsusilə diqqəti cəlb edir.[3] Çünki leksik oxşarlıqlar üzrə müqayisə apar-

---

[1] С.А.Старостин. Сравнительно-историческая языкознания и лексикостатистика. – "Лингвистическая реконструкция и древнейшая история Востока", М., 1989, с. 3-39.

[2] www. Wикизнание. ру (ру- wз) индек.пщ п/ тюрко-китайские параллели.

[3] Елшад Алили. Некоторые хуррито-урарто-тюркские лексические параллели, www. диспат.аз /индех.пщп.; Н.М.Будаев. Лексические параллели японского и карачаево-Балкарского языка. Wап. аланла. форум 24. ру; İmran Məlikov. Xatt-ümumtürk dil paralelləri.- Azərbaycan filologiyası məsələləri. Bakı, "Elm", 1984, s. 100-106; Фируддин Джалилов. Морфологическая типология. Морфема гу-"голос" в языках мира. Орада. С. 70-87; В.Асланов, А.Мирзоева. "Сравнительно-сопоставательный анализ слов темпоральной семантики языках различного типологического строя", Орада, с. 88-95; Хабиб Зарбалиев. О числительных Азербайджанского и индонозийского языков. Орада, с. 95-100.

maq daha əlverişlidir. Ancaq istər canlı dillərin və istərsə də ölü dillərin müqayisəsi üzrə aparılan tədqiqat-larda dil ailələrinin yaxınlığı xüsusilə daha artıq nəzərə çarpır. Tədqiqatçılar isə eyni ailədən olmayan dillərdə də oxşarlığın mövcudluğuna istinad edərək dil ailələrinin şəbəkəsini mümkün qədər genişləndirməyə və onu hətta nəticədə bütün dillərə şamil etməyə çalışırlar. Ancaq oxşarlıqların sayının artırılması bütün dillər üzrə eyni nəticənin alınmasına yardım etmək qüvvəsində deyildir. Çünki dünyanın bütün dillərini eyni sap üzərinə düzmək üçün hələ vahid bir arqument tapmaq kimsəyə müyəssər olmayıb. Bu arqumenti tapmaq isə insanın hansı məkanda yaranmasını təyin etmək kimi çətin bir vəzifənin öhdəsindən gəlməyə bərabərdir.

Qlottoxronogiya nəzəriyyəsi

Qlottoxronologiya nəzəriyyəsi yəhudi mənşəli rus emiqrantı Morris Svodeşə (22.01.1909-20.07.1967) məxsusdur. *Qlottoxronologiya* termini mənşəcə yunan dilinə məxsusdur. *Qlotto* - dil, *xronologiya* zaman mənası bildirir. *Qlottoxronologiya* nəzəriyyəsi də dilin zamana görə dəyişməsi problemlərini araşdırır. Bu nəzəriyyəyə görə iki və artıq eyni mənşəli dil müəyyən sözlərin zamana görə dəyişməsi hesabına ilkin kökdən ayrılır. Daha sonra bir-birindən fərqlənən dillər əmələ gəlir. *Qlottoxronologiya* nəzəriyyəsinin əsaslandırılması üçün iki yüz baza sözü seçilir. (Bunu nüvə sözlər də adlandırırlar). Bunlardan ən əsas olan yüzünün və otuzunun üzərində təhlil aparılır. Morris Svodeş bu məqsədlə 207 baza sözü müəyyənləşdirib və təhlilləri də həmin sölər üzərində quraraq, hətta, dillərin dəyişməsinin, ilkin kökdən fərqlənməsinin zamanını da təyin etməyə cəhd göstərir. *Qlottoxronologiya* nəzəriyyəsini ulu dil məsələsinə yaxınlaşdıran cəhət iki və daha çox eyni mənşəli dilin zaman-zaman ayrılıb fərqlənməsindən ibarətdir. Bu

cür dillərin zamanını daha qədimə apardıqda belə çıxır ki, elə bütün dillər eyni mənşədən törəyib və sonralar bu dillər ayrılıb müstəqil dillərə çevriliblər. Morris Svodeş, hətta, bu dillərin yaranma zamanını təyin etmək məqsədi ilə müvafiq düsturlar da müəyyənləşdirmişdir. Onun *qlottoxronologiya* barədəki fikirləri aşağıdakı əsərlərində ümumiləşdirilib: 1."Лингвистические связи Америки и Евроазии",-"Етимология", 1964, 1965; 2. Лексикостатистическое датирование этнических контактов – "Новое в лингвистике", вып. 1. М., 1960.

Dilin yaranması barədəki bütün fikir və mülahizələri müqayisə edərək aşağıdakı nəticələrə gəlmək olar:

1. Dilin yaranması yer üzündə insanın yaranması ilə bağlıdır. İnsan nə zaman yaranmışdır və necə yaranmışdır? – suallarına isə cavab olmadığı faktdır. Onda insanın nədən yaranması sualına cavab tapılmalıdır. Bu sualın cavabı isə maddi aləmin özündədir. Yəni yer üzündə bitkidən tutmuş insana qədər nə varsa hamısı maddi aləmin məhsuludur. Görünür, zaman-zaman yer üzündə maddi aləmin bizə məlum olmayan elementlərinin qaynayıb-qarışmasından, qarşılıqlı mübadiləsindən müəyyən müddətə həm bitki ötrüyü, həm heyvanlar, suda-quruda yaşayan canlılar, həm də insanlar yaranmışdır. "Quran"ın 36-cı (Yasin) surəsinin 33-cü ayəsində deyilir ki, "Ölü torpaq onlar üçün (insanlar üçün) bir dəlildir. Biz onu (yağışla) dirildir, oradan (arpa, buğda, düyü və s. kimi) dənələr çıxardırıq, onlar da ondan yeyirlər". Görünür, doğrudan da təbiətdə elə bir hadisə baş vermişdir ki, yer maddəsi ilə göy maddəsinin təmasından min və milyon illər ərzində bitki örtüyü, insanlar və digər canlı məxluqlar yaranmışdır. Ancaq bütün canlılardan fərqli olaraq təfəkkür sahibi kimi yaranmış insanlar sonrakı dövrlərdə böyük kəşflər əldə etmələrinə baxmayaraq özlərinin yaranmaları haqqında heç bir məlumata malik ola bilməmişlər. Böyük mütəfəkkir Məhəmməd Füzuli də belə deyir ki,

Yox özündən xəbəri kim ki, gəlir dünyayə
Bəzmdən dışra qomaz piri-muğan huşyarı. I, 314, 5.

(Dünyaya gələnin özündən xəbəri yoxdur (dünyaya necə gəldiyini özü bilmir), o ayıq olsa idi (batini aləmin sirlərinə bələd olsa idi) muğlar piri (ilahi varlıq) onu dünya sınağından keçmək üçün məclisdən (ilahi dərgahdan) çıxmağa ehtiyac görməzdi). Bu, Füzulinin dünya haqqındakı panteist düşüncəsi idi. Ancaq biz deyə bilmərik ki, nə üçün insanlara xeyir verən it yarandığı halda həm də ziyanlıq verən canavar, şir, pələng və başqa heyvanlar və o cümlədən zəhərli həşəratlar yaranmışdır. Yeməli meyvə verən ağaclarla meyvəsi ziyanlı olanlar da yaranmışdır. Xeyirli bitkilərlə yanaşı ziyanlı olanlar da yaranmışdır. Nəyə görə canlıların bədən materiyası ətdən ibarət olmuşdur? Necə olmuşdur ki, canlıların bir qisminin əti həm də digərləri üçün yem kimi yaranmışdır? Görünür, burada təbiətin nizamını tənzim edən zəncirvari elə bir əlaqə var ki, onu pozmaq olmaz. Məsələn, mümkündür ki, canlıların bir qisminin məhv olması təbiətdəki hansısa nizamın pozulmasına səbəb olsun.

2. Təbiətin bir tərkib hissəsi kimi insanın da yer maddəsindən yarandığını təkzib edən əlavə bir dəlil yoxdursa onda belə mülahizə etmək məntiqsiz görünməz ki, insan yer üzünün onun həyat şəraiti üçün münasib olan məkanlarında yarana bilərdi. Bu məkanlar, əlbəttəki, buz üstü yox, səhra yox, münbit şəraiti olan ərazilər ola bilərdi. Yer üzündə nə qədər belə ərazilər var? Saymaqla qurtarmaq olmaz. Deməli, insan da başqa varlıqlar kimi əlbəttə ki, maddələr mübadiləsinin yetişdirdiyi yer üzü sakinlərinin bir qismidir. Mümkündür ki, insan yer üzündəki ayrı-ayrı, bir-biri ilə məsafəcə yaxın olmayan ərazilərdə yaranıb məskunlaşmış olsun. Həmçinin, belə də hökm vermək olmaz ki, bütün ərazilərdə canlılar birdən-birə torpaqdan baş qaldırmış

olsun. Ancaq insan yer üzünün münbit şəraiti olan məkanlarında yaranmışsa deməli dil də bir məkanda yox, insanın formalaşa biləcəyi ayrı-ayrı məkanlarda yaranmışdır. Belə olduqda bu gün müxtəlifsistemli dillərdə müşahidə olunan müştərək köklü sözlərin mövcudluğunun səbəblərini necə izah etmək mümkündür? Biz bildiyimiz kimi sadə və asan olmayan bu sualın cavabı hələ ki, qalır və güman ki, bundan sonrakı zamanlarda da onun açılmasına çoxlu-çoxlu cəhdlər baş verəcəkdir. Onu da nəzərə almaq lazımdır ki, yerin ayrı-ayrı qurşaqlarında yaranmış insanların dərilərinin rəngi də təbiətlə həmahəng olaraq bir-birindən fərqlənir. Yer qurşağının bir ərazisində ağ, bir ərazisində sarı, bir ərazisində qara, digər bir ərazisində qırmızı, başqa bir ərazisində isə xurmayı dərili insanlar yaranmışdır. Bu məsələlər paleoantropologiya elminə aid olsa da onların açılması dilin yaranması barədəki bir çox müəmmaların aydınlaşdırılmasının təməlinə çevriləcəkdir.

3. Dilin yaranmasında insan və ətraf mühit amilinin aparıcı olduğu barədə təbiət nəzəriyyəsində müəyyən müddəalar irəli sürülmüşdür. Ancaq görünür, bu müddəalar özünü tam şəkildə doğrulda bilmədiyindən sonralar başqa fərziyyələr və baxışlar da irəli sürülmüşdür. Doğrudur, insan şüuru idrak prosesi nəticəsində ətraf aləmi qavrayır. Bu qavrayış təfəkkürə çevrilir. Təfəkkür isə ətraf aləm hadisələrini beyində imitasiya edərək onu söz emalına çevirir. Ancaq sözlərin yaranması təkcə ətraf aləmin qavranılıb təfəkkür süzgəcindən keçirilməsi ilə bitib başa çatmaqla yekunlaşırmı? Əlbəttə ki, yox. Çünki insan təfəkkürünün hüdudları təkcə ətraf aləmi, təbiəti və təbiətdə baş verən hadisələri əhatə etmir. İnsan təfəkkürü, həmçinin insana məxsus duyğu və düşüncələri, emosiya və münasibətləri, zahirə və batinə aid olanları, bir sözlə, gözlə görülə bilən və təsəvvürə gətirilə bilən hər şeyi qavramağa qadirdir. Ona görə də dilin yaran-

masında həm təbiətin, həm insanın öz daxili aləminin və həm də cəmiyyətin dərki mühüm rol oynayır. Beləliklə, insan təbiəti, özünü və cəmiyyəti dərk edə-edə əşya, hadisə və prosesləri imitasiyaya çevirib təfəkkürün süzgəcindən keçirə-keçirə dilin formalaşmasının bünövrəsini qoyur. İnsan təfəkkürü, əlbəttə ki, birbaşa səsli dili yaratmayıb. Səsli dilə keçid ilkin informasiya vasitəsi olan daxili nitqdən başlanır. Daxili nitq isə öz xarakterinə görə universaldır. Yəni bütün insanlar ətraf aləm hadisələrini və özünüdərk prosesini eyni cür qavraya bilərlər. Dillər arasında koqnitiv (oxşar) elementlərin yaranması da məhz bu proseslə bağlıdır. Daxili nitqin universallığı dilçilikdə bir sıra yeniliklərin də baş verməsinə səbəb olmuşdur. Məsələn, yəhudi mənşəli Amerika dilçisi Zelliq Xarris (1909-1992) özünün "Transformasiya dilçiliyi"nə dair tədqiqatlarında koqnitiv elementlərin araşdırılmasına diqqəti cəlb edir. Digər yəhudi mənşəli Amerika dilçisi Roam Xomski isə (1928) daxili və zahiri nitqin əlaqəsi fonunda dilçilikdə inqilab kimi "Törəmə qrammatika" ideyasını ərsəyə gətirmişdir. Aydındır ki, insan həm təbiəti, həm özünü və həm də cəmiyyəti bir anda dərk edib onu imitasiyaya çevirməklə təfəkkürün malı kimi formalaşdıra bilməzdi. Buna illər, əsrlər, zamanlar lazım olmuşdur. Ona görə də dilin birdəfəyə yaranması barədə fikirlər söylənirsə bu ancaq əfsanəyə bərabər olar.

4. İnsanın yaranması üçün əlverişli mühit dünyanın müxtəlif yerlərində mümkün olduğu üçün demək olmaz ki, insan ailəsi bir ərazidə dünyaya göz açmış və sonralar böyük miqrasiyalar baş verməklə kök dildən başqa dillər yaranmışdır. Əgər zaman-zaman yer maddəsinin daxili elementlərinin qarşılıqlı mübadiləsi ilə insan yaranmasının hazırlıq mərhələsi baş vermirsə onda bu proses dünyanın müxtəlif yerlərində və güman ki, müxtəlif zaman məsafələrində meydana çıxa bilərdi. Bu halda, hər bir ərazidə yaranan insan nəsli mümkündür ki, özü üçün xüsusi bir

dil yarada idi. Onda necə olur ki, dünyanın müxtəlif guşələrində mövcud olan ayrı-ayrı dillərin arasında heç bir kontakt yaranmadığı halda müştərək elementlər baş vermiş olurdu? Bu suala cavab vermək üçün onu nəzərə almaq lazımdır ki, dünyanın hansı ərazisində baş qaldırmasından asılı olmayaraq bütün insanlar idrakdan təfəkkürə keçidi olan şüurla yaranır. Təfəkkürün yaratdığı imitasiya prosesində isə oxşar tipoloji əlaqələrin olması istisna sayılmamalıdır. Məhz təbiətin insana və cəmiyyətə aid hadisə və proseslərin oxşar imitasiyalarla qavranılması ərazi etibarı ilə bir-birindən uzaq məsafədəki dillərin arasında müştərək elementlərin yaranmasına səbəb olmuşdur. Burada yenə bir sual peyda olur ki, oxşar təfəkkürlə oxşar imitasiyalar baş vermişsə onda gərək yenə də dillər arasında da kök birliyi mümkün olaydı. Ancaq nəzərə almaz lazımdır ki, ilk insanların yaşadığı ərazinin, təbiətin, cəmiyyətin və fərdlərin bütün keyfiyyətləri bir-birinin üzərinə düşmür. İnsanların məskunlaşdığı ərazilərin bəziləri daşlı-kəsəkli, bəziləri dağlı-təpəli, bəziləri çay vadiləri, bəziləri meşəlik və s. ola bilərdi. İnsanların isə bir qismi bəsit və ya iti təfəkkürlü ola bilərdi. Ona görə də hansı məqamda ətraf aləmin, insanın və cəmiyyətin dərki ilə bağlı oxşar imitasiyalar baş verə bilmişsə həmin imitasiyaların formalaşdırdığı elementlərin arasında da müştərəkliklər yaranmışdır. Başqa hallarda isə fərqli elementlər əmələ gəlmişdir. Mövcud tədqiqatlarda da hökm verilmir ki, müxtəlifsistemli dillərin arasındakı bütün elementlər genetik cəhətdən eyni olan koqnitiv köklərdən ibarətdir. Tədqiqatlarda, fakt budur ki, oxşarlığı təsdiq edilən elementlərdən bəhs olunur.

Dillər ayrı-ayrı ərazilərdə müxtəlif zamanlar ərzində formalaşdığından mümkündür ki, analoji imitasiyalar əsasında baş verən tipoloji oxşarlıqlar da eyni vaxta düşməmiş olsun. Ona görə də hansı qrup sözlərdə müştərəklik olmasının təhlili üçün

baş sındırmaq və belə elementləri sistemləşdirməyə cəhd etmək əbəsdir. Oxşar imitasiyalar istər təbiətin, istər insanın və istərsə də cəmiyyət həyatının dərkində baş verə bilər. Ona görə də tədqiqatlarda oxşar elementlərin sistemliliyindən daha çox onların tipoloji keyfiyyətlərinin açılmasına diqqət yetirmək lazımdır. Dillərin arasında oxşar imitasiyalar əsasında müştərək elementlərin törədiyinin təsadüfi olmadığı onunla təsdiq edilə bilər ki, belə elementlərin özlərinin ardıcıllığı vardır. (Bu barədə sonrakı səhifələrdə bəhs edilir).

5. Ayrı-ayrı dil ailələrinin yaranması məsələsinə gəlincə burada məsələni qəlizləşdirən elə bir problem görünmür. İlk insan qruplarının ayrı-ayrı münbit ərazilərdə məskunlaşması məntiqə uyğun hesab olunursa onda ehtimal etmək mümkündür ki, kompakt insan qrupları getdikcə öz ərazilərini genişləndirmiş, yəni törəmiş, artmış, çoxalmış və yayılmışlar. Yayıldıqca onların dillərinin genetik oxşarlığı saxlanmaqla bir-biri ilə tipoloji quruluşda ciddi fərq yaratmayan dil ailələri də formalaşmışdır. Məsələn, türk dilləri ailəsi kimi, Hind-Avropa dilləri ailəsi kimi, Çin-tibet dilləri ailəsi kimi, Sami-hami dilləri ailəsi kimi və s. Bu dil ailələrinin içərisində isə zaman-zaman özünün xüsusi norması ilə fərqlənən müstəqil milli dillər formalaşmağa başlamışdır. Dünya dillərinin yaranmasında belə prosesin baş verməsi mümkün hesab edildiyi halda, onların bir kökdən törəməsini sübut etməyə yönələn cəhdlərin heç bir praktik əhəmiyyəti və perspektivi yoxdur. Ancaq müxtəlifsistemli dillərin arasındakı müştərək elementlərin tədqiq olunması bir dildə izahı çətin olan söz və formaların tapılmasında, mənaların anlaşılmasında, ayrı-ayrı dillərin tarixi və etimoloji lüğətlərinin hazırlanmasında çox böyük əhəmiyyətə malikdir. Müxtəlifsistemli dillərdə müştərəkliklərin araşdırılması ilə, həmçinin dillərarası boşluqların (lakunaların) mövcudluğu da ortaya çıxır. Məsələn, Azərbaycan

dilində insanı cinsə görə fərqləndirən müvafiq sözlər vardır: *kişi-qadın, qız-oğlan* və s. heyvana aid cins bildirən sözlərdə isə boşluqlar var. Məsələn, erkək at *ayğır* adlanır, dişi at *madyan*. Erkək dəvə *nər* adlanır, dişi dəvə *maya*. Ancaq erkək *şir* ilə *canavar* ilə, *tülkü* ilə *pişik* ilə onların dişilərini bildirən sözlər formalaşmamışdır. Odur ki, belə boşluqların səbəbləri də insan və ətraf mühitin dərki ilə bağlı müəyyən olunmalıdır. İndiki informasiya əsrində ayrı-ayrı müstəqil dillərin beynəlxalq informasiya məkanına qoşulmasında sözlərin düzgün mənalandırılması baxımından bu istiqamətdəki tədqiqatlar xüsusi əhəmiyyətə malikdir. Onu da nəzərə almaq lazımdır ki, müxtəlifsistemli dillərdəki genetik müştərəkliklər araşdırdıqca bu dillərdəki tipoloji uyğunluqlara aid faktları da ortaya çıxarmaq olur. Bu baxımdan dillərin tipoloji dəyişmələrinin istiqamətləri barəsindəki bir çox fikirlərə də yeniliklər edə bilmək mümkündür. Ona görə də görkəmli alimlərin müxtəlifsistemli dillər barədə dediyi bu fikirləri unutmaq olmaz ki, "Müxtəlifsistemli dillərin müqayisəli təhlili ana dilində çətin müşahidə olunan məqamların açılmasına imkan yaradır, eyni zamanda, ana dilini gözlənilməz bir nurla işıqlandırır".[1]

[1] *Л.В.Щерба. Преподавание иностранных языков в школе. М-Л., 1947, с. 44; А.Ахундов. Цмуми дилчилик. Бакы, 1979, с. 234.*

Dünya dillərinin genealogiyası

Dillərin genealoji təsnifi tipoloji tədqiqatlarla bağlı meydana çıxmışdır. Genealoji təsnif qohum dil ailələrinin qruplaşdırılması məsələsini əhatə edir. Qohum dillərin öyrənilməsi ilə əlaqədar belə bir məsələ aydınlaşdırılmalı olur ki, bu dillər müəyyən arasıkəsilməz ərazilərdə yayılmışdır. Bundan belə çıxır ki, dil yayılmamışdan əvvəl dil istifadəçiləri müvafiq ərazilərdə məskunlaşmışalar. Qohum dillərin müəyyən ərazilər üzrə yayılmasını öyrənmək dilçilik coğrafiyasının meydana gəlməsini şərtləndirir. Tipoloji təsnifə müxtəlifsistemli, qohum olan və qohum olmayan dillər daxil edilirsə, genealoji təsnifə ancaq qohum olan dillər, dil ailələri, dil qrupları daxil edilir. Dillərin qohumluq coğrafiyası A.A. Reformatiskinin "Введение языкознание" (M., 1967) adlı əsərinə geniş və ətraflı izah edilir. Həmin kitabda dillərin genealoji təsnifi aşağıdakı kimi verilmişdir:

I **Hind-Avropa dilləri**

Hind qrupu

Bu qrupda 96-dan çox canlı dil olduğu göstərilir:

1. Hindi və Urdu (Hindistani)
2. Benqal
3. Pəncab
4. Lahnda
5. Sindhi
6. Pacastrani
7. Qucarati
8. Marathi
9. Sinqal

10. Nepal (Şərqi Pahari)
11. Bihari
12. Oriya (Odri, Utkali- Şərqi Hindistan)
13. Assam
14. Kəşmir və başqa dard dilləri
15. Qaraçı (bizim eranın V-X əsrlərində miqrasiya etmişlər)
16. Sanskrit-veda
17. Pali
18. Prakrit

İran qrupu

1. Fars
2. Paşto (Puştu, Əfqan)
3. Bəluci
4. Tacik
5. Kürd
6. Osetin (İron-şərqi, Diqor-qərbi)
7. Tat (müsəlman tatlar, yəhudi tatlar)
8. Talış
9. Xəzəryanı (Gilan, Mazandaran)
10. Pamir dilləri (Şuqnan, Ruşan, Bartanq, Sarıkol, Yazqulem, T
11. Yaqnob

Ölü dillər

1. Qədim fars (mixi yazılar e.ə. VI-IV əsrlər)
2. Avesta
3. Pəhləvi (orta fars dili – III-IX əsrlər)
4. Midiya
5. Parfiya
6. Soqdi
7. Xarəzm
8. Skif (alanlar)

9. Sak (Xatan – Orta Asiya və Çin Türküstanı V-X əsrlər)

Slavyan qrupu

Şərq qrupu

1. Rus (veliko rus)
2. Ukraniya (malorosiyya)
3. Belorus
4. Bolqar
5. Serb-Xorvat
6. Makedon
7. Sloven

Ölü dil

Qədim slavyan (qədim kilsə-slavyan)

Qərb qrupu

1. Çex
2. Slovak
3. Polyak
4. Kaşub
5. Serboluj (Serb, Vend) Yuxarı luj, Aşağı luj

Ölü dillər

1. Polab-XVIII əsrdən işlədilmir, Lab (Elba) sahillərində yayılan dil olmuşdur.

1. Nomor dialektləri

Baltik qrupu

1. Litva
2. Latış
3. Latqal (latış dalekti)

Ölü dil

Prussiya (XVIII əsrdən ölü dildir)

German qrupu

Şimali german

1. Danimarka (Dat)

2. İsveç
3. Norveç
4. İsland
5. Farrer

Qərbi German

1. İngilis (V-XI əsrlərdə anqlosaksoniyanın dili olmuşdur. XVI əsrdən ədəbi dil formalaşmışdır)
2. Holland dili (Flomand dili ilə birlikdə)
3. Frid abidələrinin dili (XIV əsr)
4. Alman dili, aşağı (şimal) və yuxarı (cənub) dialektləri
5. İdiş (Yaxud yidiş, Yeni yəhudi)

Şərqi german

11. Vestqot (orta əsrlər İspanyada və Şimali İtaliyada danışılmışdır)
12. Ostqot (Qara dəniz sahillərində yayılan dil olmuşdur)

Roman qrupu

1. Fransız
2. Provansal (Cənub- şərqi Farnsa)
3. İtalyan
4. Sardin (və ya sard)
5. İspan
6. Katolik (İtaliya)
7. Rumın
8. Moldovan
9. Makedon-Rumın (Aromun)
10. Reto-roman
11. Portuqal
12. Kreol (Haiti adasında fransız və yerli dilin qarşılığı)

Ölü dillər

1. Latın (e.ə.III əsrdə Roma Respublikasında imperator dövrünün dili)

2. Orta əsrlər, vulqar latın (latın xalq dilinin şivələri)

3. Osk, Umbr, Sabel və başqa italiyan şivələri; yazılı abidələri vardır

Kelt qrupu

Qall qrupu

1. İrland
2. Şotland
3. Man (İrland dəniz) ada dili

Brit qrupu

1. Breton
2. Uels (və ya Valli)

Ölü dil

Qall – Fransız dövründə ölü dilə çevrilib.

Qalliyada, Şimali İtaliyada, Balkanlarda və Kiçik Asiyada yayılmışdır.

Yunan qrupu

Yeni Yunan (XII əsrdən)

Ölü dillər

1.Qədim Yunan (e.ə. X əsr)

2. Orta Yunan və ya vizantiya

Alban qrupu

Alban dili (yazılı abidələri latın əsasında XV əsrdəndir)

Erməni qrupu

Erməni dili (Qrabar – ölü dil yanlış olaraq qədim erməni dili adlandırılır, bu Pəhləvi dilidir; aşxarabar – yeni, canlı dildir)

Anadolu qrupu

Ölü dillər

1. Xett (xett – nesit) abidələri mixi yazılar ilədir. Xett dili Kiçik Asiyada e.ə. XIX – XII əsrlərdə Xett dövlətinin dili olmuşdur.

1. Lüvi

2. Palay
3. Kariy
4. Lidiy
5.Likiy

Toxar qrupu

1. Toxar A. (Turfan, Qaraşar – Çin Türküstanında mövcud olmuşdur)
2. Toxar B. (Kuçan) Yenə orada, e.ə. VII əsrdə mövcud olmuşdur.

II Sami – Hami dillər

Sami dillər (Sami dillər adı Sam peyğəmbərin adı ilə adlandırılır) qrupu

1. Ərəb
2. Amxar (amofil) Efiyopiyanın ədəbi dilidir
3. Aysori (Arameylərin nəslindəndirlər)
4. Tiqre, tiqrin, qyraqe, harari və başqaları

Ölü dillər

1. Akkad (Assuro-Vavilyon – Babil)
2. Uqorit
3. Qədim Yəhudi (İsraildə onun bazasında ivrit dili formalaşmışdır)
4. Aramey (e.ə. III – b.e. IV əsrləri)
5. Finikiya. Karfagen dövlətinin dili olmuşdur
6. Heez. Həbəşistanın qədim ədəbi dili olmuşdur. IV-XV əsrlərə kimi ibadət dili səviyyəsində işlədilmişdir.

Misir qrupu

Ölü dillər

1. Qədim Misir (e.ə. III minillikdən eranın III əsrinə qədər.

Kahinlərin dili olmuşdur. Yazılarında heroqlifdən istifadə edilmişdir).

2. Kont dili – Orta əsrlərdən XVI əsrə qədər Misirdə ibadət dili kimi işlənmişdir. Yazılarında yunan əlifbasından istifadə edilmişdir.

Kuşit qrupu

1. Qalla
2. Somali
3. Aqau, Sidamoo, Saxo, Beçan və başqaları

Berb qrupu

1. Tuareq
2. Kabil
3. Şilx
4. Rif
5. Tamazist
6. Şiviya

Ölü dillər

1. Livi
2. Numidi
3. Qetul

Çad-Hami dillər qrupu

1. Xausa

2. Qərbi Çad: niqizm, Kotono, Anqas, Karekar, Sura, Kono, Xadeci, Kataqum və başqa dialektlər

3. Şərqi Çad: Muzqu, Mubi, Sokoro və başqaları.

Qafqaz dilləri

Qərb qrupu: Abxaz-adigey və ya Abxaz-çərkəz

1. Abxaz qrupu: şimal şivələri-bzıb, abjuy və ya kadar. Cənub şivələri- yazısı 1954-cü ilə kimi olmuşdur.
2. Abazin
3. Çərkəz

4. Adıgey
5. Kabardin
6. Ubıx (Çar dövründə Türkiyəyə köçürülmüşlər)

B. Nax (Veynax, Basbay, Kistin) qrupu
1. Çeçen
2. Inquş
3. Baski (Bask)

Dağıstan qrupu
1. Avar
2. Dargin
3. Ləzgi
4. Lak (Qazı-Qumuq)
5. Tabasaran
6. Andi
7. Karatin
8. Tindin
9. Çomalin
10. Baqlal
11. Axvax
12. Balin
13. Qadaberin
14. Teez
15. Bejetin
16. Xivarşin
17. Qunzib
18. Qişux
19. Saxur
20. Rutul
21. Aqul

22. Kubaçin
23. Arçin
24. Budux
25. Krız (Qrız)
26. Udin
27. Xınalıq

Cənubi Kartvel qrupu

Zan (Meqre-Çan) yarımqrupu

1 Çan (Laz)
2 Meqrel

İber (kartveli) yarımqrupu

1 Gürcü (Yazısı) V əsrdəndir.
2 Xevsur(Kartali, İmeret, Quri)

Svan yarımqrupu

Svan

Qrupdankənar dillər

Bask dilləri

Fin-uqor dilləri

Uqor qrupu

1. Madyar (Macar, Uqor)
2. Mansı (Mansi, Voqul)
3. Xansı (Xantı, Ostyak)

Fin qrupu

Baltikyanı qrup

1 Fin (Suomi)
2 Saam (saami, lopar)
3 Eston
4. Karel
5. İnqer (inqre)

Perm yarımqrupu

1. Komi-zıryan

2. Komi-periyak
3. Udmurd(votyak)

Volqa yarımqrupu

1. Mari, Çeremis
2. Mordova

Samodi dilləri

1. Nen (Yuxarı samoyed)
2. Nqansal (Tonqi)
3. Selkup (Ostyak-samoyed)
4. Enes

Türk dilləri

1. Türk
2. Azərbaycan
3. Türkmən
4. Qaqauz
5. Krım-tatar
6. Qaraçay
7. Balkar
8. Kumık
9. Noqay
10. Karaim
11. Qazan-tatar
12. Başqırd
13. Qərbi Sibir (Çulım, Barabin, Turin, Tobal, İşim, Tümen-tatar)
14. Altay (Oyrot, Kumandin)
15. Şor (Altay-Şor)
16. Xakas (Saçay, Bıltir, Çolbay, Kaçin, kızıl)
17. Tuva
18. Karaqaş
19. Yaqut (Dolqan dialektləri)

20. Qazax (Kaysax- qırğız)
21. Qırğız (Qara qırğız)
22. Özbək
23. Qaraqalpaq
24. Uyğur (Tarançi)
25. Çuvaş

Ölü dillər

1. Orxon
2. Peçeneq
3. Poloves
4. Qədim Uyğur
5. Cağatay
6. Bulqar
7. Xəzər

Monqol dilləri

1. Xalxa-monqol
2. Buryat-monqol
3. Kalmık (Oyrot)

Tunqus-Mancur dilləri

Tunqus qrupu

1. Evenk (Tunqus)
2. Evenk (lamut)
3. Neqidal

Mancur qrupu

1. Mancur
2. Nanay
3. Udey
4. Oroç

Çin-Tibet dilləri

Tan-Çin

1. Çin
2. Dunqan
3. Tay (Tayland, Siam)
4. Laos
5. Çjuan
6. Vyetnam (Əvvəlki variantı Annam dilidir)

Tibet-Birma dilləri

1. Birma
2.Tibet

Dravid dilləri

1. Tamil
2. Telequ
3. Malalayam
4. Kannada (Kannara)
5. Tulu
6. Qandi
7. Braxun

Qrupdankənar dillər Bruksa(Verşin) dilləri

Austro-Aziat dilləri

1. Munda, Santali, Mundari, Xo, Buxumadci və s. dillər
2. Kxmer dilləri
3. Mon (Kxasi, Palenq, Nikobar) dilləri
4. Malaqaş qrupu (Semanq, Senay)
5. Cənub-şərq dilləri (Çam, Rodoy, Caray)

Malay-polines dilləri

Malay yaxud Polineziya qrupu

Sumatra yarımqrupu

1. İndoneziya
2. Batak
3. Açe

Yava yarımqrupu

1. Yava
2. Sundam
3. Madur
4. Balu

Dyak yaxud, Klimantan yarımqrupu,
Diak dilləri Selebes yarımqrupu

1. Toric
2. Buqiy
3. Minakas

Flippin yarımqrupu

1. Taqal (Taqaloq)
2. İlokan

Madaqasqar yarımqrupu

Malaqaş
Ölü dil
Kavi

Polineziya qrupu

1. Şərqi: Maori, Havay
2. Qərbi: Samoa, Uvea

Avstraliya dilləri
Aranta

Papua dilləri

Yeni Qvineya

Afirkanın yeni dilləri

Bantu dilləri

Şimal-qərb qrupu

1. Bube
2. Lunzu
3. Fanq
4. Benla

Şimal qrupu

1. Konqo
2. Qanda (Luqanda)
3. Rundi

Konqo hövzəsi dilləri qrupu

1. Konqo
2. Hdonqo
3. Poto
4. Pqala

Mərkəzi qrup

1. Lube
2. Bemba
3. Subiya

Şərq qrupu

1. Suaxili
2. Sanqo
3. Şambala

Cənub-şərq qrupu

1. Zulu
2. Sato
3. Venda
4. Şona

Qərb qrupu

1. Nudonqa
2.Lunda

Bantu dilləri(Şərq dilləri)

1. Tiv
2. Bamileks
3. Bali
4. Efik

Bantu (Mərkəzi dillər)

1. Senudo
2. Kulanqo
3. Mosi
4. Qurma

Bantu (qərbi Atlantik dilləri)

1. Qola
2. Tenda
3. Fomi
4. Volf
5. Fus

Mande dilləri

1. Mandinqo
2. Malinke
3. Bambara
4. Mende
5. Loma

Qvineya dilləri

1. Kru
2. Alan
3. Kva
4. Eve
5. Yaruba
6. Nune
7. Edo
8. Tvi

Sonqam dilləri

1. Sonqam
2. Zarma
3. Dendi

Kanuri-Teda dilləri

1. Kanuri
2. Teda

Mərkəzi və Şərqi Sudan dilləri

1. Zanda
2. Banda
3. Miltu
4. Berta
5. Kala
6. Barea
7. Kunama

Karfagen dilləri

1. Taladi
2. Laorofa
3. Taqell

Nilot dilləri

1. Nuer
2. Şilluk
3. Nyanqya
4. Bari
5. Pokot
6. Qola

Paleoafrika dilləri

1. Buşmen (Sani)
2. Qottontet (Nama)

Paleoaziat dilləri

Çukot dilləri

1. Çukot
2.Koryak
3.Kamçadal (İtelmen)

Sibir qrupu

1. Odul
2.Nivx (Çilyak)

Kel dili

Uzaq Şərqin heç bir qrupa aid olmayan dilləri

1.Yonon

3. Koreya

4. Rukyu

5. Ayn

Eskimos dilləri

1. Eskimos (yunt)

2. Aluet (Unanqan)

Şimali Amerika dilləri

1. Alqonkin (Massaçutes,Delevar, Moqikan, Mikmax, Foks, Ori, Ocubve, Notavatami, İllin,T oys, Şeyein, Blakfut, Aranoko)

2. İrokez (Piroki, Tuskarora)

3. Siu (Biloksi, Ofo, Tutelo, Kotleba)

4. Natçes- musxço (Natçes, Alabama, Notaiv)

5. Moeskye (Kvakidtl, Nutka, Çimaxum, Kileute, Çexaliya, Kaliskel)

6. Atabask (Xayda, Tlinqit, Navaxo, Simşian, Kutenam, Xuna, Matom)

7. Penuti

8. Xono (Karok, Şasta, Yana, Çimariko, Nomo, Salina)

Mərkəzi Amerika dilləri

1. Uto-astek (Nakutal, Moşane, Xoşi)

2. Mayya (Mem, Kekçı, Kuçe, Kakçinom, Pokonçi, Pokomamiksil, Tzeltal, Tzotzil, Tocolobal, Çol, Yukatex, Çorti, Xuakstex)

3. Otoman, Miskuta, Mataqalna, Çipça

Cənubi Amerika dilləri

1. Tupi-quarani

2. Keçua (Peruda qədim inklərin dili indi Peruda, Boliviyada, Ekvadorda danışılır).

3. Arabak
4. Araukan
5. Çon
6. Alanaluor
7. Pano
8. Karib qrupu
9. Je

Dünya dillərinin tipologiyası

Dünya dillərində zaman keçdikcə nitq fəaliyyətindəki intensivliyə müvafiq olaraq struktur dəyişmələri baş verir. Strukturdakı dəyişmələr isə sistemdə dəyişmə əməl gəlir. Ona görə də müasir dillərin quruluşunda bir-birindən fərqli sistemlərin mövcudluğu müşahidə edilir.

Aparılan tədqiqatların nəticəsi olaraq bütün dünya dilləri öz tipoli quruluşuna görə aşağıdakı kimi təsnif edilir:

1. Köksözlü dillər
2. Flektiv dillər
3. Aqlütinativ dillər
4. İnkorpolaşan (polisintetik) dillər

Kök sözlü dillər

Köksözlü dillərə elmi ədəbiyyatlarda amorf dillər də deyilir. Amorf termini köksözlü dillərə ona görə tətbiq edilir ki, o dillərdə sözün əvvlinə və ya sonuna qoşulan qrammatik əlamətlər mövcud deyildir. Belə dillərdə söz köklərinin cümlə əmələ gətirməsi söz sırası ilə, intonasiya ilə, həmçinin köməkçi sözlərin yanaşması ilə tənzim olunur. Sözlərin qrammatik əlaqələnməsi üçün başqa vasitələr formalaşmamışdır. Yəni bu dillərdə qrammatik formayaradıcı vasitələr yoxdur. Məhz amorf termini də bu məqsədlə işlədilir. Ancaq köksözlü dillərə istinad üçün amorf terminini işlətmək məntiqi cəhətdən düzgün deyildir. Çünki mənşəcə yunan dilinə məxsus olan amorf sözünün mənası formasız deməkdir. Şəkilçilərin mövcudluğundan asılı olmayaraq dünyada formasız bir dil möcud deyil. Əlbəttə ki köksözlü quruluşa malik olan Çin dili də formasız deyildir. Söz varsa, onun daxili fonomorfoloji quruluşu varsa, bu sözlər vasitəsi ilə cümlə ququlursa, deməli, onların formsı da vardır. Odur ki, amorf sözünün termin kimi köksözlü dillərə tətbiqi düzgün sayılmamalıdır.

Köksözlü dillərə Çin-Tibet dilləri aiddir. Bu dillərin içərisində ən əzngin olanı Çin dilidir. Çin dilində qrammatik sözyaratma vasitələri olmadığına baxmayaraq, bu dilin daxili sözyaratma imkanları (intonasiya, reduplikasiya, kökdaxili dəyişmə və s.) güclüdür. Odur ki, Çin dilin lüğət tərkibi olduqca zəngindir. Hətta bu zənginlik mövcud lüğətlərin özündə də tamailə əhatə oluna bilmir. Çin dilinin yazılı qolu qədim ənənələrə müvafiq olaraq normaya görə sabit saxlandığı üçün şifahi nitq ondan kəsgin dərəcədə fərqlənir. Lakin ənənələrin saxlanması, informasiyaların itməməsi üçün şifahi nitqdəki dəyişmələrin yazılı nitqə tətbiq olunmasına yol verilmir. Çin dilində (eləcə də digər köksözlü dillərdə) qrammatik formalar inkişaf etmədiyinə görə bu dilin leksik bazası monosillabik köklərə əsaslanır. Başqa sözlə, Çin dilində sözlərlə köklərin sərhəddi eynidir. Yəni bu dildə düzəltmə söz yoxdur. Köklər isə sözün bazasını təşkil edir. Ancaq sözlərin təkrarı (reduplikasiyası) yolu ilə leksik vahilərin yaranması da istisna deyildir. Mümkündür ki, reduplikasiya yolu ilə düzələn sözlərin tərəflərindən biri getdikcə şəkilçi formasına çevrilə bilsin. Reduplikasiya ilə söz yaradıcılığı Çin dilində, eləcə də digər köksözlü dillərdə monosillabizmdən disillabizmə keçidin başlanğıc mərhələsi kimi də nəzərə alına bilər. Belə bir qayda əlbəttə okkazional üsulla sözyaratmağa yol açır ki, belə sözlərin mövcudluğu və artımı, hətta onların lüğətlərə sığışdırılmasını məhdudlaşdırır. Çin dilində sözlərə qoşula bilən morfemlər (köməkçi sözlər) də mövcuddur. Ancaq onları felektiv dillərdəki morfemlərlə müqayisə etmək olmur. Bunlar suffiks funksiyası daşıya bilsə də kəmiyyətcə çox deyidir. Ancaq bu onu deməyə əsas verir ki, Çin dili (köksözlü dillər) nə qədər mühavizəkar olur-olsun nitqin təsiri öz işini görməkdədir. Yəni nə zamansa bu dillərdə disillabizmin formalaşacağı istisna deyildir. Çin dilində disillabizmin rüşeymi reduplikasiyadan başlanır. Reduplikasiya yolu ilə yaranan sözlərdə bir növ, mə-

nanın əlavəsi, canlandırılması, başqa sözlə, intensivləşdirilməsi müşahidə edilir. Məsələn, *kanь* (görmək) – *kanь-kanь* (nəzarət etmək), *tin* (dinlənmək) – *tin-tin* (çox dinləmək), *dzou* (yerimək) – *dzou-dzou* (gəzmək) və s. bu cür sözlər Azərbaycan dilindəki *yavaş – yavaş-yavaş, isti – isti-isti, tez – tez-tez* kimi sözlərlə müqayisə edilə bilər.

Çin dilinin cümlələrində sıra və ardıcılıq sabitdir. Cümlədə sözlərin yerini dəyişdikdə mənada dəyişmə baş verir. Çin dili cümlələrində zahirən sözlərin hansı cümlə üzvü olmasını təyin etmək olmur. Çünki sözlərin qrammatik şəkilçisi yoxdur. Belə ki, Azərbaycan dilindəki "Kitab stolun üstündədir" cümləsində aydın olur ki, kitab adlıq haldadır, xəbərlə üzlaşma əlaqəsi yaradır. Kitab sözünün yerini dəyişdikdə qrammatik mənada da dəyişmə baş verir: "Stolun üstündəki kitabdır". Bu cümlədə *kitab* sözü xəbərin qrammatik əlamətini qəbul edir. *Stolun üstündədir* xəbəri isə mübtədanın qrammatik əlamətini qəbul edir. Çin dilində sözlər intonasiyaya və müvafiq bir sıra ilə düzülür. Məsələn, *Vo (mən) tala (vurdum) ta (onu)* cümləsini Azərbaycan dilinin qrammatikası üzrə dəyişdikdə məna dəyişmir. *Ta (onu) vo (mən) tala (vurdum)*. Çin dilində isə "Ta vo dala" forması ilə "O, məni vurdu" mənası alınır.

Çin dilinə aid bu xüsusiyyətlər digər köksözlü Tibet dillərində də (tai-çin, tibet-birma, Himalay, Vyetnam) mövcuddur.

Flektiv (analitik) dillər

Flektiv (analitik) dillər qrupuna Hind-Avropa dilləri ailəsi daxildir. Dilçilik ədəbiyyatında bəzən flektiv və analitik dilləri bir-birindən fərqləndirən əlamətlərin müəyyənləşdirilməsinə cəhd göstərilir. Flektiv termini mənşə etibarı ilə latın dilinə məxsusdur. Mənası *əyilmə, dəyişmə* deməkdir. Dilçilikdə sonluq, sözün son hissəsinin təsriflənməyə görə dəyişməsi, həmçinin daxili dəyişmə mənasında işlənir. Daxili dəyişmə zamanı sözün mənasında fərqlənmə baş verir. Məsələn, *xoð* (hərəkət) sözün-

dən *хаживать* (yerimək) sözü düzəldilir. *Хаживать* sözünə **у** əlavə etdikdə *ухаживать* (qulluq etmək), *уход* (gediş), *выходь* (çıxış), *вход* (giriş) kimi sözlər yaranır. Flektiv dillərin daxili quruluşunda analitizm əsas yer tutur. Analitizm termini mənşəcə latın dilinə məxsusdur. Mənası uyğun olan (bərabər olan) deməkdir. Dilçilikdə analitizm termini bərabərhüquqlu (sözhüquqlu) elemetlərin birləşib bir vahid yaratmsı kimi qəbul edilir. Analitizm həm də sözün əvvəlinə bərabərhüquqlu sözyaratma funksiyasını daşıya bilən elementlərin daxil edilməsi kimi də başa düşülür. Analitizm bir qayda olaraq sintetizmə qarşı qoyulur. Sintetizm sözü bir termin kimi *sintez* sözündən yaranmışdır. Mənası qoşulma deməkdir. Dilçilikdə sonşəkilçililik mənasında başa düşülür. Sintetizm və analitizm dillərdə adekvat vahidlərin əvvələ və ya sona qoşulması faktlarına əsasən müqayisə edilir. Məsələn, rus dilindəki *стол* sözü hallanıb yiyəlik hala düşdükdə *стола* (stolun) formasını alır. Fransız dilində isə adekvat element əvvələ keçir: *de la tabe;* ingilis dilində eyni qayda müşahidə edilir: *to table*. Rus dilindəki *страна* sözü hala görə dəyişdikdə *страны, стране, страну, страной, странами, странах* kimi formalara düşür. Yəni sözün əvvəli yox, sonu dəyişir. İngilis dilndə isə sözün əvvəli dəyişir: *the country* (ölkə), *of the contury* (ölkənin) *to the country* (ölkəyə)**,** *with the country* (ölkə ilə) və s.

Bu xüsusiyyətə görə rus dili ya flektiv-sintetik və ya flektiv dillər qrupuna daxil edilir. Roman-german dilləri isə analitik dillər hesab olunur. Halbuki, rus dilini, eləcə də rus dilinin daxil olduğu slavyan dil qrupunu analitizmdən təcrid etmək mümkün deyildir. Misal üçün aşağıdakı nümunələri nəzərə almaq olar: *верить–поверить, играть–проиграть, классный–внеклассный, планетный–межпланетный, краска–окраска, против–напротив, стол–на столе, под столом, звонить–перезвонить və s.*

Analitik tip kimi təqdim olunan dillərdə sintetizm (şəkil-

çiləşmə) əlaməti vardır: *organ–organization, abbeviate - abbeviation, abnormal (qeyri-normal) – anormality (qeyri-normallıq), brather–brather`s, book–book`s* və s.

Flektiv və ya flektiv-sintetik dil qrupuna aid edeilən fars dilində də həm analitik, həm də sintetik əlamətlər var. *Be daneşqah (məktəbə), əz daneşqah (məktəbdən); rəftəm (gəldim, getdim), rəfteəm (gəlmişəm), rəfti (getdi)*

Analitizm və flektivizm əlamətləri bütün hind-Avropa dillərində müştərəkdir. Eyni zamanda, bu dillərdə sintetizmin əlamətləri formalaşmışdır. Odur ki, bu dilləri analitik-sintetik, flektiv-sintetik qruplarına ayırmaqdansa, analitiklik-flektivlik əlamətlərinə görə səciyyələndirmək daha məqsədəuyğundur. Çünki bu dillərdə əsas aparıcı elementlər analitiklikdən və flektivlikdən ibarətdir.

Aqlütinativ dillər

Aqlütinasiya termini mənşəcə latın dilinə məxsusdur. Mənası yapışma, birləşmə deməkdir.

Dilçilikdə bu termin düzəltmə sözlərin əmələ gəlməsi və qrammatik formaların dəyişməsi zamanı şəkilçilərin söz sonuna qoşulması kimi başa düşülür. Aqqültinasiya termini həm də söz sonuna qoşulan şəkilçilərin bir-biri ilə sıra, ardıcıllıq təşkil etməsi, bir-birinin arxasınca düzülüb *sıra, cərgə, tandem* əmələ gətirməsi mənalarını da əhatə edir. Aqlütinasiya üzrə söz sonuna qoşulan şəkilçilərin hər birinin öz qrammatik mənası olur. Odur ki, onları bir-birindən ayırmaq və ya yerlərini dəyişmək olmur. Əgər *tandemin* hər hansı bir üzvü iştirak etmirsə, özündən sonra gələn onun yerini tutur. Məsələn, Azərbaycan dilində kəmiyyət və hal şəkilçilərinin hər birinin öz qrammatik mənaları vardır: at-atlar-atlarda. Qrammatik şəkilçilər öz aralarında aşağıdakı kimi *tandem* (sıra, cərgə) əmələ gətirirlər: *at-atlar-atların-atlarında-atlarındadır***.** Hər hansı əvvəlki şəkilçi işlənmədikdə sonrakı şəkilçi onun yerini tutur: *tlarındadır-atlarındır-atlar-*

dır-atdır.Yerdəyişmə isə mümkün deyildir: *at-ın-lar-dır* forması yoxdur. Eləcə də sözdüzəldici şəkilçilərdə sıra vardır: *qur-aş-dır-ıcı-lıq*. Bu sözdə şəkilçilərin yerini dəyişib *qur-dur-aş-ıcı-lıq* kimi ifadə etmək olmur.

Türk dilləri ailəsi aqlütinativ dillər qrupuna daxildir. Türk dillərində bir qayda olaraq sözdüzəldici və sözdəyişdirici şəkilçilərin söz sonuna qoşulması ümumi qaydadır. Həm sözdüzəldici, həm də sözdəyişdirici şəkilçilərin hər birinin qrammatik mənası vardır. Məsələn, *saxlatdırılacaqdır* sözündə *saxla* söz kökü – birinci icbar növ şəkilçisi (t), ikinci icbardan icbar düzəldən şəkilçi (-dır), -*ıl* məchul növ şəkilçisi, *acaq* qəti gələcək zaman şəkilçisi, -*dır* (sonuncu) xəbərlik şəkilçisidir. Aqlütinativ dillərə məxsus bu əlamət başqa dillərdə mövcud deyildir. Aqlütinativ dillər qrupunda türk dilləri aparıcı yer tutur. Bu dillər qrupuna, həmçinin fin-uqor və monqol dilləri daxildir.

İnkorporlaşan (polisintetik) dillər

İnkorporlaşma termini mənşəcə latın dilinə məxsusdur. Mənası öz tərkibinə daxil olmaq, birləşmək, bitişmək deməkdir. İnkorporlaşan dillərə polisintetik dillər də deyilir. Polisintetik termini də mənşəcə latın dilinə məxsusdur. İkorporlaşma ilə paralel işlədilir. Polisintetik dillərdə söz ilə cümlənin sərhəddi yoxdur. Yəni cümlələr daxilən sıralanır, sözlərin leksik funksiyası qrammatik funksiya ilə əvəz olunur. Ona görə də bu dillər polisintetik hesab olunur. Polisintetik dillərə Amerika hindularının dilləri, eləcə də çukot-koryak dilləri qrupu daxildir. Şimali Amerika hindularının dilindəki *ninakakva* sözünü polisintetizmə aid nümunə kimi göstərmək olar. Bu söz hərfən *mən ət yemək* mənasını bildirir. Burada *ni* mən, *nakatatl* (kök – naka) - ət, *kva* – yemək mənasını bildirən sözlərdir. Onlar bir vahiddə birləşib söz şəklində formalaşsa da əslində, cümlə kimi işlədilir.

Yaxud *tivalantoak* sözü mən bıçağı çıxartdım mənasını bildirir. Burada *ti* – birinci şəxsin presiksi, *vala* – bıçaq söznün əsa-

sı, *nto* – çıxarmaq sözünün əsası, *ak* – keçmiş zamanı və birinci şəxsin təkini bildirən suffiksdir.

İnkorporlaşma əlaməti başqa dillərdə də müşahidə edilə bilər. Məsələn, Azərbaycan dilində *buküçəmənədargəlir, hacımənəbax, alışdımyandım, əlinivurmagendədur* kimi vahidlər cümlə üzvlərinin birləşməsi yolu ilə yaranmışdır. Lakin bunlar cümlə kimi yox söz kimi işlədilir. Ancaq *gördüyündürmü, gəldiyimdi* kimi bir vahiddə biləşmiş sözlər, əslində, inkorporlaşmış cümlə kimi işlədilir. "*Gördüyündürmü*?" sözü *sən məni niyə görməyibsən, görüşməyibsən?; "Gədiyimdi*"-sözü isə *gözləmə, mən gəlməyəcəyəm* anlamında işlənir. Dünya dillərinin bu dörd qrupa bölünməsi şərtidir. Bu mənada ki, fəaliyyətdə olan bütün dillərdə başqa-başqa qrupların əlamətlərini görmək mümkündür. Məsələn, köksözlü dillərdəki ikihecalılığın təzahürü onlarada morfoloji əlamətin formalaşmaqda olduğundan xəbər verir. Analitik-flektiv dillərdəki təkhecalılığın və sonşəkilçililiyin (suffiksin) mövcudluğu aqlütinasiya əlamətləridir. Aqlütinativ dillərdə söz əvvəlinə sözdüzəldici əlamətlərin əlavəsi, yəni qrammatik söz yanaşması (nə bilir, nə danışır, nə yaxşı, bu yan, o yan, nə əcəb, nə gözəl) ifadələri analitiklik elementləridir. İnkorporlaşan dillərdə cümlələrin sözlərə çevrilməsi köksözlülüyə qayıdış istiqamətləri kimi başa düşülə bilər. Bu o demək deyildir ki, dillərin daxili quruluşunda etapların bir-birini izləməsi labüd inkişaf istiqamətidir. Əksinə, köksözlü dillərin öz quruluşunda, digər dillər isə müvafiq strukturda fəaliyyət göstərir. Dillərin daxili dəyişməsi nitq aktivliyi ilə ölçülür. Ona görə demək olmaz ki, bütün müasir dillər zaman-zaman öz quruluşlarındakı nisbi sabitliyi saxlayacaqlar.

Dillərin daxili quruluşundan danışarkən *sintetiklik* barədə də izahlar lazım gəlir. Elə bir dil yoxdur ki, onda bu və ya digər quruluşlu dillərin əlamətləri müşahidə edilməsin. Məsələn, Azərbaycan dili aqlütinativ dil olduğu halda bu dildə flektivli-

yin, analitikliyin və inkorporasiyanın izlərinə rast gəlmək olur. Ancaq Azərbaycan dilində aparıcılıq aqlütinativ quruluşa aiddir. Bu mənada sintetiklik əlamətlərinə də ayrı-ayrı dillərdə rast gəlmək olur. *Sintetik* termini mənşəcə yunan dilinə məxsusdur. Mənası yanaşma, birləşmə deməkdir. Sintetik dillərdə qrammatik əlamətlər mövcuddur. Yəni belə dillərdə həm ismə, həm də felə aid qrammatik şəkilçilər formalaşmışdır. Sintetik dillərdə qrammatik əlamətlər olmasına baxmayaraq bu dillərdə şəkilçilərin söz sonuna qoşulması aqlütinativ quruluşlu dillərdən fərqlənir. Belə ki, məsələn, söz sonuna qoşulan şəkilçilər hər bir qrammatik kateqoriyanın özünə aid olur. Məsələn, rus dilində sintetiklik əlaməti mövcuddur. Sözə yalnız bir qrammatik şəkilçi qoşulur: *страна, страны, стране, страну, страной, странах*. Şəkilçilərin söz sonunda ardıcıl sırası mövcud deyildir. Məsələn, Azərbaycan dilindəki *kitablarımdan* sözü rus dilində *из моих книг* kimi ifadə edilir. Fars dilində "Bu mənim qardaşımdır" cümləsi "İn bəradəre mən əst" kimi deyilir. Yəni bu cümlələrdəki "kitablarımdandır", «qardaşımdır» sözlərindəki qrammatik vasitələr rus və fars dillərində ardıcıl şıralanmır. Sintetik dillərlə aqlütinativ dillərin fərqi odur ki, sintetik dillərin söz sonunda şəkilçi sıralanması baş vermir. Aqlütinativ dillərdə isə silsilə sözdüzəldici şəkilçilərdən sonra silsilə qrammatik şəkilçilər gəlir: *yara-d-ıcı-lar-ımız-dan-dır-lar*. Sintetiklik polyak, qədim yunan və latın, macar, rus və erməni dilləri üçün səciyyəvi əlamətdir.

Dillərin daxili quruluşunun müxtəlifliyi dilçilikdə ayrı-ayrı nəzəriyyələrin yaranmasına da səbəb olmuşdur. Məsələn, N.Y. Marr və İ.İ.Meşşaninov stadial nəzəriyyə adı ilə yalnış bir fərziyyə irəli sürərək göstərirdilər ki, dillərin həyatında mərhələli bir inkişaf vardır. Bu nəzəriyyənin əsası XIX əsrin alman alimi Avqust Şleyxerin bioloji nəzəriyyəsinə əsaslanır. Mərhələli (stadial) nəzəriyyəyə görə dillər öz bünövrəsini köksözlülükdən

götürür. Bu nəzəriyyəyə görə köksözlü dillər dünya dillərinin inkişafında ən ilk və ibtidai bir mərhələdir. Flektiv dillər isə dillərin inkişafının ən yüksək mərhələsini təşkil edir. İnkorporlaşan dillər isə gah köksözlü, gah da aqlütinativ dillərlə bir sıraya daxil edilir. Bu nəzəriyyənin əsas motivi bundan ibarətdir ki, dillər mərhələ-mərhələ inkişaf edib *flektivizmə - sonuncu yerə* çatır. Həm də bu nəzəriyyədə dillərin inkişaf mərhələsi ondan istifadə edənlərin təfəkkür səviyyəsi ilə eyniləşdirilir. Belə ki, məsələn, köksözlü dillər ibtidai mərhələ kimi nəzərdə tutuduğu üçün bu dillərdə danışan əhalinin təfəkkürünün də az inkişaf etdiyi nəzərdə tutulur. Eyni zamanda, aqlütinativ və inkorporlaşan dillərin daşıyıcılarının da təfəkkürünün az inkişaf etdiyi iddia olunur. Flektiv dillərin daşıyıcılarında isə təfəkkürün çox inkişaf etdiyi barədə səhv fikirlər göstərilir. Əlbəttə ki, bu nəzəriyyə əslində dil diskriminasiyasından başqa bir şey deyil. Ona görə də özünə haqq qazandıra bilmədi.

Bu nəzəriyyənin tərəfdarlarından olan İ.İ.Meşşaninov dünya dillərini hətta *erqativliyə* və *nominativliyə* görə iki qrupa bölürdü. Erqativlik, yəni təsirlik halın olmaması Qafqaz-iber dillərinə xasdır. Belə cüzi xarakterə görə dilləri qruplara bölməyin də ciddi əhəmiyyəti yoxdur. Ancaq onu da nəzərə almaq lazımdır ki, dil tipologiyasını dörd sistem üzrə fərqləndirməyin özündə də natamamlıq vardır. Çünki, əvvəla, bütün dünya dillərinin quruluşu tam öyrənilməmişdir. İkincisi, dillərin quruluşunda qarşılıqlı müştərəkliklər mövcuddur. Üçüncüsü, tipoloji bölgüdə morfoloji quruluş əsas meyar kimi nəzərə alınmışdır. Dördüncüsü, heç bir qrupa daxil edilməyən dillər də mövcuddur. Məsələn, erməni dili, bask dilləri, bruksa (verşin) dilləri, Yapon, rukyu, Koreya, ayn dilləri də bu qəbildəndir.

Dilçilk tipologiyasının öyrənilməsini dərinləşdirdikcə dünya dilləri arasında daxili, sirli, gizli, üstü zaman-zaman örtülmüş müştərəkliklərin açılması imkanı əldə edilə bilir.

Əsas dilçilik məktəbləri

Qədim hind dilçiliyk məktəbi

Qədim hind dilçiliyinin tarixi eramızdan 1500 il əəvvələ gedib çıxır. Hind dilçiliyinin yaranmasının səbəbi müqəddəs himnlərin dili olan sanskrit ilə xalq dili sayılan prakrit arasında fərqlənmələrin baş verməsindən ibarətdir. Prakritdən xalq dili kimi daha çox istifadə olunurdu. Sanskrit isə dini ayinlərin, mərasimlərin icrasında daha çox istifadə edilirdi. Beləliklə də, sanskrit getdikcə öz informasiya vəzifəsindən uzaqlaşmağa başlayırdı. Yəni əhali arasında sanskritin işlənməsinə bir məhdudiyyət yaranırdı. Belə bir fərqin baş verməsi sanskrit istifadəçilərini təlaşa salırdı. Çünki sanskrit unudulsa idi, dini mərasimlər və ayinlər yaddan çıxmaq təhlükəsi ilə üzləşə bilərdi. Odur ki, sanskriti itib getməkdən və prakritin assimliyasiya təsirlərindən qorumaq lazım gəlirdi. Qədim hind dilçiliyi məhz belə bir problemin həlli məqsədi ilə yaranmışdır. Qədim hind dilində qorunub saxlanmalı olan sanskrit mənbələri bunlar idi:

1.Riq – veda (himnlər kitabı)

2.Sama – veda (müqəddəs şeirlər kitabı)

3.Yacur – veda (Qurban mərasimi kitabı)

4.Atharva - veda (Ovsunlar (cadugərlik) kitabı)

Qədim hindlilərin sanskrit dilinin qorunması üçün ilə vedaların dil quruluşu məsələləri də təhlil edilirdi. Bunlar aşağıdakılardan ibarət idi:

1.Şiqşa – fonetika və tələffüz məsələləri

2.Nirukta – leksikologiya və etimologiya

3.Viyakaranda – qrammatika

4.Üslubiyyat və poeziya (çxanda) məsələləri

Qədim Hindistanın görkəmli dilçisi eramızdan əvvəl IV əsrin ikinci yarısında yaşamış *Panini* olmuşdur. Qədim sanskrit dilinin quruluşunu təsvir edən Panini dili sistem kimi başa düşürdü, nitq hadisələrini (6 nitq hissəsini) fərqləndirirdi. Onun təhlilində söz əsası, kök, şəkilçi, daxili fleksiya, intonasiya, vurğu barədə fikirlər mühüm yer tuturdu. Panini, həmçinin, dialekt fərqlənmələrini də diqqətdən yayındırmırdı.

Qədim hind dilçiliyi nümayəndələri sırasına eradan üç əsr əvvəl yaşamış *Vararuçi, Katyayana*, iki əsr əvvəl yaşamış *Patancali,* eramızın I əsrində yaşamış *Amara* kimi dilçilər də daxildir.

Qədim hind dilçiliyində fonetik vahidlər xüsusi təsvir olunur. Onların fizioloji akustik xarakteri barədə aydın məlumatlar verilir. Qarammatika sahəsində maraqlı araşdırmalar aparılırdı. Adlar və fellər barədə, sözlərin əlaqə formaları və cümlələr barədə indiyə qədər də öz əhəmiyyətini itirməyən fikirlər irəli sürülürdü.

Yunan dilçilik məktəbi

Yunan dilçiliyinə iki əsas məktəb daxil idi:

1.Yunan dilçiliyi

2. İsgəndəriyyə qrammatikası

Yunan dilçiliyi Yunanıstanın özündə yaranmışdır. Bu məktəblərin tədqiqat üsulları arasında fəqrlər var idi. Yunan dilçilik məktəbində dilçiliyin nəzəri məsələləri, həmçinin ritorika və üslubiyyat kimi shələr öyrənilirdi. Bu məktəbin nümayəndələri Demokrit, Platon, Aristotel kimi böyük filosoflər olmuşlar.

İsgəndəriyyə qrammatikası məktəbində dilçiliyin praktik məsələlərinin öyrənilməsi üstünlük təşkil edirdi. Normativ qrammatikanın tədqiqinə və təhlilinə üstünlük verilirdi. Bu məktəbin nümayəndələri filosoflar yox, dilçilər olmuşlar. Bu məktəbdə mübahisəli məslələr adlar və əşyalar arasında əlaqənin olub-olmamasında idi.

İsgəndəriyyə məktəbinin ən görkəmli nümayəndələrindən biri Samofrakiyalı Aristrax idi. O, eramızdan əvvəl 200-cü – 150-ci illərdə anadan olmuşdur. Onun şagirdi Dionisi eramızın 100-cü ilində anadan olub. Bu dilçilik məktəbinin ənənələri üzrə fonetikaya, morfologiyaya, leksikologiyaya və sintaksisə dair çoxlu tədqiaqtlar aparılmışdır.

Ərəb dilçilik məktəbi

Bu məktəb eramızın VII-VIII əsrlərində yaranmışdır. Böyük inkişaf yolu IX-X əsrlərə aiddir. Ərəb dilçiliyi də hind dilçiliyi kimi dini mənbələrin dilini ərəb dialektlərinin təsirindən qorumaq məqsədini əsas tuturdu. Ərəb dilçiliyi məktəbinin əsas nümayəndələri bunlar idi: Sibəveyhi (793-cü ildə ölüb) leksikoqraf, milliyətcə fars; Əbu-Übeyda (770-837) yunan, saqan-hindli; Xətib Təbrizi üslubiyyatçı, Azərbaycanlı.

Ərəb dilçiliyi məktəbinin nümayəndələrinin fonetikaya, lesikoqrfiya və qrammatikaya aid çoxlu əsərləri var idi.

Ərəblər səs və hərfi bir-birindən fərqləndirirdilər. Bu da yunan və hind dilçiliyi ilə müqayisədə üstünlük idi. Fonetikada səslərin və səsdəki mənalılığın müəyyənləşdirilməsi fonetika sahəsində irəliləyiş idi. Ərəb alimləri sait və samitləri fərqləndirir və samitlərin tələffüz yuvalarını dəqiqliklə təsvir edirdilər. Samitlərin 16 əmələgəlmə yerini göstərirdilər. Bu da təcrübi (eksperimental) fonetikanın olmadığı dövrdə böyük irəliləyiş idi. Əsas əsərlər bunlar idi: Əli ibn Sina- "Danışıq səslərinin səbəbləri", İhva- "Sosioloji fonetika", Sibəveyhi -"Əl-kitab" (qrammatika)

Daxili fleksiya və şəkilçilərin iştirakı ilə sözdüzəltmə yollarını yaxşı izah edirdilər. Söz köklərini üç samit əsasında izah edirdilər: məktəb – k-t-b, kitab – k-t-b, məktub - k-t-b, katib – k,t,b; natiq – n, t, q, nitq – n, t,q məntiq – n, t, q; hökm – h, k, m, hakim – h, k, m; təhkim – h, k, m, həkim – h, k, m.

Ərəb dilçiliyində ənənəvi qaydaya çevrilmiş bu modellərdən istifadə indi də qalır. Ərəb dilçilik məktəbinin modelləri başqa dillərə də tətbiq edilirdi. Məsələn, Mahmud Kaşğarinin "Divan-i lüğət-it-türk" adllı əsəri türk dillərinin müqayisəsinə həsr olunsa da təhlil üsulu ərəb dili modellərinə əsaslanırdı. Mahmud Kaşğarinin sintaksisə həsr olunmuş "Kitabi-cəvahürül-nəhv fillüğət-it-türk" adlı əsəri də olmuşdur ki, bu əsər indiyə qədər əldə edilməmişdir. Qədim dilçilikdə sintaksisə az yer verildiyindən, əlbəttə, bu əsərin dəyəri ölçüyəgəlməzdir.

Müqayisəli tarixi dilçilik məkətbi

(XIX əsr) Müqayisəli tarixi dilçilik məkətbinin nümayəndələri bunlar idi: Frans Bopp, Ramus Raks, Yakov Qrimm, Aleksandr Vostokov. Bunlar bir-birindən asılı olmayaraq Hind-Avropa dillərinin müqayisəli tarixi qrammatikasına dair tədqiqatlar aparmışlar.

Frans Bopp (1791-1867) fransız dilçisidir, əsas əsərləri bunlardır:

1. Yunan, latın, fars və german dillərinin təsrifi ilə müqayisədə və mətnin orijinalında, dəqiq vəznli tərcümədə Pamayana və Mahabaratadan epizodlarla və Vedaların təfriqələrlə sanskritin təsrif sistemi" (1816)

2. "Sanskrit, zend, erməni, yunan, latın, Litva, köhnə slavyan, qot və alman dilərinin müqayisli qrammatikası" 1833-1852 (I cild), 1861 (II cild), 1868-1870 (III cild)

Frans Bopp dillərin tipologiyasını belə göstərirdi:

1) həqiq söz kökü olmayan dillər
2) birləşmə qabiliyyəti olan təkhecalı söz kökləri olan dillər
3) üç samitlə səciyyələnən ikihecalı söz kökləri olan dillər

Ramus Rask (1787-1832) Danimarka dilçisidir. 25 dil bilirdi. "Qəddim Şimal dili sahəsində tədqiqat və yaxud island dilinin mənşəyi" əsərinin müəllifidir..

Yakov Qrimm (1785-1863) alman dilçisidir. Əsas əsərləri bunlardır.

1) "Alman qrammatikası" (1819-I, -1837 II, III, IV cildlər)
2) "Alman dilinin tarixi" (1848)

Dil kökləri haqqındakı fikri bu idi ki, onların tərkibində aşağıdakı elementlər durur: Hind-Avropa – bh, dh, gh; german – b, d, g; Hind-Avropa – b, d, g; german p, t, k; Hind-Avropa – p, t, k; german – f, th, h.

Aleksandr Vostokov. (1781-1864) Rus dilçisidir. Peterburq EA-nın akademiki olub. Əsas əsərləri bunlardır:

1) "Slavyan dili haqqında mülahizələr" – 1820
2) "Kilsə-slavyan dilinin lüğəti" (1858-1861)

Fəlsəfi dilçilik məktəbi

Fəlsəfi dilçilik məktəbi Vilhelm fon Humboldtun adı ilə bağlıdır. (1767-1835) Dilçiliyin fəlsəfi məsələləri bu məşhur alman dilçisinin aşağıdakı əsərlərində ümumiləşdirilir:

1)"Yava adasındakı kavi dili haqqında" (1836-1839)

2)"İnkişafın müxtəlif dövrlərinə tətbiq edilməklə dillərin müqayisəli şəkildə öyrənilməsi haqqında" (1830-1835)

Onun əsərlərində dilə bir sistem kimi yanaşılır. Eyni zamanda Vilhelm Humboldt dili fərdlərin mənəvi həyatı və təfəkkürü üçün əsas göstərici hesab edirdi. Başqa sözlə, dili ayrı-ayrı fərdlərin məhsulu kimi başa düşürdü. Humboldta görə dil xalq ruhunun ifadəsi idi. Onun fikrincə, xalq təbiətlə və cəmiyyətlə dil vasitəsi ilə əlaqədə olur.

Naturalizm dilçilik məktəbi

Avqust Şleyxer (1821-1868) məşhur alman dilçisidir. Naturalizm dilçilik məktəbinin banisi olmuşdur. Əsas əsərləri aşağıdakılardan ibarətdir:

1) "Dillərin müqayisəli tarixinə dair" (1848)
2) "Avropa dilləri" (1850)

3) "Müqayisəli dilçilik tədqiqləri" (1850)
4) "Kilsə slavyan dilinin morfologiyası" (1852)
5) "Litva dili üzərində təlimat" (1855 -1857)
6) "Alman dili" (1959)

Avqust Şleyxerin naturalist görüşləri onda idi ki, o dili səs materiallarından yaranmış ən yüksək təbiət orqanizmi hesab edirdi. O, dili canlı orqanizmlərin canlı həyatından fərqləndirmirdi. Canlı orqanizmlərin sadə başlanğıcdan mürəkkəb formaya doğru və qocalmaq mərhəsinə kimi davamlı prosesini A.Şleyxer dilə də tətbiq edirdi. Dillərin inkişafının birinci mərhələsini *kök dillərə*, ikinci mərhələsini *aqlütinativ dillərə*, üçüncü mərhələsini isə *flekiv dillərə* aid edirdi. "Dillərdə sonralar niyə dəyişiklik olmadı?" sualına isə fantastika ilə cavab verirdi. Onun mülahizəsinə görə tarixəqədərki dövrdə dilə ruh hakim olub. Sonra isə ruh dildən uzaqlaşıb. Nəticədə dildə qocalma, dağılma prosesi başlanır.

Psixoloji dilçilik məktəbi

Heyman Şteyntal (alman dilçisi, 1823-1899), A.A.Potebnya (ukraynalı, rus dilçisi)

Heyman Şteyntalın əsas əsərləri bunlar idi:

1) "Dillərin təsnifi dil ideyasının inkişafı kimi" (1850)
2) "Dilin mənşəyi" (1851)
3) "Qrammatika, məntiq, psixologiya onların prinsipləri və qarşılıqlı əlaqələri" (1855).
4) "Dilin fəlsəfəsi" (1888).
5) "Psixologiyaya və dilçiliyə giriş" (1871).

Onun fikrincə, dil qavranılmış daxili, psixi, mənəvi hərəkətlərin, vəziyyətlərin və əlaqələrin mərkəzləşmiş səslər vasitəsi ilə ifadəsidir.

A.A.Potebniyanın əsas əsərləri aşağıdakılardan ibarətdir:

1) “Fikir və dil” (1862)
2) “Rus dili səslərinin tarixinə dair” (1876)
3) “Filologiya nəzəriyyəsi üzrə mühazirələrdən” (1905)

Potebniyanın psixoloji təsəvvürü ona əsaslanırdı ki, o “dili təfəkkürün ifadə vasitəsi yox, yaranma vasitəsi” kimi başa düşürdü. O deyirdi ki, “dil sahəsi təfəkkür sahəsi ilə heç də uyğun gəlmir”. Potebniyanın fikirlərində diqqəti daha çox cəlb edən bu idi ki, o deyirdi: “xalqın mövcud olmasının yeganə, əvəzolunmaz, zəruri şərti dil birliyidir”.

Gənc qrammatiklər məktəbi.

Bu məktəbin nümayəndələri A.Leskin, B.Delbryük, G.Paul, G.Osthof və K.Bruqman idi. Gənc qrammatiklər məktəbi XIX əsrin 70-80-ci illərdə yaranmağa başlamışdı. Bir qrup gənc dilçi ilk növbədə Avqust Şleyxeri tənqid edərək yeni bir konsepsiya yaratmağa çalışırdılar. Onlar Leyspiq universitetinin professorları idilər. Köhnə nəslin nümayəndələri onları istehza ilə “gənc qrammatiklər” adlandırırdılar. “Gənc qrammatiklər”in bir çox tərəfdarları da var idi ki, onlardan aşağıdakıların adlarını göstərmək olar: M.Breal (1832-1915, Fransa), V.Tomsen (1842-1927, Danimarka), F.F.Fortunatov, F.M.Buslayev (Rusiya). Onların tədqiqatlarında fonetika və qrammatika əsas yer tuturdu. Bu isə dil sisteminin hərtərəfli öyrənilməsinə kifayyət etmirdi. Nəzəri dilçilik görüşlərində isə psixologizm üstünlük təşkil edirdi.

Moskva dilçilik məktəbləri

Moskva dilçilik məktəbinin banisi Filip Fyodoroviç Fortunatov idi (1848-1914). Gənc qrammatiklərin görüşlərini davam etdirirdi. Müqayisəli dilçilik sahəsində tədqiqatlar aparırdı. Dilləri tiplərinə görə aşağıdakı kimi bölürdü:

1) aqlütinativ dillər (Ural-Altay)

2) flektiv-aqqültinativ dillər (sami dillər)
3) flektiv dillər (hind-Avropa dilləri)
4) kök dillər (Çin, Siam və s. dillər)
5) polisintetik dillər (Amerika hindularının dilləri)

Kazan dilçilik məktəbi

Kazan dilçilik məktəbinin aparıcı nümayəndəsi Boduen de Kurtene (1845-1929) idi. Milliyətcə polyak idi. Əsas fəaliyyəti Kazan universiteti ilə bağlı olmuşdur. Dilçilik tarixində ilk dəfə fonem nəzəriyyəsini yaratmışdır. Fonem, morfem və sintaqm, leksem, qrafem, kinem (artikulyasiya – tələffüz üzrə fərqləndirici əlamət), aksuma kimi terminləri dilə gətirmişdir. Kazan dilçilik məktəbinin digər nümayəndələrindən Nikolay Vyaçeslovoviç Krusevskinin (1851-1887), Vasili Vasileyviç Radlovun (1837-1918) və Vasili Alikseyeviç Boqoroditskinin (1857-1941) adlarını çəkmək olar. Sonuncu iki böyük dilçi türk dilləri sahəsində tədqiaqtlar aparıbıar.

Neolinqvistika dilçilik məktəbi. Bu məktəb XX əsrin 20-ci illərində formalaşmışdır. Əsas nümayəndələri M.Bartoli, C.Bertoni və V.Pizani idi. Məktəbin məkanı İtaliya olmuşdur. Onların konsepsiyasında "Gənc qrammatiklər"in tənqidi əsas yer tuturdu. Neolinqvistlər dilə estetik ifadələrin məcmusu kimi yanaşırdılar, *dilçilik coğrafiyası* ideyasını irəli sürürdülər, semantikanı əsas götürüdülər; dil dəyişmələrini etnik qarışmalarla izah edirdilər.

Sosioloji dilçilik məktəbi

Bu məktəbin əsas nümayəndəsi Ferdinad de Sösür (İsveç dilçisi, 1857-1913) idi. Əsas əsəri "Ümumi dilçilik kursu" adlanır, ölümündən sonra 1916-cı ildə tələbələri Şarl Balli və Albert Seşe tərəfindən çap edilmişdir. Sösürün dilçilk nəzəriyyəsində dil və nitq fərqləndirilir; diaxronik və sinxronik əlaqələr müəy-

yən edilir. Onun fikricə, nitqdə kollektiv heç nə yoxdur, nitq fərdi və anidir. Dil xəzinədir ki, nitq təcrübəsi ilə ictimai kollektivə köçürülür. (Halbuki nitq dilin canlama formasıdır.) Sosioloji dilçiliyin digər nümayəndələri Antuan Meye, Kean Vandries, Şarl Balli, Albert Seşe (fransız dilçiləri) olmuşlar.

Strukturalizm və onun funksional, qlossematika və deskreptiv dilçilik məktəbləri

Bu məktəblər, Ferdinand de Sösürün təlimidə göstərilən dilin sistem olması konsepsiyasının əsasında yaranmışdır. Strukturalizm cərəyanı əsasında üç dilçilik məktəbi yaranmışdır:

1) Praqa funksional dilçilik məktəbi
2) Danimarka qlossematikası
3) Amerika deskreptiv dilçilik məktəbi

Praqa funksional dilçilik məkətəbi məktəbi Çexiyada yaradılmışdır. Məktəbin yaradıcısı ingilis dilçisi Vilem Mateziusdur. 1926-cı ildə təşkil etdiyi "Praqa dilçilik dərnəyi" məktəbin bazası olmuşdur. Məktəbin nümayəndələri bunlardır: V.Skaliçka, F.Travniçek, B.Havranek, rus dilçilərindən N.Trubetskoy (1890-1938), S.Kariyevski (1884-1955) və R.Yakobson, V.Mateziusun şagirdiləri İ.Vaxek, B.Trınka.

Onlar dil proseslərini struktur dilçilik metodları əsasında təhlil edirdilər.

1929-cu ildə çap olunmuş "Praqa dilçilk məktəbinin" tezisləri əsaında dilin sistem məsələləsi, dilçilik coğrafiyası, slavyan leksikoqrafiyasının metodu problemləri araşdırılırdı.

Danimarka qlossematikası məktəbinin əsas nümayəndələri Biqo Brondal və Lui Yelmslevdir. Qlosse yunanca dil, sema işarə deməkdir. Onlar dilçilikdə diaxronik aspekti qəbul etmirlər. Bütün dillər üçün dilçilik nəzəriyyəsinin yradılmasında konkret dil materialını nəzərə almırlar. Əsas tədqiqat əsərləri bunlardır: V. Brondal

"Struktural dilçilik" (1939), L.Yelmslev "Ümumi qrammatikanın prinsipləri" (1928), H.Uldal "Qlossematikanın əsasları".

L. Yelmslevə görə norma uzus (adət, ənənə) və nitq aktı tələb edir. Yəni norma uzus nitq aktından doğu r.

Amerika desprektiv dilçilik məktəbi

Amerika dilçilik məktəbinin nümayəndələri bunlardır: Farns Boas (1858-1942), Monard Bulmfild, Blok, Treycer, Sepir, Hakit və Harris. Onların tədqiqatında desprektiv (latınca təsvir deməkdir) metod əsas götürülür. Distributiv təhlildə dil vahidlıərinin ardıcıllığı (fonem, morfem, söz) mühüm prinsip kimi qəbul edilir.

Riyazi dilçilik metodları

Bu metodlar R.Yakobson (1896), K.Mennon, N.Xomski kimi mütəxəsislər tərəfindən tətbiq olunmuşdur. Lakin dil daxili nitq ilə dəyişdirilə bildiyindən buraya riyazi düsturları tətbiq etmək özünü həmişə doğrultmur.

Sovet dilçilik məktəbi

Sovet dilçiliyində əvvəlki ənənələrin davam etdirilməsinə xüsusi üstünlük verilirdi. Sovet dilçiliyində demək olar ki, tədqiqatlar ənənəvi dilçilikdə qoyulan prinsiplərdən kənara çıxmamışdı. Ancaq bu dövrdə 1950-ci ilə qədər Nikolay Yakovleviç Marrın (1865-1934) Yafəs dil nəzəriyyəsi diqqəti cəlb edir. Bu nəzəriyyəyə görə akademik Marr iddia edeirdi ki, bütün dillərin lüğət ehtiyatı bazasında SAL, BER, YON, ROŞ ünsürləri durur. Dünya dilləri çarpazlaşma nəticəsində yaranıb. Bu fikirlər səhv olsa da dilçilik tipologiyası ilə əlaqədar Marrın diqqətəlayiq tədqiqatları olmuşdur.

İvan İvanoviç Meşşaninnovun isə (1883-1977) cümlə strukturu ilə əlaqədar maraqlı fikirləri olmuşdur. Xüsusilə, erqativ və nominativ dillər məsələsi bu sahədə maraqlı idi. Meşaninovun dil tipologiyası ilə əlaqədar irəli sürdüyü stadial nəzəriyyəsi ta-

mamilə dil diskriminasiyası ideyasına xidmət edirdi. O, köksözlü və aqültinativ dilləri primitiv düşüncə məhsulu hesab edirdi. Sovet dilçiliyində Lev Vladimiroviç Şerbanın, Viktor Viladimiroviç Vinoqradovun, Boris Aleksandroviç Serebrennikovun qiymətli tədqiqatları vardır.

Azərbaycan dilçilik məktəbi

Azərbaycanda intellektli insanlar həmişə olmuşdur. Ancaq tarixi məqamlarda dövlətçilik ideologiyası imkan verməmişdir ki, xalqın içərisindən çıxan intellektlər onların özlərinə, öz dillərinə xidmət edə bilsinlər. Məsələn, XI əsrin görkəmlli alimlərindən Əbu Zəkəriyyə Yəhya ibn Əli Xətib Təbrizinin üslubiyyata aid çoxlu əsərləri olmuşdur. Ancaq ərəb dilinə dair, bəzi hallarda isə Azərbaycan dilinə aid mənbələrə Xətib Təbrizinin əsərləri barədə məlumatlar vardır. Çox təəssüf ki, sovet dövründə belə kitablar ya üzə çıxmamış, və ya tapılanlar represiya dövründə (1937-1940) məhv edimişdir. Ancaq Azərbaycan dilinə aid bəzi tədqiqatların izləri saxlnıla bilmişdir. Məslən, XIV əsrdə Cəmaləddin ibn Mühənnanın yazdığı "Hilyət-ül-lisan, həlbət-ül-bəyan" adlı əsəri haqqında məlumat vardır. Həmin dövrə Hüsam adlı müəlifin "Tövət-ül-Hüsam" adlı əsəri yaradılmışdır. Əsər farsca-Azərbaycanca mənzum lüğətdir. Həmin əsərdən aşağıdakı nümunələr maraqlıdır:

Xuda – Tanrı, təvangər – mənisi bay

İşə buyruq verici – karfərmay

XIX əsrdə, XX əsrin əvvəllərində yazılmış qrammatikalar dərsllik xarakterli olmuşdur. Sovet dövründə və hazırda Azərbaycan dilçiliyində çoxlu əsərlər yaradılmışdır. Azərbaycanda dilçilik elmi Bəkir Çobanzadənin Məmmədağa Şirəliyevin, Əbdüləzəl Dəmiçizadənin və Muxtar Hüseynzadənin fəaliyyətindən bəhrələnmişdir. Ancaq demək olar ki, Azərbaycan dilçiliyində tipologiya ilə bağlı heç bir yeni konsepsiya yaradılma-

mışdır. Dilçilik elmi isə hansı məkanda mövcudluğuna baxmayaraq yeni istiqamətlərə möhtacdır. Çünki dilçilik tipologiyası getdikcə öz üfüqlərini genişləndirməyə başlayır. Köhnə suallar yenidən təzələnir. Görəsən dillər necə yaranıb? Dillər arasındakı əlaqələrin səbəbi nədir? Dil qohumluğu təkcə areal iləmi, dil ailələri iləmi bağlıdır, yoxsa dil qohumluğunun qlobal köklərimi var? Bu sualların cavabı dil tipologiyası tədqiqatlarının şəbəkəsinin genişləndirilməsini tələb edir.

Dillərin tədqiqat üsulları

Təsviri metod

Metodun adı düzgün verilməmişdir. Addan belə çıxır ki, bu metodun vəzifəsi hansısa dil hadisəsinin ancaq təsvirini verməkdən ibarətdir. Lakin bu metodu daha geniş mənada başa düşmək lazımdır. Çünki söhbət burada dil hadisələrini təhlil etməkdən və onu nəzəri cəhətdən şərh etməkədn getməlidir. Təsviri metod "dil mexanizminin" işlək elementlərinin təsviri və təhlii üçün dilin sosial funksionallığını öyrənir. Bu metod tələb edir ki, fonemlərin, morfemlərin, sözlərin, qrammatik kateqoriyaların və s. xarakteri diqqətlə və dərinliklə öyrənilsin. Bu elementlərin hər biri həm zahiri (təsviri, formal), həm də semantik (struktur və məna cəhətədən) aydınlaşdırılmalıdır. Yəni təsviri metodun vəzifəsi sadəcə təsvir etməkdən ibarət olmayıb dil elementlərinin daxili quruluşunu, əlaqələrini və sistemliliyini öyrənməkdən ibarətdir. Məzh bu metodun əsasında indiyədək müxtəlif dillərin qrammatik quruluşunu əks etdirən əsərlər meydana gəlmişdir. Bu metod əsasında leksikoloji tədqiqatların bazasını təşkil edən izahlı lüğətlər hazırlanmışdır. Bu metod, həmçinin nitq mədəniyyəti məsələlərinin öyrənilməsində zəngin təcrübə yaratmıdır. Bu metodun əsasında "faktların təsviri" təhlil olunan materialın keyfiyyət drəcəsini təyin etmişdir. Yəni işin keyfiyyəti faktların dil strukturu və sistemi barədə aydın, müfəssəl təsəvvür yarada bilməsi ilə ölçülür. Təsviri metodun naliyyətləri çoxdur. Hərçənd ki, bəzi hallarda bu metod sadəcə təsvir kimi başa düşülür. Təsviri metodun vəzifəsi, hər şeydən əvvəl dilin daxili struktur və sistemindəki əlaqələri, onların səbəblərni, bu struktur və sistemdə nitqin təsiri ilə baş verən dəyişmələrin, ziddiyyətli

elementlərin, eyni zamanda dil normasının müəyyənləşdirilməsindən ibarətdir. Təsviri metodda faktların təhlili əsas prinsipdir. Təsvri metod mexaniki təsvir, siyahıyaalma olmadığı üçün onun tətbiqi dilçiliyin inkişafı ilə mütənasiblik yaradır. Təsviri metod tarixi, tarixi-müqayisəli üsullarla da qarşılaşır. Təsviri metoddan bir çox alimlər istifadə edib qrammatikalar yaratmışlar. Məsələn, məntiqi qrammatika tərəfdarlarından F.İ.Buslayev, psixoloji-qrammatika məktəbinin nümayəndəsi A.A.Potebniya, formal qrammatika məktəbinin nümayəndəsi F.Fortunatov dillərin təsviri öyrənilməsi üsulundan istifadə etmişlər. Azərbaycan dilinin fonetikasına, morfologiyasına, sintaksisinə və üslubiyyatına dair yazılmış əsərlərdə də təsviri metoddan istifadə edilmişdir. Təsviri metod hazırda struktur təhlil metodu ilə qarşılaşır və bir-birlərinə təsir göstərirlər.

Müqayisəli – tarixi metod

Müqayisəli-tarixi metod XIX əsrin əvvəlində meydana çıxmış və bu əsrin başqa metodlarını kölgədə qoyaraq dilçilik elminə yeni bir "rəng, çalar" gətirmişdir. Müqayisəli-tarixi metodun əsas, aparıcı vəzifəsi tarixən qohum dillərin inkişafına təsir edən qanunauyğunluqların öyrənilməsindən ibarətdir. Bu istiqamətdəki təhlildə tədqiqatın predmeti bazasında qohum dillərin materiallarının toplanması mühüm addımdır. Əldə edilən faktlar əsasında dilin qədimlərdə formalaşmasına aid vacib məsələlər araşdırılır. Əgər təsviri metod müasir dillərin hazır materiallarına əsaslanırsa tarixi-müqaisəli metod hətta yazılı mənbələrə əsaslanmadan qədimdən bəri izlıəri yaşayan faktların təhlilinə əsaslanır. Məsələn, türk dillərinin ən qədim dövrünə (eradan əvvəlki minilliklərə) aid köksözlülük, analitiklik, disillabiklik mərhələsini işıqlandıran heç bir yazılı fakt və nümunə hazırda mövcud deyildir. Ancaq dil faktları öz ənənsində qədimliyin izlərini daşıyır. Həmin

faktların araşdırılması ilə müvafiq nəticələr əldə etmək mümkün olur. Məsələn, müasir Azərbaycan dilində *ütü* sözü vardır. Bu söz ikihecalıdır. Bu o deməkdir ki, *ütü* sözü tarixən düzəltmə yolla əmələ gəlmişdir. Bu sözün sonuncu elementi ayrılıqda kök *üt* şəklində qalır. *Üt* kökü *ütmək (xəfif yandırmaq), ütülmək (xəfif yandırılmaq)* sözlərində işlədilir. *Üt* kökünə *t* əlavəsi ilə *tüt* kökü düzəlmişdir ki, buradan da *tütün, tutuşmaq (yanmaq), tütsü (tüstü)* sözləri düzəlmişdir. Müqayisə nəticəsində nə aydın olur? Aydın olur ki, qədim dildə köklər birhecalı olmuş, sonradan birhecalı sözlərdən yeni sözlər düzəlmişdir. Zaman keçdikcə kök və şəkilçi bir vahid kimi formalaşmışdır. *Odun* sözü də bunun kimidir. Bu söz əslində ikihecalı olmaqla bir vahiddən ibarətdir. *Odun* sözünün motivində yandırılmaq üçün istifadə edilən əşya anlayışı vardır. Bu mənada sözü ilkin kök-şəkilçiyə ayırdıqda *od (ot)* və *un* hissələri alınır. *Od* kökü genetik cəhətdən *üt* (yanmaq) kökü ilə bağlıdır. Ancaq "odun" sözünə *od* anlayışı itdiyindən "odun" sözünün yanacaq növü mənası köhnəlmiş, həmin söz "ağac parçası" kimi məna qazanmışdır. Yaxud *göy* sözü indiki dildə *rəng, səma, xəsis* mənalarında işlənir. *Göy* sözünün klassik mənbələrdə yanmaq mənasına da rast gəlmək olar:

Çıraq göydirəcik naleyi əfqanımdan,
Fitləsin qılıram məğzi-üstüxanımdan
(Füzuli)

Göy sözünün müasir türk dillərində yanmaq mənası mövcuddur. Azərbaycan dilində *göy* sözü istidən yanmaq yox, soyuqdan yanmaq (göyərmək) mənasında işlədilir: *Soyuqdan gömgöy göyərmək, göyüm-göyüm göynəmək və s. Göy* sözünün yanmaq mənası yerli şivələrdə də işlədilir: *Ocağa yaxın durma, paltarın göyürər. (Muğan)*

Azərbaycan dilində *hovlamaq* sözü işlənir. Sözün *hov* kökünün motivində yaranın su udması mənası durur. Yəni *hov* sözü genetik cəhətdən **su** sözü ilə bağlıdır. *Hov* kökündən *hovuz* sözü düzəlmişdir. *Hov* sözünün *su* ilə bağlılığı başqırd dilində **su** mənasında işlədilən *hıy (hıv)* sözündə müşahidə edilir. *H* samitinin *s* samiti ilə əvəzlənməsi isə səslərin keçid sistemində mümkün hadisələri bildirir.

Müqayisəli metodun, əslində iki növü qeyd olunur: 1) müqayisəli-tarixi metod; 2) müqayisəli-tutuşdurma metodu. Müqayisəli metod qohum dillərin inkişafının öyrənilməsinə tətbiq edildikdə müqayisəli-tarixi, ayrıca bir dilin inkişafının öyrənilməsinə tətbiq edildikdə isə tarixi-müqayisəli metod olur Yenə də Kotuxova görə, "tarixi-müqayisəli" metod ayrıca bir dilin daxili və xarici qanunauyğunluqlarını meydana çıxarmaq üçün həmin dilin tarixi inkişafının öyrənilməsində istifadə edilən üsullar və təhlil metodikası sistemlidir. Tarixi-müqayisəli metodun prinsipi dilin forma və səslərinin eyniliyini və fərqini müəyyənləşdirməkdir[1].

O.S.Axmanova müqayisəli-tarixi metodu belə təsəvvür edir: "yazı vasitəsi ilə qeyd olunmamış seçilmiş dil faktorlarının yazılı abidələrdə, yaxud nitqdə bilavasitə canlı surətdə işlənməsinə görə məlum olan iki və yaxud bir neçə dilin daha sonrakı uyğun faktları ilə mümtəzəm müqayisə yolu ilə bərpasının elmi üsulu"[2] Antuan Meyeyə görə "dilin tarixini yaratmağa yalnız müqayisəli metodun imkan verməsi müddəasından belə çıxır ki, təcrid olunmuş dil tarixdən məhrumdur[3]."

Müqayisəli-tarixi metod ayrı-ayrı və qohum dillərin tarixini öyrənmək üsuludur. Müqayisəli tarixi metodun məqsədi dillərin müqayisəli tarixini yaratmaqdır.

---

[1]A. Meye Сравнительный метод в историчекий языкознания" M. 1977 s.19
[2]O. C. Ахманова Словарь лингвистических терминов M., 1966, s. 233
[3]V.İ.Kodıxova görə V.İ.Kodıxov Общее языкознание M. 1977, s. 263

Nəticə: müqayisəli metod həm müasir dillərə, həm də dillərin tarixinə aid ola bilər. Müqayisəli metod həm dil reliktlərinə, həm də mənbələrə əsaslanır. Müqayisəli metodu təkcə bir dilin faktları üzərinə qurmaq mümkün deyildir. Odur ki, müqayisəli metod həm müasir dillərə, həm də dilin tarixinə tətbiq edilir. Müasir dillərdə tətbiq olunan müqayisəyə görə "müqayisəli dilçilik" və "tarixi dilçilik" və ya "dil tarixi" istiqamətləri yaranmışdır. Dil tarixinin araşdırılması təkcə tarixi dilçilik metodu ilə mümkün nəticəni vermir. Odur ki, dil tarixi müqayisəli tarixi metod əsasında tədqiq olunur. Burada müqayisəli tarixi-dilçilik adı ilə ikinci varianta ehtiyac yoxdur. İkisindən biri işlədilməlidir. Nəhayət, tarixi-müqayisəli dilçilik təkcə bir dilin materialları ilə bəhrə verə bilməz. Bu istiqamətin tədqiqatlarında qohum dillərin materilallarının cəlb olunması vacibdir. Müqaisəli dilçilik istiqamətləri tələb edir ki, müqayisə faktları təkcə qohum dillərin üzərinə yox, həm də qohum olmayan dillərin üzərinə tətbiq olunsun. Bu halda dünya dillərindəki ünumi elemetlərin mövcudluğu və onların yaranma səbəbləri, dillər arasındakı tipoloji fərqlənmələr məntiqəuyğun şəkildə təhlil olunub araşdırıla bilər.

Tarixi metod

Müqayisəli metodla yanaşı tarixi metod da inkişaf etmişdir. Onun əsas vəzifəsi ayrıca konkret bir dilin fonetikasının, morfologiyasının, sitaksisinin və başqa sahəlrinin inkişafının tarixi aspektdə öyrənilməsindən ibarətdir. Tədqiqatın predmeti dil strukturu və onun tarixi inkişafına dair nümunələri əks etdirən faktiki materiallardan ibarətdir. Bu metod tədqiqatçıdan dil elementlərinin dildaxili və dilxarici amillərin dəyişmə səbələrini və dil hadisələrinin mürəkkəb əlaqələrini xalqın tarixinin, onun mədəniyyətinin, ictimai münasibətlərinin, düşüncəsinin qarşılaşdırılıb tutuşdurluması əsasında təhlil olunmasını tələb

edir. Tarixi metod, deyildiyi kimi, əlbəttə təkcə bir dilə, onun tarixinə, mədəniyyətinə və sosial vəziyyətinə tətbiq edilə bilməz. Burada müqayisədən kənarda əhəmiyyətli nəticə almaq mümkün deyildir. Ona görə də tarixi metodun özünü müqayisəli metoddan ayrı təsəvvür etmək çətindir. Çünki müqayisəli metod nəticənin daha dəqiq, aydın və məntiqli başa düşülməsini təmin edir. Məsələn, Azərbaycan dilinin tarixi mənbələrində "yılmaq" sözü işlədilir. Bu sözü müqayisəsiz təhlil etdikdə onu *yıxılmaqla* eyniləşdirənlər də olur. Halbuki, *yıl* kökü *yel, yıldırım, yılğım, ilim-ilim (itmək), ilmə* kimi sözlərlə bağlıdır. Müvafiq nümunələrinin müqayısəli təhlili ilə həqiqəti üzə çıxarmaq mümkün olur.

Qarşılaşdırma metodu

Bu metod mövcud dillərin (iki və daha artıq) quruluşunda oxşar və fərqli elementlərinin öytənilməsinə tətbiq edilir. Beləliklə, bu metodun əsas predmeti dillərin arasındakı oxşarlıq və fərqləri əks etdirən elementlərdən ibarətdir. Qarşılaşdırma metodu dillər arasındakı fonetik, leksik, morfoloji, sintaktik elementlərin tutuşdurulmasını tələb edir. Bu metodun praktik cəhətdən əhəmiyyəti qarşılıqlı (izahli, tərcümə və s.) lüğətlərin və qrammatikaların hazırlanmasına tətbiq edilməsidə özünü göstərir. Ancaq onu da qeyd edək ki, qarşılaşdırma üsulunun özü müqayisəli metodun bir tərkib hissəsinə daxildir.

Struktur metod

Bu metod XX əsrdə rus-polyak alimi Boduen de Kurtene, İsveçrə alimi Ferdinand de Sössür, rus dilçisi N.S.Turbetskoyun və başqalarının tədqiqat əaəsrələrinin bazasında yaranmışdır. Bu metodun məqsədi dilin bütöv bir funksiyalaşdırıcı struktur kimi anlaşılmasından ibarətdir. Onun elementlərinin və hissələrinin

ciddi bir linqvistik sistem təşkil etməsi isə strukturun vəhdətini ifadə edir. Bu üsul təsviri metodun yeni bir istiqamətdəki davamı kimi də başa düşülə bilər. Onu demək lazımdır ki, təsviri metod hər şeydən əvvəl hissələrin və elementlərin "yığımı kimi" anlaşılır. Ancaq onun struktur tərkibi bu elementlərin əlaqə formasından ibarətdir. Bu iki metod bir-birini tamamlayır və fəaliyyətdə olan dilin bütöv və dəqiq mənzərəsini canlandırır. Struktur metod dillərin genetik quqruluşunun öyrənilməsi və dil elmlərinin dəqiq elmlərə tətbiq edilməsi üçün ən əlverişli bir vasitədir. Belə ki, məsələn, Azərbaycan dilində şəkilçilərin ardıcıllıqla söz sonuna qoşulmasında, əvvəl sözdüzəldici, sonra sözdəyişdirici şəkilçilərin yerləşməsində, adlardan ad, adlardan fel, fellərdən fel, fellərdən ad düzəldilməsi ardıcıllığında pozulmaz qaydalar vardır. Kitablarımızdandır, qabaqcıllarımızdır, saxladıqlarımızdır, dayandırdıqlarımızdandır və s. Bu qaydalara əsasən dilin struktur və sisteminə riyazi qaydaları tətbiq etmək imkanları yaranır.

Müasir informasiya mərhələsində dilə struktur metodun tətbiqi ilə elektron tərcümənin yaradılmasında və elektron informasiya şəbəkəsinin formalaşdırılmasında müəyyən praktik nəticələr əldə etmək mümkündür.

Üslubi metod

Üslubi metod dil üslublarına, nitq üslubuna, eyni zamanda, poetik bədii üslubun öyrənilməsinə tətbiq edilir. Azərbaycan dilində indiyədək daha çox bədii üslubun öyrənilməsinə, bu üsluba aid standartların meydana çıxarılmasına diqqət yetirilmişdir. Elmi üslub barədə də müəyyən tədqiqatlar vardır. Ancaq folklor üslubunun, məişət üslübunun, publisistik üslubun, rəsmi üslubun öyrənilməsi bir qədər kölgədədir. Onalrın standartlarının müəyyən edilməsi dilçiiyin vacib məsələlərindəndir. Məsələn, müstəqillik dövründən əvvəl Azərbaycan dilinin rəsmi üslubu

rus dilindən edilən tərcümələrin bazasında formalaşdırılırdı. Hazırda isə Azərbaycan dilində hərbi üslubun, idman üslubunun, siyasət üslubunun, diplomatiya üslubunun öz standartları formalaşmışdır. Üslubu metodun tətbiq edilməsi dildə konkret, dəqiq, aydın, birmənalı standartların meydana çıxardılmasına xidmət etdiyi kimi, emonsionallıq və mənа rəngarəngliyi yaradan ifadə vasitələrinin də öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Üslubi metod həm də dillər arasındakı emonsionallıq vasitələrinin araşdırılmasında tətbiq edilir.

Kəmiyyət metodu

Bu metod riyazi metod da adlandırıla bilər. Bu metodun dilə tətbiqi yenidir. Riyazi metod hər bir dilə (və ya dil ailəsinə) xüsusi qaydalar üzrə tətbiq edilə bilər. Məsələn, Azərbaycan dilində analitik və flektiv elementlər mövcud olsa da bunlar artıq formalaşmış və monolitləşmiş vəziyyətdədir (qıpqırmızı, sapsarı, açıq göy, tünd yaşıl, deyib durmaq, nə gərək, nə pis, nə yaxşı və s.). Azərbaycan dilində analitik dillərin təsiri ilə də analitik formalar işlənir: *qeyri-rəsmi, qeyri-qanuni, əks həmlə, sinifdənxaric, məktəbdənkənar, planetlərarası, antivirus, antihissəcik, əkszərbə və s.* Dillər üzrə riyazi metodun tətbiqi həmişə biristiqamətli nəticə çıxarılmasına imkan vermir. Çünki nitq dildə daimi struktur dəyişməsi aparmağa meyillidir. Ona görə də bir çox mütəxəssislər riyazi metodların dilə tətbiq edilməsinə şübhə ilə yanaşır. Ancaq riyazi metodun tətbiqi dillərdə struktur sabitliyinin saxlanılması baxımından xüsusi əhəmiyyətə malikdir. Struktur metod hazırda o dillərə daha çox tətbiq edilə bilir ki, onların quruluşunda ənənəvi sabitlik qorunmuş olsun. Yəni yazılı nitqin normaları stabil qalsın. Məsələn, ingilis dili, ərəb dili, rus dili, fars dili belə dillərdəndir. Bu dillərdə tarixi normalar ənənəviliklə qorunduğundan onlara riyazi üsulu tətbiq etmək asandır.

İKİNCİ BÖLMƏ

GENETİK KÖKLƏR

Genetik köklər və onların fonomorfoloji tərkibi

Genetik köklərin yaranmasında sait səslər sanki bir quruculuq, təşkilatçılıq vəzifəsini yerinə yetirirlər. Yəni sözlər hecalardan təşkil olunursa hecaların təşkilinin bünövrəsi də saitlərin üzərində qurulur. Saitlərin ilkin sözyaratmadakı aparıcılığı ondan başlanır ki, bütün sait səslər insan və ətraf mühit münasibətində zəruri olan emosiyaların hamısını ifadə edə bilmişdir. Məsələn, *a*…saiti uzadılaraq *ağrı, acı, təəccüb, heyrət, ehtiyac, qorxu, etiraz* kimi emosiyaları, *o*…saiti razılıq, qorxu, dəhşət, *ı*…saiti dartınmaq, acizlik, narazılıq, *u*…saiti uzaqlıq, əlçatmazlıq, ehtiyac, *e*… saiti etiraz, çağırış, *ə*…saiti razılıq, təəccüb, rişxənd, *ö*… saiti daxili ağrı, *i*…saiti incəlik, sızıltı, üzüntü, narazılıq, inciklik, *ü*…saiti üzüntü, inciklik və sair digər situasiyadan asılı olan emosiyaları bildirmişdir. Belə bir keyfiyyət isə samit səslərin hamısında baş vermişdir. Samit səslər içərisində daha çox novlu və sonor samitlər müəyyən emosiyaların bildirilməsində iştirak etmişlər. Məsələn, *h*… səsi güc vermək, *x*… samiti kəsmək, qırmaq, *ğ*…samiti boğulmaq, *y*… samiti kömək, *ş*… şırıltı, şaqqıltı, *s*… sakitlik, *z*… sızıltı, üzüntü, *j*… qorxu, həyəcan, *f*… fısıltı, *v*… vıyıltı, qorxu, həyəcan, *l*… musiqililik, sakitlik, *n*… musiqililik, ritmiklik, yoxluq, heçlik, *r*…davamlılıq, məsafə, dayanmaq, *m*… sonluq, bitmək, sakitlik, donuqluq, ritmiklik kimi emosiyaları bildirir. Saitlərlə samitlərin fərqi ondan ibarətdir ki, saitlər təklikdə həm də kökyaratma funksiyası daşımışdır. Kipləşən səslərdə isə emosiyalar məhdud olmuşdur.

Həm novlu və həm də kipləşən samitlər saitlərlə birləşdiyi təqdirdə kökyaratma prosesinə daxil olmuşlar. Sait səslərin ayrılıqda kök morfem kimi işlədilməsinin izlərini qədim türk yazılı mənbələrində də görmək olar:

A- heyrətlənmək: "Ol meni *a*…qıldı" (O məni heyrətləndirdi) (DTS, 1)[1*].

I – bitki: "Beş türlüq *ıda, ığa, ığacta*" (Beş cürbəcür bitkidə, ağacda) (DTS, 216).

Ö – düşünmək, fikirləşmək: "Açsar tosıq öməz sen bir todsar açsıq *öməz*" (Sən acsansa tox haqqında düşünməzsən, tox olsan ac haqqında düşünməzsən) (DTS, 375).

U – yuxu: "Qırğızlığ *uda* basdımız" (Qırğızlara yuxuda hücum etdik) (DTS, 603).

U – dözmək, bacarmaq: "Saqınc qabğu birlə özüm *umadım*" (Mən kədərli düşüncəyə və qəmə dözmədim) (DTS, 603).

Başqa dillərdə də tək saitin müvafiq anlayış və emosiyaları bildirmək məqamında işlənməsinə rast gəlmək olur. Məsələn, rus dilində *а* saiti həm nida, həm də bağlayıcı kimi işlənir: "А так это ты был!", (A, o sən idin!); "Мальчику пять лет, *а* девочке три года", (Oğlanın beş, qızın isə üç yaşı vardır); *и* saiti bağlayıcı kimi işlənir: "Города *и* села", ("Şəhərlər və kəndlər"); *и* saiti ədat yerində də işlənir: "*И* ребенок то поймет" (Bunu uşaq da başa düşər); *о* saiti qoşma yerində işlənir: "*О* диалектном материализме" (Dialektik materializm haqqında); u saiti nida və qoşma yerində işlənir: "*У,* лентяй"; "Ay, tənbəl", "*У*, как страшно!" (Uy, nə dəhşətlidir!); "Стоять *у* двери" (Qapının yanında durmaq); э saiti nida kimi işlənir: "*Э*, не буду" (Eh, etməyəcəyəm).

İngilis dilində *a* artikl kimi işlənir: *a* table (stol), *a* book (kitab); yunan dilində *a* saitindən inkar elementi kimi istifadə olunur: simmetrik- asimmetrik (simmetrik-simmetrik olmayan);

1 ДТС- Древнетюркский словарь, Л., 1969.*

morf (kök) *amorf* (köksüz). Fars dilində *a* nida kimi işlənir: "Əziz*a*, Həsən!" (Ey əziz Həsən!) "Şəh*a*!" (Ey şahım!) və s.

Müxtəlif dillərdə bu cür nümunələr mövcuddur və onlar müvafiq mənalarda işlənərək ya emosional anlayış yaradır və ya qoşma kimi, ədat kimi, həmçinin başqa sözönü vahid kimi işlənə bilirlər.

Azərbaycan dilində tək bir saitinin kökyaratma ənənəsi *o* saitində qalmışdır. *O* saiti Azərbaycan dilində həm üçüncü şəxsin təkini bildirən, həm də uzaqdakı əşyanı bildirən əvəzlik kimi işlədilir.

Tək saitdən ibarət olan köklərə mümkündür ki, sonradan müvafiq samitlər əlavə olunmaqla köklərin həm daxili strukturu təkmilləşmiş, həm də onların təməlindən yeni sözlər törəmişdir. Məsələn, *ı* saiti *ğ* ilə birləşərək *ığ* morfemi yaratmış və ondan *ığac-ağac* variantları əmələ gəlmişdir. Bəzi dillərdə isə hətta *ı* saitindən əvvələ bir samit qoşulması da baş vermişdir. Məsələn, karaim dilində *ığac* sözünün *yıvac* variantı vardır.

Ö kökü üzərinə *y* samiti qoşularaq *öymək, öyüd, öyünmək* kimi sözlərin törənməsinin təməlini yaratmışdır.

U saitinin sonuna *y* əlavə olunmaqla *uyxu-uyku*, əvvəlinə *y* əlavə olunmağla eyni mənadakı *yuxu* sözləri yaranmışdır. *Uy* kökündən, həmçinin *uymaq* (*qoşulmaq, aludə olmaq*, *özündən getmək*) *uydurmaq* (*quraşdırmaq*, *mənasız danışmaq*) *uyğunlaşmaq* kimi sözlər törəmişdir.

Sonrakı vaxtlarda sait-samit birləşməli vahidlərin potensialı getdikcə artmağa başlamışdır. Müasir dilimizdə də bu cür tərkibdəki sözər (*al, əl, il, öl, ot*, *ət, at, ud, əz, iz, öz, ar, aş, az* və s.) intensiv işlədilməkdədir.

Sait səslərin əlaqəyaratma və tərkibyaratma imkanları güclü olduğundan onlar sözün əvvəlində daha üstün mövqeyə malikdirlər. Odur ki, sait-samit birləşməli köklərin potensialı da olduqca intensivdir.

Sait səslərin kök sonunda tərkibyaratma imkanları zəiflədiyi üçün onlar samit-sait tərkibli sözlərdə olduqca az işlənirlər. Müasir dilimizdə belə sözlərin sayı cəmi altıdır: *su, bu, de, ye, yu, nə*.

Qədim mənbələrdə də belə tərkibli sözlər var, ancaq çox deyildir. Bunlara aid aşağıdakıları nümunə göstərmək olar.

Ba – bağlamaq: "Atıq iqa *bayır* ertimiz" (Atları ağaca bağladıq) (DTS, 76).

Bı – madyan: "Aq *bısı* qulunlamış" (Ağ madyan qulun doğub) (DTS, 97).

Bı – biyə, *böyə* (DTS, 97)

Bı – bıçaq (DTS, 97)

Bu – bu (DTS, 119)

Bu –buxar (DTS, 119)

Çi – şeh (DTS, 145)

Ya – yay (ox yayı): "Bodum erdi oq təq, könül erdi *ya"* (Mənin bədənim ox kimidir, ürəyim (sanki) yay kimi) (DTS, 221)

Ya – oxatan bürcü (ulduz topası) (DTS, 221)

Ye –yemək: "Er aş *yedi*" (kişi yemək yedi) (DTS, 252)

Yı – tikiş, bənd, ilişik: "Çuku yı" (Möhkəm, sıx tikiş) (DTS, 261)

Yu – yumaq "Qanıq qan billə *yumas*" (Qanı qanla yumazlar) (DTS, 277)

Yü –şirə: "Ağızın açmadın *yüsin* sinürgül" (Ağzını açmadan şirəni (içəriyə) daxil et-içirt) (DTS, 283)

Kü – xəbər, məlumat "Taşla yorqir teyin *kü* eşidil balıqdaqı tağıqmış" (O xəbəri eşitdikdəki, o bayırda gəzir, şəhərin əhalisi dağa qalxdı) (DTS, 322)

Kü – şan, şöhrət (DTS, 322)

Kü – qorumaq, saxlamaq (DTS, 322)

Ne-nə "Ne başınalım teqəlim" (Nə üçün məğlub qalmalıyıq?) (DTS, 356)

Qa (qadaş)- qohumlar "Kesilsə senindin yaqın *qa* qadaş – yaqınlıq ula sen anar ay adaş" (Yaxın qohumlar səndən ayrılsa sən hər halda onlarla yaxın əlaqə qurub yoldaşlıq et) (DTS, 399)

Qa –qab (DTS, 399)

Qa- üst-üstə yığmaq, qalaq etmək: "Ol eşirkə otun *qadı"* (O odunu yandırmaq üçün üst-üstə qaladı) (DTS, 399)

Sa-saymaq (DTS, 478)

Sı-sındırmaq (DTS, 502)

Su –dartmaq: «Ol mana yün *sudı*» (O mənə yunu uzatdı (ip qayırmaqdan ötrü eşmək üçün) (DTS, 512)

Sü –qoşun: "Ol *süq* anta yoqqışdımız" (O qoşunu biz orada qırdıq) (DTC, 516).

Te-de (DTS, 545)

Tı – daimi: "Küsəyürlər erti birqərü küntəmək *tı* sizin körkü üçün" (Onların hamısı bir yerdə hər gün arzulayırlar ki, həmişə səni görsünlər) (DTS, 565)

Tu-bağlamaq: "Köqmən yolı bir ermiş *tumuş"* (Köqmənə gedən yol birdir və o (yol) qarla bağlanmışdır) (DTS, 584)

Tü-tük (DTS, 594)

Tü- rəng (DTS, 594)

Tü-bütün: "Anıq boldu dünya *tü* nimət billə" (Dünya bütün neməti ilə onun oldu) (DTS, 594).

Samit-sait tərkibli köklərdə saitin kökyaradıcı və təşkiledici funksiyası azaldığı üçün söz sonuna əlavə olaraq bir müvafiq samit qoşulmaq imkanı yaranmışdır. Sona qoşulan samit həm kökün kompaktlığını təmin edir, həm affiksal funksiya daşıyır, həm də bu kökün bazasında yeni sözlərin formalaşmasına təminat verir. Bundan əlavə, samit-sait tərkibli köklərə şəkilçilərin qoşulması da belə köklərə son samitin bitişməsi ehtimalını artırır.

Beləliklə, köklər təkmilləşir və onların sözyaratma mühiti genişlənməyə başlayır. Belə ki, məsələn, *ba*-kökünə *ğ* yanaş-

ması ilə *bağ* sözü əmələ gəldiyi kimi sonrakı prosesdə həmin sözün bazasında *bağlı, bağla*, *bağlanıc, bağlanış, bağlayıcı* və s. digər sözlər düzəlmişdir. Eyni qayda üzrə *ya-* kökündən *yay, yaylı*, *qa*-kökündən *qab, qap, qabıq, qapaq, qabıqlı, qapaqlı*, *sü*-kökündən *süvari, süngü, sürüşmək, sürü*, *sı*-kökündən *sığmaq, sınmaq, sıxmaq* və onların əsasında digər müvafiq sözlər törəmişdir.

Qaldı, müasir Azərbaycan dilindəki sonu saitlə bitən *su, bu, yu, nə, de, ye* köklərinə, onlar müstəqil bir söz kimi formalaşmasına baxmayaraq müvafiq şəkilçi qoşulduğu təqdirdə kök sonundakı saitin təşkiledici funksiyası canlanır və o özündən sonra bir samitin işlənməsini tələb edir: *su- su-y-un, bu- bu-n-a, bu-n-da, yü- yü-y-ür, nə- nə-y-in, de- de-y-ir, ye- ye-y-ir.*

Tək saitdən ibarət olan kök kimi formalaşmış *o* (şəxs və işarə) əvəzliyinə də müvafiq şəkilçi qoşulduqda şəkilçidən əvvəldə samit işlənməsi tələb olunur: *o- o-n-un, o- n-da, o-n-lar*.

Burada əvvələ samit qoşulmağa elə bir ciddi ehtiyac olmur. Çünki sait səs əvvəldə öz aparıdıcılığını təmin edir.

BA[1*] quruluşlu köklər başqa dillərdə də müstəqil vahid kimi az işlənir. Analitik-flektiv dillərdə *BA* quruluşlu vahidlər, əksər hallarda öz müstəqilliyini itirərək sözönü kimi işlənirlər.

Rus dilində BA quruluşlu aşağıdakı kimi müstəqil vahidlər işlənir: *я* (йа)- *mən, во- harada, да-bəli, но-lakin, ко-yanıma, та-о, ты-sən* вя с.

Sözönü kimi formalaşan vahidlərə dair isə aşağıdakıları nümunə göstərmək olar: *до-дяк*, *гядяр*: *до города* (şəhərə-dək); *за- arxada*, *arxasınca*: *замной* (arxamca) *за-* söz-düzəldici vahid kimi: *заблудший* (azmış), *забойщик* (qazmaçı), *заболеть* (xəstələnmək); *на*-üstündə: *на столе*-(stolun üstündə); *на*-söz-düzəldici vahid kimi: *набежать* (toqquşmaq), *набитый* (dol-

1 B samitin, A saitin şərti işarəsidir.*

durulmuş): *не*-inkar: *не бери* (alma); *не*-sözdüzəldici vahid kimi: *небережно*-səliqəsiz; *неверный* (səhv); *со-dan,-dən*: *со стола* (stoldan); *со*-sözdüzəldici vahid kimi: *сопоставить*-(-tutuşdurmaq), *сопрягать* (qoşmaq).

İngilis dilində də *BA* quruluşlu müstəqil vahidlər zəngin deyildir. Bunlara aid aşağıdakı nümunələri misal göstərmək olar: *hi* (hai) (salam), *lie* (lai) (yalan), *lo* (lo) (bax), *po* (po) (yox), *pea* (pi) (noxud), *sea* (si) (dəniz), *see* (si) (baxmaq), *so* (səv) (belə), *tea* (ti) (çay), *do* (du) (etmək), *do* (du) (yalan), *go* (dou) (getmək), *two* (tu) (iki).

Fars dilində *BA* quruluşlu müstəqil sözlər aşağıdakılar-dır: *pa* (ayaq), *se* (üç), *si* (otuz), *ca* (yer), *çe* (nə), *do* (iki), *qu* (səs), *la* (təbəqə), *ki* (hara), *ma* (biz), *to* (sən), *nə* (nəm), *ya* (nida). Fars dilində *BA* quruluşlu aşağıdakı kimi prefikslər də formalaşmışdır: *bi-bimən* (mənsiz), *bi-bisütan* (sütunsuz), *bi-birəhm* (rəhmsiz), *na-narahat* ((rahatsız), *na-nabina* (gözsüz) və s.

BA quruluşlu söz önləri latın və yunan mənşəli sözlərdə də işlədilir: *bi-biplan* (ikiqanadlı), *de-deqradasiya* (geri getmə), *de-depressiya* (iflas), *re-reaktiv* (aktivləşən) və s.

BA quruluşlu vahidlərin ayrı-ayrı dillərdəki azlığının səbəbi onunla izah edilə bilər ki, söz sonuna istər saitlə və istərsə də samitlə başlayan şəkilçi qoşulması imkanları mövcuddur. Bundn başqa söz sonuna affiksal element kimi tək samitin qoşulması imkanları da vardır. Bu mənada sonrakı vaxtlarda *BA* tipli vahidlər *BAB* tipinə də düşə bilmişlər. *BA* quruluşlu vahidlərin müəyyən qismi isə söz əvvəlində öz müstəqilliyini itirib prefiks kimi işlənməyə başlamışdır.

Azərbaycan dilində sonu samitlə bitən köklərə əlavə bir samit qoşulması faktı isə, artıq, dilin köksözlülük hüdudundan çıxmağa başladığı və aqlütinativlik meylinin yaranması mərhələsinin izlərinin göstəricisidir. Azərbaycan dilində belə sözlərə *aid*

alt, üst, art, ard, and, ölç, sərt, sürt, dart, dürt, qart, bərk, qorx, hürk kimi nümunələri misal göstərmək olar. Söz sonuna bu samitlərin qoşulması sonuncu səsin tələbi deyil, şəkilçiləşmə yolu ilə yeni sözlərin əmələ gəlməsi prosesinin izləridir. Tədqiqatlarda bu tipli yanaşmalar *fuziya* termini ilə adlandırılır.[11]

İlkin köklərin təşkilində, göründüyü kimi, sait səslər təşkiledicilik vəzifəsini yerinə yetirməklə yanaşı müstəqil köklərin formalaşmasında aparıcılıq funksiyası daşımışdır. Samit səslərin isə hamısı müstəqil sözyaratmada fəal iştirak edə bilməmişlər. A.M.Şerbak kök türkcədə 15 samit səsin fəal olduğunu göstərir.[22] Ancaq Azərbaycan dilinin samit fonemlərinin təhlilindən belə nəticəyə gəlmək olur ki, köklərin əvvəlində fəal sözyaratma üçün 10 samit səs (q, k, g, y, t, d, ç, s, p, b) intensiv olmuşdur. 10 samit səs (h, x, c, ş, z, l, n, f, v, m) təqlidi sözlərin yaranmasında işlənir, üç səs (ğ, r, j) isə söz əvvəlində işlək deyildir. Başqa dillərlə (məsələn, analitik-flektiv) müqayisədə bu göstərici azdır. Ancaq bunun üzərinə söz əvvəlində fəal olan 8 sait səs əlavə olunduqda bu nisbət bizim dilimizin xeyrinə xeyli dəyişmiş olur. Çünki Azərbaycan dilində söz əvvəli üçün səciyyəvi olan *ə, ö, ü* saitləri intensiv işləndiyi halda analitik-flektiv dillərin bir qismində belə saitlər formalaşmamışdır. Samit-sait-samit tərkibli sözlərdə isə birinci samit mənanın fərqləndirilməsinə, sait səs birinci və sonuncu samitlə əlaqə yaradılmasına, həm də məna

---

[1]*А.А.Реформатский. Агглютинация и фузия как две тенденции грамматическое строение слова. "Морфологическая типология и проблема классификации языков". М-Л., 1965, с. 69-91; Ф.Г.Исхаков. Некоторые предложение о происхождении конечных т и д в словах АСТ, УСТ, АЛД, АРТ и .т-д. В сб. "Академику В.А.Гордлевскому и его семидесятилетию". М., 1953, с. 114-136. Aytən Hacıyeva. Aqlütinativ dillərdə daxili fleksiya və fuziya. Bakı, "Nurlan", 2007, 327 səh.*

[2]*А.А.Щербак. Сравнительная фонетика тюркских языков. Л., 1970, с. 105-106.*

ardıcıllığına, sonuncu səs isə affiksallığa xidmət edir. Məsələn, *daş, yaş, baş; yaz, qaz, saz; yar, qar, dar* kimi sözlərdə birinci samitlər mənanı fərqləndirir. *Kəs, küs; bağ-boğ, köp-kip-küp* kimi sözlərdə sait səs birinci samitlə sonuncu samiti bağlayır və sözdaxili məna ardıcıllığı yaradır. *Bal, bağ, baş, biş, bil, bir* kimi sözlərdə isə son samit affiksallığa xidmət edir.

Azərbaycan dilinin genetik kökləri burada göstərildiyi kimi daim A, AB, BA, BAB, ABB, BABB şəklində sabit qalmışdır. Dilin köksözlülükdən uzaqlaşması prosesində daxili strukturda bir tərəfdən analitizmə-flektivizmə, digər tərəfdən isə aqlütinasiyaya meyl başlanmışdır. Aqlütinasiyaya meyl güclü olduğundan sonrakı mərhələlərdə son şəkilçilərin silsilə forması inkişaf etməyə başlamışdır. Ancaq sonrakı dəyişmə və inkişaf proselərində analitiklik-flektivlik əlamətləri də baş vermişdir ki, dilin yaddaşında belə elementlər indiyədək gizli yaşaya-yaşaya saxlanılmışdır. Müxtəlifsistemli dillərlə müştərək əlaqələrin müəyyənləşdirilməsində bu gizli elementlərin aşkar edilməsinin çox böyük əhəmiyyəti vardır. Ona görə də belə elementlərdən bəzilərini təhlil etməyə ehtiyac vardır.

Azərbaycan dilini analitik-flektiv dillərdən fərqləndirən bir cəhət vardır ki, o da söz başında iki samitin yanaşı işlənməməsindən ibarətdir. Yanaşı samitlər isə heca yaratmır və deməli, samitlərin yanaşı işlədilməsi ilə söz yaranması da mümkün deyildir. Sözyaratmada saitin aparıcı rolunu nəzərə almaqla belə düşünmək olar ki, harada samit yanaşması varsa bu yanaşmada saitin kökdən kənara çıxması sonradan baş verən prosesin nəticəsidir. Məsələn, rus dilindəki *stol, stul* kimi sözlərdə *st* birləşməsi işlənir. Bu sözlərin motivi oturmaqla bağlıdır. Oturmaq isə rus dilində *sidetğ* sözü ilə ifadə edilir. Belə görünür ki, *st* birləşməsinin mənşəyi *sid-sit* kökləri ilə bağlı olmuşdur. Rus dilindəki *гласить* (demək, xəbər vermək) və *огласить* (yay-

maq, elan etmək) sözlərində *ql* səs birləşməsi iştirak edir. Hər iki sözdə *ql* birləşməsi ilkin kökün izi kimi iştirak edir. Kökün tam şəkli isə *голос* sözündəki *qol* hissəsində ifadə olunur. Bunun kimi, Azərbaycan dilində *atlanmaq* sözü vardır. Sözün tərkibində kök *tl* səs birləşməsidir. Burada *огласить* sözündə olduğu kimi, *tl* tərkibində iştirak etməli olan *a* saiti flektivliyin təsiri ilə kənara çıxmışdır. Onun bütöv adekvatı isə *tullanmaq* sözündəki *tul* hissəsindən ibarətdir. *Tul* kökünün *tıl* variantı isə *atılmaq* sözündə ifadə olunur. Yaxud *oğru* sözündə kök *ğr* birləşməsindən ibarətdir. Kökün tam şəkli isə *oğurluq* sözündəki *ğur* tərkibində müşahidə edilir. Belə nümunələr çoxdur və müqayisəli təhlildə onların barəsində bəhs edilir.

Azərbaycan dilində aqlütinasiya prosesi gücləndikcə kök və şəkilçilərdə asemantikləşmə də baş vermişdir. Məsələn, *ağac, odun, ayaq, ağız, ağır, asta, üstün, saxla, quzu, quyu, axtar, qaytar, qayna, qayış, eniş, yoxuş, qaytan, qabırğa, dəyirman* kimi sözlərdə kök-şəkilçi asemantikləşməsi baş vermişdir. Ona görə də onlarda kök və şəkilçini ayırd etmək çətinləşir. Bunun kimi sözlərin təhlilində isə müxtəlifsistemli dillərin materiallarının müqayisəsi çox böyük səmərəli nəticələr əldə etməyə imkan verir.

Genetik köklərdə məna diferensiallaşması

Omonimləşmə. Genetik köklərdə omonimləşmə ilkin mərhələni təşkil edir. Omonimləşmə o mərhələnin məhsulu hesab edilir ki, həmin dövrdə dilin fonomorfoloji söz tərkibi zəif inkişaf etmiş olsun. Doğrudan da informasiya dilinin ən qədim mərhələsində anlayışların qavranılması intensiv olmadığından dildə çoxlu söz tərkibinin mövcudluğundan da bəhs etmək mümkün deyildir. Belə hesab etmək olar ki, ilkin informasiya mərhələsində söz tərkibləri az olmuş, yeni qavranılan anlayışlar isə bu söz tərkiblərində yerləşdirilmişdir. Bu mərhələ bütün dillərdə

birhecalı köklərin formalaşması dövrünü əhatə edir. Belə sözlərin araşdırılması ona görə lazımdır ki, bütün dillər eyni mərhələnin süzgəcindən keçib gəlmişdir. Müqayisəli təhlildə isə doğru nəticə almaq üçün müxtəlif dillərə məxsus oxşar quruluşlu kök morfemlər qarşılaşdırılır.

Omonim mənalı kök sözlərin özlərinin formalaşmasında iki mərhələ baş vermişdir. Bunlardan birincisinin izləri tonallıqla[11] formalaşan sinkretik köklərdə müşahidə edilir. Tonal sinkritik köklər daha çox bir-biri ilə məna əlaqəsi olmayan müxtəlif nitq hissələrinə aid sözləri əhatə edir. *At* (heyvan) *at* (atmaq), *tut* (meyvə), *tut* (tutmaq), *daş* (cism), *daş* (daşmaq), *dan* (üfüq), *dan* (danmaq), *qan* (maddə), *qan* (qanmaq), *it* (heyvan), *it* (itmək), *qaz* (quş), *qaz* (qazmaq), *qır* (maddə), *qır* (qırmaq), *yaz* (fəsil), *yaz* (yazmaq) və s.

İkinci mərhələnin izləri isə məcazlaşma yolu ilə əmələ gələn sinkretik köklərdə saxlanılır. Bunlara aid aşağıdakı nümunələri misal göstərmək olar:

Sağ (diri), *sağ* (sağ tərəf), *kök* (meyvə), *kök* (şişman), *göy* (səma), *göy* (rəng), *yaş* (nəm), *yaş* (ömür), *iy* (alət), *iy* (qoxu), *Ay* (göy cismi), *ay* (vaxt), *yal* (yalman), *yal* (yem) və s.

İkinci mərhələyə aid olan omonimlərin bir çoxunda homogenlik (eyniköklülük) əlaməti qalmaqdadır: *il* (zaman), *il* (qaçmaq-*ilim*-*ilim* və *ilmə* sözlərindəki kimi), *qaş* (gözə aid əlamət), *qaş* (üfüq), *dad* (dadmaq), *dad* (təmas), *iç* (içəri ötürmək), *iç* (içəri), *iç* (daxili orqanlar), *düz* (doğru), *düz* (düzəngah), *yal* (atın yalı), *yal* (dağın yalı), *dal* (arxa), *dal* (dalmaq), *an* (zaman), *an* (xatırla).

Omonimləşmə dilin ilkin sözyaratma mərhələsini əks etdirdiyi üçün burada söz zənginliyindən bəhs etmək mümkün deyil-

[1] *А.М.Щербак. Сравнительная фонетика тюркских языков. Л., 1970, с. 129-136; M. Yusifov. Azərbaycan dili fonetikasının əsasları. Bakı, "Elm və təhsil", 2012, s. 224-226.*

dir. Başqa sözlə, omonimləşmə söz ehtiyatının məhdud olduğu və sözyaratma prosesinin zəif olduğu mərhələnin məhsuludur.

Sinonimləşmə. Sinonimləşmə mərhələsində, artıq sözyaratma imkanlarının genişlənmə prosesi başlanır. Yəni bir kökün içərisinə ayrı-ayrı anlayışların daxil edilməsi yeni anlayışlar üçün yeni söz qabığının yaranmasını məhdudlaşdırır. Ona görə də yeni mərhələdə omonimləşmə öz qüvvəsini itirir. Beləliklə, hətta, oxşar və yaxın anlayışların ifadəsi üçün ayrı-ayrı söz qabığının yaranmasına ehtiyac baş verir. Bu proses dilin söz ehtiyatının zənginləşməsinin başlanğıcı kimi özünü göstərir. Bu mərhələnin izlərini özündə saxlayan faktlara dair aşağıdakı kimi nümunələri misal göstərmək olar:

Kəsmək anlayışı ilə bağlı olanlar:
kəs- kəsilmək, kəsdirmək, kəskin
böl - bölünmək, bölük, bölüşdür
qır – qırılmaq, qırmaq, qırdırmaq
kər –kərtmək, kərənti, kərki
qıy – qıymaq, qıymalamaq
qay –qayçı, qayçılamaq
dil – dilim, dilik, dilimləmək
or – oraq, (y) ortmaq
biç –biçin, biçmək, biçilmək
bıç –bıçaq, bıçaqlamaq
ül- ülgüc, ülgü, ülüşmək
al – almaz, aldırmaq, alışma
Yazmaq anlayışı ilə bağlı olanlar:
yaz – yazı, yazılmaq, yazıçı
çız – çızıq, çızmaq
ciz – cizgi.
Görmək anlayışı ilə bağlı olanlar:
bax –baxmaq, baxılmaq
gör – görmək, görüşmək

zil – zilləmək, dillənmək
Yerimək anlayışı ilə bağlı olanlar:
yer – yeri, yeriş, yerit
yüy-yüyür, yüyürt
dab-daban, dabrı, dabrımaq
Səs anlayışı ilə bağlı olanlar:
səs- səslən, səsli, səssiz
qıy- qıylamaq
qış – qışqırmaq, qışqırtı
çığ – çığırmaq, çığırtı
qu- quloyşa, qulaq
Danışmaq anlayışı ilə bağlı olanlar:
dan – danış, danışıq
din – dinlə, dinləmək
ay – ayıq, ayıtmaq
hay – haylamaq, hayqırmaq
dil –dillənmək
söy – söyləmək, söyləşmək, söymək
söz –sözləşmək, sözlü, sözlük.

Bu cür nümunələrin sayını artırmaq da olar. Məsələ budadır ki, sinonimlərin kəmiyyəti artdıqca onların sözyaratma potensialı da çoxalır. Dil isə sinonimlərin sayəsində daim zənginləşməkdə davam edir.

Antonimləşmə. Antonimlər yaranma etibarı ilə təbiətdəki, cəmiyyətdəki və insanı əhatə edən mühitdəki (o cümlədən insanın daxili aləmindəki) əksikliklərin idrak vasitəsi ilə qavranılıb təfəkkür süzgəcindən keçərək sözə çevrilməsi prosesinin məhsuludur. Antonim sözlər də sinonimlərdə olduğu kimi dilin söz ehtiyatının zənginləşməsinə yardım edir. Beləliklə, obyektiv, subyektiv, sosial, ictimai həyatı əksliklərsiz, dili isə antonimlərsiz təsəvvür etmək mümkün deyil. Antonim kök sözlərin genetik izlərini müasir dilimizdə işlədilən *gec-tez, az-çox, gəl-get, öl-qal,*

alt-üst, al-ver, ac-tox, aç-ört, var-yox, at-tut kimi sözlərdə görmək olar. Həyat hadisələrinin insan idrakı tərəfindən qavrayışı prosesi gücləndikcə yeni yaranan antonim sözlərin kəmiyyəti də artır. Nəticədə iki və daha artıq heca tərkibinə malik olan antonimlər yaranır: *yeyin-asta, cəld-yavaş, yaxşı-pis, yaxşılıq-pislik, gecə-gündüz, işıq-qaranlıq, dərin-dayaz, uzaq-yaxın, gediş-gəliş, gözəl-çirkin*, *isti-soyuq, köhnə-təzə* və s.

Enantiosemlər. Enantiosemiya termini yunan mənşəlidir. Bu termin dilçilikdə sözdaxili əks mənalılıq bildirən vahidlərə aid edilir.[11] Məsələn, *yaman* sözü əslən pis mənasında işlənmişdir. Eyni zamanda *yaman* sözü yaxşı mənasında da işlənir: *yaman oxuyur, yaman danışır, yaman yazır* və s. Bunun kimi, *yazıq* sözü eyni tərkibdə günahlı-günahsız (məsum, məzlum), *bağlamaq* sözü açmaq-bağlamaq, (həyətə su bağlamaq-su açmaq), *yanmaq* sözü yanmaq-yanmamaq (lampa yandı-işıqlaşdı, lampa yandı - xarab oldu), *becərmək* sözü yetişdirmək-zay etmək (bostanı becərmək-yetişdirmək bostana baxmamaq-becərmək) kimi mənalarda işlənə bilir. Bunlar dilin müasir vəziyyətinə aid olan nümunələrdəndir. Bu nümunələrdə eyni sözün daxili əkslik bildirməsi dilin qədim dövrlərinə aid olan əlamətlərin izlərinin öz varisliyini yaşatmasından ibarətdir. Bunlarla yanaşı dildə təkhecalılıq dövrünə məxsus daxili ziddiyyət bildirməklə səciyyələnən elementlərin izləri də saxlanmaqdadır. Bunlara aid aşağıdakı kimi nümunələri misal göstərmək olar:

---

[1]*Л.А.Новикова. Антонимия в русском языке. (Семантический анализ противоположности в лексике) М., 1973, с. 59, 83, 86, 87, 89; А.А.Уфимцева. Слово в лексико-семантической системе языка. М., 1968 с. 191-192; Д.Н.Шмелев. Проблемы семантического анализа лексики (на материале русского языка). М., "Наука", 1973, с. 181; З.И.Будагова. О глаголной эанантиосемии в азербайджанском языке. Изв. АН. Азерб. ССР, (серия лит. яз и исск.), 1977, № 4, с. 56-57; А.К.Алекперов. Лексическая семантика простых глаголов в современном Азербайджанском языке. Баку, "Элм", 1983, с. 100-122.*

Anmaq. *An*- kökü bilmək, başa düşmək, anlamaq, xatırlamaq mənasında işlədilir. Dildə analitizm - flektivizm mərhələsinin keçid dövrünə məxsus əlamətlərdən biri yeni sözyaratma prosesində saitlə başlayan kökün üzərinə samit əlavəsindən ibarət olmuşdur. *An* kökünün üzərinə də müəyyən samitlər əlavə olunmaqla mənbə tərkibdəki anlayışlarda məna ardıcıllığını saxlayan, eyni zamanda əks məna bildirən vahidlər formalaşmışdır. Məsələn, *an* kökünə *q* əlavə etməklə *qan*(maq) (bilmək) *s* əlavə etməklə *sanmaq* (düşünmək) kimi məna ardıcıllığını saxlayan vahidlər düzəldiyi kimi *d* əlavə edilməsi ilə *danmaq* (inkar etmək) kimi əksmənalı (enantiosemik) vahidlər yaranmışdır.

Öy kökü. *Öy* kökündən *öyüd* (nəsihət), *öymək* (tərifləmək), *öyünmək* (özü-özünü tərif etmək, qürrələnmək) sözləri düzəlir. Bu kökün üzərinə *s* əlavə etdikdə söy(mək) kökü alınır. Beləliklə, eyni kök bazasında *öy* (təriflə) və söy (pislə) kimi daxili ziddəyyətli sözlər düzəldir.

Ar kökü. *Ar* kökünə müvafiq şəkilçilər qoşulmaqla *arı* (təmiz) *arıtlamaq* (təmizləmək), *arıq* (kökündən xalı, təmiz) kimi sözlər düzəlir. Bu kökün üzərinə *q* əlavə etdikdə isə *qar* kökü alınır ki, həmin kökdən əmələ gələn *qarışıq* sözündə təmiz mənası ilə zidd olan başqa bir məna ifadə olunur.

İz kökü. *İz* kökündən *izləmək* sözü düzəlir ki, bunun da motivi tapmaq, aşkar etmək mənasına uyğundur. Həmin kökə *g* əlavə olunduqda *giz* kökündən düzələn *gizli, gizlən* sözlərində isə *izlə* sözü ilə zidd məna bildirilir.

Ad kökü. *Ad* kökündən *adlanmaq* sözü düzəlir. Bunun da motivi tanınmaq, bilinmək anlayışlarından ibarətdir. Bu kökə *y* əlavə olunduqda *yad* sözü alınır ki, onun da mənası *tanınmayan, bilinməyən* anlayışından ibarətdir.

Ox kökü. *Ox* kökünə *ç* samiti əlavə edildikdə *çox*, *y* əlavə edildikdə onun əksi olan *yox* kökü alınır. Onlardan əmələ gələn *çoxluq-yoxluq, çoxalmaq-yoxalmaq* kimi sözlərdə də əks mənalılıq bildirilir.

Üz kökü. *Üz* kökünə *ül* şəkilçisi qoşulmaqla *qırılmaq, ayrılmaq* mənası bildirən üzülmək sözü düzəldilir. *Üz* sözünə *d* samitini əlavə etdikdə əks mənada *düzülmək* (var olmaq, sıralanmaq) sözü əmələ gəlir. Belə nümunələrin sayını artırmaq da olar. Bunların öyrənilməsi və təhlili dillərarası müştərək elementlərin araşdırılması baxımından əhəmiyyətlidir.

Fonetik söz yaradıcılığı

Sözlərin fonetik üsulla yaranması söz yaradıcılığı prosesinin ən qədim və ilkin mərhələlərini özündə əks etdirir. Fonetik söz yaradıcılığı prosesi öz funksiyasını artıq çoxdan başa çatdırdığından həmin prosesin araşdırılması da xeyli müddət diqqətdən kənarda qalmışdır. XX əsrin 60-cı illərinin sonunda dilçi mütəxisslər təhlil etdikləri fonetik materialın əsasında belə nəticəyə gəlmişlər ki, dillərdə köklərin formalaşdığı və qrammatik vasitələrin inkişaf etmədiyi bir mərhələdə yeni sözlərin yaranması üçün kökdaxili fonetik dəyişmələr mühüm rol oynamışdır. Azərbaycan dilçiliyində ilk dəfə fonetik söz yaradıcılığının tədqiqinə və təhlilinə gedən yolu Ə. Dəmirçizadə açmışdır. Onun fonetik vahidlərdə müəyyən anlayışların mövcudluğu barəsindəki fikirləri fonetik söz yaradıcılığına gedən yolun başlanğıcı oldu[1].

Sonrakı tədqiqat əsərlərində söz yaradıcılığı prosesində fonetik vahidlərin rolu və əhəmiyyəti barədə bir sıra maraqlı fikirlər irəli sürülmüş olsa da fonetik söz yaradıcılığı müstəqil bir tədqiqat obyektinə çevrilə bilməmişdir[2].

---

[1] *Ə. Dəmirçizadə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962, səh. 55.*

[2] *С.Джафаров. Фонетическая структура первичных слов в тюркских языках. (на материале азербайджанского языка). S.M.Kirov adına ADUnun Elmi əsərləri. Dil və ədəbiyyat ser; 1979, №6,s. 11-13; А.К. Алекперов. Лексические значение в семасиологической структуре слова. СТ, 1976,*

Fonetik söz yaradıcılığı bu gün Azərbaycan dili üçün min illərin arxasında qalmış bir proses olsa da bu onun unudulmasına heç cür haqq qazandıra bilməz. Çünki fonetik söz yaradıcılığının ilkin əhəmiyyətini təkcə söz tərkibinin səs dəyişməsi prosesi kimi məhdudlaşdırmaq olmaz. Fonetik söz yaradıcılığında, hər şeydən əvvəl, nəinki təkcə Azərbaycan dilinin, həm də bütün türk dillərinin ilkin strukturu öz izlərini saxlayır. Kök sözlər bazasında aparılan tədqiqatlar onu deməyə əsas verir ki, türk dillərinin inkişafı tarixində kök sözün quruluşunun izlərini müəyyən etmək mümkündür. Digər tərəfdən, kök sözün əvvəlindəki samit dəyişməsinin və söz ortasındakı sait dəyişməsinin mövcudluğu türk dillərinin inkişafında analitizm meyillərinin mövcudluğuna dair faktların aşkara çıxarılıb təhlil edilməsinə imkan verir.

Məsələn, Fuad Qəniyevin tatar dilində fonetik söz yaradıcılığına həsr olunmuş əsərində söz tərkibindən səslərin düşməsi, palatallaşması və vürğunun yerdəyişməsi yolu ilə məna dəyişməsi fonetik söz yaradıcılığının əsas mexanizm kimi təqdim edilir.[13]

A.A.Naqayev söz tərkibindəki səs dəyişmələrini təhlil edərək eyni kökdən yeni sözlər əmələ gəlməsini fonetik söz yaradıcılığı kimi səciyyələndirir. *Diş-deş, od-üt (ü*) kimi oxşar vari-

№2, c. 37; В.И. Асланов. Историческая лексикология азербайджанского языка. (докт. дисс.) Баку, 1973, с. 26 -27; S.Q.Əlizadə. Azərbaycan dili sözlərinin sonundan q samitinin düşməsinə dair. S.M. Kirov adına ADU-nun Elmi əsərləri. Dil və ədəbiyyat ser; 1972, №2,s. 11-14; R.Ə. Rüstəmov. Müasir Azərbaycan ədəbi dili üçün arxaikləşmiş fellər. Dilçilik məcmuəsi, XVII. cild, Bakı, 1963, c. 7-9; V. Aslanov. О путях установления первичных корней слов с непродуктивными аффексами в тюркских языках. (на материале азербайджанского языка) «Исследование по грамматике и лексике тюркских языков». Ташкент, 1965. с. 132. F.A. Cəlilov. Azərbaycan dilinin morfonologiyası. Bakı, 1989. s. 98- 137.

1[3] Бах: Ф.А.Ганиев. Фонетическое словообразование в татарском языке. Казань, 1973, с. 3 – 38.

antları digər türk dilləri ilə müqayisə edir.[14] Aydın Ələkbərov kökündə *kö, gö* elementləri olan sözləri *(köz, gövdə, gödək, gödən, kökə, kömbə, köpəşik)* təhlil edərək onların yumruluq anlayışı üzrə bir-biri ilə bağlı olduğunu göstərir.[25]

Erden Kajibekov türk dillərində eyni köklü sözləri xüsusi semantik ardıcıllığa malik vahidlər kimi tədqiq edir.[36]

Bəzən söz tərkibində səs dəyişməsi yolu ilə yaranan vahidlərin fonetik variantlılığa aid edilməməsi fikirləri ilə də rastlaşmaq olur.[41]

Fonetik söz yaradıcılığı haqqında tədqiqatların şəbəkəsi çox da geniş deyildir. Ancaq qohum dillərdə kök sözlərin struktur və semantik əlaqələrinin öyrənilməsi üçün ilkin köklərdən başqa sözlərin törəmə üsullarının araşdırılması üçün, qohum dillərdə quruluşca və mənaca bir-birindən uzaqlaşmış sözlərin bərpası üçün, ən əsası isə qohum dillərdə leksik ümumiləşmə yaratmağa nail olmaq üçün fonetik söz yaradıcılığının tədqiqi çox mühüm əhəmiyyətə malikdir. Fonetik söz yaradıcılığı bazasında qohum olmayan dillər arasındakı struktur və semantik yaxınlıqların elmi əsaslarla müəyyənləşdirilməsinin də çox böyük əhəmiyyəti vardır. Qohum olmayan dillər arasındakı struktur və semantik yaxınlıqlar təsadüfi sayıla bilməz. Yaxud bu dillərin arasındakı oxşarlıqları "nə zamansa baş vermiş alınma" prosesinin üstünə

1[4] А.А.Нагаев. Чередование звуков как средство, словообразование (на материале узбекского и некоторых других тюркских языков) АКД, Самарканд, 1969, с. 26.

2[5] Бах: А.К.Алекперов. Лексические значение в семасиологической структуре слова. СТ, 1976, №2, с. 37.

3[6] Бах: Е.З. Кажибеков. Глагольно-именная корреляция гомогонных корней в тюркских языках. Алма – Ата, 1986,с. 77 – 245.

4[1] Бах: Г. Садвакасов. Имеется - ли в современном уйгурском языке фонетический способ словообразования? СТ. 1972, 6, с. 80-82; М.М. Трофимов. О фонетическом способе словообразования в современном уйгурском языке. Ст 1979, №4,с. 48-50.

qoymaq olmaz. Bu mühüm hadisənin başqa səbəbləri vardır. Ona görə də ifrata varmadan həqiqət yolunu axtarıb tapmaqla müxtəlifsistemli dillərdəki oxşarlığın obyektiv səbəblərini araşdırmaq tamamilə mümkündür.

Azərbaycan dilində fonetik söz yaradıçılığının mühüm istiqamətlərini aşağıdakılardan ibarət hesab etmək olar: 1) struktur köklərin yaranması. 2) sözün əvvəlində, ortasında və sonunda fonetik dəyişmə baş verməsi yolu ilə yeni sözlərin yaranması.

Struktur köklərin yaranması

Sinkretik köklər müxtəlif nitq hissələrinə aiddir. Sinkretizm sözü mənşəcə yunan dilinə məxsusdur. Mənası birləşmək deməkdir. Sinkretik köklər üçün səciyyəvi cəhət də müxtəlif mənaların eyni kök daxilində birləşməsindən ibarətdir. Bu tipli sinkretik köklər Azərbaycan dilində olduğu kimi digər türk dillərində də mövcuddur*: at (heyvan), at (atmaq); tut (meyvə), tut (tutmaq); daş (isim), daş (daşmaq); dan (üfüq), dan (danmaq); qan (maddə), qan (qanmaq); yay (fəsil), yay (yaymaq); sağ (diri), sağ (sağmaq); yağ (maddə), yağ (yağmaq); qaz (quş növü), qaz qazmaq); it (heyvan), it (itmək); qız (insana məxsus cins), qız (qəzəblənmək); yan (böyür), yan (yanmaq); al (qırmızı), al (almaq); qır (maddə), qır (qirmaq); bit (həşərat), bit (bitirmək)* kimi sözlər bu cəhətdən səciyyəvidir.

Müxtəlif nitq hissələrinə məxsus kök sinkretizmlərini öz xarakterinə görə sözyaratmanın ən ilkin mərhələsi hesab etmək olar. Ona görə ki, onların arasında məna əlaqələri mövcud deyildir. Ümumiyyətlə, müasirlik baxımından yanaşıldıqda bu cür sinkretik köklərdə məna əlaqəsi təsəvvürə də gətirilmir. Dildə yeni anlayışların ifadəsinə yaranan tələbat bir kökdən tamam başqa məna bildirən sözlərin yaranmasını şərtləndirmişdir.

Ad və fel nitq hissələrinə aid birhecalı kök sinkretizmlərinin nitqə görə fərqlənməsində tonallıq mühüm əhəmiyyət daşıyır. Belə ki, məsələn, *çat* (isim), *çat* (fel); *tut* (isim), *tut* (fel); *it* (isim), *it* (fel) və s. nümunələrdəki sait səslər tonallığın fərqləndirilməsində əsas vasitədir. İsmi tonallıqda sait səs bir qədər zəif, feli tonallıqda güclü hiss olunur. Bu da dilin ilkin sözyaratma mərhələsində eyni kök daxilində ismin və felin fərqləndiricisi kimi digər vasitələrin mövcud olmadığını göstərir. Feli sinkretizmlərdə tonallıq öz səslənmə təsirinə görə əmr formasının ikinci şəxsinin təkinin ifadəsinə bərabərdir. Yəni, məsələn, *tut* sözü isim kimi işlədiləndə ton adi qayda səslənir. Fel kimi işlədildikdə isə əmr formasının tonu öz gücünü və təsirini göstərir.

Ümumiyyətlə, həmin tipli köklərdə dil əşyalılığa və hərəkətə görə xüsusi bir fərq qoymur. Ona görə də nitq təfəkkürün gücü ilə məcburən iki anlayışı bir strukturda birləşdirir. Tonallıq isə sözün strukturunu yox, mənasını fərqləndirməyə xidmət edir. Bütün bunlar göstərir ki, dilin ən qədim dövrlərində təfəkkür imkanları dil imkanlarından güclü olmuşdur. Dil daim təfəkkürün arxasınca gedərək nitqin intensiv fəaliyyəti ilə özünə yeni strukturlar formalaşdırmışdır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bəzi tədqiqatlarda ikihecalı sözlərdə də vurğu onları ismə və felə görə fərqləndirir: *alma-a/lma, bölmə-bö/lmə, vurma-vu/rma, çıxma-ç/ıxma, gə/lmə-gəlmə, yarma-ya/rma, boğma-bo/ğma, qırma-qı/rma, gəlin-gə/lin* və s.

Buna istinad edərək tədqiqatların bəzilərində belə sözlər də fonetik söz yaradıcılığına aid edilir. Nəzərə almaq lazımdır ki, bunlar sadə kök sözlər yox, düzəltmə sözlərdir. Ona görə də nəzərə almaq lazımdır ki, burada tonallıqla birlikdə sözyaratmada şəkilçilərin də rolu vardır. Yəni burada tonallığın funksiyası nə qədərdirsə şəkilçilərin funksiyası da o qədərdir. Odur ki, söz-

yaratmanın bu növü təkcə fonetikanın yox, şəkilçilərin yox, həm də fonosemantikanın məhsulu kimi qəbul edilməlidir. Belə sözlərdə vurğunun fərqləndirici rolunun mövcudluğunu ilkin mərhələyə məxsus tonallığın keyfiyyətcə aqlütinativlik mərhələsindəki ənənəvi davamı kimi nəzərə almaq lazımdır.

Təfəkkürün inkişafının dilə daim təsiri ilə eyni nitq hissələri daxilində kök sinkretizmləri ətraf aləm hadisələrinin sadəcə olaraq təfəkkürdə qavranılması nəticəsində yaranmır. Belə kök sinkretizmlərinin formalaşmasında artıq mücərrəd təfəkkürün rolu və fəaliyyəti başlıca yer tutur. Bir kökün daxilində elə mənalar toplaşır ki, onların arasında ilkin anlayışların müəyyən əlaqələri görünür. Bu anlayışların bir kök daxilində toplaşmasında isə məcazi mənalılıq aparıcı olur. Zaman kecdikcə bir kök daxilində toplaşan anlayışların özü də müstəqilləşmiş, onların arasındakı məna əlaqələri tədricən aradan çıxmışdır. Eyni nitq hissələrinə dair kök sinkretizmlərinin izlərini aşağıdakı kimi nümunələrdə müşahidə etmək olur*: kök (meyvə), kök (iri, şişman), göy (rəng), göy (səma), yaş (ömür), yaş (nəm), yal (yem), yal (dağın üstü), yal (atın yalmanı), iy (qoxu), iy (iş aləti), ay (göy cismi), ay (vaxt), sağ (tərəf), sağ (diri), qaş (gözə aid əlamət), qaş (üfüq).*

Qohum dillərdə də bu tipli sinkretizmlər mövcuddur: *dal (sahə), dal (budaq), top (oyun aləti), top (silah), biz (bez), biz (alət), qol (əl), qol (eniş),qut (xoşbəxt),qut (çirk) (türk), kör (kor), kör (qəbir), kur (yağlı), kur (kəmər, qurşaq), oy (fikir), oy (eniş)(qırğ) və s.*

İlkin köklərin mənaca inkişafında sinkretizm əlamətinin çox mühüm təsiri olmuşdur. Belə ki, bu təsir, hətta, dilin sonrakı şəkilçiləşmə mərhələsində də öz izlərini davam etdirə bilmişdir. Məsələn, aşağıdakı kimi ikihecalı sözlərdə ilkin sinkretizmlərin izlərini görmək olur*: bağır (daxili bədən üzvü), bağır (qışqır-*

maq), tala (cöl), tala (talamaq), böyür (yan), böyür (uca səslə qışqırmaq), qabar (şiş), qabar (kobud danışmaq), kürək (iş aləti), kürək (arxa, bel), parça (hissə), parça (paltarlıq) və s.

Birhecalı köklərin inkişafında semantik amillərin rolunun artması dilin informasiya imkanlarının çoxalması deməkdir. Dilin informasiya imkanları genişləndikcə özünə daim yeni ifadə formaları yaradır.

Köklərin əvvəlində səs dəyişməsi baş verməsi ilə söz yaranması

Kök sözlərin əvvəlindəki səsin dəyişməsi ilə yeni sözlərin əmələ gəlməsi fonetik söz yaradıcılığının mühüm əlamətlərindən biridir. Köklərin əvvəlindəki ilk səslərin mənafərqləndiriciyə xidmət etməsi dilçiliyə aid tədqiqatlarda təqdir edilir və bu məsələ mütəxəsislərin heç birində şübhə yaratmır. Çünki dil faktlarının özü ilk səsin bu funksiyasını təsdiq edir. Məsələn, *bax, çax, yax, tax, qax* kimi sözlərin əvvəlindəki *b, ç, y, t, q* samitlərinə görə həmin sözlərdə özünəməxsus mənalar ifadə olunur. Bunun kimi *qar, dar, yar, var, tar* kimi sözlərdə də ilk səsin fərqlənməsi ilə müxtəlif müstəqil mənalar bildirilir. Birinci samitin mənafərqləndiricilik funksiyası mövcud olmasa idi dildəki sözlərin xüsusi mənalarını da fərqləndirmək mümkün olmazdı.

Bu tipli sözlərdə birinci səsin fərqlənməsi ilə müstəqil məna bildirən xüsusi sözlər formalaşmışdır. Fonetik söz yaradıcılığının səciyyəvi əlaməti isə ondan ibarətdir ki, sözün əvvəlindəki səsin dəyişməsi ilə eyni kökdən məna əlaqələrini mühafizə edən başqa sözlər yaranır. Bu proses dilin ilk sözyaratma mərhələsini əks etdirir. İlkin mərhələdə bir-birindən tamam fərqlənən

sözlərin yaranmasında dil imkanları az olduğundan eyni kökdən məna əlaqələrini saxlayan başqa sözlərin əmələ gəlməsi prosesi aparıcılıq təşkil etmişdir. Bu prosesdə iştirak edən samitlər keyfiyyətcə eyni səs yuvasını təşkil edən fonemlərdən ibarət olmuşdur. Məhz eyni yuvadan törəyən səslərin keçid istiqamətləri üzrə baş verən dəyişmələrdə məna əlaqələrinin saxlanması əsas əlamətlərdən biri olmuşdur. Nəzərə almaq lazımdır ki, təkhecalı sözün əvvəlində baş verən səs dəyişmələri həm samitlə, həm də saitlə başlayan sözlərdə müşahidə edilir. Təkhecalı sözün ortasında isə saitlər dəyişir. Sözün sonundakı samit dəyişməsi isə dəyişən samitin affiksallıq funksiyasını təcəssüm etdirir.

Samitlə başlayan köklərdə səs dəyişməsi ilə yeni sözlərin yaranması

Azərbaycan dilində dilarxası və dilortası samitlərin söz əvvəlindəki dəyişməsi yolu ilə aşağıdakı kimi sözlərin formalaşmasını nümunə göstərmək olar:

Söz əvvəlində *q-x* səslərinin dəyişməsi ilə *xart, xart*, *qır* kökündən *qırtlaq, qırıq, qırıltı, çırıltı* sözləri yaranmışdır. *Xır* kökündən isə *xırt, xırıltı, xarıltı* kimi sözlər düzəlmişdir. *Qır* kökündən həmçinin *qırıq, qırış, qırışdamaq (əzmək)* kimi sözlər yaranmışdır. Buna müvafiq olaraq Azərbaycan dilində q-*x* keçidi əsasında *xırda, xışda, xırışda* kimi sözlər formalaşmışdır.

Q-x keçirdi ilə qot kökündən *qotma* (bir qucaq ot) *xot* kökündən *xotma* (ot topası) kimi sözlər yaranmışdır.

K-g samitlərinin keçidi əsasında *kir* kökündən *kirtik* (işlənmiş sabun qalığı, qırıq), *kirkirə* (dən üyütmək üçün məişət əşyası), *gir* sözündən isə *gird* (bir əşyanın dəyirmi bölünməsi, gird yarı), *girdə* (yumru) kimi sözlər yaranmışdır. Bunları ümu-

miləşdirən anlayış *kəsiklik, yumruluq, dəyirmilik* mənasındadır. *Həmin keçid əsasında köy və göy sözləri də yaranmışdır.*

Nəzərə aldıqda ki, *göy* sözünün tarixi mənbələrdə *kök* variantı var, onda *kök* və *göy* sözlərinin əlamətinin *k-g* səs dəyişməsi olduğunu qəbul etmək olar.

Kök sözündən *hündürlük, dəyirmilik* anlayışını bildirən *kökə*, *köklük, göy (gök)* kökündən isə *göy* (səma) kimi sözlər yaranmışdır.

Q-k keçidindən yaranan *qun-kün* köklərindən *qunc* (kənar, qıraq), *qundaq* (bələk, bürülü əşya) *kündə* (yumur-lanmış xəmir) və *künc* (guşə) kimi sözlər əmələ gəlmişdir.

Q-k keçidi əsasında yaranan sözlərə *qul-köl* kökləri əsasında formalaşmış aşağıdakı kimi sözləri də aid etmək olar: *qul* (hüquqsuz insan) *kölə* (əsir kişi), *qula* (xəbərçi), *qulluqçu* (xidmət edən işçi) *kölgə* (əşyanın əks olunması).

Dil- diş samitlərinin *t-d, t-ç, t-ş, d-s, d-y, d-ç, ç-s, c-s, d-s, s-y, s-h, q-s, ğ-s, d-ş* keçidləri üzrə də müəyyən sözlər yaranmışdır. Onlardan aşağıdakıları nümunə göstərmək olar:

Tiş-diş köklərindən tişəmək (dəyirmanın daşını diş-diş etmək), *tişək* (dəyirmanın daşını un üyütməyə hazırlamaq), *dişlə* (arabanın çıxıntı hissəsi), *dişləmək* (dişlə qoparmaq); *tala* (qarət)-*dala* (dalamaq), *tağar* (ölçü) – *dağar*(cıq) (un, taxıl saxlanan dəri), *tovar* (yük)- *dovar*(qoyun); *tik* (ucalt)-*dik* (hündür), *talan* (etmək) *çalmaq* (oğurlamaq, qarət etmək); *tilov* (balıq tutmaq aləti)-*cilov* (atın başına keçirilən yüyən), *taq*(qıltı)- şıq(qıltı); *dürt-sürt; dumbuz-yumruq; dumbuz-çumbuz* (bir bel ağzı nəmli yumruvari torpaq); *dev*(ir), *çev*(ir); *dön*(dər)- *çov*(ğun); *cər*(gə)- *sır*(a); *cır*(ıq)- *sır*(ıq); *dır*(naq)- *çır*(maq); *cır*(ıq)- *yır*(tıq); *çox-yox*(lamaq; *çal*(xala)-*sil*(kələ), *sıx*(maq)-*zıx*(çalamaq), *diş-şiş* və s.

Dodaq samitlərinin *r-f, b-v, m-v* keçidlərinə uyğun olaraq aşağıdakı kimi sözlər düzəlmişdir: *pır*(ıldamaq)-*fır*(ıldamaq), *bur*(maq)-*vur*(maq), *mır*(ılda)-*vır*(ılda) və s.

Saitlə başlayan kök sözlərdə səs dəyişmələri ilə yeni sözlərin yaranması

Saitlə başlayan kök sözlərdə fonetik söz yaradıcılığının iki tipini fərləndirmək olar. Birincisi, saitlə başlayan və sait dəyişməsi ilə məna əlaqəsini saxlayan kök morfemlər, ikincisi, saitlə başlayan və əvvəlinə samit qoşulmaqla məna əlaqəsi yaradan kök morfemlər. Kök sözün əvvəlində samit səs iştirak etmirsə vaxtilə mövcud olmuş və ya potensial samitin funksiyası başlanğıcdakı sait səsin üzərinə düşür. Məsələn, Azərbaycan dilində *il* - kökü ilə başlayan *ildırım, ilxı, ilğım, en* kökü ilə başlayan *endirmək, eniş, ul* kökü ilə başlayan *ulduz, al* kökü ilə başlayan *alov, üz* kökü ilə başlayan *üzük, üzülmək, uc* kökü ilə başlayan *uca, ucuz* kimi sözlərin əvvəlindən *y* samitinin ixtisar olunması şübhə yaratmır, çünki qohum dillərdə və ya lokal nitq arealların-da həmin sözlərin əvvəli *y* samiti ilə ifadə olunan variantlarını aşkar etmək mümkündür. Həmin sözlərin əvvəlində potensial samit işlənməsə də sonrakı sait səs itmiş fonemin funksiyasını öz üzərinə götürür. Bu mənada, *iş, it, iy, iz, əz, ət, əy, ər, ay, at, al, aş, aç, az, üz, üç, ün, un* kimi əvvəli samitlə başlamayan sözlərdə sait səs başlanğıc fonemin məna fərqləndiricilik funksiyasını yerinə yetirir.

Azərbaycan dilində əvvəli saitlə başlayan bəzi kök sözlər də mövcuddur ki, onlarda başlanğıc saitin müvafiq keçidi sayəsində bir-biri ilə ardıcıl məna əlaqəsini saxlayan müəyyən sözlərin yaranmasını müşahidə etmək olur.

Səslərin *a- u* keçidi əsasında anmaq sözündən *unamaq* (xatırlamaq), *unutmaq*; *a-ü* keçidi əsasında *alışma* (hissə-hissə kəsmək, doğramaq) sözündən *ülüş* (hissə, pay), *ülgüc*; *a-ö* keçidi əsasında *ayıtmaq* (demək, söyləmək), sözündən *öyüd*, *öyünmək,*

öyrətmək, öyrənmək, acıq sözündən *öcəşmək* (mübahisə yaratmaq, höcətləşmək); *a-o* keçidi əsasında *ayıq* sözündən *oyaq, oyan, oyat*; *e-i* səslərinin keçidi əsasında *eymə* (iri qatıq, süzmə torbası), *iymə* (tamamilə suyu süzülmüş qatıq, ADDL, 233) sözləri formalaşmışdır.

Əvvəlinə samit qoşulmaqla məna əlaqəsi saxlayan kök morfemlərin yaranması

Saitlə başlayan kök morfemin əvvəlinə samit qoşulması fonetik söz yaradıcılığında sözyaratma üsullarından biri kimi analitizmin göstəricisidir. Türk dillərində analitik söz yaradıcılığı keçici olsa da ilkin sözyaratma üsullarından biri kimi bu mexanizmin izləri müəyyən qrup nümunələrdə öz izlərini saxlayır. Doğrudur, müasir analitik dillərdə söz əvvəlinə samit qoşulması yolu ilə yeni kök morfemlərin yaranması prosesi artıq fəal deyildir. Ancaq köksözlü dillərdə kökdaxili dəyişmələr yolu ilə söz yaradıcılığı indi də davam etməkdədir.[11]

Köksözlü dillərdə kökdaxili səs dəyişməsi yolu ilə söz yaradıcılığı davam etdiyi kimi, analitik dillərdə də fonetik söz yaradıcılığının izləri qalmaqdadır. Odur ki, kökdaxili fonetik söz yaradıcılığınadan, xüsusən də köklərdə analitik yolla söz yaradıcılığı məsələlərindən bəhs edərkən müvafiq nümunələrin müxtəlifsistemli dillərlə müqayisəsi münasib sayılmalıdır.

Ilkin köklərdən fonetik dəyişmə yolu ilə yeni sözyaratmanın başlıca motivi ondan ibarətdir ki, bir kök bazasında yaranan söz semantik cəhətdən əvvəlki köklə əlaqəsini itirmir. Eyni kök bazasında neçə söz yaranırsa onların hamısının arasında daxi-

1[1] С.Е.Яхонтов. Древнекитайский язык. "Наука", М., 1965, с. 34, 35, 36; Н.Н.Коротков, Ю.Б.Рождественский, Г.П.Сердюченко, Б.М.Солнцев. Китайский язык. М., 1961, с. 8-46.

li semantik əlaqə müşahidə edilir. Bu mənada, *qaş, baş, yaş, daş* kimi sözlərdə birinci element, *bil, bal, bol, bat, baş* kimi sözlərdə üçüncü element fərqlənirsə onları bir kökdən fonetik dəyişmə yolu ilə yaranan sözlər hesab etmək mümkün deyildir. Çünki onların arasında heç bir semantik əlaqənin mövcudluğu müşahidə edilmir. Eyni kökdən səs dəyişməsi yolu ilə yeni söz düzəlməsinə aid buna oxşar nümunələrin verilməsi ilə fonetik söz yaradıcılığı barədə fikir söylənilməsi yanlışlıqdır.

Semantik əlaqə fonetik söz yaradıcılığının başlıca əlamətlərindəndir. Belə bir əlaqə əvvəlinə samit qoşulmuş kök morfemlərdən analitik yolla düzələn sözlərdə də müşahidə edilir. Məsələn, Azərbaycan dilində *an* kök morfemi bilmək, başa düşmək, anlamaq mənası bildirir. Azərbaycan dili ilə qohum olmayan başqa dillərdə də *an* – kök morfeminin adekvatları mövcuddur. Məsələn, ingilis dilindəki *understant* (bilmək, başa düşmək), yunan mənşəli *analiz* (təhlil edib anlamaq), latın mənşəli *annotasiya* (şərh, aydınlaşdırmaq), ərəb mənşəli *intixab* (seçmə), *inkar* (danmaq), *inşirah* (açılma, zahir olma) kimi sözlərdə *an* kökü ilə səsləşən semantik uyğunluqlar vardır. Azərbaycan dilindəki *inam* (etibar), *inan* (etibar etmək) kimi sözlərin daxili mənaları da *an* – kök morfemindən uzaq deyildir. *An* kökünün əvvəlinə analitik qayda üzrə *d* samiti əlavə etməklə *dan* (inkar etmək), *t* samiti əlavə etməklə *tan* (ı) (bilmək), *q* samiti əlavə etməklə *qan* (başa düşmək), *s* samiti əlavə etməklə *san* (bilmək, başa düşmək) mənalı sözlər əmələ gəlir.

An – kök morfeminin analitik derivatları başqa dillərdə də mövcuddur. Məsələn, rus dilindəki *знане* (bilik), *рознане* (anlayış), *знатный* (məşhur), *вспомнать* (xatırlamaq), ərəb dilindəki *məna* (məzmun), fars dilindəki *dana* (bilici), Çin dilindəki *doinq* (xatırlamaq, yada salmaq) sözlərinin kökündə *an* – morfeminin müvafiq adekvatları durur.

An kök morfeminin *in* variantı *inləmək* sözündə öz mənasını həzin səs çıxarmaq anlayışı ilə bildirir. Bu kökə *d* samiti qoşulduqda *din* (mək) sözü yaranır. *In* – kökünün *un* – variantı rus dilində *unılo* (qəmgin, həzin), *unılıy* (həzin, hüzünlü), *unıvıy* (həzin, kədərli) sözlərində işlənir. Buna yaxın məna Azərbaycan dilindəki *ün* (səs) variantında da ifadə olunur. Çin dilində *in* kökünün əvvəlinə *t* əlavəsi ilə *tinq* (dinləmək), *y* əlavəsi ilə *yin* (səs) sözü əmələ gəlir.

Azərbaycan dilindəki *ay* kökü əsasında *ayrı* (hissə-hissə), *ayırmaq* (bölmək) kimi sözlər düzəlir. *Ay* kökünün əvvəlinə *p* samiti əlavə edildikdə isə bölünmək mənasını saxlayan *pay* sözü düzəlir.

Azərbaycan dilində iri tikələrə *bölmək* (ayırmaq) mənasında işlənən *alışma* sözü vardır. Sözün *al* kökünün *ül* variantı əsasında *ülüş* (xırda tikələrə bölmək) sözü yaranmışdır. Bu söz nitq areallarında *ülüş* və *ürüş* variantlarında işlədilir: Qonşumuz bizə bir *ülüş* halva verdi (Sabirabad); Yas yerində həriyə bir *ülüş* halva verdilər (Şuşa); Yanı o xərtənə ölü oldux kun, bir *ürüş* halvanı da yeə bilmədix? (Ağdam).

Ülüş sözü «Kitabi-Dədə Qorqud»da da xırda hissələrə bölüb paylaşmaq mənasında işlənir: "Kafər dəxi düşübən bir yerdə axça *ülüşməkdəydi*" (KDQIL, 179).

Ülüş sözü həmin mənada qədim mənbələrdə də işlənmişdir: "Tənrilərkə ön *ülüş* bolsin" (Əvvəlcə tanrılara pay olsun) (DTS, 625).

Ül kökünün *öl* variantının üzərinə *b* samiti qoşulduqda *böl* sözü alınır. Burada da bölmək mənası *ül* kökü ilə öz əlaqəsini saxlayır.

Azərbaycan dilində *ül* kökünün *il* variantının üzərinə *d* samiti əlavə olunduqda bu kökdən yaranan *dilim, dilik* sözlərində də *bölük, kəsik* mənaları bildirilir. *Il, ül, öl* köklərinin *el* variantı

əsasında rus dilində əvvəlinə *d* əlavə olunmaqla *delitğ* (bölmək), *delta* (quru hissənin su ilə bölündüyü yer), ingilis dilində *delimit* (bölünmək) sözləri yaranmışdır.

Azərbaycan dilindəki *az* kökü əsasında *azmaq* sözü yaranır. *Az* kökünün əvvəlinə *y* artırmaqla *yaz*(ın) (itmək) sözü düzəlir. *Ay* kökünə *y* əlavə etməklə düzələn *yay* kökündən azmaqla bağlı olan *yay* (ın) (uşaqlaşmaq, aralanmaq) sözü düzəlir. *Aş* kökünə *y* əlavəsi ilə *yaşın* (gizlənmək), *yaşır* (gizlətmək) sözləri düzəlir.

Rus dilində *az* kökünün *iz* variantından *iliznutğ* (gizlənmək, gözdən kənar olmaq) sözü düzəlmişdir.

Azərbaycan dilindəki – *iz* variantından izləmək sözü düzəlir. Kökün üzərinə *g* samiti əlavə etməklə, əks mənalı *giz* kökü yaranır ki, onun da mənası *gizlin, gizlən, gizli* sözlərindən bəlli olur.

Azərbaycan dilindəki *ar* kökünün əsasında *arı* (təmiz) sözü yaranmışdır. *Ar* kökünə *q* samiti əlavə etməklə *qar* kökü yaranır. Bu kökdən isə əks mənalı *qarışıq* (təmizin əksi) sözü düzəlir.

Türk dillərinə aid qədim mənbələrdə *ör* kökü əsasında yanmaq bildirən *ört* sözü işlənir: *örtça* qızıp kelti (od kimi alovlanıb gəldilər); *ört* üzə *örtənip* (odda yanmaq) (DTS, 389).

Azərbaycan dilində *ört* sözünün əvvəlinə *p* əlavə olunması ilə yanmaq, bişmək, qızarmaq mənasında *pörtmək* sözü düzəlir. Azərbaycan dilində *üt* (ütülmək yanmaq) kökündən ütü sözü əmələ gəmişdir. *Üt* kökünə *t* əlavəsi ilə *tüt* kökü yaranmışdır ki, bundan da *tütsü* (tüstü), *tütün* (tüstülənib yanan) *tutuşmaq* (yanmaq) sözləri düzəlmişdir.

Ör kökünün *ar*-or variantı əsasında rus dilində *qarğ* (yanıq), *qoretğ* (yanmaq), *razqar* (alovlu) sözləri düzəlmişdir. Azərbaycan dilində isə *or* variantının üzərinə *q* əlavə olunmaqla *qor* (od) sözü əmələ gəlmişdir.

Oğru sözünün *oğ* kökün üzərinə isə *d* samiti əlavə olun-

maqla əks mənalı *doğru* sözünün kökü düzəlir.

Üz kökünə *d* əlavə etməklə *düz*(ül), *s* əlavə etməklə *süz*(ül), *b* əlavə etməklə *büz*(ül), *ay*(aq) kökünə *d* əlavə etməklə *day*(aq), *uy* kökünə *d* əlavə etməklə *duy*(uq), *duy*(ğu), *duy*(um); *öy*(un) mək kökünə *s* əlavə etməklə *söy*(mək); *an*(rı) kökünə *y* əlavə etməklə *yan* (böyür), *yan*(akı), *ad* kökünə *y* əlavə etməklə *yad* (özgə), *yad*(xatırlamaq) *yad*(ırğa) kimi monosullablar düzəlir.

Azərbaycan dilində fonetik söz yaradıcılığının izlərini saxlayan nümunələr çoxdur. Müqayisə yolu ilə belə sözlərin araşdırılması dillərarası genetik oxşarlıqların müəyyənləşdirilməsi baxımından maraqlıdır.

Kök daxilindəki sait dəyişmələri ilə yeni sözlərin yaranması

Kökdaxili sait dəyişməsi ilə yeni kök sözlərin yaranması fonetik söz yaradıcılığının səciyyəvi əlamətlərindən biridir.

Söz köklərinin daxilində *a-ı* səslərinin dəyişməsi ilə *sarıq* (sarımaq) sözündən *sırıq* (yorğan və döşəyin içəridən tikilməsi), *yarıq* sözündən *yırtıq*, *qay-qıy* köklərindən *qayçı, qıyıq, qap-qıp* köklərindən *qapaq-qınıq, çağ-çığ* köklərindən *çağır-çığır; a-o* səslərinin dəyişməsi ilə *bağ-boğ* köklərindən *bağlamaq-boğmaq*, *qap-qop* köklərindən *qapı, qapalı, qopuq, o-ö* səslərinin dəyişməsi ilə *boy-böy* köklərindən *böylu* (hündür), *böyük*, *o-u* səslərinin dəyişməsi ilə *boy-buy* köklərindən *boyun-buynuz, ə-ü* səslərinin dəyişməsi ilə *kəs-küs* köklərindən kəsilmək (ara vermək, fasilə vermək), *küsmək, təp-tüp* köklərindən *təpə-tüp* (mərkəz), *ə-ü* səslərinin dəyişməsi ilə *dəl-dil* köklərindən *dəlik-dilik, dilim, u-ö* səslərinin dəyişməsi ilə *çux-çök* köklərindən *çuxur-çökək, ı-i* sələrinin dəyişməsi ilə *cız-ciz* köklərindən *cı-*

zıq-cizik, e-i saitlərinin dəyişməsi ilə *bel-bil* köklərindən *bel-ləmək-bilək, e-ü* səslərinin dəyişməsi ilə *yer-yür* köklərindən *yerimək-yüyürmək, i-ü* səslərinin keçidi ilə *bit-büt* köklərindən *bitkin-bütün, bütöv, u-y* səslərinin keçidi ilə *tut-tüt* köklərindən *tutuşmaq* (yanmaq)-*tütün* kimi sözlər yaranmışdır.

Kök sonundakı samit dəyişmələri ilə yeni sözlərin yaranması

Sözun əvvəlində və ortasında səs dəyişməsi ilə yaranan köklərdə və onların derivatlarında ümumi məna anlayışı saxlandığı kimi sonuncu səsin dəyişməsi nəticəsində yaranan köklərdə və onların derivatlarında da məna ümumiliyi müşahidə edilir.

Bu xüsusiyyəti aşağıdakı kimi səs dəyişmələri əsasında yaranan kök morfemlərdə və onların əsasında formalaşan sözlərdə müşahidə etmək mümkündür:

Kök sonunda *x-ğ* səslərinin dəyişməsi *sıx-sığ, yıx-yığ, box-boğ* kök morfemlərdə müşahidə edilir.

Sıx-sığ köklərində ümumi məna anlayışı sıxılmaq, yığılmaq kimi məna çalarlıqlarında özünü göstərir. Həmin anlayışlara aid müvafiq mənaları bu köklərin əsasında yaranan, *sıxmaq, sıxılmaq, sıxlaşmaq, sıxdırmaq, sığışmaq, sığamaq sığdırmaq, sığallamaq* kimi sözlərdə də görmək mümkündür.

Yıx-yığ köklərində isə ümumi mənalılıq yerə yıxmaq və toplamaq kimi çalarlıqlardan ibarətdir. Bu cür məna çalarlıqları həmin köklərin əsasında yaranmış *yıxılmaq, yıxdırmaq, yığışmaq, yığdırmaq* kimi sözlərdə müşahidə edilir.

Box-boğ köklərində isə *boğmaq, sıxmaq, sıxıb bağlamaq* kimi məna xüsusiyyətləri ifadə olunur. *Box* kökü öz məna müstəqilliyini saxlamasa da, onun əsasında düzələn *boxça* sözü

boğ kökü və bu kökə məxsus düzəltmə sözlərlə qarşılaşdırıldıqda yaxın məna çalarlıqları müşahidə edilir: *boğulmaq, boğdurmaq, boğaz, boğunuq* və s.

Kök sözlərin sonunda *x – n* səslərinin dəyişməsinə də rast gəlmək olur. Bu dəyişmədə *x* samiti, əslində, dilarxası, genetik kar *n*, (velyar n) səsinin relikti kimi iştirak edir. Bu səs dəyişməsi əsasında *yan-yax* kökləri, onların əsasında isə *yandırmaq, yandırıb-yaxmaq* kimi məna ümumiliyi bildirən sözlər düzəlmişdir.

Dilortası samitlərdən *k* samiti kök morfemin sonunda digər bir samitlə dəyişmir. *K* samitinin dəyişməsi ikihecalı kök sonunda daha çox müşahidə edilir. *G* samiti kök morfemlərin sonunda norma kimi daim *y* ilə əvəzlənir. *Y* samitinin özü isə təkhecalı kök morfemlərin sonunda, başlıca olaraq, dil-diş samitləri ilə keçid təşkil edir. Ona görə də dilortası samitlərin funksiyası, demək olar ki, birhecalı kök morfemlərin sonunda *y* samitinin üzərinə düşür. Odur ki, dilortası samitlərin kök sonundakı dəyişməsindən daha çox, dil-diş samitlərinin keçidi ilə söz yaranması barədə bəhs etmək daha məqsədəuyğundur.

Söz kökü sonunda y-ş, y-z, ş-l, ş-s, ş-s-l, r-l, z-r, p-b, m-b, p-m səslərinin keçidi ilə aşağıdakı kimi sözlərin formalaşmasına təsadüf edilir:

Söz kökü sonunda *y – ş* səs dəyişməsi *yay-yaş-yaz* köklərində müşahidə edilir. Bu köklərin əsasında düzələn *yayın-yaşın* sözlərində kənarlaşmaq, gözdən aralı olmaq kimi mənalar bildirilir. Konkret olaraq, *yayınmaq* sözündə kənar olmaq (gözdən yayınmaq), *yaşınmaq* sözündə isə *gizlənmək*, özünü göstərməmək mənaları ifadə olunur.

Yaş kökü əsasında düzəlmiş *yaşmaq* sözü də gizlənmək mənası bildirir. *Yaşmaq* sözü dilimizdə indi fəal işlənməsə də mənbələrdə onun «qadınların yad kişilərdən üzünü gizlətməsi» mənasında işlədildiyi müşahidə olunur. Xatunları qas-qas *yaş-*

maqları altından gülüşdülər (KDQ, 58); Ayağım başmaq, üzüm *yaşmaq* görmədi (KDQ, 33). Banuçiçək *yaşmaqlandı*, xəbər sordu (KDQ, 54).

Yaş kökündən düzəlmiş *yaşırmaq* sözündə də gizlətməklə bağlı məna çalarlığı bildirilir: "Ol ər ol nənin *yaşurğan"* (O adam o əşyaları gizlətdi) (DTS, 247); "Zəfim eldən *yaşırıb* əhvalımı saxlar, vəli, Naleyi biixtiyarımdır qılan rüsva məni". (Məhəmməd Füzuli); *Yaşır* muyi bir möhkəm yerdə (Bunu bir möhkəm (etibarlı) yerdə gizlət (ADDL, 242).

Yaz kökü də *yay* və *yaş* kökləri kimi gizlənmək mənasına müvafiq çalarlıqla səciyyələnir. Həmin məna çalarlığı *yaz* kökündən düzələn *yazınmaq* (Əkdiyim şitillərin biri də yazınmadı) sözündə ifadə edilir. Yazınmaq sözü mənbələrdə *günah etmək* və *azmaq* mənalarında qeydə alınmışdır: "*Tanrıqa yazınıb"* (DTS, 251). (Allaha xoş getməyən)

günah edib).

Yaz sözünün özü də mənbələrdə səhv etmək mənasında qeydə alınmışdır. *Yazmas* atım bolmas yanılmaz bilgə bolmas (səhvsiz nişançı olmaz, səhvsiz müdrik də olmaz (yoxdur). (DTC, 250).

Yaz kökündən düzəlmiş *yazıq* sözü mənbələrdə günah etmiş adam mənasında da qeydə alınmışdır: Emti bu on türlüq *yazuqda* boşunu ötünür biz. (Indi biz yalvarırıq ki, on cür günahdan təmizlənək) (DTC, 251).

Yazıq sözü müasir dilimizdə öz əvvəlki mənasını dəyişərək günahsız, fağır, sadəlövh mənasında işlədilir: "Bu yazığın nə günahı var?".

Y – z səs dəyişməsi *quy-quz* köklərində də müşahidə edilir. Bu köklərə aid ümumi anlayış qazılmaq, qazılıb aşağı düşmək, uçub aşağı tökülmək kimi çalarlardan ibarətdir. *Quy* kökü əsasında düzələn *quyu, quytul* kimi sözlərdə bu mənalar ümumi xarakter daşıyır.

Quz kökündən düzələn *quzulamaq* sözünə aid uçub tökülmək mənası isə yerli nitq areallarında saxlanılır (Bax: ADDL, 152).

Ş – l səslərinin keçidi *deş-dəl, döş-döl, beş-bəl* köklərində müşahidə edilir. *Deş-dəl* kökləri müstəqil mənalı olduğu üçün bu sözlərə məxsus ümumi anlayışı duymaq çətin deyildir. Həmin köklərə aid olan derivatlarda da ümumi məna anlayışı aydın görünür: *deşmək-dəlmək, deşik-dəlik*.

Döş və *döl* sözlərində isə məna anlayışı *döl* ilə bağlı döşdən süd sağmaq, süd əmmək, süd əmizdirmək kimi ifadələrə aid mənalardan ibarətdir. *Beş* və *bəl* kökləri isə onları birləşdirən ümumi məna anlayışını birbaşa bildirə bilmir. Onların ümumi mənaları *bələk-beşik* sözlərində ifadə edilir.

Ş – l səslərinin keçidini *yıl* və *iş* (yış) köklərində də müşahidə etmək olur. *Yıl* kökü qədim mənbələrdə *yıldırmaq* sözünün daxilində parıldamaq, *işıldamaq* mənasında qeydə alınmışdır: *Yıltırar* ay (Ay parıldayar, işıldayar), (DTC, 267).

Yıl kökü özünün *işıldamaq* mənasını *yıldız* (ulduz) sözündə saxlayır. *Yıl* kökündən, həmçinin, istilik mənasını bildirən *yılıq* (ilıq) (DTC, 266) *yılır* (isinmək) (DTC, 267) kimi sözlər də düzəlmişdir.

Yıl kökü əsasında düzələn *yıldır* sözünə "Kitabi-Dədə Qorqud"da da rast gəlmək olur: "Gördü kim, bir yığnaq yatır, *yıldır-yıldır yıldırır"* (KDQ, 98).

Yıl kökündən, həmçinin, əvvəlindən samit ixtisar olunan variant üzrə *ilıq, ilınmaq* kimi sözlər də yaranmışdır.

Yıl kökü əsasında isə *işıq, işıltı, işıldamaq* sözləri formalaşmışdır. Bu kökdən düzələn *işıltı* və onunla bağlı sözlər dilimizdə intensiv işlənir. Güman ki, belə sözlərdə əvvəlki *y* samiti qeyri-sabit olduğu üçün sözün əvvəlindən ixtisar olunmuşdur.

Kökün sonunda *ş – s* samitlərinin əvəz olunması ilə *yış (yışıq-işıq)* // *yıstı-yisti* // *is* kökündən, həmçinin *isti, istilik*, eyni za-

manda münasibət bildirən *istək* sözü də yaranmışdır. Söz sonunda *s – l* səslərinin dəyişməsi ilə eyni zamanda qoşa söz şəklində formalaşmış *kol-kos* ifadəsi də yaranmışdır. *S – l* keçidi, həmçinin, mənaca bir-biri ilə daxili əlaqəyə malik olan *kosa* (tüksüz) və *kola* (buynuzsuz) sözlərində də müşahidə edilir. *Kosa* sözü eyni mənada müasir dilimizdə işlənir, *kola* sözü isə *buynuzsuz keçi* mənasında areal nitqdə işlədilir (ADDL, 265).

Səslərin *ş-s-l* istiqamətində dəyişməsini bir-biri ilə daxili məna əlaqəsi mövcud olan *aşağı-alt* kimi sözlərdə də müşahidə etmək olur. Sözlərin hər ikisində onları aşağılıq anlayışı birləşdirir. Fonetik cəhətdən oxşar olan *üst* sözündə isə yuxarılıq mənası vardır. Oxşar köklü sözlərdə hər hansı səsin dəyişməsi ilə məna dəyişməsi tamamilə qanunauyğun bir haldır. Məsələn, *al* kökü müəyyən məqamda yuxarılıq və aşağılıq bildirir. Bu kökdən düzələn *alp* sözündə böyüklük anlayışı vardır: Məsələn, *alp igid, alp ərən* ifadələrinin nümunəsində həmin məna müşahidə edilir. *Alp* sözünün böyüklük mənası mənbələrdə də qeydə alınmışdır: DTC, 37; *Alplar* başı Qazana zərbə urdu, dünya başına dar oldu. (KDQ, 99).

Al kökü həmçinin, müəyyən derivatlarda aşağı mənası bildirir: *alçaq, alçalmaq, alçaqlıq* və s.

Az kökündə də belə bir xüsusiyyət müşahidə edilir. Bu kökdən düzələn *azman* sözü böyüklük bildirir. *Azacıq, azca* sözlərində isə *azlıq* mənası vardır.

Bu mənada, *as* kökündən düzələn *astar* sözündə *aşağılıq*, ondan əvvəlki sait səsin dəyişməsi ilə yaranan *üst* sözündə isə yuxarılıq mənası ifadə edilir.

R- l samitlərinin keçidi

R-l samitlərinin keçidi əsasında *soraq* (məlumat, sorağını almaq), *salıq* (xəbər), *yıldırmaq – yarılmaq*, *qultaşa* (xəbərçi), *qırıldatmaq* (gileylənmək, qeybət etmək) *bələmək- bürümək* kimi sözlər düzəlmişdir.

Salıq sözünün xəbər mənası "salıq vermək" ifadəsin-dən aydın olur: (Salığını vermişəm, gedif alajam) (ADDL, 354).

Yıldırmaq sözü "Kitabi-Dədə Qorqud"da işlənir: Gördü ki, bir nəsnə yatır, yıldır-yıldır-yıldırır (KDQ, 98).

Yıl kökündən *yıldırım* sözü də düzəlmişdir. *Yarılmaq* sözünün işıqlıq mənası isə "yarım-yarım yarılmaq" (işım-işım-işıldamaq, par-par parıldamaq) ifadəsindən anlaşılır. *Qultaşa* (xəbərçi) sözünün *qırıldatmaqla* əlaqəsi bu sözün xəbərçilik mənasından aydınlaşır: Xoşun gəlir ki, munu *qırıldadırsan*? (ADDL 140). *Bələmək* və *bürümək* sözlərində də *r-l* keçidi ilə oxşar motivlilik müşahidə olunur.

Kök sözlərin sonunda *z – r* samitlərinin keçidi xüsusi bir yer tutur. Bu səslərin affuksal xarakteri müəyyən qrup sözlərdə müşahidə edilir. Səslərin *z – r* keçidi üzrə formalaşmış vahidlərdə onların özlərinə məxsus məna əlaqələri müşahidə edilir. Bu səslərin keçidinə uyğun olaraq yaranmış *dir-duz* köklərində dir morfemi müstəqil mənalı deyildir. *Diz* sözü isə müstəqildir. *Dir* kökü əsasında yaranmış *dirsək, dirək, dirəncək* kimi sözlərdə dayaq mənası ifadə olunur. *Diz* sözündə də həmin mənaları əlaqələndirən ümumi anlayış vardır. Yəni *diz* sözündə də əsas məna onun funksiyası ilə (dirənmək, dirəncək) bağlıdır.

R – z keçidi ilə yaranan *gör-göz* köklərinin məna bağlılığı görmək anlayışından ibarətdir. Bu köklərin əsasında yaranan *görkəm, görünmək, görüşmək, gözəl, gözləmək, gözlük* kimi sözlərdə də görmək anlayışına aid məna yaxınlığı bildirilir.

Z – r keçidi *büz-bür* köklərində də müşahidə edilir. Onların arasındakı məna yaxınlığı *büzüş-bürüş, büzüşük-bürüşük, büzmə-bürmə, büzülmək-bürülmək* (bükülmək) kimi sözlərdə müşahidə edilir.

Z – r samitlərinin keçidinə *yoz-yör* köklərində də təsadüf edilir. *Yoz* kökü *yozmaq* feli kimi dilimizdə müstəqil işlədilir.

Daha çox *yozmaq* sözündən *yuxu yozmaq* ifadəsində istifadə olunur. *Yozmaq* sözünün özü isə aydınlaşdırmaq, izah etmək, bəzən də yozuşdurmaq (uydurmaq) mənalarında da işlədilir. *Yormaq* sözü isə buna uyğun mənada müasir dilimiz üçün ümumişlək deyildir. Mənbələrdə isə yozmaq anlayışına uyğun məna bildirir: *Tüş yordu* (yuxu yozdu); *Yorayın* bu sözni könültəqi teq. (Bu sözü başa düşüləcək kimi yoz) DTS, 274; Xanım, qardaş, mənim düşümü *yorğul* mana dedi (KDQ, 44).

Z- r samitlərinin keçidi *qızıl-qırmızı* sözlərinin köklərində də (qız-qır) müşahidə edilir. *Z –r* samitlərinin keçidinə sözün şəkilçi hissəsində də rast gəlmək olur: *yedizdir-yedirt, yatızdır-yatırt, damdır-damızdır, almazsam-almarsan* və s.

Söz sonunda dodaq samitlərinin keçidi üzrə bir-biri ilə semantik əlaqəsi olan sözlər formalaşır. Bunlara aid aşağıdakı kimi keçidlər əsasında əmələ gələn sözləri misal göstərmək olar:

P-b samitlərinin keçidi əsasında *qap* və *qab* kimi köklər formalaşır. Bunların arasındakı ümumi semantik əlaqə qapalılıq, örtülülük anlayışı ilə bağlıdır. *Qap* və *qab* kökləri əsasında düzələn *qapaq, qapı, qabıq, qabaq* (balqabaq), *qabar, qabarcıq* kimi sözlərdə daxili semantik əlaqə müşahidə edilir. *P-b* samitlərinin keçidini köplük anlayışı əsasındakı semantik əlaqəyə daxil olan *köp-qab-gəb* kökləri əsasında yaranan *köpmək, köpəşik, köpdürmək, qabarıq, qabarmaq, gəbərmək* (köpüb ölmək) kimi sözlərdə müşahidə etmək olar.

P-b keçidi, həmçinin *təp-dab* köklərindən yaranan t*əpik, təpinmək- daban, dabrımaq* (dabanla iti yerimək) kimi sözlərdə də baş verir.

M-v samitlərinin keçidi əsasında yaranan köklərdə ümumi semantik bağlılıq *yumruluq, dəyirmilik, girdəlik* anlayışı əsasında formalaşır. Belə məna əlaqəsi *yum-yuv* kökləri əsasında düzələn *yumru, yumaq, yumurta, yumruq-yuva* kimi sözlərin

arasında müşahidə edilir.

P-m samitlərinin keçidi *yap-yam* kökləri üzrə düzəlmiş *yapışmaq, yapmaq, yapışıq-yamaq, yamamaq* kimi sözlərdə müşahidə edilir. Belə sözlərdə semantik əlaqə *yapışmaq, bitişmək* anlayışına əsaslanır.

Kök morfemlərdə daxili səs dəyişmələri ilə söz yaradıcılığı Azərbaycan dilində sözyaratmanın qədim və daha aktual bir növünü təşkil edir.

Fonetik söz yaradıcılığı müasir dövrdə türk dilləri və o cümlədən, Azərbaycan dili üçün aktual deyildir. Ancaq fonetik söz yaradıcılığının izləri tamamilə itməmişdir. Müasir dövrdə fonetik söz yaradıcılığının izləri təqlidi yolla yaranan sözlərdə saxlanılır. Fonetik söz yaradıcılığının izləri aşağıdakı imitasiya mühitində müşahidə edilir:

1) təbiət səslərinin imitasiyası bazasında yarananlar: *şaq*(-şaqqıltı), *şıq* (şıqqıltı), *şar* (şarıltı), *şır* (şırıltı), *gur* (gurultu), *vıy* (vıyıltı) və s.

2) fiziki proseslırin imitasiyası bazasında yarananlar: *taq* (taqqıltı), *tıq*(tıqqıltı), *tap* (tappıltı), *tıp* (tıppıltı), *çaq* (çaqqıltı), *çıq*(şıqqıltı) və s.

3) bioloji varlıqlara aid səslərin imitasiyası bazasında yarananlar: *cik*(cikkilti), *böy*(böyürtü), *məə*(mələrti), *qur* (qurultu) və s.

4) insanların daxili emosiyalarının ifadəsi ilə yarananlar: *çığ*(çığırtı), *qış*(qışqırtı), *sız*(sızıltı), *in*(inilti), *bağ*(bağırtı) və s. İmitasiya əsasında yaranan *gur – gur, guruldamaq, xır – xır xırıldamaq, şaq-şaq şaqqıldamaq, sızım-sızım sızıldamaq, ilim-ilim itmək, üzüm-üzüm üzülmək* kimi təkrarlarda da fonetik söz yaradıcılığının izləri qalmaqdadır.

ÜÇÜNCÜ BÖLMƏ

DİLLƏRARASI MÜŞTƏRƏKLİK

TƏKHECALI KÖKLƏRDƏ DİLLƏRARASI MÜŞTƏRƏKLİK

Dillərin quruluşunda sözlərin tərkibi zamana görə dəyişdiyindən bütün dillərdə qarşılaşdırılan elementlər quruluşca bir-birinin eyni olmur. Bir dildəki tam tərkibli köklərin adekvatına ya başqa dildə samit birləşməsi şəklində, ya da şəkilçi tərkibli sözlərin bu və ya digər elementi kimi rast gəlmək olur. Odur ki, kök morfemlər üzrə müqayisədə başlanğıc element kimi Azərbaycan dilindəki vahidlər əsas götürülür. Çünki müqayisələr Azərbaycan dili elementləri üzrə aparıldığı üçün müqayisə obyekti də Azərbaycan dili nümunələrindən ibarətdir. Müqayisələr, məsələn, ingilis dili vahidləri üzrə aparılsa idi ingilis dili materiallarından başlanğıc element kimi istifadə edilərdi. Eyni zamanda, hansı bir dil müqayisə obyekti kimi qəbul olunsa idi müəyyən faktların araşdırılması və təsdiqi üçün digər dillərin materiallarından yardımçı vasitə kimi istifadə edilə bilərdi. Bu mənada Azərbaycan dilinə məxsus aşağıdakı kimi kök morfemlərin adekvatını tapmaq üçün mümkün olan dillərdəki elementlərlə müqayisə etmək olar.

Ağ kökü. *Ağ* kökü türk dillərində sinkretik kök kimi başqa mənalarla birlikdə (məsələn, *ağ rəng, ağı* zəhər sözünün kökü kimi, *ağlamaq* sözünün kökü kimi, *ağac, ağa* sözünün kökü kimi və s.) yuxarılıq mənası da bildirir. Ağ kökünün yuxarılıq mənası mənbələrdə də qeydə alınmışdır. "Ağdı qızıl bayraq"

(Qırmızı bayraq qalxdı) (DTS, 16); "Bulut ağdı" (Bulud qalxdı) (DTS, 16).

Ağ kökü müstəqi söz kimi Azərbaycan dilinin lokal ərazilərində də *qalxmaq, yuxarılıq* mənalarını saxlayır: "Qoyun dağa ağdı" (Qoyun dağa qalxdı); "Qoymaginan yük ağmağ olsun" (Qoyma yük birtərəfli yuxarı qalxsın) (Füzuli rayonu, ADDL, s. 21)[1*].

Ağ sözü ehtiram mənasında uca tutmaq kimi klassik ədəbiyyatda da işlənmişdir: "Bir içim su ilə ağırlamadın mehmanın" (Qonağını bir içim su ilə uca tutub ehtiram göstərmədin) (Məhəmməd Füzuli).

Ağ kökünün *ok* şəklində işlənən adekvatına rus dilindəki hündür, *yuxarı*, *yüksək*, *uca* mənasındakı *высокий, высоко, высокость* sözlərinin ikinci tərkib hissəsində rast gəlmək olur. Rus dili analitik-flektiv dil olduğu üçün bu dilin sözlərinin əvvəlinə sözdüzəldici ön prefikislərinin artırılması ümumi bir qaydadır. Bu mənada rus dilində sözlərin əvvəlinə *вы*-elementinin artırılması faktları mövcuddur: *выслушать* (dinləmək), *выслуга* (xudmət); *выслать* (göndərmək) sözlərində olduğu kimi.

Eyni zamanda, rus dilində söz əvvəlinə *со*-prefiksi artırılmasına aid nümunələr də vardır: *содрать* (soymaq), *соединение* (birləşdirmə), *сожрать* (yemək), *создать* (yaratmaq) və s. Ona görə də hesab etmək olar ki, *высокий*, *высота, высокость* sözlərindəki *выс* (vı-so) hissəsi prefiks səciyyəlidir, kök isə Azərbaycan dilindəki kimi hündürlük bildirən *ağ* elementinin *ok* adekvatıdır. İngilis dilində hündürlük bildirmək üçün *high* (hai) sözü işlədilir. İngilis yazı dilində qədimlik saxanıldığı üçün hesab etmək olar ki, sözün tərkibindəki *ig* (ag) tərkibi Azərbaycan dilindəki *ağ* elementinin adekvatıdır. *High* sözünün əvvəlindəki *h* elementi isə flektivizmin əlamətidir.

1 Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, 1964.*

An kökü. *An*-kökü Azərbaycan dilində *anmaq* (bilmək, xatırlamaq), *anlamaq* mənasında işlənir. Bu kökdən ilkin mənanı saxlayan *anlayış, anlaşıqlı*, *anılmaq, andırmaq* (yada salmaq) kimi sözlər düzəlir. *Anmaq* sözünün *on* (an) adekvatı rus dilindəki *понимать* (anlamaq, düşünmək), *пониматься* (anlaşılmaq) sözlərinin tərkibində müşahidə edilir. Sözün əvvəlindəki *p* elementi isə rus dilindəki flektivizm xüsusiyyətinin göstəricisi olan prefiks səciyyəsi daşıyır. İngilis dilində *an* kökünün müvafiq adekvatı *understant* (anlamaq, düşünmək) sözündəki *un* (an) elementində saxlanılır. Eyni zamanda, *an* kökünün *in* şəklindəki adekvatına latın mənşəli *intellekt* (ağıl, düşüncə) və həmin sözlə bağlı olan *intellektual*, *intelligensiya* kimi sözlərdə təsadüf edilir. *An* kök morfeminin müvafiq adekvatları, həmçinin, latın mənşəli *annotasiya* (şərh, izah, yunan mənşəli *analiz* (təhlil edib nəticə çıxarmaq) sözlərində *an* şəklində, ərəb mənşəli *intixab* (seçmə) *inkar* (danma) sözlərində *in* şəklində ifadə olunur.

Rus dilindəki *знание* (bilik) *познание* (anlayış), *знатный* (məşhur), *вспоминать* (xatırlamaq), ərəb mənşəli *məna* (məzmun), fars dilindəki *dana* (bilici), Çin dilindəki *doing* (xatırlamaq, yada salmaq) sözlərinin tərkibində də *an*-kök morfeminin *an*, (ı)n, *in, ən* kimi adekvatları mövcuddur.

Bor kökü. *Bor* kökü qədim mənbələrdə şərab mənasında işlənmişdir: "Yemə bor kişikə qor qılur" (Və şərab insana zərər verir) (DTS, 112). *Bor* kökündən düzələn *borluq* sözünün *üzümlük*, *borluqçı* sözünün isə *üzümçü* mənaları qeydə alınmışdır: "Antı bu erig elitəyin *borluqumın* küzətsin" (İndi mən bu adamı aparıram qoy o mənim üzümlüyümə baxsın); "Ötrü teqin ol *borluqçi* er birlə bardı *borlukta* teqmiştə borluqçu erkə inça tep tedi" (Sonra şahzadə üzümçü ilə getdi, onlar üzümlüyə çatanda o üzümçüyə belə dedi) (DTS, 113).

Bor kökü müasir Azərbaycan dilində müstəqil şəkildə üzüm, üzümlük və şərab mənasında işlənmir. Ancaq *Borçalı*, *Borsun-*

lu kimi yer adlarında üzümçülüklə bağlı peşəkarlığın izləri qalmaqdadır.

Bor kökünün bir variantı, həmçinin vaxtı ilə türk dillərindən rus dilinə keçmiş və şərab saxlanılmasında, su saxlanılmasında istifadə edilən *бурдюк* sözündə də qalmaqdadır. Rus dilinin özündə isə qırmızı şərab mənası bildirən *бордо* sözü vardır. İngilis dilində *bor* kökü şərab mənası bildirən *bordeaux* (*Bordo*-coğrafi ad, *bordo*-şərab) sözündə işlənir. İngilis dilində, içki içilən kiçik restoran və həmçinin, şərab saxlamaq üçün istifadə edilən *dolab* mənasında *bor* sözünün variantı kimi *bar* sözü də işlədilir. Rus dilində *bar* sözü ayaqüstü restoran mənasında işlənir. Bu kökdən düzələn *барда* sözü araq və çaxır gecəsi, *барденик* sözü isə cecə ilə bəslənib kökəldilmiş heyvan mənası bildirir. Azərbaycan dilində bu mənadakı *bordaq* (bəslənib kökəldilmiş heyvan) sözü vardır.

Ərəb dilində *bor* kökü *xəmr* (şərab) sözündəki fleksiya olunmuş *mr* tərkibində ifadə olunur. Kənara çıxmış sait bərpa edilikdə *mər* forması alınır ki, bu da *bor* sözündən fonetik quruluşca fərqlənən adekvat hesab edilə bilər.

Qor kökü. *Qor* kökü sinkretik kök morfemlər sırasına daxildir. *Qor* kökü ilə həm odla bağlı ismi, həm də qorumaqla bağlı feli mənalar bildirilir. İsim mənasında *qor* ocaq külünün altındakı sönməmiş *od* və ya *ocağın* qızarmış hissəsi anlayışını bildirir. *Qor* kökü müstəqil bir vahid şəklində yanmaqla bağlı ümumi anlayışın tərkib hissəsi kimi işlənir. Rus dilində *qor* kökünün *qar* şəklindəki adekvatı üzrə yanıq mənasında *гарь* sözü vardır. Eyni zamanda, *qar* kökü və onun *qor* variantı *yanmaqla, yanıqla* bağlı digər sözlərin də tərkibində işlənir. Nümunə üçün belə sözlərə dair aşağıdakıları misal göstərmək olar: *гореть* (yanmaq), *горе* (qüssədən acıyıb yanmaq), *горелка* (lampanın odluğu), *загарь* (yanıb qaralma), *загореть* (yanmaq, qaralmaq), *загореться*

(yanmaq, alışıb yanmaq), *разгар* (qızğın çağ), *разгореться* (alışıb yanmaq), *пригореть* (yanmaq), *пригорелый* (yanmış, yanıq) və s.

Qar-kökü baskların (İspaniyanın şimal-qərbində və Fransanın bəzi cənub-qərb vilayətlərində yaşayan xalq) dilində də yanmaq və alov mənası bildirir.

İngilis dilində yanmaq anlayışı ilə bağlı *grillied* sözü işlənir. İngilis dilində, həmçinin, qızardılmış ət və toyuq mənasında *grill* sözü də vardır. *Grill* sözü həmçinin, məcaziliklə günəşdən yanıb qızarmaq mənasında da işlədilir. *Grill* sözü fransız dilində quş ətini və digər ət məhsullarını qızartmaq üçün istifadə edilən xüsusi peç mənasında işlədilir. Fransız dilində, həmçinin *grill* sözü əsasında düzələn qızardılmış şəkərli fındıq mənasındakı *qrilyaj* sözü də vardır. Yapon dilində yanıq mənası *qor* kökünün adekvatı kimi *xo*-sözü ilə ifadə olunur.

Qor kökünün *qr* adekvatı analitik-flektiv dillərə məxsus flektivliyə görə daxilindən sait elementi kənara çıxaraq samit birləşməsi şəklində formalaşan kök tərkibindən ibarətdir. Bu elementləri şərti kök şəklində bərpa etsək *qır*, qar*, qor** variantları alınar. Fars dilində yanmağın istiliklə bağlı anlayışını bildirən *gərm* sözü işlədilir. Sözün tərkibindəki *gər* hissəsini istiliklə, yanmaqla bağlı olan *qor, qar, qır* element-lərinin struktur variantlarına adekvat olan vahid kimi qəbul etmək olar.

Azərbaycan dilində də belə variantlar vardır. Məsələn, *qır* variantı yanmağın rəng əlamətini bildirən *qırmızı*, *qar* variantı qaralmaq, *qız* variantı isə istilik əlamətini bildirən *qızarmaq* sözlərinin tərkibində işlədilir.

Bit kökü. *Bit* kökü mənbələrdə *kitab, yazı, sənəd* mənası bildirən *bitik* sözünün tərkibində qeydə alınmışdır: "Qutluq bolzin bu bitiq idisi" (Bu yazının sahibi xoşbəxt olsun//ona uğur olsun) (DTS, 103).

Bit kökü həmçinin müqəddəs yazı, *göydən* (tanrıdan) yerə göndərilmiş kitab) mənasındakı *biti* sözünün də tərkibində işlənir. (DTS, 103). *Biti* sözü yazı yazmaq üçün *qələm* və *fırça* mənasında Çin dilində də işlədilir. Çin dilində, həmçinin, *xətt* (yazmaq) mənasında *biyi* sözü də vardır. Bu sözün hansı dildən digərinə keçib-keçməməsinin araşdırılması məqsədəuyğun deyildir. Çünki bu sözün kökü ilə səsləşən adekvatlara başqa-başqa, həmçinin, Azərbaycan və Çin dilləri ilə tarixən kontaktları olmayan dillərdə də rast gəlmək olur. Ancaq onu qeyd etmək lazımdır ki, türk dillərinə dair qədim mənbələrdə *bitik* sözü əsasında düzəlmiş başqa sözlərə də təsadüf edilir. Bunlara dair aşağıdakıları nümunə göstərmək olar: *bitigəçi* (katib, yazan), *bitiqliq* (yazılı, xəttat), *bitiqlik* (savadlılıq) (DTS, 103); *bitiqsiz* (yazılmamış), *bitiqü* (yazı mürəkkəbi), *bitil* (yazılmış), *bitişək* (yazı, xətt), *bittin* (kənar müdaxilə olmadan yazmaq), *bitiş* (köməkli, *birgə* yazmaq), *bitit* (yazdırmaq) və s. (DTS, 104).

Bitik (pitik) sözü Şah İsmayıl Xətayinin dilində də yazı mənasında işlənmişdir:

Zülfün anuban çü cim yazdım
Ağzın anuban mim yazdım
Yazdım pitiyi əlif hey
Almamış anı xey yazdım
Yazdım pitiyi qamu sərasər,
Tutdum anı qarşıma bərabər.

Yazı mənasındakı *bitik* sözünün *pik* şəklində formalaşmış variantına latın mənşəli *piktoqrafiya* sözündə rast gəlmək olur. *Piktoqrafiya* sözünün kökü *pictus* formatından ibarətdir. *-Qrafiya* isə sözyaratma elementidir. *Pictus* sözü şəkli yazı deməkdir. Yazının ilkin formalaşma mərhələsində əşya və hadisələr müəyyən təsvirlərlə ifadə olunmuşdur. Ona görə də yazının bu növü şəkli yazı (piktoqrafiya) adlanır. *Pikto* sözü ingi-

lis dilində *pikture* formasında işlənərək şəkil mənasını bildirir. Fransız dilində mənzərə mənasında işlənən *peyzaj* sözündə də *pikto* formasının izi müşahidə edilir. İngilis dilində işlənən və bir çox dillərə daxil olan seyr etmək mənasındakı *piknik* sözündə də şəkil, mənzərə anlayışını saxlayan *pikto* tərkibinin izini görmək olur. Rus dilində *bitik* sözünün kökünə uyğunluq *письмо* (yazı), *писать* (yazmaq) *писарь* (yazan, katib) və s. sözlərdə görmək olar. Qayıdaq türk dillərinə, o cümlədən, Azərbaycan dilinə aidiyyəti olan *bitik* sözünün *bit* kökünə. *Bit* kökü türk dillərində sinkretikdir. Onun yazı ilə bağlı mənasını da şəkil anlayışında axtarmaq lazımdır. Qədim mənbələrdə *bit* kökü *surət, şəkil*, fizionomiya mənasında qeydə alınmışdır: "*Biti* üzə urğu ol" (Hərfləri üzə bərkitmək lazımdır) (DTS, 103). Qədim mənbələrdə, həmçinin, *müqəvva* (surət, obraz) mənasında *but* sözü də qeydə alınmışdır: "Öz elgin *but* etip idim bu dedi" (O öz əli ilə *büt* (surət, obraz, şəkil) yaradıb dedi: Bu mənim ağamdır!).

Buradan belə nəticəyə gəlmək olar ki, türk dillərinin qədim mənbələrində qeydə alınan və Azərbaycan dilinə də aidiyyəti olan *bitik* sözünün kökü (*bit*) *şəkil, obraz, surət* (şəkli yazı) mənasında *pikto* formatı ilə səsləşir. Belə çıxır ki, ilkin şəkli yazı başqa dillərdə olduğu kimi Azərbaycan dilinin yazı mədəniyyətinə də təsir etmişdir. Bunun əyani nümunəsini *Qobustanda*, *Gəmiqayada* və başqa ərazilərdə aşkar olunan təsvirlərdə görmək olar. *Yazı* sözünün özü isə türk dillərində, o cümlədən, Azərbaycan dilində *cızmaqla, nəqş etməklə* (yarmaqla) bağlı şəkildə formalaşmışdır.

Bağ kökü. *Bağ* kökü də öz quruluşuna və anlamına görə sinkretik səciyyəvi vahidlərdəndir. *Bağ* kökü mənbələrdə titul mənasında qeydə alınmış *bağa* sözünün tərkibində işlənir: "*Bağa* ben er" (Mən yüksək titulu döyüşçüyəm). "Qutluq *bağa* tarqan ödə buyruqi men" (Mən uğurlu bağa tarkanın ökə buyruğuyam) (DTS, 77).

Türk dillərində *bağ* kökünün varlı, dövlətli, nüfuzlu, adlı-sanlı mənası daşıyan *bay* adekvatı vardır. *Bay* sözü müstəqil bir vahid kimi qədim mənbələrdə də qeydə alınmışdır: "*Bay* ər koyu" (Varlının qoyunu); "*Bay* meṇiliq qılğay biz" (Biz onları varlı və xoşbəxt edərik) (DTS, 79). Bu kökdən olan *bayu* sözü varlanmaq mənasında işlənir: "Esizlər *bayusa* qılınc artatur" (Axmaq adamlar varlansa onların əhvalı korlanar) (DTS, 79).

Bayumaq sözü «Kitabi-Dədə Qorqud»da da *varlanmaq* mənasında işlənir: "Qadir tanrı verlməyincə ər bayımaz" (Qadir Allah verməyincə insan varlanmaz) (KDQ, 62, 11).

Bağ – kökü əsasında *baxıcı* sözü də düzəlmişdir ki, bu söz, qeybdən xəbər verən, taleyi görən və qeyri-adi qabiliyyətinə görə cəmiyyətdə xüsusi ehtirama layiq olan adamlara aid edilmişdir. *Bağ* kökünün ümumi anlayışında ilahi qüvvə mənasının ifadə edilməsini bu kökün başqa dillərdəki adekvatlarında da görmək olur. Rus dilində *baq* kökünün *boq* variantı Allah mənasında işlədilir. *Boq* kökü və onun *boq* variantı ilə əlaqədar rus dilində uca, əzəmətli, böyük, şan-şöhrətli mənalarına uyğun bir qrup sözlər formalaşmışdır. Onlara aid bu nümunələri misal göstərmək olar: *бог* (Allah, tanrı), *богатей* (varlı), *богатеть* (varlanmaq), *богато* (zənginlik), *богатый* (varlı, bahalı, qiymətli, qəşəng), *богач* (zəngin, varlı), *богиня* (ilahə), *богослов* (ilahiyyatçı), *боярин* (zadəgan, varlı əyan) və s.

Azərbaycan dilində *bağ* kökünün əvvəlki mənaları unudulmuşdur. Bu format indi *Qarabağ*, *Bağmanlar* kimi yer adlarının, o cümlədən, *baxıcı* sözünün tərkibində işlənir. *Baxıcı* sözü qeybdən xəbər verən, taleləri oxuyan, qeyri-müəyyənlikləri, qaranlıqları xüsusi bir qabiliyyətlə işıqlan-dıraraq cəmiyyətdə ehtiram sahibi kimi tanınmış adamlara aid edilir. *Qarabağ* sözündə də bəzən deyildiyi kimi "böyük bağ" anlayışı yox, qeyri-müəyyənliyi, qaranlıq qalan işləri aydınlaşdıran *baxıcı*, *kahin*, *ilahiyyat-*

çı mənası cəmlənir. Bu mənada, bəzən, "*Bağmanlar"* yer adını bağçılıqla məşğul olan adamlar kimi izah edirlər. Ancaq burada da qədim tanrıçılıq inamının izlərini saxlayan və *bağ* kimi formalaşmış ilahi anlayışının izləri yaşayır. Bu mənada *Bağmanlar* sözünün dərinliyində ilahi anlamlarla məşğul olan müqəddəs insanlara (kahinlərlə, ilahiyyatçılarla) dair anlayışın izləri yaşamaqdadır.

Al kökü. *Al* kökü də genetik cəhətdən sinkretik köklər qrupuna daxildir. *Al* kökünün anlayış mühitinə başqa mənalarla birlikdə daxili əkslik (ziddiyyət) bildirən mənalar da daxil olur. Bunlar alçaqlıq və onun əksi olan ucalıq mənalarından ibarətdir. *Al* kökünə *t* və *ç* elementləri qoşulduqda aşağılıq mənası bildirən sözlər əmələ gəlir: *alt*, *alç*(aq). *Al* kökünə *p* elementi qoşulduqda isə *əzəmətlilik, böyüklük, ucalıq, cəsurluq, igidlik* bildirən *alp* sözü düzəlir. *Alp* sözü *alt* və *alç*(aq) kimi sözlərlə müqayisədə müasir dilimizdə işləklik cəhətdən fəal deyildir. Ancaq mənbələrdə *alp* sözünün qeyd olunan mənalarına aid müvafiq nümunələrə rast gəlmək olur: "Bilqə kağan ermiş *alp* kağan ermiş birqərü yemə bilqə ermiş erinc *alp* ermiş erinc" (Bumın kağan və İstəmi kağan) müdrik kağanlar idi, cəsur (igid, qoçaq, qəhrəman) kağanlar idi, görünür, onların köməkçiləri də müdrik və cəsur idilər (DTS, 36).

Alp sözü "Kitabi-Dədə Qorqud" dastanlarında da *böyük, igid, cəsur şəxs*, qəhrəman mənasında işlədilmişdir: "*Alplar* başı Qazana zərbə urdu, dünya başına dar oldu". Dözən oğlu *Alp Rüstəm* şəhid oldu (KDQ, 62, s. 114)[1*].

Alp sözünə *Alpanlar, Alpout* kimi yer adlarının tərkibində də rast gəlmək olur. Mənbələrdə *Alpan* sözü *Alpal* şəklində *qoçaqlıq, qəhrəmanlıq* mənasında qeydə alınmışdır (DTS, 87). *Alpağut* sözü isə *qəhrəman, pəhləvan, yenilməz igid* mənasında

1 KDQ- 62- "Kitabi-Dədə Qorqud", Bakı, 1962.*

verilir (DTS, 37). *Al*-kökü *Alaqapı* sözündə işlənərək, həmçinin, hündür qapı mənası bildirir. Alçaq, aşağı mənasındakı *alt* sözündə *lt* səs birləşməsi yanaşı işlənmişdir. Belə güman etmək olar ki, bu sözün tərkibindəki *lt* səs birləşməsi vaxtı ilə birləşmə tərkibindəki saitin fleksasiya nəticəsində kənara çıxması sayəsində yaranmışdır. Yaxud söz iki tərkibdən ibarət olmuş (*al-lit**) sonradan sıxlaşaraq *alt* şəklinə düşmüşdür. Rus dilində *alt* sözünün tərkibindəki *lt* birləşməsinin *lit* (*лить*) şəklindəki tam variantı mövcuddur. Rus dilindəки *лить* sözünün yuxarıdan *aşağıya tökülmək*, *axmaq, yağmaq; литься* sözünün axıb tökülmək kimi mənalarının olduğunu nəzərə alıb *alt* sözündəki *lt* hissəsinin *lit* kökü ilə adekvatlıq təşkil etdiyini söyləmək olar. İngilis dilində *lit*-kökünün aşağılıq bildirmək mənasını *kiçiklik*, *gödəklik, azlıq, hündür* olmayan anlayışlarını özündə cəmləşdirən *little* (lit(ə)l) sözündə müşahidə etmək olar. Tərkibində *lit*-kökü işlənən yunan mənşəli *litota* sözündə də *kiçiltmə, kiçiklik* mənası bildirilir.

Al kökünün hündürlük mənası ərəb dilində işlənən *ali* (uca), *aliyə* (yüksək, uca), ərəb-fars mənşəli *aliməqam* (uca məqamlı, uca mərtəbəli) sözlərində ifadə olunur. Dünyanın bir çox dillərində işlənən, latın mənşəli *alpinist* (ucalığı fəth edən) sözünün tərkibində də hündürlük anlayışı bildirən *al*-tərkibi işlənir. Yunan mənşəli *Olimp* (ucalıq, uca dağ) sözündəki *ol*-tərkibi də mənaca *al*-kökünün adekvatı hesab edilə bilər. İngilis dilində işlənən, tərkibində *al*-formatı iştirak edən *ale* sözü mənaca *böyük, bütöv, tam, bütün, bütünlüklə* anlayışlarını özündə ümumiləşdirir.

Dil kökü. *Dil* kökü sinkretik bir vahid kimi *kəsmək, ağız üzvü* və *nitq*, *danışıq* mənalarında işlənir. *Dil* sözünün kəsmək mənasını *dilik, dilikli, dilim*, *dilimləmək* sözlərində müşahidə etmək olur. *Dil*-kökünün *дел* adekvatı rus dilindəki *делёж* (bölgü, bölüşdürmə, bölmə), *деление* (bölmə, ayırma), *делитель* (bölən), *делить* (bölmək, ayırmaq), *делиться* (bölünmək),

раздел (bölmə, bölüşdürmə), *разделение* (bölmə, bölünmə), *разделить* (bölmək), *раздельный* (bölgü), *надел* (bölüb pay vermə), *наделить* (bölüb vermək), *передел* (yenidən bölmə), *переделить* (yenidən bölmək) kimi sözlərin tərkibində işlənir. Eyni zamanda, *del* kökünə kəsmək, bölmək mənasında fransız dilindəki *delimitation* (dövlət sərhədlərinin bölünməsi), ingilis dilindəki *delta* (çayın dənizə töküldüyü yerdə əmələ gələn (ayrılan) qollar, *delimit* (sərhəd bölgüsü), *delimitation* (xətt *çəkmək* (bölmək), çevrəsini cızmaq) sözlərinin tərkibində rast gəlmək olur. İngilis dilində və başqa dillərdə işlənən *delta* sözü mənşəcə yunan dilinə məxsusdur. *Dil* kökünün danışıq mənasındakı adekvatlarına da başqa-başqa dillərdə rast gəlmək olur. Rus dilində *dil* kökün *tol* adekvatına aşağıdakı kimi sözlərin tərkibində rast gəlmək olur: *talk* (*məna, ağıllı söz, fikir*), *толкование* (izah etmə, şərh etmə), *толковать* (şərh etmək, yazmaq), *толковник* (dilmanc), *толмач* (tərcüman, dilmanc), *толково* (aydın), *потолковать* (danışmaq, söhbət etmək) və s.

İngilis dilində *dil* kökünün *tal* adekvatı üzrə *tale* (*nağıl, hekayə*), *talk* (söhbət, danışıq, dialoq), *talkative* (çox danışmaq), *talker* (danışan), *tel* adekvatı üzrə *tell* (danışmaq, demək), *teller* (hekayəçi, təsvirçi), *telling* (hekayə), *tell-tole* (çoxdanışan, boşboğaz) kimi sözlər formalaşdırılıb işlədilir. Çin dilində dil mənasında *shetou* sözü işlənir ki, buradakı *tou* hissəsi *dil* kökünün *tol* adekvatı ilə səsləşir. Baskların dilində isə *çağırmaq* (demək) mənasındakı *dei* sözünə təsadüf edilir. Xurrit-urartu dillərində isə *demək* mənasındakı *tiw* sözünün mövcudluğu aşkar edilmişdir.

Kəs kökü. Azərbaycan dilində *kəs* kökü və onun digər struktur variantları əsasında kəsməklə birbaşa və məcazi məna üzrə bir sıra derivatlar formalaşmışdır. Bunlara aid aşağıdakı nümunələri misal göstərmək olar: *kəsik, kəsinti, kəsici, kəsər, kəsərli, kəsərsiz; qısa, qısaltmaq, qısqanc, küs, küsülü, küskün,*

küsəyən və s. Rus dilində *kəs* kökünün *kos* adekvatı müəyyən sözlərin tərkibində işlədilərək kəsmək anlayışı bildirir: *kosa* (dəryaz, kərənti), *косарь* (biçinçi), *косвенный* (kəsə, çəpəki), *косинка* (çəpkən, qıyqac), *косить* (biçmək), *косо* (çəp), *косой* (əyri, çəpəki), *откосить* (ot çalıb qurtarmaq), *откосный* (çəp, maili), *перекос* (çəp, əyrilik), *перекосить* (tam birçmək), *искосить* (çəpləşdirmək) və s.

Ərəb dilində də *kəs* kökü ilə adekvatlığa gələn variantlar vardır. Müvafiq sözlərin tərkibində bunların aşağıdakı kimi variantlarına rast gəlmək olur: *kəsr* (sındırma, qırma), *qism* (hissə), *qismət* (hissələr), *qasim* (bölən), *təqsim* (bölünən), *məqsum* (bölünmüş), *məqsumunəleyh* (bölən ədəd), *məqsur* (qısaldılmış) və s.

Kəs kökünün *kas* adekvatı fransız dilindəki *kastet* (*casse-tete-qırmaq*, *sındırmaq*) və latın mənşəli *kastrat* (axta, kəsilib axtalanmış) sözlərinin tərkibində də işlədilir.

Qap kökü. *Qap* kökü əsasında Azərbaycan dilində *qapı, qapaq*, onun *qab* variantı əsasında *qab, qabıq, küp* variantı əsasında *küpə* və s. kimi sözlər düzəlmişdir. Rus dilində *qap* kökü ilə səsləşən *kuv* kökündən *кувшин* (bardaq) *kub* kökündən *кубышка* (küpə, daxıl) kimi sözlər düzəlmişdir. Mənşəcə fransız dilinə məxsus olan və dünyanın bir çox dillərində işlənən *kapot* (*capote*) sözünün də təməlində *qab* kökünün *kap* adekvatı durur.

Qad kökü. *Qad* kökü sinkretik vahid kimi müxtəlif sözlərin tərkibində işlənir. Qədim mənbələrdə *qad* kökündən düzəlmiş *qohum, doğma (adam*) mənasında *qadaş* sözü qeydə alınmışdır (DTS, 401). Bu kökdən, eyni zamanda, *qadın* sözü də düzəlmişdir. Həmçinin, mənbələrdə *qad* kökündən düzələn və *kədər, qayğı, dərd* mənası bildirən *qadğu* sözü də qeydə alınmışdır (DTS, 402).

Qad kökünün *qud, qut, kut* variantları üzrə də müvafiq sözlər əmələ gəlmişdir. *Qud* kökü əsasında Azərbaycan dilində *quda* sözü də düzəlmişdir ki, burada da iki ailənin yaxınlaşaraq

xoşbəxtliyə can atması (və ya qovuşması) mənası bildirilir. *Qud* kökünün mənbələrdə *qut* variantı qeydə alınmışdır.

Qut kökü mənbələrdə xoşbəxtlik, uğurluluq mənasında müstəqil bir söz kimi işlənmişdir: "Tənri yarlıqaduqın üçün özim *qutim* bar üçün qağan olurtım" (Tanrının şəfqəti ilə mənim özümə xoşbəxtlik üz verdi mən kağan (xaqan) yerində əyləşdim). (DTS, 471).

Qut kökü Azərbaycan dilinin lokal nitq şəraitində "ürəyinə *qut* olmaq" (ürəyinə toxdaq olmaq) ifadəsində də işlədilir. *Qut* kökü türk dilində uğurlu (mübarək) mənasında müstəqil işlədilir: "Bayramınız *kutlu* olsun!".

Qut kökünün *qud* variantı *Qorqud* adının ikinci tərkibində işlədilir. *Qor* kökünü *qorumaq* sözünün əsası kimi nəzərə alsaq *Qorqud* sözünün *səadəti, xoşbəxtliyi, uğurluluğu qoruyan* mənasında işlənməsi kimi başa düşmək olar. Başqa mənada, *Qorqud* qaibdən xəbər verən qeyri-adi bir insan kimi, Oğuzun peyğəmbər şəxsiyyətli bilicisi olan "Səadət keşikçisi" anlamında qəbul edilməlidir.

Qud (kut) kökünün *qod* variantı baharın elçisi kimi *qodu* sözünün tərkibində də işlədilir. *Qadın* sözünün tərkibində də *qad* kökü uğurlu mənası daşıyır. Çünki cəmiyyətin qadına böyük üstünlük verdiyi mərhələdə *qad* kökünün bu sözdə uğurluluq mənası daşımasını tamamilə təbii hesab etmək olar.

Qud kökü ingilis dilində də uğurluluq, xoşbəxtlik mənasında müəyyən söz və ifadələrin tərkibində işlənir: *good* (yaxşı, xoşməramlı); «be good enough» (iltifatlı olun); *good afternoon* (gündüzün xeyir!); *good evening* (axşamınız xeyir!); *goodly* (gözəl); *goodness* (xeyirxahlıq) və s.

İngilis dilində *qud* kökünün *gad* variantı ilahi, tanrı mənasında işlənir: *god* (Allah, himayəsi, büt) "God bless you" (Allah sizdən razı olsun), "God willing" (Allah yetirsin).

Rus dilində *qad* kökü qeyri-adi qabiliyyəti olan, taleyi görə bilən, gələcəkdən xəbər verə bilən mənasında aşağıdakı kimi sözlərin tərkibində işlənir: *гадальщик* (falçı), *гадание* (falaçma, falabaxma), *гадать* (fal açmaq, fala baxmaq).

Bununla birlikdə, rus dilində *qad* kökü əks (ifrat) mənalı sözlərin də tərkibində işlənir: *гадкий* (pis, murdar, iyrənc, rəzil, alçaq), *гадость* (pis, iyrənc, mənfur), *гадюка* (gürzə ilanın zəhər tuluğu).

Qad kökünün *qayğı, kədər, dərd* mənası rus dilindəki müştərək kökdən düzələn pis mənada işlənən sözlərlə uyğun gəlir.

Azərbaycan dilindəki "dərdin ürəyimə", "dərdin mənə gəlsin" kimi ifadələr də məzmunca "qadan alım", "qadan ürəyimə", "qadanı-bəlanı alım" kimi ifadələrlə üst-üstə düşür.

Fars dilində *qad*-kökünün *xod, xud*, adekvatları əsasında *xoda* (Allah, tanrı), *Xudabin* (Allahı tanıyan), *Xudadad* (Allahverən) kimi sözlər yaranmışdır.

Azərbaycan dilindəki *qadın* mənası bildirən *xatın* sözünün *xat* kökü də fars dilindəki *xod*, *xud* köklərində olduğu kimi *müqəddəslik, ucalıq, ehtiramlılıq*, *əzəmətlilik* və *nüfuzluluq* mənasında işlənir. Bu mənada Azərbaycan dilindəki "*xanım-xatın*" ifadəsi hərfən "*xan-ım*" *mənim ağam, böyüyüm olan əzəmətli qadın*», yəni mənim ehtirama layiq olan qadınım mənası bildirir. *Qadın* sözü də məhz *qad* (*xat*) kökünə məxsus evin, ailə bünövrəsinin əsası mənası üzərində formalaşmışdır. Xatırlamaq yerinə düşər ki, "Kitabi-Dədə Qorqud"da qadın evin dayağı və dirəyi adlandırılır:

Qarılar dörd dürlüdür:
Birisi solduran söydür
Birisi dolduran toydur.
Birisi evin dayağıdır
Birisi necə söylərsən, bayağıdır (KDQ, 62, s. 14).

Küz almasına bənzər al yanaqlım!
Qadınım, *dirəyim*, döləyim! (döl verənim) (KDQ, 62, 17).

Lu kökü. *Lu* kökü müasir Azərbaycan dilində öz müstəqilliyini itirmişdir. Bu kökə *u* saitinin əlavəsi ilə yaranan *ulu* sözündə kökün ilkin mənası "dirilir". *Ulu* sözü qədim, böyük, uca və həm də uzun anlayışlarını bildirir. Bu kökdən törəyən *ulama* (uzun ağac) sözündə uzunluq anlayışı müşahidə edilir. *Ulama* sözü ilə uzun sözü *l-z* samitlərinin dəyişməsinə görə fərqlənir. *Uzun* sözündə ümumi uzunluq, *ulama* sözündə konkret əşyaya aid uzunluq mənası bildirilir.

Lu kökünün uzunluq mənasındakı adekvatına Çin dilindəki *longq* (əjdaha) sözünün *lo* tərkibində rast gəlmək olur. Qədim türk mənbələrində, həmçinin, böyük, uzun, əzəmətli mənasında *uluq* sözü mövcuddur (DTS, 610). Eyni zamanda, qədim türk mənbələrində əjdaha mənası bildirən *lü, lüi* (lüi yıl-əjdaha ili) sözü qeydə alınmışdır (DTS, 334).

Rus dilində uzunluq, mənası bildirmək üçün *dlinnıy* sözü işlənir. Bu sözün tərkibindəki *li*(n) hissəsi *ulu, lü*, həmçinin, Çin dilindəki *longq* sözünün *lo* hissəsi ilə adekvatdır. Uzunluq anlayışı ilə səciyyələnən *ulu, lü, lüi, li* tərkiblərinin monqol dilində *luw*, kalmık dilində *lun* adekvat variantları vardır. İngilis dilindəki *long* (uzun) sözündəki *lo* tərkibi də həmin adekvatlarla səsləşir. Ərəb mənşəli *tulu*, fars dilindəki *tulani* sözlərindəki *lu* tərkibi də adekvat uzunluq anlayışı bildirir.

Tipoloji quruluşuna görə müxtəlifsistemli hesab olunan dillərin arasında bu cür müştərək sözlərin sayını onlarla və daha çox artırmaq mümkündür. Bu sahədə onsuz da xeyli araşdırmalar aparılmışdır və təkrarçılığa da heç bir lüzum yoxdur. Lakin belə mütşərəkliklərin mövcudluğu heç də ona dəlalət etmir ki, bunlar nə zamansa mövcud olmuş vahid ulu dilin elementləridir

və ya dillərarası kontaktların, o cümlədən miqrasiyaların nəticəsidir. Bütün bu elementlərin mövcudluğu əvvəldə deyildiyi kimi, insan idrakının ətraf aləmi qavraması və özünü dərk etməsi prosesində baş verən oxşar təfəkkür imitasiyasının nəticəsidir. Odur ki, dünya dilləri üzrə sonu yoruculuqdan başqa heç bir səmərə verməyən vahid ulu dil elementlərini axtarmaqdansa nəticəsi ana dili üçün həqiqətən də gözlənilməz olan elementləri müəyyənləşdirmək baxımından iki və ya bir neçə dilin materialları üzrə tədqiqatlar aparmaq daha əhəmiyyətlidir.

Fleksiyalaşmış köklərdə dillərarası müştərəklik

Türk dilləri, o cümlədən, Azərbaycan dili analitik elementlərdən xali olmadığı üçün analitik dillərdə olduğu kimi sözlərin daxilində fleksiya elementlərinin baş verməsi də istisna sayılmamalıdır. Bəzən tədqiqatçılar türk dillərinin, o cümlədən, Azərbaycan dilinin aqlütinativ xarakterli olduğuna istinad edərək prefikslərin və ya digər analitizm-flektivizm izlərinin bu dillərə yad olduğu fikrini irəli sürürlər. Lakin müxtəlifsistemli dillərin materiallarının müqayisəli təhlili onu göstərir ki, dil tipologiyaları arasında qəti və kəskin sərhəd qoymaq mümkün deyildir. Belə ki, aqlütinativ dillərdə analitizm-flektivizm izləri olduğu kimi, analitik-flektiv dillərdə də aqlütinativizmin əlamətlərini görmək mümkündür. Bunun kimi, məsələn, Azərbaycan dilində həm köksözlülüyün, həm də polisintetizmin əlamətlərini axtarıb tapmaq çətin deyildir. Məsələ burasındadır ki, müxtəlifsistemli dillərin materiallarının müqayisəli təhlili ilə ana dilində, bir çox hallarda müəyyənləşdirilməsi çətin olan rekonstruksiyaların həll olunması maraqlı nəticələrlə yekunlaşa bilir.

Azərbaycan dilində fleksiyalaşmış köklərin əsas əlamətlərindən biri kökdaxili saitin kənara çıxması ilə kök konstruksiya-

sının samit birləşməsi şəklində formalaşmış variantından ibarətdir. Müqayisəli təhlil nəticəsində samit birləşməli fleksiyalaşmış köklərin əvvəlki (kök daxilində saitin işləndiyi) variantını üzrə çıxarmaq mümkün olur. Onu qeyd etmək lazımdır ki, dilin ilkin köksözlülük mərhələsində köklərin omonimliyi (sinkretikliyi) üzrə bir çox oxşar elementlər formalaşdığından bəzən təhlildə zahiri oxşar elementlərlə qarşılaşmaq mümkün olur. Bu halda ancaq köklərin anlayış – məna xüsusiyyətlərinə istinad etmək lazım gəlir.

Azərbaycan dili sözlərinin əvvəlində samit birləşməsinin işlənməsi səciyyəvi deyildir. Ona görə də samit birləşməsi şəklində formalaşmış kökləri müvafiq sözlərin daxilində axtarmaq lazım gəlir. Məsələn, Azərbaycan dilində kəsmək anlayışı üzrə formalaşan *doğra* sözü vardır. Sözün tərkibində *ğr* elementlərinin kəsməklə bağlı bütöv variantını *qır* (qırmaq) *kər* (kərki, kərənti) kimi adekvatlarda axtarmaq olar. *Ğr* elementlərinin *kir* adekvatı rus dilindəki *kirka* (külüng) sözündə də müşahidə edilir. Fleksiyalaşmış quruluşdakı *kr* adekvatına isə rus dilindəki *прекращение* (kəsmə, kəsilmə), *прекратиться* (kəsilmək, qurtarmaq), *прекращенный* (kəsilmiş, qurtarılmış) kimi sözlərdə rast gəlmək olar.

Fars dilində *ğr* elementlərinin kəsmək mənasındakı *xər* adekvatına *xürd* (kiçik, balaca, xırda) sözündə rast gəlmək olur. Fars dilindəki *xər* adekvatı, həmçinin, Azərbaycan dilindəki *xırda, xırdalamaq* (qırıb, kəsib hissələrə bölmək) sözlərindəki *xır* variantı ilə səsləşir.

Ğr elementlərinin əyilməklə bağlı bildirdiyi məna *əyri* sözündəki *yr* (gr, qr) elementlərində müşahidə edilir. Azərbaycan dilində norma kimi işlənən *əyri* sözü Şərq arealında *əgri* variantında mühafizə edilir. Rus dilində *ğr* elementlərinin adekvatı kimi mövcud olan *kr* tərkibinə *кривой* (əyri), *кривить* (əymək),

кривиться (əyilmək), *криво* (əyri, çəp) kimi sözlərdə rast gəlmək olur.

Doğra sözünün, *doğ* tərkibi, əlbəttə ki, kəsməklə bağlı kök deyildir. Ona görə də sözün etimoloji təhlilində ona ehtiyatla yanaşmaq lazımdır ki, nəticə düz alınsın. Ancaq burada samit birləşməsi varsa deməli, saitin kənara çıxma ehtimalına həqiqət kimi yanaşmaq olar.

Ğr tərkibi, həmçinin sinkretik forma kimi *oğru* sözündə də işlədilir. Burada, artıq saitin kənara çıxması aydın müşahidə edilən faktdır. Bu sözün tam kökünü müəyyən etmək də çətin deyildir. Tam kök *oğurluq* sözünün daxilindəki *ğur* tərkibi ilə ifadə olunur. Oğru sözündəki *ğr* elementlərinin *kr* adekvatına rus dilindəki oğurluq anlayışı ilə bağlı aşağıda nümunə verilən sözlərdə də təsadüf olunur: *красть* (oğurlamaq), *кража* (oğurluq), *краденый* (oğurluq), *краденный* (oğurlanmış), *украсть* (oğurlamaq), *украденный* (oğurlanmış), *украдкой* (oğrun-oğrun, gizlin-gizlin), *ограбить* (soymaq, talamaq, qarət etmək), *ограбление* (soyğun, soyğunçuluq) və s.

Oğru sözündəki *ğr* elementinin *qar* adekvatına ərəb dilindəki *qarət* (oğurluq) sözündə rast gəlmək olur.

Oğru və *doğru* köklərində eyni *ğr* elementləri işlədilsə də məna bir-birinin əksidir. Məsələ budur ki, *ğr* (qr) elementlərindən kənara çıxan (fleksiyaya uğrayan) saiti şərti bərpa etdikdə həm də *qor* kökü alınır. Onu da nəzərə almaq lazımdır ki, həm *oğru*, həm də *doğru* sözündə kənara çıxan sait *o* fonemindən ibarətdir. Bu mənada *qor* kökünün uyğun anlayışını ona *u* şəkilçisi artırdıqda müəyyən etmək olur. Belə çıxır ki, həm *oğru*, həm də *doğru* sözlərinin kökündə *qorumaq* mənasındakı *qor* kökü dayanır. *Oğru* sözündə *o* elementi fleksiya yolu ilə kənara çıxmaqla qorumağın əks mənasını (qorunmamağı, qoruna bilməməyi, qorunulmayanı) bildirir. *O* saitindən əvvəl *d* əlavə

edildikdə isə sözün əks mənası (qorunan, saxlanan, mühafizə olunan) əmələ gəlir. Əlbəttə ki, bu şəkildəki dəyişmələr dilin ən qədim dövrlərinə aid olduğu üçün onları təhlil edib düzgün nəticə əldə etmək həmişə müyəssər olmur. Ancaq müqayisəli təhlil tədqiqatçının əsl məqsədə yaxınlaşmasına etibarlı təminat verir. Müqayisə üçün deyək ki, məsələn, türk dilində *oğru* sözü əvəzinə *xırsız* sözü işlənir. Sözün kökündəki *xır* hissəsini *qor* kökü ilə müqayisə etsək burada da qorumaqla bağlı ilkin anlayışın olduğunu ehtimal edə bilərik. Sözün tərkibindəki *sız* şəkilçisi, məlum olduğu üzrə, olmayanı bildirən morfoloji sözyaratma vasitəsidir. Məsələn, *yağ-yağsız, duz-duzsuz, dad-dadsız* sözlərində olduğu kimi. Bu mənada, *sız* şəkilçisi sözlərin tərkibində *lı* şəkilçisinin əksini bildirir: *yağ-yağlı, duz-duzlu, dad-dadlı. Xırsız* sözündə də *xır* hissəsini qorunmaqla bağlı bir vahid kimi qəbul etsək *sız* şəkilçisinin əks mənalılığı əsasında *xırsız* sözünün hərfən qorunmayan, mühafizə olunmayan mənasında işləndiyini müəyyən etmək olur.

Doğru və *oğru* sözlərinin müqayisəsindən həm də ilkin analitik söz yaradıcılığına aid belə bir xüsusiyyət müşahidə olunur ki, *d* samiti eyni kökdən törəyən sözlərdə əks məna bildirməyə xidmət edir. Məsələn, *an* (bil) *dan* (bilmə), *al* (irəli, qabaq, alın) *dal* (geri), *üz* (üzül), *düz* (düzül), *in* (inlə-səslən), *din* (dinmə-səslənmə) və s. Bu mənada, *oğru* və *doğru* sözlərinin müqayisəsindən belə məlum olur ki, *oğru* sözündə *o* saiti fleksiya nəticəsində kənara çıxır, *doğru* sözündə isə kök şəklinə düşmüş *oğ* hissəsinə inkar sözyaratma elementi kimi *d* samiti əlavə edilmişdir.

Azərbaycan dilindəki *qorumaq*, mühafizə etmək mənasındakı *qor* kökünün başqa dillərdə, həmçinin, *qr* (kr, xr) kimi adekvatlarına da rast gəlmək olur: *огрожиˊвание* (çəpərləmə, hasarlama), *огрожиˊваться* (çəpərlənmək, hasarlanmaq), *огороˊдить* (çəpərləmək, hasarlamaq), *оградаˊ* (çəpər, hasar),

охрана (qoruma, qorunma), *охранитель* (keşikçi), *охранник* (keşikçi); *хранение* (qorunma), *хранить* (saxlamaq), *граница* (sərhəd), *пограничник* (sərhədçi) və s.

Qeyd etmək lazımdır ki, Azərbaycan dilindəki *qarovul* sözünün tərkibində işlənən *qar* elementi də *qorumaq* sözündəki *qor* kökü ilə eyni mənşəyə malik olan bir adekvatdır.

İngilis dilindəki *guard* (qorumaq, qarovul, keşikçi), *guardian* (mühafizəçi, qoruyucu) sözlərinin tərkibindəki *guar* (qar-) hissəsi də *qor* kökünün adekvatı kimi işlənir. *Qr* elementi latın mənşəli *miqrasiya* (köçmə, sərhəddən kənara çıxma, mühacirət etmə) sözünün tərkibində də *qor* (qr, xr, kr) elementinin adekvatı kimi işlənir.

Qr (kr) kökü sinkretik olduğuna görə onun bazasında digər müvafiq sözlər də formalaşır. Məsələn, rus dilindəki *красный* (qırmızı), *красота* (gözəllik), *красивый* (gözəl), *краска* (boya, rəng), *красить* (rənləmək), *краснеться* (qızarmaq), *красноta* (qırmızılıq), *багровый* (qıpqırmızı), *багренить* (qızartmaq), *багрить* (qızartmaq) kimi sözlərin tərkibində *qr* (kr) elementləri iştirak edərək qırmızılıqla bağlı əlamət bildirmək mənasını daşıyan yeni sözlərin formalaşmasının təməlində durur.

Azərbaycan dilində bu cür əlamət bildirən sözlərin tərkibində *qr* (kr) elementlərinin *qır* variantı işlənir: *qırmızı, qırmızılıq, qırmızımtıl, qırmızıyanaq* və s. İngilis dilində *kr* birləşməsi tünd *qırmızı*, *moruğu* rəng mənasındakı *crimson* (*krizn*) sözünün tərkibində işlənir. Baskların dilində qırmızı mənası bildirən *qorri* sözünə təsadüf edilir.

Səs birləşməsi şəklindəki fleksiyalaşmış kök formasına Azərbaycan dilindəki *atlanmaq* sözünün tərkibində də rast gəlmək olur. Bu sözün kökü əslində *at* yox, fleksiyalaşmış *tl* formatından ibarətdir. *Tl* kökünün daxili saitli variantına *atılmaq* sözündə rast gəlmək olur. *Atılmaq* sözündə *tıl* söz kökü, *a* isə

fleksiya əlamətidir. Kökün fleksiyalaşmış variantında *a* saiti kənara çıxan elementin izidir. *Atılmaq* sözündə isə, artıq, *a* saiti sözün əvvəlinə keçməklə prefiks səciyyəsi daşımağa xidmət edir. Fleksiyalaşmış *tl* kökünün qədim mənbələrdə yerindən tərpətmək mənasındakı *tal* variantına da rast gəlmək olur: "Ol yükni talqıttı" (O yükü itələdi, yerindən tərpətdi, kənara atdı). Azərbaycan dilində *tl* kökünün daxili saitli *tul* variantı vardır. Bu variant üzrə *tullamaq, tullanmaq, tullatmaq* və s. kimi sözlər əmələ gəlmişdir. *İtələ* sözündəki *təl* kökü də *tl* birləşməli kökün bir variantından ibarətdir.

Rus dilində *tal* kökünün *tal* (tol) adekvatı üzrə *толкать* (itələmək), *толкатель* (təkan vermək), *толкаться* (itələnmək), *толкач* (itələyici), *оттолкнуть* (itələmək), *оттолкнуться* (geri itələmək), *потолкать* (bir neçə dəfə itələmək) və s. kimi sözlər əmələ gəlmişdir.

Azərbaycan dilindəki *itələmək* sözündə də *tl* kökünün *təl* variantı işlənir. *İ* saiti isə söz əvvəlində prefiks funksiyasını yerinə yetirir.

Samit birləşməli köklərə *büdrə, titrə, axsaq* kimi sözlərin də tərkibində rast gəlmək olur. *Büdrə* və *titrə* sözlərinin kökünü təşkil edən *dr* və *tr* köklərindəki *d-t* samitləri öz keyfiyyətinə görə biri digərinin variantı kimidir. Bu variantlığı *büdrə* və *titrə* sözlərindəki məna yaxınlığında da görmək olar. *Büdrəmək* sözünün kökündəki *dr* birləşməsini *dur* adekvatı ilə müqayisə etmək olar. Aqlütinativ quruluşa görə *dur* kökündən *büdrə* sözü yaratmaq üçün *durmamaq*, *dura bilməmək* kimi variantları formalaşdırmaq lazım gələrdi. Ancaq tərkibdən saitin əvvələ çıxması ilə üstəlik buraya inkar elementi kimi *d* əlavə edilir və *durmamaq, dura bilməmək* anlayışı *büdrəmək* formasında ifadə olunur. *Büdrəmək* sözündəki *dr* kökünün oxşar adekvatına rus dilindəki *дрожание* (titrəmə, əsmə, titrəyiş), *дрожательный* (titrəyişli,

titrəyən), *дрожать* (titrəmək, əsmək), *дрожь* (titrəmə, əsmə) kimi sözlərədə dast gəlmək olur. İngilis dilində *dr* kökünün *büdrəmək, titrəmək* mənasındakı sözlərdə *tr* adekvatına rast gəlmək olur: *tremble* (titrəmək, əsmək), *trembling* (titrəmə, əsmə), *tremor* (titrəyiş, əsmək).

Ərəb dilində *dr, tr* köklərinin adekvatı kimi *lərzə* (titrəyiş, əsmə) sözünün tərkibində işlənən *lər* variantına rast gəlmək olur. *L* samiti dil-diş səsi olduğu üçün onun *d-l* keçidi də (gözlər-gözdər, sözlər-sözdər) istisna deyildir.

Titrəmək sözünün daxilindəki *tr* elementlərinin oxşarına rus dilindəki aşağıdakı kimi sözlərdə rast gəlmək olur: *трясти* (silkələnmək, yırğalanmaq, əsdirmək), *трястись* (əsmək, yırğalanmaq), *трясучий* (titrəyən, əsən), *трясучка* (titrəmə, qızdırma), ingilis dilində isə *tr* birləşməsinin adekvatına *titrəyən*, *silkələnən* mənasındakı *tremendous* sözünün tərkibində rast gəlmək olur.

Axsa sözündəki *xs* elementləri, əslində *kəsməklə, qısalıqla, gödəkliklə* bağlı müvafiq sözlərin tərkibindəki *qs* (ks) elementləri ilə uyğunlaşır.

Axsamaq ayağa aiddir ki, ayağın biri ya əyriliyə görə, ya da qısalığa görə fərqləndikdə axsayış yerimək zamanı hiss olunur. Odur ki, *axsamaq* sözündə *qısalıq, kəsmək* anlayışı aparıcı məna xüsusiyyətindən ibarətdir. Bu mənada, rus dilindəki *косой* (əyri, çəp, qıyqac), *коso* (çəp, çəpəki), *косный* (ətalətli, ləngərli) kimi sözlərdəki *kos* kökünü *xs* (qs, ks) birləşməsinə adekvat hesab etmək olar. Azərbaycan dilində fleksiyalaşmış köklər öz dövrünü başa çatdırdığına görə həmin yolla düzələn köklər yeni kök variantı kimi təsəvvür yaradır. Məs. *atlanmaq* sözündə *tl* (atlan) kökü itib yeni kök variantı əmələ gətirir.

Dillər arasında bu tipli oxşarlıqları da müəyyən etmək çətin deyildir. Məsələ bundadır ki, bütün sözlərin tam adekvatını dillərin hamısında tapmaq mümkün olmur. Bir çox hallarda isə

sinonimləri axtarıb müəyyənləşdirmək lazım gəlir. Çünki dillərdə omonimlilik dövrünün başa çatmasından sonra sinonim zənginliyi baş vermişdir. Ona görə də bir dildəki sözün tam eyniyyətini başqa dildə tapmaq mümkün olmadıqda sinonimliyə müraciət etmək lazım gəlir. Bu halda, üzərində tədqiqat aparılan dilin materialı fakt vermədikdə başqa dillərə də müraciət etmək lazım gəlir. Dillərin sözyaratma prosesində fərqlənmələr artdığından bir çox hallarda fakt dalınca istənilən dildə oxşarlar axtarmaq məsələnin həlli üçün müqayisələrin aparılması mühüm istiqamətlərdən biri hesab edilməlidir.

Kök- şəkilçi tərkibli sözlərdə dillərarası müştərəklik

Müxtəlifsistemli dillərin materiallarının araşdırılması zamanı Azərbaycan dilindəki kök - şəkilçi tərkibli sözlərin başqa dillərdə mövcud olan adekvatlarına da təsadüf edilir. Kök-şəkilçi tərkibli sözlərdə təsadüf edilən müştərəklik onu deməyə əsas verir ki, oxşar elementlərin formalaşması aqlütinativləşmə mərhələsində də davam etmişdir. Ancaq Azərbaycan dili materiallarının təhlili ilə belə nəticəyə gəlmək olur ki, müştərəklik aqlütinasiyanın məhsuldar dövründən əvvəlki mərhələyə aiddir. Çünki bu tipli müştərək vahidlərdə kök və şəkilçinin funksionallığından söhbət gedə bilməz. Müştərəklik elə kök-şəkilçili sözlərdə müşahidə edilir ki, onları əslində kök-şəkilçi hissəsinə sərbəst ayırmaq olmur. Belə kök-şəkilçi tərkibli sözləri hissələrinə doğru-düzgün bölmək üçün bir çox hallarda ənənəvi etimologiyanın özü gücsüz qalır. Odur ki, başqa dillərin materiallarının qarşılaşdırılmasına ehtiyac yaranır. Bu halda qarşılaşdırmanın özü etimologiyanın köməyinə gəlir. Alınan nəticə isə elə bir xü-

susi maraq yaradır ki, hətta, tədqiqatçını da öz arxasınca çəkib apara bilir. Tədqiqatçının diqqəti daha əlavə faktlara yönəlir ki, bu da etimoloji araşdırmaların keyfiyyətcə yeni üsullar üzərində qurulmasına çox böyük əməli təsir göstərir. Bu mənada aşağıdakı kimi nümunələrin qarşılaşdırılması bəzən gözlənilən, bəzən də gözlənilməyən nəticələrin əldə olunması baxımından xüsusi bir maraq doğurur.

Azərbaycan dilindəki *qızıl* sözünün rus dilindəki qarşılığı *zoloto* sözündən ibarətdir. *Qızıl* sözünün tərkibində iki sait işləndiyinə görə onun birhecalılıqdan ikihecalılığa keçid dövrünün məhsulu olduğunu söyləmək olar. Ancaq söz zaman-zaman tərkibcə dəyişdiyinə görə onu *qı-zıl* və ya *qız-ıl* hissələrinə bölüb ilkin kök və şəkilçini tapmaq çətinlik törədir. Bu halda həmin sözün əlbəttə ki, köksözlülükdən sonra birbaşa şəkilçi vasitəsi ilə formalaşması barədə fikir söyləmək də ağlabatan görünmür. Odur ki, köksözlülük dövründən sonra baş verən *söz üstəgəl söz* variantını nəzərdən qaçırmaq olmaz. Çünki şəkilçi məhz *söz-söz* modelindən sonrakı mərhələnin məhsulu kimi meydana çıxa bilərdi. Bu mənada *qızıl* sözünü bir qədər də əvvəlki mərhələyə qaytarsaq formanı *qızzıl* (qız-zıl) şəklində təsəvvürə gətirə bilərik. Buradakı *qız* tərkibi indi də bəzi sözlərin əvvəlində müstəqil mənada işlənə bilir: *qızar, qızartı, qızarmaq*, *qızdırmaq, qızartmaq* və s. Bu sözlərdə *qızıla* aid əlamət mənası bildirilir. *Qız* hissəsini *qırmızı* sözünün kökündəki *qır* tərkibi ilə də müqayisə etmək olur. Bu mənada, sözlərin tərkibində *z-r* dəyişməsi ənənəvi keçid hadisələrindən biri kimi nəzərə alına bilər. (Almaram-almazsan, görükmək-gözükmək, təzə-tər və s. sözlərdə olduğu kimi).

Qır tərkibi qızarmağın rəngini bildirmək üçün müstəqil işlənmir. Söz tərkibində isə öz mənasını üzə çıxara bilir. *Qızıl* sözünün *zıl* hissəsinin adekvatını Azərbaycan dilində aşkar etmək

olmur. Bu adekvatı rus dilindəki *zoloto* sözünün birinci tərkib hissəsindəki *zol* formasında tapmaq olur. *Zol* tərkibinin qırmızılıq əlaməti ağacla (çubuqla, qamçı ilə və s.) bədənə vurulan zərbə yerinin *qızartı izi* buraxmasında müşahidə edilir. *Qızıl* sözünün *qırmızılıq* mənası mənbələrdə də qeydə alınmışdır: "Qızıl qanım tökti" (Qırmızı qanımı tökdü) (DTS, 450).

Qızıl sözünün qırmızılıq əlaməti vaxtı ilə *zoğal* mənasında rus dilinə daxil olmuş *kizil* sözündə də ifadə edilir. Tuva Muxtar Vilayətinin mərkəzinin adı da (Kızıl) qırmızı mənasını verən zoğal sözü ilə əlaqədardır.

Türk dillərində *qızıl* sözü ilə yanaşı paralel olaraq *altun* sözü də işlədilmişdir. Etimoloji cəhətdən *altun* sözünü tərkibə bölmək çətin deyildir: *al-tun*. *Al* sözünün mənbələrdə tünd qırmızı mənası qeydə alınmışdır: "Yaşıl kök sarıq *al* ağı ton kedip" (Yaşıl, göy, sarı, (tünd) qırmızı ipək parçadan paltar geyib) (DTS, 31).

Altun sözü "Kitabi –Dədə Qorqud"da da *qırmızı* qızıl mənasında işlənmişdir: "Doxsan yerdə ala xalı, ipək döşənmişdi, səksən yerdə badyələr qurulmuşdu; *altun* ayaq sürahilər düzülmüşdü" (KDQ, 62, 28).

Altun sözünün ikinci tərkib hissəsi (tun) rəngli metal kimi *tunc* sözünün əvvəlində işlənir. Eyni zamanda, *altun* sözünün ikinci tərkib hissəsində işlənən *tun* hissəsi, nazik dəmir mənasını bildirən *tənəkə* (tünəkə) sözündəki *tən* (tün) tərkibi ilə uyğunlaşır.

Qızıl sözü fars dilində *zər* sözü ilə ifadə olunur. *Zər* sözü ilə *zol* (zıl) elementləri arasındakı fərq *r-l* samitlərinin ənənəvi keçidindən (*ürüş-ülüş, salıq-soraq* sözlərində olduğu kimi) ibarətdir.

İngilis dilində *qızıl* anlayışı *gold* sözü ilə ifadə olunur. *Gold* sözündə *g* prefleks səciyyəlidir. Sözün *ol* tərkibi isə *altun* sözündəki *al* hissəsi ilə adekvatlıq təşkil edir. *Gold* sözündə *l* samitindən sonra *d* samiti iştirak edir. Quruluşca *gold* sözü Azərbaycan dilindəki *cəld, sərt, bərk* tərkibli sonu iki samitli sözləri

xatırladır. Sonuncu samitin affiksal səciyyəli olduğunu nəzərə alaraq *gold* sözünün kökündəki *ol* hissəsinin *al* birləşməli kökün adekvatı olduğu ehtimal edilə bilər.

Azərbaycan dilində ikinci hissəsi *qır, kir, xır* tərkibi ilə *bitən qışqır*, *hıçqır, anqır, heykır, qıyxır* kimi sözlərin işlənməsinə rast gəlmək olur. Bu tipli sözlərin bəzilərində *kök*-şəkilçi mövqeyində işlənməli olan bir samit ixtisar olunmuş vəziyyətdədir. Belə sözlərə dair aşağıdakıları nümunə göstərmək olar: *bəyir, böyür, bağır, çığır* və s. Nəzərə aldıqda ki, bu nümunələrin hamısı təqlidi yolla eyni qayda üzrə düzəlmiş sözlərdir, onda onların ikinci tərəflərini şərti olaraq – *yir* (bəyyir), - *yür* (böyyür), - *ğır* (bağğır, çığğır) kimi bərpa etmək olar. İlkin ikihecalı sözlərdə hər iki tərkibin *söz-söz* modeli üzrə formalaşdığını nəzərə alsaq bu sözlərin ikinci tərəflərinin şəkilçi yox, söz relikti olduğunu təxmin etmək mümkündür. İmitasiya yolu ilə yaranan sözlərin təhlilinə həsr olunmuş tədqiqatlarda da həmin tərkiblərin söz relikti olması fikri təqdir edilir.[11]

Rus dilində təqlidi yolla yaranmış aşağıdakı kimi sözlərin tərkibindəki *kr* səs birləşməsi şəlklindəki köklər müvafiq olaraq aşağıdakı sözlərdə müşahidə olunan köklərin adekvatı kimi işlənir: *крик* (çığırtı, qışqırıq), *крикливость* (qışqırıqçılıq), *крикливый* (qışqırıqçı), *крикса* (qarıldama), *крикун* (qışqıran), *кричать* (çığırmaq, qışqırmaq), *кричащий* (çığıran); *икать* (hıçqırmaq), *окрик* (çığırma, bağırma), *окрикнуть* (səsləmək, haylamaq).

Bu nümunələrdən görünür ki, *qışqır, hayqır, anqır, qıyxır, bəyir* (bəyyir-bəykir), *böyür* (böyyür-böykür), *bağır* (bağğır),

1[1] В.Г.Егоров. Звукоподражательные слова. "Материалы по грамматике современного чувашского языка. ч. ЫІ, Морфология. НИИ при СМ ЧАССР". Чебаксары. Чуваш гос. изд-во. 1957, с. 37; Г.Е.Корнилов. Имитативы в чувашском языке. "Чувашское книжное издательство", Чебоксары, 1984, с. 92-93.

çığır (çığğır) kimi sözlərin ikinci tərəfi *krik, kriçatğ, krikun*… sözlərində olduğu kimi «səs» anlayışı bildirir. Bütövlükdə isə bu sözlərin mənası belə təsəvvür olunmalıdır: *hayqır-hay*… səsi *çıxarmaq, anqır-an*… səsi çıxarmaq, *qıyxır-qıy*… səsi *çıxarmaq*, *bəyir-bə*… səsi *çıxarmaq, böyür- bö*… səsi *çıxarmaq, içqır-iç*... səsi çıxarmaq, *bağır-ba*… səsi çıxarmaq.

İngilis dilində Azərbaycan dilindəki *qır, kir, xır* tərkiblərinin adekvatına *cry* (qışqırıq, çığırtı, qışqırmaq) sözündəki *cr* (kr) tərkibi uyğun gəlir.

Azərabycan dilindəki *yağı* (düşmən) sözünün tərkibi də iki hecadan ibarətdir. Sözü *yağ* və – *ı* tərkiblərinə ayırdıqda *yağ* hissəsində düşmən mənasını aydınlaşdırmaq olmur. *Y* samitini sözün əvvəlindən ayırdıqda isə *ağ* hissəsi alınır. *Ağ* sinkretik kökdür və burada rəng və ya yuxarılıq anlayışı axtarmaq nəticə vermir. *Ağ* hissəsinə –*ı* artırdıqda isə *ağı* (zəhər) sözü alınır. *Ağı* ilə *yağı* arasında da məna yaxınlığı müşahidə edilir. Ancaq *ağı*, hər halda düşmən kimi yox, bədənə, cana ziyanlı maddə kimi başa düşülür. Məhz *ağı* sözündə düşmən mənasının təməli gizlənir. *Ağı* sözündən düşmən mənası bildirən söz yaratmaq üçün onun əvvəlinə *y* artırılmışdır. Rus dilində düşmən mənası bildirən *враг* sözü vardır. *Враг* sözündə *v* hissəsi kök elementi yox, kökə əlavə olunmuş prefiks elementidir. Sözün kökü isə *паг* hissəsindən ibarətdir. Azərbaycan dilində *ağ* kökünün əvvəlinə *y* əlavə olunduğu kimi, ehtimal edilə bilər ki, rus dilində də *aq* hissəsindən düşmən anlayışı yaratmaq üçün əvvələ *r* əlavə edilmişdir. Nəzərə almaq lazımdır ki, Azərbaycan dili sözlərinin əvvəlində *r* işlənmir. *Y* samiti isə dilortası və *dil –diş* samitlərinin aralığında keçid yarada bilən səsdir. Ona görə sözyaratma elementi kimi hər iki dildə paralel olan *aq* kökünə *r* və ya *y* əlavə edilməsi istisna deyildir. Onu da əlavə etmək olar ki, rus dilində, həmçinin *yaq* tərkibli *варяг* sözü mövcuddur.

Варяг sözünün mənası isə *talançı, qarətçi, düşmən* anlayışları ilə uyğun gəlir. Sözün birinci tərkibindəki *var* hissəsini isə məna yaxınlılığına görə *вор* (oğru) *врать* (yalan, şər, böhtan) sözləri ilə müqayisə etmək olar. Ərəb dilində də rus dilində olduğu kimi, *aq* hissəsinin əvvəlinə *r* artırmaqla düşmən mənasına uyğun gələn *rəqib* sözü yaranmışdır. Burada *rəq* (raq) kök kimi formalaşmış və bu kökün üzərinə *ib* əlavə (rəqib) olunmaqla *yağı* (düşmən) anlayışı ifadə edilmişdir. Ərəb dilindəki *rəq* tərkibi *vraq* sözündəki *raq* tərkibi ilə səsləşir.

Azərbaycan dilində aşağı düşmək mənasında *eniş* sözü işlənir. *Eniş* sözü ilk baxışdan öz quruluşuna görə elə bir təəssürat yaradır ki, sanki onu asanlıqla kök və şəkilçi hissəsinə ayırmaq olar. Belə ki, *en* sözün kökü, *iş* isə şəkilçi qismində görünə bilir. Ancaq bu forma tərkibində ixtisarlaşma baş vermiş bir konstruksiyadır. Əgər dilin köksözlülükdən sonrakı mərhələsinə qayıtsaq sözün əvvəlki formasını (y) *en-niş* şəklində bərpa etmək olar. Sözün birinci tərkibi Azərbaycan dilində həm *en*, həm də *yen* şəklində işlənir (enmək-yenmək). Belə paralelliyə nitq areallarında (daha çox Naxçıvan) rast gəlmək olur: "Təyyarə yerə *endi*-təyyarə yerə *yendi"*.

Ancaq ümumi halda *enmək* və *yenmək* sözləri arasında anlayış üzrə bağlılıq olsa da konkret mənaya görə onların arasında fərq də müşahidə edilir. *Enmək* sözü yuxarıdan aşağıya düşmək mənasında işlədildiyi halda *yenmək* sözündə əlavə mənalar bildirilir, məsələn, *yenilməz* (məğlubedilməz), *yenmək* (məğlub etmək), *yenmək* (üzünü yenmək, döndərmək), *yenmək* (qiyməti yenmiş mallar və s.).

Enmək və *yenmək* sözlərinin müqayisəsindən aydın olur ki, *en* sözündə aşağıya düşmək mənası əsasdır. Bu sözün üzərinə *y* əlavə etməklə *yen* sözü əmələ gəlir ki, burada da əsas məna özəyi saxlanmaqla əlavə məna çalarlıqları baş qaldırır. Müqa-

yisə üçün onu da əlavə etmək olar ki, *en* morfeminin *ön* variantı üzərinə *ç* əlavə etdikdə *çön*, *d* əlavə etdikdə geri qayıtmaq (inkar mənasında) *dön* sözü formalaşır. Yəni sözün əvvəlinə samit əlavə olunması ilə köksözlülüyün əlaməti kimi, eyni məbədən (məna özəyindən) məna ardıcıllığı saxlanılmaqla yeni çalarlıqlar bildirən nitq vahidləri formalaşır.

Beləliklə, *en* sözünün birinci tərkib hissəsinin quruluşu və mənası aydın olur. İkinci tərkibdəki *–iş* feldən ad (isim) düzəldən şəkilçi kimi mənalandırıla bilsə də onun mənşəyinin aydınlaşdırılmasına da bir lüzum yaranır. Məhz müqayisəli təhlilin məqsədi də bundan ibarətdir. *Eniş* sözünü dilin köksözlülük mərhələsindən sonra baş verən ikihecalılıq dövrünün konstruksiyalarına uyğun bərpa etdikdə *enniş* variantı alınır. Bizdən ötrü qaranlıq qalan məsələ də elə bu tərkibin aydınlaşdırılmasıdır. Türk dillərinin, eləcə də Azərbaycan dilinin mövcud materialları sözün *–niş* hissəsinin araşdırılmasına fakt verə bilmir. Ona görə də başqa dillərdəki uyğun adekvatlara müraciət etmək ehtiyacı yaranır. Rus dilində *aşağılıq, aşağı* düşmək mənasında *niz* (*aşağı, aşağı hissə, dib, alt hissə, alt mərtəbə, çayın aşağı axarı*) sözü vardır. *Niz* sözü bir kök morfem kimi, həm də bir-biri ilə incə məna ardıcıllığı saxlayan *низведение* (endirmə, endirilmə, yıxma, yıxılma), *низать* (düzmək, sapa keçirmək), *низвернуть* (yuxarıdan salmaq), *низвести* (endirmək), *низина* (alçaq yer), *низкий* (alçaq, aşağı), *низко* (alçaqdan, aşağıdan) *низший* (ən alçaq, ən aşağı), *вниз* (aşağıya), *внизу* (aşağıda, altda), *снижаться* (aşağı salınmaq), *снижение* (aşağı salınma, endirmə, endirilmə), *сниженный* (aşağı salınmış), *снизить* (aşağı salmaq), *снизу* (aşağıdan, altdan), *понижение* (enmə, endirmə), *понизить* (aşağı salmaq), *понизу* (aşağıdan, alçaqdan), *унижение* (alçaltma, hörmətdən salma), *униженный* (alçaldılmış), *унизить* (alçaltmaq) kimi sözlərin tərkibində işlənir.

Eyni kökdən rus dilində, həmçinin, *нищать* (yoxsullaşmaq), *нищета* (yoxsulluq, mənəvi düşkünlük), *нищий* (dilənçi), *нищенство* (son dərəcə yoxsulluq, dilənçilik) kimi sözlər də yaranmışdır.

Beləliklə, *eniş* sözünün ikinci tərkibini rus dilindəki adekvatla müqayisə etdikdə Azərbaycan dilindəki *–niş* tərkibinin rus dilindəki uyğun vahidin adekvatı olduğu müəyyənləşdirilə bilir. *Eniş* sözü, artıq, əvvəlki söz-söz modelindən uzaqlaşıb. Ona görə də bu sözün-*niş* tərkibini sabit variantda qəbul etsək *e* hissəsi analitiklik mərhələsinə məxsus prefiks səciyyəli vahid hesab olunmalıdır. *En* hissəsini sabit hesab etsək *–iş* hissəsinin ilkin variantını *–niş* şəklində şərti bərpa edib müqayisəli təhlil yolu ilə onun genetik mənasını tapmaq mümkün olur. Ümumi mənada *eniş* sözü, hərfən *aşağı-aşağı* anlayışına uyğun gəlir. Güman ki, iki eyni məna bir söz tərkibinə daxil olduğundan strukturda dəyişmə baş vermiş, aqlütinasiyaya meyllilik isə – *niş* söz tərkibini *–iş* şəkilçi tərkibi kimi formalaşdırmışdır.

-Niş tərkibinin müvafiq adekvatlarına ərəb və fars dillərinə aid nümunələrdə də rast gəlmək olur. Ərəb dilində aşağı enmə, göydən yerə enmə mənasında *nüzul* sözü işlənir. Sözün *nüz* tərkibi mənasına və quruluşuna görə Azərbaycan dilindəki- *niş*, rus dilindəki *–нищ*, - *нижс* formaları ilə uzlaşır.

Ərəb dilində, həmçinin, *enən*, yuxarıdan aşağı düşən mənasındakı *nazil* sözü vardır. Sözün *naz* hissəsi *eniş* sözündəki *-niş* tərkibinin adekvatından ibarətdir. Bu adekvatlar sırasına, həmçinin, fars dilindəki *nəz* (yan, yaxın), *nəzdik* (aşağı yan, aşağı tərəf) və *nazik* (incəlmiş) sözlərindəki *nəz -, naz* tərkiblərini daxil etmək olar. İngilis dilində aşağı düşmək mənasında *down* sözü işlədilir ki, bu sözün fleksiya olunmuş (saitin kənara çıxması baş vermiş) *wn* (won) hissəsini *eniş* sözünün *en* hissəsi ilə müqayisə etmək olar. Buradan görünür ki, *eniş* sözündəki *– iş*

elementinin –*niş* şəklində bərpası təsadüfi deyil, müxtəlifsistemli dillərdə sabit saxlanan müştərək formatın bir variantıdır.

Eniş sözü kimi *yeni* sözü də tərkib hissəsinə asan bölünə bilmir. Analoji qayda üzrə *yeni* sözünü də *yenni* şəklində bərpa etmək olar. Bu halda sözün *ni* tərkibini fars dilindəki yeni mənası bildirən *nou*, rus dilindəki *nov*(ıy), ingilis dilindəki *new* (nui) sözləri ilə müqayisə etmək olar.

Yen tərkibinin adekvatını ingilis dilindəki *aqain* (yenidən) sözünün *in* (yin) hissəsi ilə müqayisə etmək mümkündür. *Yen* tərkibi, həmçinin Çin dilindəki yenidən görünmə mənasına uyğun olaraq forma, obraz, manera anlayışı bildirən *yaŋ* sözü ilə müqayisə edilə bilər.

Yen sözünün *in* hissəsi Azərbaycan dilindəki indi (yeni başlayan) sözünün tərkibində işlənir. *İn* hissəsinə *y* əlavə olunduqda *yen* kökü düzəlir. Buraya –*i* şəkilçisi artırıldıqda isə kökün mənası konkretləşir. *İn* tərkibi, Azərbaycan dilindəki mənasına uyğun şəkildə fars dilində də işlədilir: dər *in* zəman (indiki vaxt) dər *in* hal (indiki vəziyyət), dər *in* saət (indi).

Beləliklə, *eniş* sözü hərfən aşağı-aşağı mənası bildirdiyi kimi, *yeni* sözünün ilkin mənasında da *yeni-yeni* anlayışı bildirilmişdir.

Azərbaycan dilindəki *alov* sözünü söz-söz mərhələsinin modellərinə uyğun olaraq şərti bərpa etdikdə *allov* variantı alınır. *Allov* sözünün birinci tərkibi, bu halda qırmızı *lov* mənasında başa düşülür. Sözün *lov* hissəsini başqa dillərdə mövcud olan müvafiq adekvatlarla tutuşdurub onu mənaca aydınlaşdırmaq mümkündür. Rus dilində *alov* sözünün müqabili kimi *пламя* qarşılığı vardır. Bu sözdə *n* prefiks xarakterlidir. *Лам* sözün kök hissəsi, - *я* isə affiksdir. Bu sözlərdə *lov* və *lam* tərkibləri söz kökü olmaq etibarı ilə mənaca üst-üstə düşür. Fərq buradakı saitlərdə *a- o* dəyişməsindən, samitlərdə *v- m* fərqindən ibarətdir.

Bu da ənənəvi keçid kimi tamamilə qanunauyğunluqdur. *Alov* sözünün tərkibindəki *lov* hissəsi müasir dilimizdə müstəqil işlənməsə də Şərq arealında (xüsusən Bakıda) *lo* şəklində od, od parçası, yanar od mənası bildirməklə işlədilir: «Bu nə *lo*du, balam, düşüb canımıza» (Şifahi nitqdən).

Rus dilindəki *лам* tərkibi, həmçinin, *лампа* sözünün də kök hissəsi kimi işlənir. Buradan *lam* tərkibinin *alovla*, yanmaqla bağlı məna bildirdiyi aydınlaşdırılır. İlkin formaca şərti bərpa edilən *allov* sözünün də mənasına aydınlıq gətirilir. Belə ki, *al* sözünün qırmızı, *alov* hissəsinin yanar od mənası sözün özünün qırmızı yanar od (və ya çıraq) mənası bildirdiyini göstərir. Azərbaycan dilindəki *lopa* (məşəl) sözünün *lop* hissəsi də *alov* sözündəki *lov* tərkibinin adekvatından ibarətdir. Rus dilində işlədilən *lampa* sözü fars dilində də iki variant üzrə *lampa* və *lamp* şəklində çıraq mənasında işlədilir. Ərəb dilində *lam lov* hissələrinin adekvatı kimi *lame* (parıldayan, parlaq, parlaq şölə ilə yanan) sözü vardır. *Пламя* sözünün *пл* tərkibi, əslində, samit birləşməsi şəklinə düşmüş *пыл* kökünün reliktidir. *Пыл* kökünün yanmaqla bağlı mənası rus dilində qalmaqdadır: *пыл* (od, alov), *пылать* (alovlanmaq, alışmaq), *пылкий* (atəşli, odlu, hərarətli) və s.

Azərbaycan dilindəki *alov* (allov-yallov) sözünün izomorfik modelində olduğu kimi, rus dilində də analoji variant *пыллам*(я) şəklində təsəvvür edilə bilər: *alov-allov-yallov* (yal-yanmaq, lov-alovlanmaq); *пламя- пыллам*(я) (pıl-yanmaq, lam işıq, şəfəq). Həmçinin, ərəb dilindəki *ləhəb* sözünün *ləh* hissəsi yanmaq mənasında *lov, lam* tərkibləri ilə adekvatlıq yaradır. Eyni zamanda, ərəb dilindəki parıldayan, *alov* saçan mənasındakı şölə sözünün *lə* hissəsini də *lov*, *lam* tərkiblərinin adekvatı hesab etmək mümkündür. İngilis dilində də rus və fars dillərində olduğu kimi, yanmaq anlayışı ilə bağlı formalaşmış *lampa* sözünün *lamp* variantı işlədilir.

Azərbaycan dilindəki *gizir* sözü də ikihecalılığa keçid dövrünün məhsulu kimi kök və şəkilçiyə ayrıla bilmir. Ona görə də bu sözün rekonstruksiyası üçün başqa dillərə aid adekvat nümunələrə müraciət etməyə ehtiyac yaranır. Sözün birinci tərkib hissəsini *giz* kimi nəzərə alsaq ikinci tərəf *–ir* şəklində qalır. Bu da onun rekonstruksiyasının düzgün motiv üzrə qurulmasına maneçilik yaradır. *Gizir* sözünü söz-söz modeli üzrə şərti bərpa etsək *gizzir* forması alınır. *Giz* tərkibi Azərbaycan dilindəki *gizlin, gizlət, gizlətmək, gizlincə* kimi sözlərin tərkibində işlədildikdə onun genetik mənası aydınlaşır. *Zir* tərkibinin aydınlaşdırılmasında isə başqa dillərin materiallarına müraciət etmək lazım gəlir.

Gizir sözü Azərbaycanın nağıl və dastanlarında vəzir və ya nazir vəzifələrinə uyğun mənada işlənmişdir (*Giziroğlu* Mustafabəy və xanın *giziri* adlarında vəzifə bildirən sözlər kimi).

Beləliklə, *gizir* sözünün *giz* hissəsinin məxfi, gizlin işlərə baxan dövlət məmuru bildirmək üçün işlədildiyini aydınlaşdırmaq olur. *Zir* tərkibini bu mənada, *vəzir, nazir* kimi ərəb mənşəli sözlərin ikinci tərəfi ilə (zir) müqayisə etmək olar. *Vəzir* sözü lüğətlərdə ərəb mənşəli vəzifə bildirən ad kimi göstərilir: 1) hökmdarın vəkili olub dövlət işlərinə baxan adam, nazir; 2) baş nazir.[11]

Nazir sözünün özündə də *zir* tərkibi işlənir. Sözün özü isə belə mənalandırılır: 1) nəzarət edən, baxan; 2) idarə edən, dolandıran, dövlət aparatının müəyyən sahəsini idarə edən yüksək vəzifəli şəxs.[22]

Buradan *zir* tərkibinin baxan, görən mənası bildirdiyini müəyyənləşdirmək olur. *Zir* tərkibinin görməklə, baxmaqla bağlı olduğunu rus dilində işlənən aşağıdakı kimi sözlərin tərkibin-

[1] *Ərəb-fars sözləri lüğəti. Bakı, Azərb. SSR EA nəşr., 1967, s. 89.*
[2] *Ərəb-fars sözləri lüğəti. Bakı, Azərb. SSR EA nəşr., 1967, s. 457.*

dəki *zor, zir, zr* kimi adekvatlarda müşahidə etmək olur: *надзор* (nəzarət etmə, göz yetirmə), *надзирать* (nəzarət etmək, göz yetirmək), *надзиратель* (nəzarətçi, gözətçi, baxıcı); *подзорный* (müşahidə), *зоркий* (itigözlü, itigörən), *зоркость* (itigözlülük), *зрак* (nəzər, baxış), *зрачок* (göz bəbəyi), *зрение* (görmə, göz), *зритель* (tamaşaçı) və s.

Bu nümunələrin müqayisəsi əsasında, *zir* tərkibinin Azərbaycan dilindəki müvafiq sinonim adekvatını da tapmaq olur. Məsələn, Azərbaycan dilindəki *zil* sözünü bu mənada *zir* elementi ilə müqayisə etmək olar. Bu söz sinkretik bir tərkibdir. Anlayış etibarı ilə *zil* sözünü tünd (zil qara, qaranlıq, zil səs) kimi mənalandırmaq olar. *Zil* sözü, həmçinin, *zillənmək* sözünün kökü kimi də işlənir. *Zillənmək* sözü bir qayda olaraq *gözünü zilləmək, gözünü zilləyib baxmaq* ifadələrində *diqqətlə baxmaq* mənası bildirir. Bu mənada, müxtəlifsistemli dillərin müqayisəsi üzrə *zir* tərkibinin Azərbaycan dilinin özündə də müvafiq adekvatı olduğunu müəyyənləşdirmək mümkün olur.

Kök- şəkilçi tərkibli sözlərdə müştərək elementlərə dair nümunələrin sayını daha diqqətli təhlil sayəsində artırmaq da mümkündür. Ancaq bu təhlillərdən məqsəd belə bir faktı aşkara çıxarmaqdır ki, dillərarası oxşarlıqlar bütün dillərin arasında tam paralelliklə müşayiət olunmur. Ona görə ki, müştərək elementlərin mövcudluğu heç də ulu dilin haradasa dilin dərin qatlarında öz izlərini gizli saxlaması fikrinə bəraət qazandırmır. Çünki insanın hər cür münbit şəraitdə, əlverişli mühitdə yaşaması ehtimalı öz-özlüyündə ulu dil barədəki fikirləri və ulu dilin mövcudluğu ilə bağlı bütün nəzəriyyələri istisna edir.

Dillərarası paralel müştərəklik

Paralel müştərəklik samitlərin söz əvvəlindəki şaquli keçidləri üzrə fərqlənən sözlərdə müşahidə edilir. Şaquli keçidlər dilarxası, dilortası, dil-diş və dodaq səs yuvalarındakı samitlərin arasında baş verən fərqlənmələr kimi nəzərə alınır. Şaquli keçidlərə həm qohum dillərin, həm də qohum olmayan dillərin materiallarında rast gəlmək olur. Şaquli keçidlər üzrə sözlərin formalaşmasında dillərin leksik-semantik inkişaf prosesi aparıcılıq təşkil edir. Bəzən şaquli keçidlərin formalaşması ayrı-ayrı tədqiqatlarda dillərin ayrılaraq dialekt səciyyəli fərq yaratması prosesinin nəticəsi kimi qiymətləndirilir. Firudin Cəlilov yazır ki, Hind-Avropa dilləri k/s paralelliyini əks etdirən "yüz" sözünün formasına əsasən kentum (k) və satem (s) dillərinə (dialektlərinə) ayrılır. Məsələn, *ürək* sözünün *kard* (kett), *serd* (slavyan) variantları *k/s* paralelliyini əks etdirir. Maraqlıdır ki, "satemləşmənin" vaxtı eradan neçə min il əvvəl, arealı isə Rusiyanın cənubu hesab olunur.[1]

Dillərdə zaman-zaman areal fərqlənmələri, əlbəttə ki, nitq prosesində dəyişiklik baş verməsinə səbəb olan əsas amillərdən biri hesab edilə bilər. Ancaq belə fərqlər daha çox nitqə görə baş verdiyi üçün onları areal dəyişmələri kimi nəzərə almaq mümkündür. Areallarda dialekt fərqi kimi baş verən dəyişmələrin bazası isə üfüqi keçidlərdən ibarətdir. Məsələn, türk dillərində *kız-qız-xer*; *yılan-çılan-tılan*, *yumurta-çuurta-sımıt*; Azərbaycan dilinin özündə: *qoca-qoja, tər-dər, şillə-sillə*, *bunu-munu-muyi, düyü-dügi* və s. sözlərdə olduğu kimi.

Firudin Cəlilov türk –rus dilləri üzrə müəyyən etdiyi

[1] *О.Смереньи. Введение в сравнительное языкознание. М., 1980, с. 164; F.A.Cəlilov. Azərbaycan dilinin morfonologiyası. Bakı, 1989, s. 111.*

köpək-sobaka, kəfən-savan, kırk-sorok kimi paralelləri nümunə gətirərək yazır ki, "Bu cür paralelləri təsadüfi oxşarlıq və ya Azərbaycan və türk dillərində işlənən *kino-sinema, siklop-kiklop, silindr-kilender* tipli eyni sözün müxtəlif dillərdən, müxtəlif mənbələrdən (məsələn, kedr-sidr ağacı) alınmış forması kimi qiymətləndirmək olardı, lakin türk mənşəli sözlərin də ayrı-ayrı türk dilləri üzrə *k-s* fərqi ilə yayılması, yəni *kemik-sümük* tipli paralellərin varlığı və belə paralellərin hətta, eyni dildə işlənməsi faktı göstərir ki, hind-Avropa dillərində olduğu kimi, türk dillərində də qədim *k-s* fərqi olmuşdur".[1]

Göstərilən nümunələr ciddi faktlardır. Ancaq onu da nəzərə almaq lazımdır ki, dialekt faktı kimi, bir qayda olaraq, nitq dəyişmələri nəzərə alınır. Paralel keçidlər üzrə formalaşan sözləri isə dilin leksik-semantik inkişafında müvafiq rolu olan sinonimləşmənin qədim izlərindən biri kimi də nəzərə almaq olar. Doğrudur, dillərarası xüsusi leksik vahidlərin yaranmasında diferensiallaşma prosesinin mühüm rolu vardır. Ancaq onu da etiraf etmək lazımdır ki, qohum dillər arasında paralel keçidli sözlərin baş verməsi sinonimliyə aparan yollardan biri olmuşdur. Müxtəlifsistemli dillərdə paralel keçidli sözlərin baş verməsi də dillərin leksik-semantik inkişafını göstərən proseslərdən biri kimi qiymətləndirilə bilər.

Türk dilləri nümunəsində paralel keçidlərlə səciyyələnən aşağıdakı kimi dil faktlarını misal göstərmək olar:

K (q, x) – s: *koyun* (türk, qaq.), *qoyun* (Azərb. türkm.), *xoy* (xak), *sarık* (tat.).

K-s: *kemik* (türk. qaq.), *sümük* (Azərb.); *kar* (Azərb.), *keren* (qaq.qırğ.), *sağır* (türk).

K- (q) – p (v): *kurt* (türk), *qurd* (Azərb.), *püüz* (xak.), *börü* (tuv.), *buri* (özb.), *büre* (tat).

[1] *F.A.Cəlilov. Azərbaycan dilinin morfonologiyası. Bakı, 1989, s. 111-112.*

K- (q-g) - t: *keça* (özb.), *gece* (türk), *qije* (türkm.), *gecə* (Azərb.), *tün* (qaz., xak., alt. kor., özb.), *ton* (başq., tat.).

Şaquli keçidlər bütün məqamlarda paralel sözlər əmələ gəlməsində iştirak etmir. Deyilişində şaquli keçidlər müşahidə edilən bəzi sözlər məhz dialekt səciyyəli nümunələr kimi işlənir; *kimi-çimi, kirpik-çirpik, köhnə-çöhnə, kim*-çim, *küçə-çüçə*[11] və s.

Paralel keçidli sözlərə Azərbaycan dilinə aid nümunələrdə də rast gəlmək olur.

Dün-geçə:

Dün sayə saldı başıma bir sərvi-sərbüləndi

(Məhəmməd Füzuli)

(Gecə, bir sərv (boylu) nazənin (kimi) başıma (üstümə) öz kölgəsini saldı).

Dış-bayır:

«Qaçan Qazan evi yağmalatsa halalının əlin alır, *dışara* çıxardı. Ondan yağma edərdilər» (KDQ, 62, s. 150).

Bulmaq-tapmaq:

Xızr əgər zülmətə vardı istədi abi-həyat

Mən gözlərin çeşməsində abi-heyvan *bulmuşam*. (İmadəddin Nəsimi)

(Xızr əgər zülmətə gedib əbədi həyat istədisə mən sənin gözlərində (tanrının gözündə) əbədi həyatı tapmışam).

Müxtəlifsistemli dillərdə sözlərin paralel müştərəkliyinə dair aşağıdakı kimi nümunələri misal göstərmək olar:

K-s keçidi: *korova* (rus, kuh (alm.) *cow* (kov) (ing.), *qav* (fars.), *sıyır* (sığır), s*ier* (türk dilləri); *kostğ* (rus), *knoken* (alm.), *skleten* (ing.), *sümük, suyek*, *sook* (tükr dilləri), *köpək* (türk dilləri), *sobaka* (rus), *səg* (fars), *sap* (isp.), *sape* (italyan), *kəlb* (ərəb).

[1] *М.Ш.Ширалиев. О диалектной основе азербайджанского литературного языка. "Вопросы диалектологии тюркских языков". Баку, 1958, с. 17; Р.А.Рустамов. О состоянии изучение диалектов азербайджанского языка. Йеня орада, с. 71; Н.З.Гаджиева. Проблемы тюркской ареальной лингвистики. М., 1975, с. 198.*

K (q) – b-v keçidi: *kopf* (alm.), *qolova*)rus), *pas* (xak), *baş* (Azərb.).

Şaquli keçidli paralel müştərək sözlərə Hind-Avropa dillərinin nümunələrində də rast gəlmək olur: *kino* (lat.), *sinema* (ing.), *kinema* (yun.), *kentavr – sentavr* (qədim yunan), *kordia* (yunan), *serdüa* (rus), *sentum* (lat.), *kentum* (yun.) kimi sözlər bu cəhətdən maraq doğurur.

Paralel müştərək sözlər sinonim istiqamətində yaranmış dil vahidlərinin bir tərkib hissəsidir. Sinonimlər bir dilin daxilində məna zənginliyini gücləndirdiyi kimi, dilin leksik potensialının artmasına xidmət etdiyi kimi, paralel müştərək sözlər də həm bir dilin, qohum dillərin və eləcə də qohum olmayan dillərin lüğət tərkibinin canlanmasına çox güclü təsir göstərir. Dildə sinonimlik paralel sözlərdən daha artıq inkişaf perspektivi qazandığına görədir ki, belə sözlər, artıq, dilin dərin qatlarında qalmış vahidlər səviyyəsində araşdırılır. Sinonimlərin potensialı isə dillərin informasiya mühitinin genişlənməsi prosesi ilə həmahəng şəkildə artmaqda davam edir. Paralel müştərəkliyin öyrənilməsinin etimologi təhlildə çox böyük üstünlüyü vardır. Eyni zamanda, dilin leksik-semantik inkişafının öyrənilməsi sahəsində də paralel müştərəkliyə aid nümunələrin müqayisəli təhlil olunması məsələsi xüsusi bir əhəmiyyət kəsb edir.

Paralel müştərəkliyin öyrənilməsi ilə həm də dillərin diferensiyallaşması prosesinə dair bir çox məsələlərin, o cümlədən, dialekt fərqlərinin baş verməsi problemlərinə aydınlıq gətirmək mümkündür. Paralel müştərəklik nümunəsindəki sözlərin yaranması əşya, hadisə və proseslərin oxşar təfəkkür imitasiyası ilə qavranılmasının nəticəsidir. Bu cür dil vahidlərinin öyrənilməsi təfəkkür tipologiyalarının arasında mövcud olan və zahirdə görünməyən əlaqələrin aşkara çıxarılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Dillərarası motivasiya müştərəkliyi

Müxtəlifsistemli dillərə məxsus oxşar elementlərin formalaşması prosesində də təfəkkür tipologiyasının aparıcı rolu vardır. İnsanların hansı ərazidə, hansı təbii şəraitdə yaşamasından asılı olmayaraq əşya və hadisələrə oxşar münasibətin, oxşar idrak prosesinin, oxşar qavrayışın nəticəsində, struktur cəhətdən oxşar olmayan, ancaq əşya və hadisənin mahiyyəti baxımından mənaca bir-birinin üstünə düşən sözlərin formalaşması prosesi baş verir. Təfəkkür tipologiyasının məhsulu olan belə sözlərdə motivasiya bazası eyni olur. *Tipologiya* termini mənşəcə yunan dilinə məxsusdur. *Tipologiya* termini dil strukturuna aidiyyəti olan bir söz kimi tiplərin (əyşa və hadislərin) arasındakı qarşılıqlı əlaqəsi mənasında başa düşülür. Bu mənada, təfəkkür tipologiyası təfəkkürlərarası qarşılıqlı əlaqə kimi anlaşılır. *Motiv* termini mənşəcə fransız dilinə məxsusdur. Mənası dəlil, sübut, səbəb, əsaslandırma deməkdir. Tipoloji qarşılaşdırmada motiv sözü müxtəlif tiplərin oxşar məna bazasına malik olması kimi başa düşülməlidir.

Müxtəlifsistemli dillərdə motivasiya müştərəkliyinin müəyyən edilməsi oxşar əşya və hadisələrə dair adlandırılmaların təfəkkür tipologiyası ilə bağlı olduğunu təsbit etmək baxımından əhəmiyyətlidir. Eyni zamanda, motivasiya müştərəkliyi bazasında formalaşan elementlərin müqayisəsi etimoloji təhlil üçün ciddi və maraqlı nəticələr əldə etməyə imkan verir.

Motivasiya müştərəkliyinə aid nümunələrin mövcudluğu, əslində sözlərin yox, anlayışların oxşar olması deməkdir. Bu isə bir daha belə bir fikri təsdiq etməyə əsas verir ki, "ulu dil" anlayışı özünü doğrulda bilən dəlillər vermir. Dillər arasında təfəkkür tipologiyasının məhsulu kimi quruluşca və mənaca oxşar sözlər

yaranırsa quruluşca müxtəlif olan, ancaq mənaca bir-birinin üstünə düşən sözlər də formalaşa bilər. Motivasiya müştərəkliyi də dillərin ilkin sözyaratma mərhələsindəki sinonimləşməyə doğru gedən yolların bir nümunəsi kimi nəzərə alına bilər. Sonrakı proseslərdə sinonimləşmənin daha optimal bir yolla inkişaf etməsi səbəbindən paralel müştərəklik olduğu kimi motivasiya müştərəkliyi prosesində də ləngimələr baş vermişdir. Motivasiya müştərəkliyinin izləri isə sinonimliyə aparan istiqamətlərdən biri kimi müvafiq dil nümunələrində saxlanmaqdadır. Belə nümunələrə dair aşağıdakı kimi dil faktlarını misal göstərmək olar:

Qol –sözü. *Qol*-sözü türk dillərində həm *qol*, həm də *əl* mənasında işlədilir. *Qol* sözünün qarşılığı rus dilində *ruk*(a) fars dilində *dəst*, ingilis dilində *hand* (hənd), fransız dilində *mayn*, ispan və italyan dillərində *mano* sözləri ilə ifadə olunur. Qeyd etmək lazımdır ki, nümunə gətirilən dillərdə də *əl* və *qol* anlayışı bir söz vasitəsi ilə bildirilir. Adi qaydada onların eyni məna bazasında formalaşdığını təsəvvürə gətirmək asan olmur. Ancaq bu sözlərin derivatlarını müqayisə etdikdə məna bazası aydınlaşır. Azərbaycan dilindəki *qol* və *əl* sözlərinin də qədim mənbələrdə eyni mənada işləndiyi qeyd olunmuşdur (DTS, 169, 453). Ona görə də *əl* və *qol* anlayışı üzrə formalaşmış derivatlarda mənaca oxşarlığın bir-birinin üzərinə düşdüyü müşahidə edilir. Belə ki, Azərbaycan dilində *əl* sözündən *əlcək* sözü əmələ gəlmişdir. Rus dilində *əlcək* sözünün qarşılığı *руковица* sözüdür. Kök Azərbaycan dilində *əl*, rus dilində isə *əl* və *qol* anlayışı bildirən *рука* tərkibidir. Rus dilində, eyni zamanda, *рука* sözünün *əl* anlayışı əsasında formalaşmış *рукоделие* (əl işi), *рукомойник* (əlüzyuyan), *рукопись* (əlyazma), *рукопожатие* (əl vermə), *рукопашня* (əlbəyaxa); *qol* anlayışı əsasında *рукоятка* (qulp), *рукоприкладство* (qol çəkmə, imza etmək), *рукастый* (uzunqol) kimi sözlər düzəlmişdir.

Fars dilində *əl* və *qol* anlayışı bildirən *dəst* sözündən *dəstək* (qulp), *dəstə* (bir ələ sığan bağlama), *dəstnəvis* (əlyazma), *dəst-duzi* (əl işi), *dəstdadən* (əl vermək) sözləri düzəlmişdir. İngilis dilində *əl* və *qol* mənası bildirən *hand* sözündən də eyni qayda üzrə *handl* (qulp), *handgrip* (əl vermək), *handeart* (əl arabası) kimi sözlər düzəlmişdir. Ərəb dilində *əl-qol* bildirən *əyd* sözündən *leyd* (əl işi), fransız dilində *mayn* sözündən *manivel*, ispan və italiyan dillərində *mano* sözündən *manivela* sözləri də düzəlmişdir.

Rus dilindəki *беременная* sözünün *ber* hissəsi fars dilində *yük, tay* mənası bildirir. Rus dilində *ber* (yük) sözü əsasında *беременная* (hamilə) sözü düzəldiyi kimi, fars dilində də *bar* sözündən *hamilə* mənasında *bardar* sözü düzəlmişdir. İngilis dilində isə hamilə mənasında *pregnant* sözü işlənir. Sözün köküdəki *pr* tərkibi *ber-bar- per* kökünün fleksiya olunmuş variantından ibarətdir. Azərbaycan dilində isə *bar-ber-per* köklərinin qarşılığı olan *yük* sözündən *yüklü* sözü düzəlməli idi. Ancaq ərəb mənşəli *hamilə* sözü Azərbaycan dilində həmin məna üzrə formalaşmış *yüklü* sözünün intensiv işlənməsinə maneçilik yaratmışdır. Onun əvəzinə bir də "*boğaz"* sözü düzəlmişdir ki, bu da insandan daha çox heyvana aid *hamilə* mənası bildirir. "Kitabi-Dədə Qorqud"da isə *hamilə* mənasındakı *yüklü* sözünün işlədilməsinə rast gəlmək olur:

Qatabanın mayasını
Yüklü qoydum, nər oldu
Qara ayıllı qoyunumu
Yüklü qoydum, qoç oldu
Ala gözlü halalımı
Yüklü qoydum aslan oldu
(KDQ, 113-114).
Dəvəlikdəki dişi dəvəmi

Boğaz qoydum, erkək doğdu, (O da)
Nər (erkək dəvə) oldu
Yataqdakı çoxlu qoyunumu
Boğaz qoydum, erkək doğdu (O da)
Qoç oldu.
Ala gözlü arvadımı hamilə qoydum,
Oğlan doğdu (o da) aslan (kimi) oldu.

Azərbaycan dilindəki *dəyirman* sözünün kökündə də başqa dillərlə müqayisədə motivasiya müştərəkliyini müşahidə etmək olur. *Dəyirman* sözünün kökündəki *dəy* tərkibini əzməklə bağlı *döymək* sözü ilə müqayisə etmək olar. *Dəni döymək, arpanı döymək, buğdanı döymək, taxılı döymək* ifadələri, əslində əzmək, xırdalamaq mənasında işlənir. *Dəyirman* sözünün kökündəki *dəy* tərkibi ilkin döyüb əzib xırdalamaq mənasını itirdiyi üçün onu eyni kökdən olan *döy* formatı ilə müqayisə etmək mümkündür. Rus dilindəki *dəyirman* mənasını bildirən *мельница* sözü ilə müqayisədə *dəy* kökünün əzib xırdalamaq mənasını daha aydın şəkildə müəyyənləşdirmək olur. *Мельница* sözündəki *мель* tərkibi rus dilindəki *молить* (xırdalamaq, xırda etmək), *мелкий* (xırda, kiçik, balaca), *мелко* (xırda, kiçik, balaca), *мелкность* (xırdalıq), *молотилька* (taxıl döyən), *молотить* (taxılı döymək), *молотый* (üyüdülmüş, döyülmüş), *молоть* (üyütmək), *размельчить* (xırdalamaq) sözlərinin tərkibində, məhz *döymək*, *əzmək*, *xırdalamaq* mənasını bildirir. Bu mənada dəyirman sözü ilə *melğniüa* sözlərinin kökləri arasındakı döymək, əzmək, xırdalamaq, üyütmək mənası bir-birinin üstünə düşür. İngilis dilində dəyirman mənası *mill* sözü ilə ifadə olunur. *Mill* sözünün xırda kiçik mənası *small* (xırdalamaq, xırda, kiçik) *mille* (darı, xırda dən) kimi sözlərdə də müşahidə edilir.

Azərbaycan dilindəki sinkretik kök morfemlərdən olan

qor kökünün bir mənası qorumaqla bağlıdır. *Qorumaq* sözünün motivi ətrafı bağlı olmaq anlayışından ibarətdir. Bu mənada rus dilindəki *огород* (bostan, dirrik) sözündə də ətrafı bağlılıq anlayışını müşahidə etmək olur. *Qor* tərkibinin (ətrafı) bağlılıq anlayışını rus dilindəki *qor* elementli *огорожи*вание (çəpərləmə, hasarlama), *огородить* (çəpərləmək, hasarlamaq), *огороженный* (çəpərlənmiş, hasarlanmış), *городить* (çəpərləmək, hasarlamaq), *перегородить* (arakəsmə ilə bölmək), *перегородка* (arakəsmə, bölmə), *отгорожи*вание (ayırmaq, arakəsmə etmək), *загородить* (hasarlamaq), *загорода* (çəpər, hasar), həmçinin, *граница* (sərhəd); *граничить* (həmsərhəd olmaq) kimi sözlərdə müşahidə etmək olur.

Rus dilindəki *город* sözünün mənası da ətrafı hasarlı, çəpərli, bağlı anlayışı üzrə formalaşmışdır. Müasir Azərbaycan dilində *город* mənası verən xüsusi milli sözümüz mövcud deyildir. Lakin mənbələrdə şəhər mənası bildirən *balık* və *ken*(kən) *kənd* sözlərinin işlənməsi qeydə alınmışdır: "Üç, otuz *balıq* sıdı" (Onlar iyirmi üç şəhəri dağıtdılar) (DTS, 80); "Beq kənddə qışladı" (Bəy qışı şəhərdə keçirdi; şəhərdə qışladı) (DTS, 290).

Şəhər mənasındakı *balıq* sözünün kökü *ba* hissəsindən ibarətdir. *Ba* hissəsi qədim dövr üçün səciyyəvi olan samit-sait quruluşlu köklər sırasına daxildir. *Ba* tərkibinin axırına aqlütinasiya mərhələsinin tələbinə görə affiksal səciyyəli *ğ* elementi qoşulmuşdur. Beləliklə, *ba* kökünün bağlılıqla əlaqədar olan mənası konkretləşmişdir. Şəhər mənasındakı *balık* sözü də *город* sözündə olduğu kimi bağlılıq anlayışı üzrə motivləşmişdir. Şəhər mənasındakı *balık* (balıq) sözünün izlərinə Türkiyədəki *Balıkesir* şəhər adında və Lənkəran rayonundakı *Balik* yaşayış məskəni adında rast gəlmək olur.

Kən və *kənd* tərkibləri Səmərqənd, Daşkənd, Çimkənd, Bilkənd, Balakən, Mərdəkan, Gəncə kimi toponimlik adlarda

saxlanılır. *Kən, kənd* tərkiblərinin özlərinin məna xüsusiyyətinə gəlincə onlarda da bağlılıq anlayışının izləri saxlanılır. *Balık* adındakı *ba* hissəsinin bağlılıq anlayışı bildirməsini nəzərə alaraq toponimlik adlardakı *kənd, kən* tərkiblərinin də bağlamaq motivasiyası üzrə formalaşdığını söyləmək mümkündür. Məsələn, *kəndir, örkən* kimi sözlərdə *kən* tərkibinin bağlılıq bildirməsi müşahidə olunur. *Kən* tərkibinin *kan* adekvatı rus dilində bağlılıq anlayışı bildirən aşağıdakı kimi sözlərdə işlənir: *аркан* (kəmənd), *арканить* (kəməndlə tutmaq), *канат* (yoğun ip), *кандалы* (buxov), *канатник* (çatıotu, kəndirotu) və s.

Rus dilində, hətta, kəndir bitkisinin adını bildirən *кендырь* fitoniminə də rast gəlmək olur.Ərəb dilində şəhər mənasında *bələd* sözü işlənir. Sözün *bəl* hissəsi Azərbaycan dilindəki *bələk*, *bəlgə* kimi sözlərdəki *bəl* tərkibi ilə mənaca adekvatlıq təşkil edir. *Bələk* və *bəlgə* sözlərində də ümumi anlayış bağlamaqla, bürüməklə əlaqədardır. *Bələk* sözü körpə uşağın büründürülməsi, *bəlgə* sözü isə həm paltarın və ya qalın parçanın qola dolanması və həm də oğlan evinin qız evinə bir nişanə aparıb onların adlarının bir-birinə bağlanması mənasında işlənir.

Beləliklə, ərəb dilində şəhər mənasındakı *bələd* sözündə də *bağlamaq*, *örtülü* olmaq motivi müşahidə olunur. Bir sözlə, müqayisə edilən şəhər mənalı bu sözlərin formalaşmasının motivində bağlılıq, örtülülük anlayışı dayanır.

Müasir Azərbaycan dilində işlənən fars mənşəli şəhər sözünün *şəh* tərkibi şah, padşah mənasındadır. *Şəhər* sözü də bu mənada şahın əyləndiyi yer, məmləkət anlayışı bildirir. Ümumilikdə, *şəhər* sözünün motivində oturmaq, yerləşmək anlayışı vardır. Rus dilində isə şahın, hökmdarın əyləşdiyi, oturduğu yer *столица* adlandırılmışdır. *Столица* sözünün kökündə fleksiyalaşmış (daxili saiti kənara çıxmış) *st* elementi iştirak edir. *St* elementlərini bütöv kök kimi şərti bərpa etdikdə **sit* forması alı-

nır. *Sit* formasının *sid* variantı isə *сидеть* (oturmaq, əyləşmək), *сидячий* (oturan, oturmuş) sözlərinin əvvəlində işləndikdə söz kökünün oturmaqla, əylənməklə, yerləşməklə bağlı vəziyyət anlayışı konkretləşir. *St* tərkibi, eyni zamanda, oturmaq üçün işlədilən *stul*, üzərində iş görmək üçün işlədilən *stol* sözlərinin əvvəlində də iştirak edir. *Столица* sözünün motivində bu mənada, ayaqları olan taxtda əyləşmək mənası durur. *Столица* sözünün bazasında düzəlmiş *стул* sözündə isə ayaqları olan və oturmaq üçün işlədilən əşya mənası bildirilir. Bütövlükdə *столица* sözü ayaq və oturmaq anlayışları üzrə motivləşmişdir.

Fars dilində *столица* sözünün qarşılığı kimi işlənən *paytaxt* sözü vardır. Bu söz Azərbaycan dilində ölkənin mərkəz şəhəri, hökmdarın, ölkə rəhbərinin oturduğu yer mənasında işlənmişdir. Bu cəhətdən *şəhər* və *paytaxt* sözləri arasında ilkin hökmdar oturan yer motivi mövcuddur. *Paytaxt* sözünün *pa* (y) hissəsi fars dilində ayaq mənası bildirir. *Pa* kökündən *payə* (paye) sözü düzəlmişdir ki, bu da stolun ayağı, mərtəbə və rütbə mənalarını daşıyır. Sözün ikinci hissəsi olan *taxt* isə çarpayı, kreslo mənasında əyləşmək və uzanmaq üçün işlədilən əşya adı bildirir. Bu mənada *столица* və *paytaxt* sözlərinin oxşar motiv əsasında formalaşdığı müəyyən olunur. İngilis dilində şəhər mənası *sity* sözü ilə ifadə olunur. Sözün kökündə oturmaq mənası bildirən *sit* tərkibi işlənir. İngilis dilində *sit* sözü ilə oturmaq mənalı aşağıdakı kimi vahidlər formalaşmışdır: *sit down* (oturan), *site* (məskunlaşma), *sitting* (iclas, iclasda oturanlar), *sitting room* (qonaq evi). Göründüyü kimi, *столица*, *paytaxt*, *city* və şəhər sözlərinin motivində ümumi bir *oturmaq, əyləşmək, yerləşmək* anlayışı ifadə olunur.

Müxtəlifsistemli dillərdə mövcud olan motivləşmiş sözlərə dair *qış* sözünü də nümunə götürmək olar. *Qış* anlayışı rus dilində *zima*, fars dilində isə *zimistan* (zemestan) sözləri ilə ifadə

olunur. Qışın motivi soyuqluqdur. Bu mənada ingilis dilindəki *winter* (qış) sözü *zima* və *zimistan* (zemestan) sözü ilə ümumi motivləşməyə daxil olmur. Lakin ingilis dilindəki *cold* (soyuq) sözü *qış*, *zima* və *zimistan* (zemestan) sözlərinin ümumi motivinə daxil olur. *Qış* sözü çuvaş dilində *xel* şəklində ifadə olunur. Bu mənada çuvaş dilindəki *xel* (soyuq, qış) sözü ingilis dilindəki *cold* (soyuq) sözü ilə həm quruluşca, həm də mənaca yaxınlaşır.

Azərbaycan dilində qışın soyuqluq motivi ilə bağlılığı *sim* (simləmək, soyuqdan xəstəliyə tutulmaq) sözündə ifadə olunur. Ümumi halda *sim, qış, zima, xel* sözlərinin soyuqluq (cold) anlayışı üzrə motivləşməsi müşahidə edilir. Müxtəlifsistemli dillərdə sözlərin motivləşmə bazasında formalaşmasına dair nümunələr, əlbəttə ki, burada təhlil edilənlərdən qat-qat çoxdur. Motivləşmiş sözlərin təhlilindən də göründüyü kimi, bütün sözlərin heç də hamısı quruluş və məna üzrə bir-birinin üstünə düşmür. Motivləşmiş sözlərin mövcudluğu da onu göstərir ki, dillərdə ayrı-ayrı quruluş üzrə yaranmış sözlərin bir qisminin kökündə oxşar anlayışlar durur. Oxşar motivlərin mövcudluğu insan və təbiət əlaqələrinin idrak prosesində oxşar imitasiyalara çevrilməsinin nəticəsidir. Oxşar imitasiyalar isə motivasiya cəhətdən uyğun gələn vahidlərin formalaşmasına səbəb olur. Bütövlükdə isə müxtəlifsistemli dillərdə özünəməxsus müştərək elementlərin baş verməsi "ulu dilin" mövcudluğu ilə deyil, geniş mənada, təfəkkür tipologiyasına məxsus universaliyaların meydana çıxardığı sözyaratma prosesinin bir nümunəsi kimi qiymətləndirilə bilər.

Nəticə

1. Müxtəlifsistemli dillərdə genetik müştərəklik biristiqamətli deyildir. Genetik müştərəklik həm təkhecalı tərkibdəki, həm fleksiyalaşmış variantdakı və həm də kök - şəkilçi vəhdətindəki vahidlərdə müşahidə olunur. Bununla yanaşı, müxtəlifsistemli dillərdə, həmçinin, samitlərin şaquli istiqmətdəki keçidləri üzrə formalaşan paralel müştərəklik və motivasiya əsasında yaranmış oxşarlıq nümunələri mövcuddur. Dillərin tipoloji quruluşunun öyrənilməsi məsələləri dərinləşdikcə hətta, əlavə müştərəklik nümunələrinin də müəyyənləşdirilə biləcəyi istisna deyildir.

2. Müxtəlifsistemli dillərdə genetik müştərəklik məsələləri araşdırıldıqca ortaya çıxarılan nümunələrin arasında tipoloji fərqlər üzrə məhdudiyyət qoymaq mümkün olmur. Çünki ən qədim dövrlərdə dillərin formalaşması nitq səslərinin üzvlənməsi və təkamülü əsasında ilkin birhecalı köklərin yaranması prosesinin içərisindən keçir. Buna görə də indiki dillərin köksözlülüyündən, aqlütinativliyindən, analitik-flektivliyindən və ya polisintetik (inkorporlaşan) quruluşundan asılı olmayaraq genetik köklər arasında quruluş və anlayış üzrə müştərəkliklər müşahidə edilir. Bu o deməkdir ki, ayrı-ayrı ərazilərdə məskunlaşmış insanların dillərinin bünövrəsi təkhecalılıqdan başlamış, sonrakı mərhələlərdə isə dillərin ictimai, sosial, siyasi, iqtisadi resurslar məkanı onların formalaşma istiqamətlərində divergensiya baş verməsinə səbəb olmuşdur. Nəticədə dillər bir-birindən fərqlənməyə başlamış, xüsusiləşmiş və yazıdan sonrakı prosesdə hər bir dil üçün özünəməxsus icbari normalar tətbiq edilməyə başlamışdır.

3. Tipoloji cəhətdən fərqlənən dillərdə oxşar və müştərək əlamətlərin mövcudluğu onların hamısının bütövlükdə eyni

mənşədən, bir "ulu kök dildən" törəməsinə dəlalət eləmir. Çünki heç cür belə bir iddiaya bəraət qazandırmaq mümkün deyildir ki, dil haradasa böyük yer kürəsinin bir nöqtəsində yaranıb və oradan da zaman-zaman insanların geniş ərazilər boyunca yayılması baş verib. O iddianı da əsaslandırmağa kifayət qədər dəlil tapmaq mümkün deyildir ki, genetik müştərəkliyin səbəbi (və ya səbəblərindən biri) dillərin tarixi çarpazlaşması, kontaktı və miqrasiyaların baş verməsinin nəticəsidir. Söhbət ibtidai dildən gedirsə ibtidai insan barədə düşünmək lazım gəlir. Əgər dil ibtidai formada səslərdən, imitasiyalardan, çağırış elementlərindən və nəhayət birhecalı köklərdən ibarət olmuşsa bu o deməkdir ki, ilkin insan təfəkkürünün özü ibtidai şəkildə mövcud olmuşdur. Bu halda, ibtidai insan hansı üsulla, hansı texniki vasitələrdən istifadə edə-edə keçilməz dağları, meşələri, çölləri, səhraları dolaşıb dünya üzünə yayıla bilərdi və ya dənizlərdəki, okeanlardakı ağlagəlməz münbit şəraiti olan adalarda yerləşə bilərdi? Bunlar ibtidai insanların təbiəti dərketmə səviyyəsi ilə uyğunlaşa bilməyən reallıqlardır. Ancaq arxtarıldıqda, tədqiq olunduqda təsəvvürə gəlməyən yerlərdə yaşayan və həm də qəbilə-tayfa ənənələrini yaşadan insanların dilləri ilə, o cümlədən ölüb getmiş dillərin elementləri ilə müasir dillər arasında genetik müştərəkliklərin mövcudluğunu təsdiq etmək çətinlik törətməz. Məsələ bundadır ki, mövcud nəzəriyyələrin hər birində dillərin yaranması ilə bağlı pozitiv fikirlər olsa da onların heç birində müştərək elementlərin mövcudluğunun səbəblərini tam şəkildə izah edə biləcək arqumentlər tapıla bilmir.

4. Dillərin necə yaranması məsələsinin şərhi əlbəttə ki, asanlıqla həll edilə bilməyən bir sahə olduğundan indiyədək bu barədə bir-birindən fərqli fərziyyə və mülahizələr irəli sürülmüşdür. Dillərin yaranması məsələsi birbaşa insanın özünün necə yaranması ilə bağlıdır. Bu mənada, əlbəttə ki, insanın necə ya-

ranması ilə bağlı suala tam cavab tapıla biləcəyinə əminlik ifadə etmək mümkün deyildir. Ona qalanda başqa suallar da ortaya çıxır: dənizlərin, okeanların suyu haradan gəlib? Dağlar-daşlar, səhralar necə yaranıb? Yerin bitki örtüyü necə yaranıb? Yeraltı sərvətlər yerin dərin qatlarında necə yetişib? Bu sualların cavabı necə çətindirsə dilin də necə, harada yaranması barədəki suallara cavab vermək də o qədər çətindir. Bununla belə, insan təbiətin ayrılmaz bir tərkib hissəsi kimi qəbul edilirsə dilin yaranmasına da insan və təbiət arasındakı əlaqələrin nəticəsi kimi baxmaq məqsədəuyğun hesab edilməlidir. Məhz dillərin arasındakı genetik müştərəklik məsələsinə də bu baxımdan yanaşılması müəyyən pozitiv nəticələr əldə olunmasına imkan yarada bilər.

5. Dillərin yaranmasına təsir göstərən insan və təbiət əlaqələrinin təməlində, əlbəttə ki, şüurun, idrak prosesinin və buradan təfəkkürə keçidin durduğu inkar edilə bilməz. Çünki təbiətin dərki olmasa, təbiətin bir ünsürü kimi insanın özünün özünü dərki olmasa təfəkkür prosesinin formalaşmsından söhbət açmaq mümkün deyildir. Təfəkkürün fəaliyyəti isə nitqin formalaşmasına aparıb çıxarır. Ona görə də belə bir fikrə tam haqq qazandırıla bilər ki, "təfəkkürsüz dil yoxdur". Bunun əksi isə, "dilsiz təfəkkür yoxdur" deyiminə gətirib çıxarır. Bu hm də o deməkdir ki, təfəkkür nə səviyyədədirsə, dil də o səviyyədədir; Füzuli də deyir ki, "Kim nə miqdar olsa əhlin eylər ol miqdar söz". Dil həm səsli (danışıq) həm də səssiz (daxili) formada mövcuddur. Daxili (səssiz) dilin təfəkkürlə əlaqəsi səsli (danışıq) dilin formalaşmasına gətirib çıxarır. İnsanın yaranışında onu başqa canlılardan fərqləndirən təfəkkürə keçidli şüur informasiya dilinin formalaşmasının əsas amilinə çevrilir. Təfəkkürə keçidli şüur vasitəsi ilə insanlar harada, hansı ərazidə, hansı məkanda yaşamasından asılı olmayaraq ətraf aləmi və özü özünü oxşar təfəkkür imitasiyaları ilə dərk edə bilir. Fərq ancaq ətraf aləmin hər

yerdə eyni olmamasından və insan mühitinin fərdi cəhətlərindən ibarət ola bilər. Oxşar imitasiyalar isə təfəkkür tipologiyasında müştərək dil vahidlərinin formalaşmasına gətirib çıxarır. Dillərin ilkin mərhələsində birhecalı şəkildə formalaşan elementlərdə belə oxşarlıqlar daha çox ola bilərdi. Ancaq bu o demək deyildir ki, bütün ilkin köklər arasında ulu dil nəzəriyyəsində iddia edildiyi kimi tam bir müştərəklik olmuşdur. Müştərəklik ancaq oxşar imitasiyalarla yaranmış müəyyən qrup sözlər arasında baş verə bilərdi ki, onların mövcudluğu da müqayisəli tədqiqatlarda təsdiq olunur. Sonrakı kök-şəkilçi tərkibli sözlərdə müşahidə olunan müştərəklik isə birhecalılığın izlərinin yaşadılması və ənənəvi davamı kimi qalır. Paralel müştərəkliklər, artıq dillərin diferensiallaşması mərhələsinin məhsulu kimi nəzərə alına bilər. Motivasiya müştərəkliyi də dillərin diferensiallaşması mərhələsinin məhsulu kimi formalaşır. Ancaq belə sözlər eyni tərzdə qavranılmış əşya və hadisələrin təfəkkür tipologiyasında ümumi anlayış təsəvvürü yaratmasının nəticəsində formalaşır. Belə ki, sözlər eyni motiv bazasında ancaq bir-birindən fərqli quruluşda ifadə olunur.

Təfəkkür tipologiyası müxtəlifsistemli dillərin müştərəkliyinin təməlidir. Təfəkkür tipologiyası insanların hansı məkanda yaşamasından asılıl olmayaraq insan və təbiət hadisələri arasında oxşar əlaqələri formalaşdırır. Bunun sayəsində də dillərarası müştərəkliklər meydana gəlir. Lakin insanlar bir-birindən fərqli məkanlarda meydana gəlib məskunlaşdığından təfəkkür tipologiyası onların dilləri arasında tam bərabər elementlərin formalaşdırılmasını təmin edə bilmir. İnsan cəmiyyətlərində onların təbiətlə əlaqəsinin səviyyəsi tam eyni olmadığı üçün bütün sözlər də eyni vaxtda, eyni tərzdə formalaşa bilmir. Çünki dil təbiətdən yaranır, cəmiyyətdə formalaşır. Odur ki, dillərarası müştərəklik elementləri nə qədərdirsə müştərək olmayan elementlər

onlardan qat-qat və dəfələrlə artıqdır. Müxtəlifsistemli dillərin ən qədim mərhələlərində oxşar quruluşların (birhecalılıq, flektivlik, aqlütinativlik) özlərinin arasındakı keçidlərin mövcudluğu ilkin dövrdə dil elementlərinin oxşar proseslərin içərisindən törəndiyini söyləməyə əsas verir. Sonrakı mərhələlərdə isə dillərarası diferensiyalar çoxalmış və fərqləndirici elementlər daim artmağa doğru getmişdir. Yazılı dövrdə yazı prosesi hər bir dilin normasını saxlamaqla onda fərqlənmələrin artmasını dayandırsa da yazısız dillərdə fərqlər çoxalmaqda davam etmişdir. Nəticədə, hətta, bir dilin daxilində çoxlu dialekt fərqlənmələri meydana çıxmışdır. Bütün bunlara baxmayaraq tipoloji tədqiqatların şəbəkəsini genişləndirməklə dillərarası müştərəkliyə dair bir çox faktların və nümunələrin ortaya çıxarılmasına nail olmaq mümkündür. Təfffəkkür tipologiyası təkcə dillərarası müştərək elementlərin formalaşmasına təsir göstərməklə məhdudlaşmır. Təfəkkür tipologiyası, eyni zamanda insanların yaşayış məskənlərindən asılı olmayaraq oxşar imitasiyalar əsasında onları əhatə edən ətraf hadisələrə uyğun qaydada oxşar təsəvvürlərdə xeyirxah və bədxah mifik obrazların yaradılmasına səbəb olmuşdur. Məsələn, xeyirxah anlayışlarla bağlı Simurq quşu, Zümrüd quşu, Göyərçi, Mələk kimi bədxah anlayışlarla bağlı div, əjdaha, cin, şeytan obrazları yaranmışdır. Sonrakı vaxtlarda isə bu obrazlar Qərb ədəbiyyatında Herakl kimi Amazonlar kimi, Prometey kimi yarı mifik şəxsiyyətlərlə əvəz olunmuşdur. Azərbaycanda isə Dədə Qorqud, Koroğlu kimi real şəxsiyyət obrazları yaranmışdır ki, onlarda da mifik təsəvvürün müəyyən elementləri saxlanmışdır.

Təfəkkür tipologiyası haqqında mülahizələr dillərarası müştərəkliyin mövcudluğu barədəki nəzəri fikirlərdən biridir. Ancaq əlbəttə ki, bu son nəticə deyildir. Dilçiliyə dair, dillərin tipologiyasına dair axtarışlar davam etdikcə daha yeni nəzəri baxışla-

rın ortaya çıxacağına istisna kimi yanaşmaq olmaz. Əksinə yeni tədqiqatlar, yeni nəzəri fikirlər dillərin mənşəyi barədəki mülahizələrin daha etibarlı arqumentlərlə əsaslandırılmasına ciddi təminat verə biləcəkdir.

Резюме
Лингвистическая типология (Межъязыковая общность и типология мышления)

Исследователи, занимающиеся изучением этимологии родственных языков, выявили генетические сходства этих языков. С распространением сети сходств были установлены ареалы родственных языков.

Установление ареалов языков создало условие для изучения структурных различий между этими ареалами. Сравнительно-исторический метод, применяемый при установении генетических сходств языков, одновременно создал интерес к изучению неродственных языков. Вследствие проведенных в этой области исследований, стало известно, что даже между неродственными языками существуют некоторые сходства. Существование сходных между неродственными языками элементов стало основой возникновения языков и выявления некоторых теорий и гипотез, связанных с их этимологией.

Разносистемные языки с генетической точки зрения понимаются как неродственные языки. Несмотря на существование разносистемных языков в разных регионах мира, выявляются много схожих в корне и с точки зрения мотивации элементов. Например, можно сказать, что между китайским, японским, английским, персидским, и даже между языками американских индейцев и африканских племен можно выявить много сходств с тюркскими языками.

В теории “Праязык” претендуется на такую идею, будто в древности на Земле существовал лишь один корневой

язык (протоязык). Спустя много веков в результате распространения миграции и скрещивания появились многие "ветви" корневого языка. Временами между появившимися новыми языками возникали большие различия и продолжались формироваться языки, отдаленные от корневого языка. В этой гипотезе не хватает достоверных аргументов о возникновении языков.

Надо учитывать, что язык, как составная часть природы, принадлежит человеку. Возникновение языка оказывается поэтому одновременно и процессом познания объективного мира, т,е. процессом становления сознания. Таким образом возникновение языка неразрывно связано с возникновением человека и человеческого общества. Лишь благодаря мышлению формируется язык. Нет языка без мышления.

Можно представить, что среда, формирующая человека, создавала благоприятные условия для жизни человека. Проходили времена, росли люди и языки, но сохранялись начальные схожие эелементы языков на разных территориях мира.

Отсюда можно сделать такой вывод, что межъязыковую общность нельзя искать в "праязыке". Такая попытка не дала по сей день никакого результата в проведенных исследованиях.

Resume
Linguistic tupology (Similiarities among languages and typology of thinking)

The researchers dealing with the origin of ancient languages succeeded in revealing the genetic similarities of these languages. While the similarity network was expanding, the areas of kindred languages ave been determined. The determination of language areas offers all necessary facilities for the study of structural differences from time occurring among these areas. There is a great interest for the study of unrelated languages in the base of applied histocal-comparative method for identifying genetic similarity of languages. As a result of conducted researches it has been clear that in spite of having distance among the populated areas, there are several similar elements among unrelated languages. The composition of world language families has been determined by investigating similarities of unrelated languages. The existence of similar elements among unrelated languages became the reason of theories and hypothesis on the formation and etymology of languages.

The concept of different systems of languages is understood in the meaning of unrelated languages from genetic point of view. Although the languages of different süstems exist in separate parts of world, one can reveal similar elements among them from the point of their root and motivation. For example, i tis possible to find similarity elements between Chinese, Japanese, English, Persian, the language of American Hindus and even the language of African trades and Turkic languages. At the theory of “ncient language” on the emergence of languages was clai-

med that in the ancient period there existed a "root language" on the emergence of languages was claimed that in the ancient period there exised a "root language (proto language)" in the world, then as a result of various expansions, migrations and crossings, different «branches» of that root language had been formed. As the time passed, the differentiation between separated languages took place and some languages which are far from the initial language continued to be formalized. On this hypothesis believable arguments are not enough grounded the composite process about the formation of languages. İt has to be taken into account that language belongs to human being-a component part of nature. That is why i tis more reasonable to find out the emergence of a language in coherence between human and nature. Human being unlike animals is bron consciously capable of passing to cognitive process. So it is impossible to consider primitive consciousness as a. Consciousness can establisth a base when it becomes the cognitive process. Human perceives environment and himself with the help of his own cognitive process, transforms perceptions into thinking. Only owing to cognition, language can be developed. Withoud thinking there is no language. The response of where the first person had appeared is known to nobody. But it can be imagined that human generating environment consisted of suitable locations for its accommodation provision. These kinds of locations are not limited in the world. Coming to the emergence of the language, it is possible to say that, human generating at a suitable location of the world have developed similar language elements regardless of each other perceiving environment and himself on the basi sof similar thinking typology. As time passed, people and languages increased, but the traces of primary similar elements maintained in the languages of different areas.

Coming to a conclusion, it is nonsense to search the existenco of linguistic combination at any indefinite "ancient language". This effort has not been fruitful in the previous researches. That is why the reasons of linguistic combination are to be found in the relations of cognitive typology between human and nature.

Mündəricat

Sözönü 3

Birinci bölmə

Dünya dillərinin yaranması quruluşu və tədqiqinə dair xülasələr. 7
Dünya dillərinin yaranması barədəki fikirlərin xülasəsi 7
Dünya dillərinin genealogiyası 40
Dünya dillərinin tipologiyası 58
Əsas dilçilk məktəbləri 67
Dillərin tədqiqat üsulları 79

İkinci bölmə

Genetik köklər 87
Genetik köklər və onların fonomorfoloji tərkibi 87
Genetik köklərdə məna diferensiallaşması 96
Fonetik sözyaradıcılığı 102

Üçüncü bölmə

Dillərarası müştərəklik 125
Təkhecalı köklərdə dillərarası müştərəklik 125
Fileksiyalaşmış köklərdə dillərarası müştərəklik 140
Kök şəkilçi tərçibli sözlərdə dilarası paralel müştərəklik 147

Dillərarası paralel müştərəklik 159
Dillərarası motivasiya müştərəkliyi. 163
Nəticə 171
Резюме. Лингвистическая типология
(Межъязыковая общность и типология
мышления) 177
Resume. Linguistic tupology (Similiarities
among languages and typology of thinking) 179

«Elm və Təhsil» mətbəəsinin direktoru:
professor Nadir MƏMMƏDLİ

Dizayn: Zahid Məmmədov
Texniki tərtibatçı: Tünzalə Tağıyeva

Çapa imzalanmış 05.05.2017.
Şərti çap vərəqi 11,5. Sifariş № 489.
Kağız formatı 60x84 1/16. Tiraj 300.

Kitab «Elm və təhsil» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.